# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YETMİŞ DÖRDÜNCÜ KİTAB

## MAY 2016 - İYUL 2016

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Bakıda keçirilən XXIII Beynəlxalq «Xəzər Neft və Qaz – 2016» sərgi və konfransında, Azərbaycan–Almaniya İqtisadi Forumunda, Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında giriş və yekun nitqi, həmçinin Varşavada keçirilən NATO Sammitində iştirakına dair materiallar toplanmışdır.

Kitabda dövlət başçısının Türkiyə Respublikasına, Almaniya Federativ Respublikasına, Rusiya Federasiyası və Polşa Respublikasına səfərləri, Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın, Rusiya Federasiyası Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipovun Azərbaycana səfərləri zamanı görüşləri, həmçinin ölkəmizə gələn digər xarici dövlət və hökumət rəhbərləri, siyasi və mədəniyyət xadimləri, nümayəndə heyətləri ilə söhbətləri, nitq və çıxışları, müraciət və məktubları, bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, səfər etdiyi bölgələrdə bir sıra sənaye müəssisələrinin açılışında və ictimaiyyətin nümayəndələri ilə görüşlərində çıxışları, tövsiyələri geniş yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

## TƏMAS XƏTTİNDƏ YERLƏŞƏN TƏRTƏR, AĞDAM VƏ BƏRDƏ RAYONLARINA SƏFƏR

*1 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 1-də Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında olmuşlar.*

*Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əvvəlcə Tərtər rayonundakı «N» saylı hərbi hissəyə gəldi.*

*Müdafiə naziri Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev hərbi hissənin qərargahı ilə tanış oldu.*

*Müdafiə naziri Zakir Həsənov təmas xəttindəki son vəziyyət barədə Ali Baş Komandan İlham Əliyevə məlumat verdi.*

*Hərbi hissənin kazarması müasir standartlara cavab verir. Kazarmada əsgərlərin hərbi bilik və bacarıqlarını daha da artırmaları üçün müvafiq şərait formalaşdırılıb. Yataq otaqları hərtərəfli təchizatı ilə diqqəti çəkir.*

*Dövlətimizin başçısı hərbi hissənin yeməkxanası ilə də tanış oldu. Yeməkxana ən müasir avadanlıqlarla təchiz edilib. Burada hərbçilərin dolğun qidalanmaları üçün hər cür şərait yaradılıb.*

*Hərbi hissə ilə tanışlıqdan sonra Ali Baş Komandan şəxsi heyətlə görüşdü.*

**İlham Əliyev:** Ordu quruculuğu siyasətimizin prioritetidir. Bu təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. 1994-cü ildən atəşkəs rejimi qüvvədədir. Ancaq buna baxmayaraq, Ermənistan atəşkəs rejimini daim kobudcasına pozur. Xüsusilə görəndə ki, onlara qarşı münaqişə ilə bağlı beynəlxalq təzyiq artır, onlar atəşkəsi daha çox pozurlar və müxtəlif silahlı təxribatlara əl atırlar.

Beynəlxalq ictimaiyyət münaqişə ilə bağlı artıq tam məlumatlıdır. Biz bu illər ərzində bütün dünyaya sübut edə bilmişik ki, zərərçəkən tərəf bizik. Ermənistan işğalçı dövlətdir, Azərbaycan xalqına qarşı soyqırımı törədib, torpaqlarımızı işğal edib və bu işğalı davam etdirir. Bu məsələ ilə məşğul olan Minsk qrupunun həmsədrləri də son vaxtlar dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və dəyişməlidir.

Bu nə deməkdir? O deməkdir ki, işğala son qoyulmalıdır. Bu birbaşa Ermənistana ünvanlanan siqnaldır. Eyni zamanda, görəndə ki, Azərbaycan dünya miqyasında daha da çox dəstək qazanır, onlar danışıqları pozmaq və işğalçı siyasəti davam etdirmək üçün vaxtaşırı silahlı təxribatlara əl atırlar. Biz bunu yaxın keçmişdə görmüşük. Xüsusilə 2014-cü ilin yay aylarında bizim mövqelərimizə hücum çəkmişlər. O vaxt da bizim ordumuz layiqli cavab verdi. Həmin ilin noyabrında danışıqlarda müəyyən ümidlər yaranandan sonra Ağdam rayonunda onların özlərinin verdiyi məlumata görə, 47 min nəfərlik şəxsi heyətlə genişmiqyaslı təlimlər keçirmişlər. Bu, sırf təxribat xarakterli bir addım idi. Azərbaycan tərəfi bir neçə gün özünü çox təmkinlə apardı. Ancaq ondan sonra Ermənistanın 2 hərbi helikopteri bizim mövqelərimizə hücum çəkdi. Azərbaycan Ordusu da onların birini məhv etdi. Bundan istifadə edən Ermənistan bizi günahlandırdı və danışıqlar prosesində yenə də durğunluq yarandı. Bu hadisəni bəhanə gətirərək, bizi ittiham etməyə başladılar ki, Azərbaycan atəşkəsi pozur. Məqsəd də aydın idi ki, yenə də danışıqlar aparılmasın, işğalçı siyasət yenə də davam etdirilsin.

Bu ilin əvvəlindən danışıqlar prosesində müəyyən irəliləyiş müşahidə olunur. Bizdə olan məlumata görə, həmsədr ölkələr tərəfindən Ermənistana ciddi təzyiqlər göstərilir. Düzdür, onlar bunu açıq şəkildə bəyan etmirlər. Onlar həmişə çalışırlar ki, balans saxlasınlar. Amma həqiqət ondan ibarətdir ki, bu gün münaqişənin sülh yolu ilə həllini əngəlləyən tərəf Ermənistandır. Bunu görərkən, əlbəttə ki, onlar növbəti təxribatlara əl atmağa qərar verdilər. Bu da aprelin əvvəlində baş

verdi. Yenə də onlar silahlı təxribat törətmiş, bizim mövqelərimizə hücum çəkmişlər. Azərbaycan Ordusu böyük məharətlə və peşəkarlıqla əks-hücum əməliyyatı keçirdi, düşməni yerinə oturtdu və təmas xəttində bizim mövqelərimiz daha da möhkəmləndi.

Ermənistan tərəfinin xahişi və həmsədr ölkələrin tövsiyəsi ilə aprelin 5-də biz razılıq verdik ki, atəşkəs bərpa edilsin. Biz müharibə istəmirik. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq həll olunsun. Sadəcə olaraq, görüntü naminə danışıqların aparılmasının heç bir mənası yoxdur. Beləliklə, aprelin 5-də razılığa gəlindi ki, atəşkəs rejimi bərpa edilməlidir. Biz buna əməl etdik, bu gün də əməl edirik. Ancaq əfsuslar olsun, Ermənistan yenə də özünü qeyri-səmimi aparır və aprelin 5-dən bu günə qədər elə gün olmur ki, atəşkəsi pozmasın. İlk günlərdə çalışırdı ki, bizim mövqelərimizə hücum çəksin, bizi əldə etdiyimiz o mövqelərdən çıxarsın. Görəndə ki, bu alınmır, Azərbaycan əsgəri, zabiti öz doğma torpağında möhkəm dayanır, mülki əhaliyə qarşı silahlı təxribatlara başladılar. Bizim kəndlərimiz atəşə tutulub. Mülki şəxslər həlak olub, yaralanıb. Bizim 500-dən çox evimizə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb, yaxud da ki, yandırılıb. Bax, budur erməni faşizminin eybəcər sifəti. Onlar birinci Qarabağ müharibəsində də belə hərəkətlər ediblər, Azərbaycan xalqına qarşı Xocalı soyqırımını törədiblər. Bu gün də döyüş meydanında görəndə ki, gücləri çatmır, dinc əhalini hədəfə götürüblər.

Azərbaycan dövləti, Azərbaycan Ordusu heç vaxt mülki əhali ilə müharibə aparmayıb və aparmır. Biz sadəcə olaraq, düşmənin atəş mövqelərini bizə açılan atəş zamanı böyük ustalıqla məhv edirik. Ancaq eyni zamanda, Azərbaycan Ordusu öz vətəndaşlarını qorumalıdır, qoruyur və qoruyacaq! Münaqişənin həlli Ermənistan dövlətinə də imkan verəcək ki, onlar da müstəqil dövlət qura bilsin. Mən yenə də ümid edirəm ki, onların işğalçı siyasəti sona çatacaq. Çünki bunun başqa yolu yoxdur. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və son hadisələr bunu bir daha göstərdi. Bizə

qarşı edilən silahlı təxribat cavabsız qalmadı. Bunu hamı bilir. Ermənistan rəhbərliyi nə qədər tez anlasa ki, onlar Azərbaycan ilə ancaq sülh şəraitində inkişaf edə bilərlər, münaqişəyə bir o qədər tez son qoyular.

Münaqişənin həlli isə beynəlxalq hüququn norma və prinsipləri əsasında olmalıdır. Bütün beynəlxalq təşkilatlar – BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, «Qoşulmama Hərəkatı» və digər təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Heç bir beynəlxalq təşkilat Ermənistanın işğalçı siyasətini dəstəkləmir. Dünyada heç bir ölkə Azərbaycanın ərazi bütövlüyünü şübhə altına almır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. İşğal edilmiş Dağlıq Qarabağ və digər torpaqlar bizim tarixi torpaqlarımızdır. Azərbaycan vətəndaşları o torpaqlarda yaşamalıdır və yaşayacaqlar.

Bir daha demək istəyirəm, biz çalışacağıq ki, Ermənistanı danışıqlar vasitəsilə düzgün yola gətirək. Diplomatik, siyasi, iqtisadi təzyiqlərimizi artıracağıq, təmas xəttində mövqelərimizi gücləndirəcəyik. Əgər bizə qarşı növbəti erməni silahlı təxribatı törədilərsə, yenə də lazımlı, tutarlı cavab veriləcək və nəticə də eyni olacaq. Çünki bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmlənmişdir, artmışdır. Ən müasir silah, texnika alınır və bu gün Azərbaycan Ordusu maddi təchizat baxımından da güclü ordular sırasındadır. Orduda nizam-intizam yüksək səviyyədədir. Döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Aprel döyüşləri bunu göstərdi. Ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərimizin, zabitlərimizin mənəvi-psixoloji durumu çox müsbətdir. Nəinki orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi çox yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib. Bizim üçün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən vacib məsələ yoxdur. Bu, ən birinci məsələdir. Biz bu məsələni həll etməliyik və edəcəyik.

Mən həmişə orduda xidmət edənlərə böyük hörmətlə yanaşmışam. Ordu quruculuğu üçün nə lazımdırsa, o da olacaq. Ən böyük xərclər hərbi xərclərdir. Artıq neçə ildir ki, bu belədir. Bəzən müxtəlif ölkələrdən olan ermənipərəst siyasətçilər məni günahlandırırdılar ki, nə üçün Azərbaycanda hərbi büdcə getdikcə artır? Ona görə ki, biz işğala məruz qalmışıq. Əgər bu işğal olmasaydı, əlbəttə ki, buna ehtiyac olmazdı. Ancaq həyat göstərdi ki, biz nə qədər haqlıyıq. Əgər bizdə güclü hərbi imkanlar olmasaydı, bu gün təmas xəttində vəziyyət fərqli ola bilərdi. Həm döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizat, silah, texnikanın alınması, həm vətənpərvərlik ruhu, həm hərbçilərimizin peşəkarlığı, məharəti, aprel döyüşlərində göstərdikləri şücaət və qəhrəmanlıq bizim böyük sərvətimizdir.

Siz bu gün burada düşmənlə üz-üzə xidmət edirsiniz. Torpaqlarımızı, vətəndaşlarımızı müdafiə edirsiniz. Bu, böyük, şərəfli missiyadır.

Sizi bütün uğurlar münasibətilə ürəkdən təbrik edirəm. Yeni uğurlar arzulayıram. Bundan sonra da Vətənə həmişə bağlı olun, Vətəni sevin, torpağımızı qoruyun, vətəndaşları müdafiə edin. Eşq olsun Azərbaycan Ordusuna!

**Zakir Həsənov** (*Müdafiə naziri*): Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Bütün şəxsi heyət adından Sizə dərin minnətdarlığımızı bildiririk. Silahlı Qüvvələrə yüksək qayğı göstərirsiniz.

Cənab Ali Baş Komandan, Sizin diqqət və qayğınız nəticəsində bu gün Silahlı Qüvvələr silah və texnika ilə tam şəkildə, yüksək səviyyədə təmin edilib, sosial məsələlər həll olunub. Göstərilən qayğını, etimadı doğrultmaq üçün şəxsi heyət daim döyüş hazırlığı səviyyəsini yüksəldir və möhkəmlənir.

Möhtərəm cənab Prezident, Sizi əmin edirəm ki, Silahlı Qüvvələrin şəxsi heyəti bütün əmrlərinizi qısa müddətdə yerinə yetirməyə hazırdır və qadirdir. Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Təmas xəttində erməni silahlı təxribatından sonra yeni vəziyyət yaranıb. Bu gün mənə məruzə edildi. Bu vəziyyət əvvəlki vəziyyətdən fərqlidir. Bir daha onu göstərir ki, biz təmas xəttində üstünlüyü tam əldə etmişik. Əlbəttə, biz bundan sonra çalışacağıq ki, təmas xəttində mövqelərimizi daha da möhkəmləndirək. Buna nail olmaq üçün bütün lazımi tədbirlər görülür. Hesab edirəm, qarşı tərəf də artıq anlayıb ki, silahlı yolla hansısa maraqları təmin etmək üçün heç bir əsas yoxdur. Bütün səylər əbəsdir. Sadəcə, bölgədə sülhün bərqərar olması üçün işğala son qoyulmalıdır. Əminəm ki, belə də olacaq.

* * *

*Sonra Ali Baş Komandan təmas xəttində Ermənistan ordusunun törətdiyi təxribatların qarşısını alarkən, şücaət göstərmiş döyüşçülərə hədiyyələr təqdim etdi.*

## İşğalçı Ermənistan ordusu tərəfindən iriçaplı silahlar və artilleriya qurğularından açılmış atəş nəticəsində mayın 1-də Tərtər şəhərinin Fikrət Əmirov küçəsində dağılmış evlərə baxış

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 1-də Tərtər şəhərinin Fikrət Əmirov küçəsində aprelin 27-dən 28-nə keçən gecə işğalçı Ermənistan ordusu tərəfindən iriçaplı silahlar və artilleriya qurğularından açılmış atəş nəticəsində dağılmış evlərə baxmışlar.*

*Tərtər sakini Mübariz Həsənovun evi də düşmən tərəfindən yararsız vəziyyətə salınıb. Dövlətimizin başçısına məlumat verildi ki, ermənilərin törətdiyi vəhşiliklər nəticəsində Tərtərin yaşayış məntəqələrində 256 evə, 4 məktəbə, 2 hakim məntəqəsinə, 1 uşaq bağçasına ziyan dəyib, 32 ev tamamilə dağıdılıb.*

**M ü b a r i z  H ə s ə n o v** *(ev sahibi):* Aprelin 27-dən 28-nə keçən gecə saat 2 radələrində birinci mərmi 6 saylı məktəbin həyətinə düşdü. Həmin vaxt mən evdə idim. Mən barının arxasına keçdim ki,

qəlpə dəyməsin. Sonra gördüm ki, qumbara düşdü. Mən yola çıxdım, ondan sonra da ikinci mərmi bizim evə düşdü.

**İlham Əliyev:** Bütün lazımi tədbirlər görülür, hamısı gərək aktlaşdırılsın, sənədləşdirilsin, evin şəkli, videosu çəkilsin, dəymiş ziyan müəyyənləşdirilsin. Sonra biz onları məhkəməyə verəcəyik. Azərbaycan dövləti kömək edəcək, vəsait ayıracağıq. Bütün bu evlər bərpa olunmalıdır.

*Xasay İbrahimova məxsus ev də erməni silahlı birləşmələrinin iriçaplı silahlardan, «Qrad» qurğusu, top və tanklardan istifadə etməklə açdıqları atəşlər nəticəsində dağıdılıb.*

**İlham Əliyev:** Bütün evlər bərpa olunacaq. İndi icra hakimiyyətinin nəyə gücü çatırsa etsin, çatmırsa, onda hökumətdən vəsait ayrılacaq. Aktlaşmadan sonra biz dərhal işə başlamalıyıq.

**Müstəqim Məmmədov** *(Tərtər Rayon İcra Hakimiyyətinin başçısı)*: Cənab Prezident, şəhərdəki çoxmənzilli binaların hamısının zirzəmiləri təmizlənib, su, işıq, telefon xətləri çəkilib. Vətəndaşlar istifadə edirlər.

**Ev sahibəsi:** Ermənilər elə bilirdilər ki, bizim iradəmizi qıracaqlar. Bir qarış da torpaq verməyəcəyik. Güclü ordumuz, igid oğlanlarımız var.

**İlham Əliyev:** Bəli. Keçən ayın əvvəlində ordumuz gücünü göstərdi.

**Ev sahibəsi:** Siz sağ olun. Ev düzələcək. Əsas odur ki, insanlara heç nə olmasın.

*Rasim Bayramova məxsus ev də ermənilərin cəbhəboyu bütün istiqamətlərdən iriçaplı silahlardan Azərbaycanın yaşayış məntəqələrini şiddətli atəşə məruz qoyması nəticəsində bərbad vəziyyətə düşüb.*

* * *

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva cəbhə xəttinin 200 metrliyində yerləşən Tərtər rayonunun Qapanlı kəndinə gəldilər. Məlumat verildi ki, düşmənin açdığı atəş nəticəsində bu kənddə 55 evə ziyan dəyib. Onlardan 14-ü tamamilə dağıdılıb.*

*Dövlətimizin başçısı və xanımı artilleriya zərbəsi nəticəsində evi dağılmış kənd sakini Abbas Abbasovun həyətində oldular.*

**İ l h a m Ə l i y e v:** Salam, necəsiniz?

**A b b a s A b b a s o v:** Çox sağ olun, cənab Prezident, əla.

**İ l h a m Ə l i y e v:** Bura təmas xəttinə ən yaxın olan yerdir.

**A b b a s A b b a s o v:** Bəli, ən yaxın məsafədir.

**İ l h a m Ə l i y e v:** Narahat olmayın, bunların hamısı bərpa ediləcək. Lazımi vəsait ayrılacaq, kömək göstəriləcək. Dəymiş bütün ziyan aradan qaldırılacaq. Narahat olmayın, burada möhkəm durun, yaradın, qurun! Bura bizim Vətənimizdir, Azərbaycan torpağıdır.

* * *

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Tərtər sakinləri ilə görüşdülər.*

**S a k i n l ə r:** Cənab Prezident, xoş gəlmisiniz! Tərtərdə Sizi qarşılamaq bizim üçün çox xoşdur. Allah Sizdən razı olsun. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Gəlmişəm sizi görüm, bu ağır günlərdə sizinlə bərabər olum, öz hörmətimi, məhəbbətimi ifadə edim. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, təmas xəttinə 200 metr məsafə var. Siz öz torpağınızda, Azərbaycan torpağında yaşayırsınız, özü də möhkəm durursunuz!

**S a k i n:** Sizə arxalanıb yaşayırıq, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Biz sizinlə fəxr edirik.

**S a k i n l ə r:** Çox sağ olun. Biz də Sizinlə fəxr edirik. Allah Sizi, övladlarınızı qorusun! Biz Sizi dəstəkləyirik, Sizin arxanızdayıq. Sizə, ordumuza, ulu öndərimizin qoyub getdiyi müstəqil Azərbaycana, dövlətimizə, dövlətçiliyimizə güvənirik.

**İ l h a m Ə l i y e v:** Sizin kimi insanlar xalqımızın qürur mənbəyidir. Bax, siz burada, ən çətin, ən təhlükəli yerdə yaşayırsınız, qurursunuz, yaradırsınız. Dəymiş bütün ziyan aradan götürüləcək, vəsait ayrılacaq. Vətəndaşlar narahat olmasınlar. Azərbaycan dövləti güclü dövlətdir, sizin arxanızdadır. Dağılmış bütün evlər bərpa olunacaq, hər şey yenidən düzələcək. Siz möhkəm olun.

**S a k i n:** Cənab Prezident, biz möhkəmik. Biz əsgərlərimizin arxasındayıq, Sizə, güclü ordumuza güvənirik, ar-

xalanırıq. Yaxşı ki, varsınız. Xanımınız da sağ olsun, Siz də. Çox sağ olun, minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Ordumuz döyüş meydanında öz gücünü göstərdi. Ancaq görün indi ermənilər nə edirlər, mülki əhaliyə atəş açırlar. Ordumuza gücləri çatmır, sizi atəşə tuturlar.

**S a k i n:** Heç bizə də gücləri çatmır.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, sizə də gücləri çatmır.

**S a k i n:** Biz qadınlar da döyüşə getməyə hazırıq. Qorxmuruq, yaşayacağıq, evimizdən də çıxmayacağıq. Təkcə bu torpaqlarda yox, Allah qoysa, işğalda olan torpaqları alıb gedib orada da, Şuşada da yaşayacağıq. Biz Sizə, Mehriban xanıma güvənirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## AĞDAM RAYONUNUN TƏMAS XƏTTİNDƏ YERLƏŞƏN MAHRIZLI KƏNDİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*1 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 1-də Ağdam rayonunun təmas xəttində yerləşən Mahrızlı kəndinə gəlmişlər.*

*Dövlətimizin başçısı və xanımı Ermənistan ordusunun vəhşilikləri nəticəsində kənddə yaranmış vəziyyətlə tanış oldular, sakinlərlə görüşdülər. Kənd sakini Allahverdi Məmmədov dövlət başçımıza təşəkkürünü bildirdi, ölkəmiz üçün gördüyü böyük işlərə görə qürur duyduğunu dilə gətirdi.*

**İ l h a m Ə l i y e v:** Sizi ürəkdən salamlayıram. Sizə öz hörmətimi, məhəbbətimi ifadə edirəm. Siz burada, düşmənlə üz-üzə olan kənddə yaşayırsınız, yaradırsınız, qurursunuz. Azərbaycan xalqı sizinlə fəxr edir. Mən gəlmişəm ki, bu ağır günlərdə sizinlə bərabər olum, sizə öz dəstəyimi, hörmətimi, məhəbbətimi ifadə edim. Bilirsiniz ki, aprel ayının əvvəlində Ermənistanın silahlı təxribatı nəticəsində bizim mövqelərimizə hücum çəkildi, biz şəhid verdik, o cümlədən mülki əhali arasında həlak olanlar var. Ermənistan görəndə ki, təmas xəttində, döyüşdə məğlub olur, bax, bu çirkin əməllərə əl atır. Yenə də mülki əhalini hədəfə götürür, necə ki keçən əsrin 90-cı illərinin əvvəllərində. O vaxt da mülki əhali ilə müharibə aparırdı. Əliyalın əhali ilə müharibə aparmaq böyük hərbi cinayətdir. Ancaq Azərbaycan Ordusu onlara layiqli cavab verdi, yerinə oturtdu. Təmas xəttində tam üstünlük əldə etmişik. Bu gün hərbi hissədə olarkən hərbçilər mənə bir daha məruzə etdilər. Gedən döyüşlərlə, indiki vəziyyətlə bağlı, əlbəttə ki, məlumatım var. Qəhrəman Azərbaycan Ordusu bir daha öz gücünü göstərdi. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan Ordusu dünya miqyasında güclü

ordular sırasındadır, Vətəni ləyaqətlə qoruyur, düşmənə layiqli cavab verir. Əgər bir daha bizə qarşı təxribat, o cümlədən silahlı təxribat törədilərsə, yenə də Azərbaycan Ordusu öz sözünü deyəcək.

Dağılmış bu evlər erməni faşizminin təzahürüdür. Görün bu evləri nə günə qoyublar. Orada yaşayanlar necə olacaqlar? Onlara, əlbəttə ki, Azərbaycan dövləti öz dəstəyini göstərəcəkdir. İndi komissiya işləyir, aktlaşma gedir. Bütün dəyilən ziyan qeydə alınır və Azərbaycan dövləti bu evlərin bərpası, tamamilə dağılmış evlərin tikintisi üçün vəsait ayıracaq. Mən onu təşkil edəcəyəm, siz narahat olmayın, kompensasiya veriləcək və dağılmış evlər bərpa olunacaq, yenidən tikiləcək.

Tərtər və Ağdam rayonlarında 500-dən çox evə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb. Budur, erməni faşizminin eybəcər sifəti. Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmayıb, aparmır və aparmayacaq. Ancaq Ermənistan görün hansı çirkin işlərlə məşğuldur.

Bu yaxınlarda buraya bir qrup xarici jurnalist ezam olunmuşdu. Onlar bütün bu dağıntıları gördülər, çəkdilər, lentə aldılar. Bu sənəddir və bu sənəd əsasında biz hüquqi müstəvidə öz addımlarımızı atacağıq. Azərbaycan Ordusu Azərbaycanı, Azərbaycan vətəndaşlarını qoruyur. Siz, düşmənlə üz-üzə yerləşən kəndlərdə yaşayan insanlar böyük cəsarət nümayiş etdirirsiniz. Sizin yaşamağınız, fəaliyyətiniz, öz torpağınıza bağlılığınız hər bir vətəndaş üçün bir nümunə olmalıdır. Düşməndən qorxmadan burada, öz torpağınızda yaşayın. Biz öz torpağımızda yaşayırıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, heç vaxt torpaq iddiasında olmamışıq. Ancaq imkan verə bilmərik ki, bizim torpaqlarımız işğal altında qalsın.

Əminəm ki, işğala son qoyulacaq, Ağdam rayonu da, digər rayonlar da tamamilə azad olunacaq. Çünki bu gün Azərbaycan həm siyasi, həm iqtisadi, həm də hərbi sahələrdə tam üstünlük əldə edib. Aprelin əvvəlində Ermənistan tərəfindən bizə qarşı törədilən silahlı təxribatın qarşısını alan Azərbaycan Ordusu bir

daha gücünü göstərdi. Düşmən layiqli cavabını aldı və əminəm ki, bundan sonra özü üçün lazımi nəticələr çıxaracaq.

Biz indi güclü mövqedəyik. Bizim işimiz haqq işidir. Beynəlxalq hüququn bütün norma və prinsipləri bizim mövqemizi dəstəkləyir. Artıq bütün dünya bilir ki, bizim torpaqlarımız işğal altındadır. Əgər müstəqilliyimizin ilk illərində erməni lobbisi və satılmış ermənipərəst dünya siyasətçiləri tərəfindən münaqişə ilə bağlı təhrif olunmuş fikir var idisə, bu, artıq yoxdur. Artıq hamı bilir, sənədlər var, sübutlar var. Biz siyasi və diplomatik sahələrdə böyük iş aparmışıq, beynəlxalq təşkilatları, dünya ictimaiyyətini məlumatlandırmışıq. İndi hamı bilir ki, Azərbaycan torpaqları işğal edilib. Artıq bu məsələ ilə məşğul olan vasitəçilər də deyirlər ki, bu vəziyyət dözülməzdir. Biz bunu 20 ildən çoxdur ki, deyirik. Vəziyyət dəyişib. Təmas xətti artıq əvvəlki təmas xətti deyil. Bunu hamı bilir.

Ərazi bütövlüyü hər bir ölkə üçün əsas prinsipdir. Bizim ərazi bütövlüyümüz toxunulmazdır, bərpa olunmalıdır, bərpa ediləcəkdir. Yaxşı olardı ki, bu, danışıqlar yolu ilə olsun. Biz buna çalışırıq. Hesab edirəm ki, danışıqlar masasında bizim mövqemiz indi daha da möhkəmdir. Bu gözəl vəziyyəti yaradan şanlı ordumuza eşq olsun! Ordumuzun sizin kimi əsgərləri var, öz yerlərindən tərpənmirlər. Baxmayaraq ki, başınızın üstündən mərmilər uçur, evlər dağılır, insanlar həlak olur, yaralanır, siz burada durmusunuz, möhkəm də duracaqsınız.

**Südeyif Məhərrəmov** *(kənd sakini)*: Möhtərəm cənab Prezident, Ali Baş Komandan! Ağdam əhalisi adından, təmas xəttində yaşayan bütün insanlar adından bizimlə görüşə gəldiyiniz üçün Sizə dərin təşəkkürümüzü bildiririk.

Aprel ayının əvvəllərində erməni militaristlərinin, mənfur ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi təxribatın qarşısını Azərbaycan Ordusu layiqincə aldı. Biz bunu dəstəkləyirik, bu yerdə bərk dayanmışıq. Bizə arxayın ola bilərsiniz, möhtərəm cənab Prezident, Ali Baş Komandan. Sizin bütün xarici və daxili siyasətinizi bəyənirik, öz yerimizdəyik,

heç bir yerə də getməyəcəyik. Biz Sizinlə, ordumuzla fəxr edirik.

**Sevil Qarayeva** *(sakin):* Hörmətli Prezident, arzu edirəm Ağdam alınsın, Siz gələsiniz və Sizin gəlişinizə çoxlu qurbanlar kəsək. Başınız Murov dağı kimi uca olsun.

**İlham Əliyev:** Sağ olun.

# BƏRDƏ MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNDƏ MÜALİCƏ ALAN YARALILARLA GÖRÜŞ

*1 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 1-də Bərdə şəhərindəki Müalicə-Diaqnostika Mərkəzində olmuşlar.*

*Bu tibb ocağı ölkəmizdə səhiyyə islahatları çərçivəsində yaradılan və ən müasir standartlara cavab verən ilk Müalicə-Diaqnostika mərkəzlərindən biridir. Düşmənin dinc əhalini hədəfə alması nəticəsində Ağdamın Çəmənli və Qaradağlı kəndlərinin yaralanmış 3 sakini – Zahid Rəhimov, Elgiz Qarayev və Anar Abdullayev burada müalicə olunurlar. Dövlətimizin başçısı və xanımı onların vəziyyəti ilə maraqlandılar və tezliklə sağalmalarını arzuladılar.*

**İ l h a m Ə l i y e v:** Necəsiniz? Həkimlər sizə yaxşı baxırlar. Mənə məlumat verirlər ki, sizin vəziyyətiniz yaxşılaşıb. Yaxşı müalicə alırsınız. Əminəm ki, tezliklə buradan çıxıb evinizə qayıdacaqsınız. Mən gəlmişəm ki, sizi görüm, öz sözümü deyim. Siz erməni silahlı təxribatından əziyyət çəkmisiniz. Görürsünüz ki, onlar mülki əhaliyə qarşı müharibə aparırlar. Evlər dağılır, insanlar həlak olur, mülki şəxslər yaralanırlar. Bu, hərbi cinayətdir. Ermənilər döyüş meydanında məğlub olurlar, mülki əhaliyə atəş açırlar.

**Y a r a l ı:** Cənab Prezident, diqqətinizə görə təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Tezliklə sağalacaqsan, hər şey yaxşı olacaq. Eşitmə qabiliyyətin bərpa olunacaq.

**V i d a d i İ s a y e v** *(Bərdə Rayon İcra Hakimiyyətinin başçısı):* Cənab Prezident, ali təhsilli həkim-stomatoloqdur.

**İ l h a m Ə l i y e v:** Hansı kənddənsən?

**Y a r a l ı:** Ağdam rayonunun Çəmənli kəndindənəm.

**İ l h a m Ə l i y e v:** Bir qədər əvvəl oradan keçmişəm.

**H ə k i m:** Qapalı kəllə-beyin zədəsi diaqnozu qoyulub. İndi vəziyyəti orta ağırdır. Nisbətən yaxşılaşıb.

**Y a r a l ı**: Cənab Prezident, Siz bizim arxa-dayağımızsınız. İnşallah, sağalıb kəndimizə qayıdarıq.

**İ l h a m Ə l i y e v:** İnşallah, tezliklə sağalıb normal həyata dönəcəksən. Mən indi sənin qonşularınla görüşmüşəm. Ağdamlılar hamısı bir nəfər kimi möhkəm dayanıblar, möhkəmdirlər.

**Y a r a l ı:** Sağ olun, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Siz də Çəmənli kəndindənsiniz?

**Y a r a l ı:** Bəli.

**V i d a d i İ s a y e v:** Aprelin 27-dən 28-nə keçən gecə gətiriliblər. Gələndə birinin vəziyyəti çox ağır, ikisinin vəziyyəti isə orta ağır idi. Əməliyyat olundular, indi gündəlik müalicə alırlar.

**İ l h a m Ə l i y e v:** Gecə oldu, evdə oturmuşdunuz?

**Y a r a l ı:** Həyətə çıxmışdıq. Güclü atəş açdılar. Mərmi təxminən 20–30 metrlikdə yerə düşdü, qəlpə dəydi. Cənab Prezident, Sizə uzun ömür, cansağlığı arzulayırıq. Allah Sizi qorusun. Gün o gün olsun ki, doğma torpaqlarımızda bayrağımız dalğalansın. Biz həkimlərimizə də uzun ömür, cansağlığı arzulayırıq. Allah onların köməyi olsun.

**İ l h a m Ə l i y e v:** Həkimlər sizə yaxşı baxırlar. Gözəl şərait yaradılıb. Bərdə Müalicə-Diaqnostika Mərkəzi 2008-ci ildə istifadəyə verilib. Ölkədə ilk tikilən diaqnostika mərkəzlərindən biridir. Tezliklə sağalacaqsınız, evlərinizə qayıdacaqsınız.

**Y a r a l ı:** İnşallah. Sağ olun. Allah Sizi, bütün əsgərlərimizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Allah şəfa versin.

*Prezident İlham Əliyev Bərdə Müalicə-Diaqnostika Mərkəzinin kollektivinə yaralılara yüksək səviyyədə xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## «GƏNCƏ–2016-cı İL AVROPA GƏNCLƏR PAYTAXTI» LAYİHƏSİNİN AÇILIŞI MƏRASİMİNİN İŞTİRAKÇILARINA

Hörmətli toplantı iştirakçıları!

Gəncə şəhərinin «2016-cı il Avropa gənclər paytaxtı» seçilməsi münasibətilə hər birinizi və sizin simanızda bütün gənclərimizi səmimi-qəlbdən təbrik edirəm. Avropanın müxtəlif ölkələrini təmsil edən qonaqları salamlayır, «Azərbaycana xoş gəlmisiniz!» – deyirəm.

Korifey sənətkarların, görkəmli elm və dövlət xadimlərinin yurdu olan Gəncə öz zəngin keçmişi, təkrarolunmaz maddi və mənəvi mədəniyyət abidələri ilə məşhurdur. Son illər həyata keçirilən tədbirlər nəticəsində bu tarixi diyarın görkəmi xeyli dəyişmiş, infrastrukturu əsaslı şəkildə yenilənmişdir. Gəncə Azərbaycanın qədimliklə müasirliyi, Şərq memarlıq üslubu ilə Qərb modernizmini üzvi şəkildə birləşdirən şəhərlərindən birinə çevrilmişdir.

Avropa ilə Asiyanın, xristian və müsəlman sivilizasiyalarının qovuşduğu məkanda yerləşən Azərbaycan Respublikası unikal coğrafi mövqeyə malikdir. Tolerantlıq və multikulturalizm bütün tarixboyu çoxmillətli və çoxkonfessiyalı cəmiyyətimizin ayrılmaz dəyərləri olmuşdur. Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, eyni zamanda həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüdür. Bu baxımdan, Gəncənin «Avropa gənclər paytaxtı» seçilməsi tamamilə təbii və qanunauyğun bir haldır. Şübhəsiz, şəhərimizin belə nüfuzlu ada layiq görülməsində gənclər siyasəti sahəsində qazanılmış uğurlar, ölkəmizdəki gənclər təşkilatlarının uyğun profilli beynəlxalq platformalarla sıx əməkdaşlığı, region, qitə və dünya miqyaslı tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməyimiz də mühüm rol oynayıb.

2016-cı il ərzində Gəncə ölkə və qitə gənclərinin ən çox üz tutacağı, layihə həyata keçirəcəyi məkanlardan biri olacaq. Bu isə

Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, tarix və mədəniyyətimizin, müstəqillik illərində qazandığımız nailiyyətlərin təbliği baxımından müstəsna əhəmiyyət kəsb edəcəkdir. Mən Gəncədəki tədbirlərin reallaşmasına kömək göstərmək məqsədilə xüsusi sərəncam imzalamış, aidiyyəti nazirliklərə, dövlət komitələrinə və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fonduna müvafiq tapşırıqlar vermişəm. Şübhə etmirəm ki, nəzərdə tutulmuş bütün layihələr dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının birgə səyi ilə yüksək səviyyədə icra ediləcək, Gəncə şəhəri «Avropa gənclər paytaxtı» adına layiq olduğunu əyani şəkildə nümayiş etdirəcəkdir. Bu yolda hamınıza uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *3 may 2016-cı il*

## İNDONEZİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HÜSNAN BƏY FANANİ İLƏ GÖRÜŞ

*3 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Hüsnan Bəy Fananinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Hüsnan Bəy Fanani Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Hüsnan Bəy Fanani etimadnaməsini təqdim etdikdən sonra prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə İndoneziya arasında əlaqələrin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində yaxşı əməkdaşlıq etdiyini vurğuladı, ölkəmizə verdiyi dəstəyə görə İndoneziyaya təşəkkürünü bildirdi. Tərəfdaşlıq əlaqələrimizə toxunan prezident İlham Əliyev Azərbaycanın İndoneziya ilə daha yaxın əlaqələr qurmaqda maraqlı olduğunu dedi. Ölkələrimiz arasında siyasi, iqtisadi, təhsil, mədəni, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlıq əlaqələrinin mövcud olduğunu deyən prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Hər iki ölkədə uzun illərdir səfirliklərin fəaliyyət göstərməsinin əhəmiyyətini qeyd edən prezident İlham Əliyev səfir Hüsnan Bəy Fananiyə fəaliyyətində uğurlar arzuladı.*

*Səfir Hüsnan Bəy Fanani İndoneziya Respublikasının Prezidenti Coko Vidodonun salamlarını dövlətimizin başçısına çatdırdı. Xalqlarımızın eyni dinə və oxşar mədəni dəyərlərə malik olduqlarını vurğulayan səfir iki ölkə arasında müxtəlif sahələrdə mövcud olan əlaqələrin gələcəkdə daha da inkişaf*

*etdiriləcəyinə ümidvar olduğunu dedi. O, ölkəmizdə diplomatik fəaliyyəti dövründə ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Hüsnan Bəy Fanani 2017-ci ildə ölkəmizdə keçiriləcək İslam Həmrəyliyi oyunlarının əhəmiyyətini qeyd etdi.*

*Dövlətimizin başçısı prezident Coko Vidodonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İndoneziya Prezidentinə çatdırmağı xahiş etdi.*

## BAKININ 8-ci KİLOMETR QƏSƏBƏSİNDƏ ÇOXMƏRTƏBƏLİ AVTOMOBİL DAYANACAĞININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*4 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Bakının 8-ci Kilometr qəsəbəsində Qara Qarayev prospekti ilə Naxçıvani küçəsinin kəsişməsində inşa olunan çoxmərtəbəli avtomobil dayanacağının istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı dayanacağın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Avtodayanacaqla tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, ümumi sahəsi 16 286 kvadratmetr olan avtodayanacağın yuxarı mərtəbəsi restoran kimi fəaliyyət göstərəcək. Buradan Heydər bağına gözəl mənzərə açılır. Bildirildi ki, dayanacaqda 391 avtomobili eyni vaxtda parklamaq mümkündür. Avtodayanacaq naviqasiya, avtomat yanğınsöndürmə sistemləri ilə təchiz olunub.*

*Paytaxtın 8-ci Kilometr qəsəbəsinin ən qaynar və hərəkətin intensiv olduğu ərazisində tikilən avtodayanacaq yol kənarlarının boşalmasına geniş imkan yaradacaq. Bununla da ərazidə avtomobil tıxacları aradan qaldırılacaq.*

## 8-ci KİLOMETR QƏSƏBƏSİNDƏ HEYDƏR BAĞINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*4 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də paytaxtın Nizami rayonunun 8-ci Kilometr qəsəbəsində Heydər bağında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına bildirildi ki, bu istirahət guşəsi 1997-ci ilin mayında ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb. Ümummilli lider burada daş palıd da əkib. Heydər bağında həyata keçirilən yenidənqurma tədbirləri zamanı əlavə yaşıllaşdırma işləri görülüb, yeni skamyalar və işıqlandırma sistemi qurulub. Ərazisi 5 hektardan çox olan bağın yenidən qurulmasında yüksəkkeyfiyyətli tikinti materiallarından istifadə edilib, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.*

*Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## NİZAMİ RAYONUNDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*4 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də paytaxt Bakının Nizami rayonunda Mikayıl Əliyev küçəsində aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, paytaxtın Heydər Əliyev prospekti ilə Babək prospektini birləşdirən, Heydər Əliyev adına Bakı Neft emalı zavodunun, Milli Gimnastika Arenasının, habelə əhalinin istifadəsində olan kütləvi tədbirlərin keçirildiyi çoxsaylı obyektlərin yerləşdiyi və nəqliyyatın intensiv hərəkət etdiyi Mikayıl Əliyev küçəsi uzun illərdir ki, təmir olunmamışdı. Küçədə yağış-kanalizasiya sularının axıdılması sisteminin olmaması müəyyən problemlər yaradırdı. Həm küçənin asfalt-beton örtüyü tez sıradan çıxır, həm də nəqliyyat vasitələrinin hərəkətində çətinliklər yaranırdı. Dövlətimizin başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq Mikayıl Əliyev küçəsinin yenidən qurulmasına başlanıldı.*

*Bildirildi ki, görülən işlər çərçivəsində «Azəravtoyol» ASC tərəfindən küçədə yağış-kanalizasiya sularının axıdılması üçün 2 kilometrdən artıq yeni sistem qurulub. Küçə boyunca yağış suları üçün barmaqlıqlar qoyulub, kommunikasiya xətlərinin dəmir-beton yataqları hündürləşdirilib, yenilənib. Bununla da Mikayıl Əliyev küçəsində səth suları problemi köklü şəkildə aradan qaldırılıb. Uzunluğu 2800 metr, hərəkət hissəsi 4–6 zolaqlı olan yolun yenidən qurulması zamanı köhnə asfalt örtüyü təmizlənib, zəruri yerlərdə yol yatağı bərkidilib və küçəyə yeni asfalt-beton örtüyü döşənib. Yenidənqurma işləri çərçivəsində*

*küçəboyu hər iki istiqamətdə yeni piyada səkiləri yaradılıb, işıqlandırma sistemi qurulub. Bununla da şəhərin mərkəzi ilə 450 min nəfərdən çox əhalinin yaşadığı 8-ci Kilometr, Əhmədli və Günəşli qəsəbələri arasında nəqliyyat əlaqəsi xeyli yaxşılaşıb.*

*Qeyd edək ki, küçədə aparılan kompleks tədbirlər çərçivəsində nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədilə Rüstəm Rüstəmov küçəsi və Babək prospekti ilə kəsişmələrdəki bir səviyyəli dairə şəkilli yol qovşaqları da yenidən qurulub, zəruri yerlərdə yol nişanları quraşdırılıb, piyada zolaqları və göstərici xətlər çəkilib.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, paytaxtın Nizami rayonunun Çobanzadə küçəsi də əsaslı təmir olunub. Uzunluğu 2340 metr olan küçəyə yeni asfalt-beton örtük döşənib, avtobus dayanacaqları quraşdırılıb. Bundan əlavə, Naxçıvani küçəsinin də əsaslı təmiri başa çatıb. Uzunluğu 840 metr olan küçənin eni genişləndirilərək, 9 metrə çatdırılıb. Yeni asfalt-beton örtüyü çəkilən küçədə bütün infrastruktur yüksək səviyyədə qurulub.*

## BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZER İLƏ GÖRÜŞ

*7 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizeri qəbul etmişdir.*

*Bakıda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş cüdo üzrə «Böyük dəbilqə» Beynəlxalq turnirinin çox yaxşı təşkil olunduğunu deyən dövlətimizin başçısı son dövrlər idmançılarımızın müxtəlif yarışlarda qazandığı böyük uğurların önəmini qeyd etdi. Cüdo üzrə milli komandamızın bu yaxınlarda keçirilən Avropa çempionatında yüksək nəticələr əldə etdiyini xatırladan prezident İlham Əliyev bu idman növünün Azərbaycanda populyarlığının getdikcə artdığını vurğuladı, ölkəmizin gələcəkdə beynəlxalq yarışlarda daha fəal və dinamik iştirak edəcəyinə ümidvar olduğunu dedi.*

*Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer Bakıda keçirilən cüdo üzrə «Böyük dəbilqə» Beynəlxalq turnirinin yüksək səviyyədə təşkilindən məmnunluğunu ifadə etdi. Azərbaycanda cüdonun inkişafını daim dəstəklədiyini qeyd edən Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer ölkəmizin cüdo üzrə yığmasının yeni strategiya ilə yarışlarda daha yüksək fəallıqla iştirak edəcəyinə ümidvar olduğunu dedi. Marius Vizer 2016-cı il Rio de Janeyro Yay Olimpiya oyunlarında cüdo idmanı ilə bağlı aparılan hazırlıq işlərindən danışdı.*

*Beynəlxalq Cüdo Federasiyası ilə fəal tərəfdaşlıq əlaqələrinin davam etdirilməsinin vacibliyini vurğulayan dövlətimizin başçısı İlham Əliyev Marius Vizerin Federasiyanın prezidenti kimi, ölkəmizə verdiyi dəstəyi yüksək qiymətləndirdi, bu istiqamətdə səylərinə görə ona minnətdarlığını bildirdi. Azərbaycanda idmana göstərilən qayğıdan danışan prezident İlham Əliyev*

*ölkəmizdə cüdonun zəngin ənənələrə malik olduğunu vurğuladı, bu idman növünün inkişafına xüsusi əhəmiyyət verildiyini qeyd etdi. Dövlətimizin başçısı idmançılarımızın dünya və Avropa çempionatlarında, eləcə də Olimpiya oyunlarında uğurla iştirak edəcəklərinə ümidvar olduğunu bildirdi.*

## 9 MAY – QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*9 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 71-ci ildönümü münasibətilə təntənəli mərasimdə iştirak etmişlər.*

*Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladı.*

*Müharibə veteranları ilə görüşən prezident İlham Əliyev onları Qələbə bayramı münasibətilə təbrik etdi və ən xoş arzularını çatdırdı.*

*Dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu.*

*Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq*

*nümunələri saysız-hesabsızdır. İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941–1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşürdü. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynayıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər etmişdi.*

*Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz ulu öndərin ədaləti uca tutması sayəsində İkinci dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq, Azərbaycanda 9 may – Qələbə Günü qeyd olunur. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən prezident İlham Əliyev İkinci dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.*

*Qələbə bayramı ərəfəsində prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Dövlətimizin başçısının bu il imzaladığı sərəncamla İkinci dünya müharibəsi iştirakçılarına, müharibə dövründə Leninqradın mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və «Leninqradın müdafiəsinə görə» medalı, «Leninqrad mühasirəsində yaşayan» döş nişanı ilə təltif edilmiş şəxslərə Prezident təqa-*

*üdünün aylıq məbləği 10 faiz artırılaraq, 2016-cı il fevralın 1-dən 110 manat müəyyən edilib. Azərbaycan Prezidentinin imzaladığı digər sərəncamla İkinci dünya müharibəsi iştirakçılarına 1000 manat məbləğində, İkinci dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Respublikamızda müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncama əsasən isə Veteranlar Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə Təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədi ilə 2016-cı ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Veteranlar Təşkilatına 500 min manat ayrılıb. Bütün bunlar bir daha təsdiqləyir ki, müharibə veteranlarına hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.*

*Azərbaycan Prezidenti iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri ilə görüşdü, onları Qələbə bayramı münasibətilə təbrik etdi.*

*İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoyan prezident, Ali Baş Komandan İlham Əliyev İkinci dünya müharibəsində qəhrəmanlıq göstərən cəsur sərkərdənin, xalqımızın igid oğul və qızlarının, tarixi Qələbənin qazanılmasında payı olan milyonlarla insanın əziz xatirəsini dərin ehtiramla yad etdi.*

*Dövlətimizin başçısı İkinci dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.*

*Prezident İlham Əliyev veteranları Qələbə bayramı münasibətilə bir daha təbrik etdi, ən xoş arzularını çatdırdı.*

**D a d a ş R z a y e v** (*Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri*): Cənab Prezident, 1 milyon 300 min pensiyaçı və veteran həmişə Sizin xarici və daxili siyasətinizi dəstəkləyir, Sizin arxanızdadır. Sizin cəbhə bölgəsinə səfəriniz bütün Azərbaycan xalqını, biz veteranları çox sevindirdi.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən həmişə sizi dəstəkləyirəm. Çalışıram ki, sizə öz köməyimi göstərim. Bayram ərəfəsində bütün veteranlara mükafat verildi. İldən-ilə mükafatları artırırıq.

**V e t e r a n:** Bəli, 1000 manat, 500 manat. Hər şeyimiz var. Heç yerdə belə bir şey yoxdur.

**V e t e r a n**: Sağ olsun bizim Prezidentimiz. Onu da deyim ki, mənim balam, Sizi Mehriban xanımla birgə cəbhə xəttində görəndə ürəyim dağa döndü. Dedim, halal olsun sizə. Azərbaycan xalqı bəxtəvərdir ki, bizim belə prezidentimiz, xanımlar xanımı Mehribanımız var. Allah sizi qorusun.

**D a d a ş R z a y e v:** Cənab Prezident, bizə bağışladığınız inzibati bina muzey olub.

**İ l h a m Ə l i y e v**: Keçən il bərabər açmışdıq.

**V e t e r a n:** Bizim prezidentdən yoxdur, ola da bilməz!

**İ l h a m Ə l i y e v:** Mən sizi bu gün rəsmi ziyafətə dəvət edirəm. Heydər Əliyev Mərkəzində rəsmi ziyafət olacaq. Mən sizi oraya dəvət edirəm. Gəlin görüşümüzü orada davam etdirək.

* * *

*Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 93-cü İLDÖNÜMÜ VƏ FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 71 İLLİYİ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*9 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da Heydər Əliyev Mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi münasibətilə keçirilən rəsmi qəbulda iştirak etmişlər.*

*Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün Azərbaycanda faşizm üzərində Qələbə Günü qeyd edilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan Qələbənin əldə olunmasında çox böyük rol oynayıb – həm ön cəbhədə, həm də arxa cəbhədə. 600 mindən çox Azərbaycan nümayəndəsi müharibədə iştirak edib, onlardan 300 mini həlak olub. Azərbaycan xalqı müharibə illərində qəhrəmanlıq göstərib. Azərbaycanın bir çox nümayəndələri yüksək orden və medallarla təltif olunublar. Arxa cəbhədə – Azərbaycanda böyük işlər görülüb. Bizim zavodlarımızda hərbi texnika istehsal olunurdu. O texnika və silahlar ki, müharibənin ən ağır anlarında sovet ordusuna əvəzsiz xidmət edib. Azərbaycan neftçiləri bu illər ərzində yorulmadan çalışmış və sovet ordusunu yanacaqla təmin etmişlər. Sovet ordusunun yanacağının mütləq əksəriyyəti Azərbaycan neftçiləri tərəfindən təmin edilirdi. Bütün bu

amillər deməyə əsas verir ki, Azərbaycan Respublikası faşizm üzərində Qələbənin əldə edilməsində xüsusi rol oynayıb. Bu gün mən müharibə veteranları ilə görüşmüşəm, onlarla söhbət etmişəm, onları təbrik etmişəm. Onlar bu gün bu mərasimdə iştirak edirlər və bir daha onlara öz hörmətimi ifadə etmək istəyirəm.

Builki Qələbə günü Azərbaycanda xüsusi ruh yüksəkliyi ilə qeyd edilir. Bildiyiniz kimi, keçən ayın əvvəlində Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində ordumuz uğurla əks-hücum əməliyyatı keçirib. İşğal olunmuş torpaqlarımızın bir hissəsi əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilib, təmas xəttindəki mövqelərimiz daha da möhkəmlənibdir. Bu gözəl tarixi və parlaq qələbə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdi. Bilirəm ki, döyüşçülərimizin qarşısında həmişə veteranlarımızın obrazı, İkinci dünya müharibəsi veteranlarının nümunəsi dayanır. Bu gün veteranlarla söhbət əsnasında onlar mənə deyirlər ki, əgər lazım olarsa, biz onların da imkanlarından müharibə zonasında istifadə edə bilərik. Yəni öz yaşlarına baxmayaraq, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində onlar da bu gün iştirak etməyə hazırdırlar.

Mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan öz tarixi keçmişinə çox böyük hörmətlə yanaşır. İkinci dünya müharibəsində qazanılmış Qələbə bizim ümumi qələbəmizdir. Biz Azərbaycanda həm tarixi həqiqətləri qoruyuruq, imkan vermirik ki, tarix təhrif olunsun, eyni zamanda, müharibə veteranlarını da daim dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik.

Onu da qeyd etməliyəm ki, əfsuslar olsun, müstəqilliyimizin ilk illərində 9 May – Qələbə Günü bayram kimi qeyd edilmirdi. Bayram siyahısından çıxarılmışdı. Ancaq ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bu bayram bərpa edildi və bu gün bu bayram Dövlət bayramı kimi qeyd edilir.

Sabah biz ulu öndərin anadan olmasının 93-cü ildönümünü qeyd edəcəyik. Heydər Əliyev Azərbaycan tarixində müstəsna xidmətlər

göstərmiş, böyük tarixi rol oynamış, iki dəfə Azərbaycana rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, anarxiyadan, xaosdan inkişafa, tərəqqiyə doğru aparmışdır. 1969-cu ildə Azərbaycan Sovet İttifaqı respublikaları arasında ən aşağı yerlərdə qərarlaşmışdı. Heydər Əliyevin səyləri, bacarığı, biliyi, xalqa olan bağlılığı nəticəsində cəmi 13 il ərzində Azərbaycan ən qabaqcıl respublikaya çevrildi. Sovet İttifaqında Rusiya Federasiyasından başqa, cəmi 2 respublika var idi ki, onlar mərkəzdən dotasiya almırdı. Onlardan biri də Azərbaycan idi. Məhz o illərdə Azərbaycanda sənaye istehsalı, kənd təsərrüfatı sahələrində, infrastruktur layihələrinin icrasında çox böyük işlər görülmüşdü və o işlər bu gün də müstəqil Azərbaycana köməklik göstərir. O illərdə xüsusilə infrastruktur layihələrinin icrası, neft-qaz sektorundakı nəticələr və emal sənayesinin inkişafı sahələrində əldə edilmiş nailiyyətlər bu gün bizə, müstəqil Azərbaycana xidmət göstərir.

Keçən əsrin 70–80-ci illərində Azərbaycanda elm sürətlə inkişaf edirdi. Azərbaycanda milli-mənəvi dəyərlər təbliğ edilirdi. Əlbəttə, biz müstəqil dövlət deyildik və bəzi məsələlərdə fəaliyyətimiz məhdud xarakter daşıyırdı. Ancaq buna baxmayaraq, milli-mənəvi dəyərlər, milli ruh, milli ədəbiyyat, mədəniyyət daim diqqət mərkəzində idi. Təsadüfi deyil ki, 1978-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunanda məhz Heydər Əliyevin təkidi ilə Azərbaycan dili Konstitusiyaya ana dili kimi daxil edildi. Yəni o illər doğrudan da böyük inkişaf illəri olmuşdur. Heydər Əliyevin fəaliyyətini və böyük nailiyyətlərini nəzərə alaraq, O, Moskvaya dəvət edilmiş və ona çox böyük vəzifə verilmişdi – Sovet İttifaqının Baş nazirinin Birinci müavini vəzifəsi. Super dövlətin Baş nazirinin Birinci müavini vəzifəsi, əlbəttə, bir daha göstərirdi ki, Heydər Əliyev nə qədər istedadlı, peşəkar və işgüzar adam idi. Həmin illərdə O, fəal işləyirdi, bir çox sahələrə nəzarət edirdi və həmin sahələrdə böyük uğurlar əldə olunurdu. Bununla bərabər, heç vaxt Azərbaycanı unutmurdu və çalışırdı ki, özünün böyük imkanlarından istifadə edib, Azərbaycanı daha da gücləndirsin. Burada bir çox sənaye, infrastruktur layihələri icra edildi. O, Azərbaycanın inkişafına daim diqqət

yetirirdi. Hər il məzuniyyətə çıxıb Azərbaycana gəlirdi. Mən yaxşı bilirəm ki, o məzuniyyət formal xarakter daşıyırdı. Çünki O, məzuniyyəti daim görüşlərdə keçirirdi və onun verdiyi tapşırıqlar keçən əsrin 80-ci illərində Azərbaycanın inkişafına çox böyük xidmət göstərmişdir.

Ancaq 1987-ci ildə Heydər Əliyev tamamilə əsassız olaraq bütün vəzifələrdən kənarlaşdırıldı. Bu ona qarşı, eyni zamanda, Azərbaycana qarşı böyük ədalətsizlik və təxribat idi. Onun istefasından 2 həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında məsələ qaldırdılar. Yəni Heydər Əliyev amili onlara imkan vermirdi ki, bu çirkin niyyətlərini ifadə etsinlər. Ancaq Heydər Əliyev siyasi səhnədən gedəndən sonra bu məsələ qalxdı və dərhal ondan sonra Dağlıq Qarabağda xoşagəlməz hadisələr başlandı, Ermənistanın təhriki ilə orada separatçı meyillər gücləndi. Əfsuslar olsun ki, o vaxtkı sovet rəhbərliyi cinayət törədərək, bu xoşagəlməz meyillərin qarşısını almadı. Nəinki almadı, almaq istəmədi. Sovet İttifaqının dağılması prosesi məhz o vaxtdan başlandı.

Mən yaxşı xatırlayıram ki, Heydər Əliyev bu vəziyyətlə bağlı çox məyus olmuşdu. Onun qurub-yaratdığı vəziyyət dağılırdı. O burada rəhbər vəzifədə işləyəndə mütəmadi qaydada Dağlıq Qarabağa səfərlər edirdi – Xankəndiyə, Şuşaya. Mən də o səfərlərin canlı şahidiyəm, iştirakçısıyam. Heç bir amil onu göstərmirdi ki, orada separatçı meyillər güclənə bilsin. Yəni bu, süni şəkildə ortaya atılmış təxribat idi. Əfsuslar olsun ki, bu günə qədər Azərbaycan bu təxribatın acı nəticələrini yaşayır.

Azərbaycan xalqına qarşı növbəti təxribat 1990-cı ildə törədildi – Qanlı Yanvar cinayəti. Günahsız insanlar öldürüldü, qətlə yetirildi. 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş böyük cinayətdir. Heydər Əliyev dərhal öz səsini ucaltdı. Ertəsi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. Mən də onunla bərabər orada idim. Mətbuat konfransında sovet rəhbərliyini ittiham etdi. Onların hərəkətlərini pislədi. Deyə bilərəm ki, o vaxt sovet məkanında bu çox nadir bir hadisə idi. Çünki Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç

kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı kimi nəhəng bir dövlət dağıla bilər. O vaxt belə cəsarətli addımın atılması bir daha onu göstərdi ki, Heydər Əliyev öz xalqına nə qədər bağlıdır, bu insan nə qədər fədakardır, nə qədər cəsarətlidir.

Təbii ki, ondan sonra ona qarşı təzyiqlər, təqiblər, mətbuatda qarayaxma kampaniyası başlandı. Ancaq bu çirkin, təxribatçı addımlar onu yolundan döndərə bilmədi. O bu hadisələrə etiraz olaraq, uzun illər, onilliklər ərzində xidmət etdiyi Kommunist Partiyasının sıralarından çıxdı. Bakıya qayıtdı. Çünki artıq Moskvada yaşamaq təhlükəli idi. Əfsuslar olsun ki, Bakıda da yaşamağa imkan vermədilər və doğulduğu yerə – Naxçıvana üz tutdu. Naxçıvan əhalisi onun ətrafında birləşərək, o ağır illəri şərəflə yaşadı. İlk növbədə, naxçıvanlılar Heydər Əliyevi bütün təzyiq və təxribatlardan qorudular. Sonra isə o, Naxçıvanın rəhbəri kimi, Naxçıvanı işğaldan qorudu. O illər müstəqilliyimiz üçün həlledici illərdir. Çünki mən hesab edirəm ki, müstəqilliyə gedən yol məhz o illərdə Naxçıvanda başlamışdır. Çünki Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı – bizim bayrağımız Naxçıvanda Dövlət bayrağı kimi elan edildi. O vaxt hələ Sovet İttifaqı yaşayırdı və yenə də deyirəm, Sovet İttifaqının dağılması haqqında bəlkə də çoxları heç fikirləşmirdi.

Azərbaycanda isə əfsuslar olsun ki, keçən əsrin 90-cı illərinin əvvəllərində vəziyyət tənəzzülə uğrayırdı. Siyasi böhran iqtisadi böhranla tamamlanırdı. Xalq arasında ovaxtkı iqtidara inam tamamilə tükənmişdi. Vətəndaş müharibəsi başlanmışdı. Ermənistanın işğalı alovlanırdı, genişlənirdi, torpaqlarımız işğal altına düşürdü. Şuşa, Laçın, ondan sonra Kəlbəcər rayonlarının işğalı nəticəsində Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlılıq yaranmışdı. Belə ağır vəziyyətdə xalq yenə də Heydər Əliyevə müraciət etdi. Onu hakimiyyətə dəvət etdi və ümidləri ancaq ona bağlayırdı. Müstəqilliyimiz üçün ən ağır anlarda yenə də Heydər Əliyev öz xalqının yanında idi. Öz xalqına rəhbərlik etməyə razılıq vermişdi. 1993-cü ildən başlayaraq, Azərbaycanda bütün sahələrdə dönüş yarandı. Vətəndaş

müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərksilah edildi. Azərbaycanda qayda-qanun yaradıldı və ölkə inkişaf dövrünə qədəm qoydu.

Ondan sonrakı dövr – 1993–2003-cü illəri əhatə edən dövr inkişaf, sabitlik dövrü oldu. Azərbaycanda siyasi sistem formalaşdı. Konstitusiya qəbul olundu. Azərbaycan dünyaya öz imkanlarını təqdim etdi. «Əsrin müqaviləsi» imzalandı. Sonra isə «Şahdəniz» qaz yatağının işlənməsi üzrə kontrakt imzalandı. Demokratik islahatlar aparılmağa başlandı. Məhz o illərdə milli ideologiyamız – azərbaycançılıq məfkurəsi formalaşdı ki, bu gün də bütün Azərbaycan xalqını birləşdirir. Azərbaycanda çoxmillətli, çoxkonfessiyalı cəmiyyətin inkişafı və buna güclü təkan verilməsi prosesi başlandı. Bu gün bu bizim böyük sərvətimizdir. Azərbaycan dünya miqyasında multikultural cəmiyyət kimi, özünü təqdim edir və bizim nümunəmiz bir çox ölkələrdə dərin təhlil olunur.

1993–2003-cü illərdə Azərbaycanda dövlət quruculuğu prosesi uğurla getmişdir, dövlətin əsasları qoyulmuşdur. Məhz buna görə biz həmişə deyirik ki, Heydər Əliyev müstəqil Azərbaycanın banisidir. Hər dəfə o tarixi yada salaraq, təəssüf hissi ilə qeyd edirik ki, əgər müstəqilliyimizin ilk illərindən Heydər Əliyev hakimiyyətdə olsaydı, bizim ölkəmiz Dağlıq Qarabağ problemi ilə üzləşməzdi. O heç vaxt imkan verməzdi ki, orada separatçılar baş qaldırsınlar. Heç vaxt imkan verməzdi ki, xalqımıza qarşı bu qanlı cinayət törədilsin.

Müstəqilliyimizin ilk illərində baş vermiş hadisələr bizə çox baha başa gəldi. O hadisələri yada salarkən, bir daha görürük ki, bu gün Azərbaycan, sözün əsl mənasında, inkişaf yolundadır. Bu gün Azərbaycan müstəqil dövlət kimi, özünü dünya miqyasında təsdiqləyib. Müstəqilliyə gedən yol, bax, qeyd etdiyim hadisələrdən başlanmışdır.

2003-cü ildən sonra Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla

qabağa gedə bilər. Biz ulu öndərin siyasi irsinə sadiqik, onun siyasətini davam etdiririk, zənginləşdiririk. Təbii ki, vəziyyət dəyişir, dünya dəyişir. Bu gün bölgədə yaşanan hadisələr, problemlər o vaxt mövcud deyildi. Biz bütün çağırışlara hazırıq. Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq, bu dövrə uyğunlaşdırır, ancaq ümumi siyasi xətdən kənara çıxmır. Bizim siyasi xəttimiz müstəqilliyin möhkəmlənməsidir. Bu gün Azərbaycan dünya miqyasında müstəqil siyasət aparan ölkələrdən biridir. Son illərin tarixi bunu bir neçə dəfə sübut edib.

Azərbaycanda vətəndaş cəmiyyəti formalaşıb. Cəmiyyət vahid amal uğrunda birləşib. Azərbaycanın gələcək inkişafı ilə bağlı, inkişafa gedən yollarla bağlı cəmiyyətdə heç bir fikir ayrılığı yoxdur. Xalq–iqtidar birliyi bu gün bizim inkişafımızın əsas şərtidir, sabitliyimizin əsas amilidir. İctimai-siyasi sabitlik göydən düşmür. Buna nail olmaq üçün düşünülmüş siyasət aparılmalıdır. O siyasət ki, xalqın tələblərinə, ümidlərinə cavab verir.

Bu gün bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi dayanır. Azərbaycanda təhlükəsizlik məsələləri lazımi səviyyədə təmin edilir. İctimai-siyasi sabitlik mövcuddur. İnsanların rifah halı yaxşılaşır. Baxmayaraq ki, bu gün hələ də davam edən dünya iqtisadi və maliyyə böhranı bizə də öz təsirini göstərib, hesab edirəm ki, biz bu böhrandan şərəflə çıxa bilmişik və bu gün iqtisadi sahədə heç bir problem yaşanmır. Maliyyə vəziyyətimiz sabitdir, iqtisadi inkişaf davam edir, neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi ilə əlaqədar problemlər olsa da, ancaq biz bu problemlərin öhdəsindən şərəflə gəlirik. Əminəm ki, 2016-cı ili də biz uğurla başa vuracağıq. Nəyə görə? Ona görə ki, əvvəlki illərdə dayanıqlı iqtisadi inkişaf təmin edilmişdir, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox ciddi addımlar atılmışdır. Bununla bərabər, Heydər Əliyevin neft strategiyası Azərbaycanda uğurla icra edilmişdir.

Bu strategiya 1994-cü ildən icra edilməyə başlandı. «Əsrin müqaviləsi»nin imzalanması tarixi hadisədir. Bu gün «Əsrin müqaviləsi» çərçivəsində aparılan işlər bizim iqtisadi gücümüzü artırır. 1996-cı ildə «Şahdəniz» qaz yatağının işlənməsi ilə bağlı imzalanmış kontrakt bu gün nəinki Azərbaycanın, bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir, Azərbaycanın geosiyasi imkanlarını və vəziyyətini xeyli möhkəmləndirir. 1999-cu ildə Bakı–Supsa neft kəmərinin inşası və ulu öndərin şəxsi iştirakı ilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməl daşının qoyulması Heydər Əliyev neft strategiyasının əsas amilləridir. Bu gün bu istiqamətdə əlavə tədbirlər görülür. Ulu öndərin başladığı layihələr tam icra edilibdir. 2006–2007-ci illərdə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri istismara verildi. Bu gün biz «Cənub Qaz Dəhlizi» layihəsinin icrası ilə fəal məşğuluq və bu istiqamətdə də çox böyük uğurlara imza atmışıq.

Azərbaycan bu gün dünyada etibarlı tərəfdaş kimi tanınır. Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmlənib. Azərbaycanı indi bütün dünya ictimaiyyəti tanıyır və bizim fəaliyyətimizə böyük rəğbətlə yanaşır. Azərbaycanda keçirilən qlobal beynəlxalq tədbirlər həm imkanlarımızı, gücümüzü göstərir, eyni zamanda, bizə olan hörməti daha da artırır. Bu il Bakıda BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çox böyük uğurla keçirildi. Keçən il Avropa oyunları böyük uğurla keçirildi, gələn il İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Bu və digər mötəbər tədbirlər dünyanın diqqətini cəlb edir. Bu bizim dövlətimizi gücləndirir. Əfsuslar olsun ki, Ermənistan, onun xaricdəki havadarları və erməni lobbisinin nümayəndələri uzun illərdir bizə qarşı çirkin kampaniya aparırlar. Onlar böhtan, şər, qarayaxma kampaniyası aparırlar ki, bizi ləkələsinlər. Onların geniş maliyyə imkanları var. Bir çox hallarda onlar başqa müəlliflərin arxasında gizlənərək, müxtəlif mətbu orqanlarda Azərbaycana qarşı qərəzli və təhqiredici yazılar da dərc edirlər, daim antiazərbaycan kampaniyası aparırlar. Onların bir nömrəli hədəfi Azərbaycandır. Belə olan halda, əlbəttə ki, biz öz həqiqətlərimizi, real vəziyyəti dünyaya çatdırmalıyıq. Əlbəttə, bu istiqamətdə bir çox işlər görülür. Ancaq

Bakıda, Azərbaycanın digər yerlərində keçirilən mötəbər beynəlxalq tədbirlər, əlbəttə ki, xüsusi əhəmiyyət daşıyır. Çünki buraya gələn qonaqlar Azərbaycan reallıqlarını öz gözləri ilə görürlər. Görürlər ki, bu, müasir, inkişafda olan ölkədir. Görürlər ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Görürlər ki, Azərbaycanda insanlar rahat, demokratiya şəraitində yaşayırlar. Azərbaycanda insan haqları qorunur, bütün azadlıqlar mövcuddur.

Azərbaycan sürətli inkişaf yolundadır. Bu inkişafı biz öz hesabımıza qazanmışıq. Nəyi qazanmışıqsa, nəyi əldə etmişiksə, ancaq Azərbaycan xalqının zəhməti hesabına, düşünülmüş siyasət nəticəsində əldə etmişik. Bizə heç kim kömək etməmişdir, etmir və etməyəcəkdir. Buna ehtiyac da yoxdur. Ancaq biz öz işimizi elə qurmuşuq ki, bütün sahələr üzrə konkret proqramlarımız var və onlar icra edilir.

Azərbaycan gələcək illərdə beynəlxalq aləmdə daha da böyük hörmətə layiq olacaqdır. Ölkə daxilində proseslər müsbət istiqamətdə gedir. Bizim regional əməkdaşlıqla bağlı təşəbbüslərimiz nəinki ölkəmizi, qonşu ölkələri də gücləndirir. Bizdə gələcək inkişafla bağlı çox dəqiq proqramlar var və gələcəyə baxışımız çox dəqiqdir. Növbəti illərdə görüləcək işlər bizi daha da gücləndirəcəkdir. Ölkəmizin gələcək inkişafı ilə bağlı bizdə heç bir şübhə yoxdur. Azərbaycan bundan sonra da inkişaf yolu ilə gedəcək. Ölkə qarşısında duran bütün problemlər öz həllini tapır və tapacaq, o cümlədən sosial sahədə. Baxmayaraq ki, neftin qiyməti 3-4 dəfə düşüb, Azərbaycanda maaşlar və pensiyalar bu il 10 faiz artırılıb, sosial proqramlar icra edilir, məktəb, xəstəxana tikintisi, köçkünlərin problemləri və digər sosial məsələlər öz həllini tapır.

Qarşımızda duran əsas vəzifə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz bu istiqamətdə həm siyasi, həm diplomatik və digər amillərdən istifadə edərək, öz mövqemizi danışıqlar prosesində gücləndiririk. Haqq-ədalət bizim mövqemizi dəstəkləyir, müdafiə edir. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır, hüquqi cəhətdən Azərbaycanın ayrılmaz hissəsidir. Beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr bizim mövqemizi gücləndirir və müdafiə edir.

O ki qaldı Ermənistan ilə Azərbaycan arasındakı fərqə, bu fərq göz qabağındadır. Mən dəfələrlə demişəm, həm siyasi müstəvidə, iqtisadi sahədə, bütün digər sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində Azərbaycanın üstünlüyünü görməmək mümkün deyil. Aprel döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər.

Beləliklə, bizim gələcək planlarımızla bağlı çox dəqiq təsəvvürümüz var. Biz ölkəmizi daha da gücləndirməliyik, Azərbaycan xalqının rifah halını daha da artırmalıyıq və dünya miqyasında Azərbaycan daha da möhkəm yer tutmalıdır. Bir sözlə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün, əlbəttə ki, beynəlxalq norma və prinsiplər əsas rol oynayır. Amma biz daha da güclü olmalıyıq və bu yolla gedirik. Bu yol Heydər Əliyev yoludur. Biz onun siyasətinə sadiqik, bu yolla gedirik və bundan sonra da gedəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik. Sağ olun.

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB REUVEN RİVLİNƏ**

Hörmətli cənab Prezident!

İsrail Dövlətinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasında daim genişlənən dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsrail xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 may 2016-cı il*

## FƏXRİ XİYABANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2016-cı il*

*Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin mayın 10-u anadan olmasının 93-cü ildönümü günüdür. Artıq 13-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edir.*

*Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü Azərbaycanın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd edilir. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün – Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri yad olunur. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri də ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə silsilə tədbirlər keçirərək, görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.*

*Hər il xalqımızın xilaskar oğlunun doğum günündə olduğu kimi, bu il də mayın 10-da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurlar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Burada Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək, məzarı üzərinə gül dəstələri qoydular.*

*Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin üzvləri iştirak edirdilər.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ KAMPANİYASINDA İŞTİRAK

*10 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva mayın 10-da Zığ – Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun 29–30-cu kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə kampaniyasında iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış oldular.*

*Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov prezident İlham Əliyevə nazirlik tərəfindən 2008–2016-cı illər ərzində salınmış və damcılı suvarma sistemi ilə təchiz edilmiş yaşıllıqlar barədə məlumat verdi. Bildirildi ki, həmin müddətdə Bakı–Şamaxı magistral avtomobil yolunun ətrafında 622 mindən, Bayıl yamacında 463 mindən artıq, Bakı–Qazax magistral avtomobil yolunun Ələt–Hacıqabul hissəsində 1 milyon 600 minə yaxın, Bakı–Quba magistral avtomobil yolunun ətrafında 680 mindən çox, Bakı–Astara magistral avtomobil yolunun Ələt–Salyan hissəsində 500 minə yaxın ağac əkilib. Beləliklə, 2008–2016-cı illərdə respublika ərazisində nazirlik tərəfindən sahəsi 3776 hektar, uzunluğu isə 190 kilometr olan ərazidə ümumilikdə 4 milyon 826 mindən çox ağac əkilərək, onlara zəruri aqrotexniki qulluq göstərilib.*

*Qeyd olundu ki, yaşıllıqlar salınarkən zeytun ağaclarına daha çox üstünlük verilib. Buna görə də hazırda bu ağacların əkildiyi sahələr son 100 ildə Azərbaycanda salınmış zeytun bağlarının sahəsindən 3 dəfə çoxdur. Əkilmiş zeytun ağaclarının sayı isə artıq 1 milyon 268 mini keçib. Son 8 ildə nazirlik tərəfindən yaşıllıq*

*sahələrinə 11 min kilometr uzunluğunda damcılı suvarma xətləri çəkilib.*

*Dövlətimizin başçısına məlumat verildi ki, indiyədək Zığ–Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun ətrafında ümumi sahəsi 969 hektar, uzunluğu 20 kilometr olan ərazidə 58 növdə 1 milyondan artıq ağac əkilib. Onların arasında zeytun, Eldar şamı, sərv, tuya, oleandr, Arizona sərvi, akasiya, göyrüş, lələk, tut, nar, badam, sarağan, meliya və digər ağac növləri var.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ərazidə ağac əkdilər.*

*Dövlətimizin başçısı və xanımı ağac əkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdirdilər.*

*Ərazisi 12 hektar olan bu yaşıllıq sahəsində mayın 10-da ümumilikdə 10 minə yaxın zeytun, Eldar şamı, sərv, Arizona sərvi, mavi küknar, limon sərvi, leylandi ağacları əkildi.*

*Qeyd edək ki, hazırda ölkə ərazisində ətraf mühitin sağlamlaşdırılması ilə bağlı ekoloji tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair imzaladığı sənədlər bu sahədə mühüm nailiyyətlər əldə etmək üçün hərtərəfli şərait yaradıb. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində də ölkəmizdə yaşıllıqların artırılmasına, mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirilir. Bu məsələdə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.*

## NİDERLAND KRALLIĞININ İQTİSADİ İŞLƏR NAZİRİ HENK KAMPIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Niderland Krallığının İqtisadi İşlər naziri Henk Kampın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Niderland Krallığının İqtisadi İşlər naziri Henk Kamp ölkəmizdə və paytaxtımızda aparılan quruculuq işlərinin, tarixi memarlıq nümunələri ilə vəhdət təşkil edən müasir binaların onda böyük təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Henk Kamp ölkələrimiz arasındakı əlaqələrin səviyyəsinin razılıq doğurduğunu bildirdi. O, Azərbaycanda Niderland şirkətləri üçün yaradılan şəraiti yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Niderland arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, ölkəmizdə xarici şirkətlərin, o cümlədən Niderland şirkətlərinin səmərəli fəaliyyət göstərməsi üçün bütün şəraitin yaradıldığını bildirdi. Paytaxtımızda nadir memarlıq abidələrinin qorunduğunu vurğulayan prezident İlham Əliyev Füzuli küçəsindəki tarixi binanın yerinin Niderland şirkəti tərəfindən dəyişdirildiyini qeyd etdi.*

*Görüşdə kənd təsərrüfatı, ekologiya, alternativ enerji sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# FRANSA SAHİBKARLAR TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Fransa Sahibkarlar Təşkilatının – MEDEF-in nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Sizi görməyimə çox şadam. Ümidvaram ki, Azərbaycana səfəriniz maraqlı keçir. Təmsil etdiyiniz bir çox şirkət uzun illərdir ki, ölkəmizdə fəaliyyət göstərir. Bir sözlə, biz bir-birimizi tanıyırıq.

MEDEF ilə Fransada, o cümlədən Bakıda keçirdiyim görüşlər xatirimdədir. Bu, artıq dördüncü görüşümüzdür və bu göstərir ki, aramızda mütəmadi təmaslar var. Bu çox yaxşı haldır, çünki ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən iqtisadi sahədə tərəfdaşlığın, əməkdaşlığın inkişaf etdirilməsində birgə, ümumi maraqlarımız var. Lakin təbii ki, münasibətlərimizin kökündə siyasi əlaqələrimiz dayanır. Çox şadıq ki, Fransa ilə Azərbaycan arasında münasibətlər yaxşı tarixə malikdir. Bu, fəal əməkdaşlıq və tərəfdaşlıq tarixidir.

Yəqin ki, bilirsiniz, prezident Olland Azərbaycana 2 dəfə, prezident Sarkozi isə 1 dəfə səfər etmişdir. Mənim Fransaya bir neçə səfərim – dövlət, rəsmi və işgüzar səfərlərim olub. Aramızda olduqca fəal siyasi dialoq, məsləhətləşmələr mövcuddur və bu əlaqələr dərin iqtisadi əməkdaşlıq üçün şərait yaradır. Müxtəlif sahələrdə zəngin təcrübə toplamışıq. Əməkdaşlıq əslində neft və qaz sahəsində başlanıb. Ən böyük fransız sərmayələri, əlbəttə ki, neft və qaz sahəsinin payına düşür. Lakin təbii ki, biz iqtisadiyyatın şaxələndirilməsi prioritetini nəzərə alaraq, digər sahələrdə də daha çox sərmayə görmək istərdik. Əminəm ki, bu səfərdən sonra bizim reallaşa biləcək daha çox layihələrimiz olacaq. Lakin iqtisadi əməkdaşlığımız artıq kifayət qədər müxtəlifdir və nəqliyyat – hava

nəqliyyatı, ictimai nəqliyyat, metro, kosmos sahələrini əhatə edir. Fransız şirkətləri bizə kosmos sənayesinin yaradılmasında kömək edir.

Biz ilk peykimizi orbitə çıxarmışıq. Siz artıq ikinci peyki hazırlayırsınız. Əməkdaşlığımızı, həmçinin kənd təsərrüfatı sektorunda da başlamaqda ümidlərimiz böyükdür. Artıq bir neçə kiçik layihələr başlanıb. Bunun böyük potensialı var və bu, ixrac imkanlarını genişləndirmək məqsədilə Azərbaycan üçün prioritetlərdən biridir.

Humanitar və təhsil sahəsində yaxşı əməkdaşlığımız mövcuddur. Ümidvaram ki, Bakıda Fransız liseyinə səfər etmək imkanınız olacaq. Bu lisey tərəfdaşlığımızın müsbət nümunəsidir. Biz həmçinin birgə universitetin yaradılması üzərində çalışırıq. «Ağ şəhər» çərçivəsində yaradılan fransız məhəlləsi də çox gözəldir. Bu bir növ Parisin bir guşəsini xatırladır. Əgər səfər etmək imkanınız olarsa, maraqlı məkandır. Xüsusən də nəzərə alsaq ki, həmin ərazi 100 il əvvəl orada tikilmiş neftayırma obyektlərinin olması ilə əlaqədar əvvəllər «Qara şəhər» adlanırdı. Bütün ətraf yerlər isə çirklənmişdi. İndi həmin layihə «Ağ şəhər» adlanır. Onun rəmzi adı var. Həmin layihənin böyük, hətta nəhəng hissəsində Paris məhəlləsinin salınması nəzərdə tutulur. Əlbəttə ki, humanitar sahə hər hansı biznes fəaliyyətini birbaşa yaratmır. Lakin o, dostluq əlaqələrinin, daha çox anlaşmanın və tərəfdaşlığın yaradılmasında çox mühüm rol oynayır.

Ümidvaram ki, hazırda biz diqqətimizi əməkdaşlığımızın, artıq qeyd etdiyimiz enerji, nəqliyyat, kosmos sənayesi və digər ənənəvi sahələri ilə yanaşı, Azərbaycan üçün prioritet xarakter daşıyan sektorlara yönəldə bilərik. Yəni neft qiymətlərindən, neft və qaz sektorundan asılılığın azaldılması və xalqımız üçün yaxşı yaşayış standartlarını təmin edə biləcək davamlı iqtisadiyyatın qurulması nəzərdə tutulur. Biz bu istiqamətdə işləyirik, iqtisadi islahatları və Azərbaycanda iş yerlərinin artırılmasına yönəlmiş islahatları həyata keçiririk. Son illər ərzində fikrimcə, iqtisadi nailiyyətlər böyük təəssürat bağışlayır. Biz bir çox sosial məsələlərin həllinə nail olduq. Yoxsulluğu 5 faizə qədər azaltdıq, işsizlik, demək olar

ki, eyni səviyyədədir və ölkəmizdə münbit sərmayə şəraiti mövcuddur. Son 15 il ərzində Azərbaycana 200 milyard dollardan artıq vəsait sərmayə kimi yatırılıb. Həmin investisiyaların yarısı xarici sərmayələrdir. Düzdür, xarici sərmayələrin əksər hissəsi neft və qaz sektoruna yatırılıb. Hazırda isə iqtisadiyyatın digər sahələrinə daha çox diqqət yetirilməlidir. Birmənalı olaraq, neft qiymətləri ilə bağlı vəziyyət iqtisadiyyatımıza mənfi təsir göstərib. Bu, əsasən əvvəllər əldə etdiyimiz gəlirlərlə bağlıdır. İndi isə qiymətlərin 3-4 dəfə aşağı düşdüyü dövrdə gəlirlərimiz də müvafiq olaraq 3-4 dəfə azalıb. Biz bunu islahatların daha fəal qaydada həyata keçirilməsi ilə əvəzləmək və qeyri-neft sektoruna daha çox diqqət yönəltmək istəyirik. Bu sektor hazırda ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir və hesab edirəm ki, bu, şaxələndirmənin yaxşı göstəricisidir. Lakin biz daha çox çalışmalıyıq. 2016-cı il üçün nəzərdə tutduğumuz planlar sabitləşmə ilə bağlıdır. Bu, artıq baş verir.

Hazırda maliyyə vəziyyəti sabitdir. Eyni zamanda, büdcə gəlirləri yaxşı səviyyədədir. 2017–2018-ci illər qeyri-neft sektorunun çox fəal inkişaf illəri olacaq. Dövlət və özəl sərmayələr artıq planlaşdırılıb. Əlbəttə, infrastruktur layihələri prioritet olacaq. Həmçinin maraqlı olduğumuz sahələrə xarici sərmayələri gözləyirik. Biz sərmayədarların maraqları ilə ölkəmizin maraqları arasında tarazlığı tapmalıyıq. Bu günə qədər, fikrimcə, biz bu vəzifənin öhdəsindən gəlmişik. Lakin bu il yeni iqtisadi vəziyyət ilidir. Dəfələrlə qeyd etdiyim kimi, biz artıq neftdən sonrakı dövrə qədəm qoymuşuq. Demək olmaz ki, neft və qaz erası bitib. Sadəcə, biz bu faktoru kənara qoymalıyıq və öz iqtisadi strategiyamızı elə formalaşdırmalıyıq ki, sanki bizdə neft və qaz yoxdur.

Əlbəttə, zəngin enerji resurslarına malik olmayan inkişaf etmiş ölkələrin, o cümlədən Fransanın təcrübəsi yaxşı bir nümunədir. Əminəm ki, gələn illər ərzində Azərbaycanda neft və qazdan asılılıq o qədər də gözəçarpan olmayacaq. Bir sözlə, mən belə bir böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyinizə görə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Bu, fransız şirkətlərinin ölkəmizə marağının yaxşı göstəricisidir. Biz də fransız şirkətləri ilə

işləməkdə eyni dərəcədə maraqlıyıq. Ümidvaram ki, çox maraqlı görüşləriniz olacaq və bu görüşlərin nəticəsində bizim yeni layihələrimiz, müqavilələrimiz olacaq və əməkdaşlığımız yeni səviyyəyə qalxacaq. Bir daha xoş gəlmisiniz!

**Aurelia Buşez** (*Fransanın Azərbaycandakı səfiri)*: Cənab Prezident, MEDEF-in Biznes Şurasının prezidenti və SUEZ Qrupunun baş direktorunun müavini xanım Döbonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdiyinizə görə Sizə təşəkkür edirik. Qeyd etdiyiniz kimi, nümayəndə heyətinin tərkibi və burada təmsil olunan sektorların müxtəlifliyi iqtisadi əməkdaşlığımızın dinamikasını nümayiş etdirir. Lakin Sizin vurğuladığınız kimi, həqiqətən də Fransa ilə Azərbaycan arasında ikitərəfli əlaqələr möhkəm təməli olan yüksəkkeyfiyyətli əlaqələrə əsaslanır. Biz bilirik ki, prezident Ollandın 2014–2015-ci illərdəki səfəri bizim davam etdirmək əzmində olduğumuz bir çox layihələrin təməlini qoydu. Mən həmçinin vurğulamaq istərdim ki, Azərbaycana səfər bu yaxınlarda burada olmuş Fransanın Dövlət katibi Arlem Dezirdə böyük təəssürat yaradıb. Çox təşəkkür edirik və mən sözü MEDEF-in prezidentinə vermək istəyirəm.

**Mari-Anj Döbon** (*MEDEF-in Biznes Şurasının prezidenti və SUEZ Qrupunun baş direktorunun müavini*): Cənab Prezident, bütün həmkarlarım adından nümayəndə heyətimizi qəbul etdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkürümü bildirmək istəyirəm. Düşünürəm ki, qeyd etdiyiniz kimi, Siz bu masanın arxasında olan Fransa şirkətlərini, bütün fəaliyyət seqmentlərini çox yaxşı tanıyırsınız. Biz bir daha Sizin ölkənizdə fəaliyyətimizi davam etdirməyə, əlaqələri daha da inkişaf etdirməyə hazır olduğumuzu nümayiş etdirmək istərdik. Qeyd etdiyiniz kimi, dialoq çox zəngin olub və iki ölkə arasındakı əlaqələr etimad, hörmət və deyə bilərik, bağlılığa əsaslanır. Düşünürəm ki, bu, fəaliyyətin inkişafını davam etdirmək üçün çox yaxşı başlanğıcdır. Sizin Davosdakı çıxışınız ölkəni dəyişmək və yeni islahatlara başlamaq üçün çox aydın mesaj idi. Təşəkkür edirəm.

**İlham Əliyev**: Biz Azərbaycanda daha cəlbedici biznes mühitinin yaradılması üzərində çalışırıq. Çünki 1991-ci ildə

müstəqilliyi əldə etdikdən sonra ölkəmiz çox yoxsul vəziyyətdə idi. Vəziyyət tamamilə nəzarətdən çıxmışdı, siyasi böhran hökm sürürdü, vətəndaş müharibəsi baş verirdi. Həmçinin Ermənistanın təcavüzü, torpaqlarımızın işğalı çox ağır və faciəli anlar idi. Biz dövləti qurmalı idik. İqtisadiyyat tənəzzülə uğramışdı. İnflyasiya 1000 faizdən artıq idi. Sənayedə durğunluq yaranmışdı. Ölkə təcrid olunmuşdu. Heç kəs Azərbaycan haqqında heç nə bilmirdi. Bir sözlə, irəliyə doğru getmək üçün yeganə yol ölkəni xarici sərmayələrə açıq etmək idi. Bu, yeganə yol idi.

1994-cü ildə hökumətimiz Azərbaycanı dünyaya açan «Əsrin müqaviləsi»ni imzaladı. Bu bizə sərmayələri cəlb etmək, iqtisadiyyatı sabitləşdirmək imkanı yaratdı. 1996-cı il artıq resessiyanın dayandığı ilk il oldu. 1996-cı ildən etibarən ölkəmizdə iqtisadi artım dövrü başlandı. Ən sürətli artım 2000-ci illərin ortalarında oldu. Bu əsasən, neft hasilatının və qiymətinin artımı ilə bağlı idi. Biz vəsaitləri müasir infrastrukturu yaratmaq məqsədilə sərf etdik, çünki buna ehtiyacımız var idi. Sosial infrastruktur yaradıldı. Azərbaycanda son 10 il ərzində 3 mindən artıq məktəb və 500-dən çox xəstəxana tikilib. Bütün bunlar sosial layihələrdir. Elektrik enerjisi stansiyaları tikilib. Son 10 il ərzində əvvəlki bütün təcrübə illəri ilə müqayisədə daha çox elektrik enerjisinin istehsal obyektlərini inşa etmişik. Hazırda biz elektrik enerjisini ixrac edirik. Qazlaşdırma qazla zəngin olan ölkədə cəmi 20 faiz səviyyəsində idi. İndi bu, 90 faizdir. Biz qazı idxal edirdiksə, indi onu ixrac edirik.

Yol infrastrukturuna gəldikdə, minlərlə kilometrlik, bəlkə də 10 min kilometrdən artıq yollar çəkilib. Bütün bunlar inkişaf, yenidənqurma və yerli, xarici sərmayə şirkətləri üçün yaratdığımız əsaslar oldu. Hazırda elə bir vaxtdır ki, biz qeyri-neft sektoruna heç vaxt görünməmiş dərəcədə diqqət yetirməliyik. Ölkəmizi xarici investorlar üçün daha cəlbedici etməliyik. Bu səbəbdən, hazırda sürətləndirdiyimiz fəal və dərin iqtisadi islahatlar bu məqsədi daşıyır.

Azərbaycanda sərmayə qoymağı arzulayan xarici şirkətlərin qarşısında olan maneələr hansılardır? Biznes mühitində olan maneələr nədir? Gömrük qaydaları, vergilər necədir? Xarici və yerli şirkətlərin sərmayələri üçün digər maneələr nədən ibarətdir? Bununla bağlı ciddi qərarlar qəbul etmişik. Onlar artıq öz effektivliyini göstərir. Məsələn, dövlət qurumlarının özəl sektorda apardığı yoxlamaların məhdudlaşdırılması nəzərdə tutulur. Əgər 2015-ci ilin birinci rübündə 20 min yoxlamamız var idisə, bu rəqəm 2016-cı ilin birinci rübündə cəmi 30 olub. Biznes mühitinin yaxşılaşdırılması, şəffaflıq, qəbul edilmiş ciddi qərarlar, Dünya Bankının «Doing Business» hesabatında reytinq göstəriciləri… Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə dünyada 40-cı yerdədir. Bir sözlə, nailiyyətlər əldə edilib. İndi isə biz daha çox işlər görməliyik. Əlbəttə, enerji faktoru öz mühüm rolunu oynamaqda davam edəcək. Hazırda biz böyük vəsaitlər tələb edən «Cənub Qaz Dəhlizi» layihəsini həyata keçiririk və öz vəsaitlərimizdən milyardları onun həyata keçirilməsinə yönəltməliyik. Lakin bu, uzunmüddətli strateji layihədir. Bununla yanaşı, hazırda biznes fəaliyyətinə şərait yaradacaq layihələr mühüm əhəmiyyət kəsb edir.

**PARAQVAY RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HORASİO KARTESƏ**

Hörmətli cənab Prezident!

Paraqvay Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Paraqvay xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 may 2016-cı il*

## RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ BAŞÇISI RAMAZAN ABDULATİPOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Rusiya Federasiyası Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ilk növbədə, öz adından və bütün Azərbaycan xalqı adından görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin xatirəsinə şəxsən Ramazan Abdulatipov və qardaş Dağıstan xalqı tərəfindən göstərilən hörmətə görə minnətdarlığını bildirdi. Dünən Mahaçqala şəhərində Əziz Əliyevin abidəsinin təntənəli açılışını və bununla bağlı Dağıstan Respublikasının başçısının şəxsən qərar qəbul etməsini yüksək qiymətləndirən prezident İlham Əliyev bu təntənəli mərasimdə ölkəmizin böyük nümayəndə heyətinin iştirak etdiyini vurğuladı. Dövlətimizin başçısı mərasimdə Ramazan Abdulatipovun çıxışı zamanı onun ulu öndər Heydər Əliyev, Əziz Əliyev və Azərbaycan Respublikasının Prezidenti haqqında dediyi xoş və səmimi sözlərə görə təşəkkürünü bildirdi. Əziz Əliyevin Azərbaycanın, Dağıstanın görkəmli dövlət xadimi olduğunu qeyd edən prezident İlham Əliyev bir ölkə başçısı, eyni zamanda, Əziz Əliyevin nəvəsi kimi, dağıstanlıların onu daim yaddaşlarında saxlamalarını, xatirəsinə hörmətlə yanaşmalarını, Dağıstanın inkişafı və xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində gördüyü işləri yüksək qiymətləndirmələrinin onun üçün ikiqat xoş olduğunu dedi. Prezident İlham Əliyev bu cür xoş ənənələrin bu gün Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin, o cümlədən Dağıstanla Azərbaycan Res-*

*publikasının əməkdaşlığının inkişafında önəmli faktorlardan biri olduğunu qeyd etdi.*

*Dağıstan Respublikası başçısının «Əziz Əliyev və Dağıstan» adlı kitaba müəlliflik etməsindən məmnunluğunu ifadə edən prezident İlham Əliyev bu kitabın yazılmasına vaxt tapdığına və orada Əziz Əliyev haqqında ifadə olunan xoş sözlərə görə, Əziz Əliyevin Dağıstan və Azərbaycan qarşısındakı xidmətlərinin, İkinci dünya müharibəsi illərində göstərdiyi fəaliyyətin işıqlandırılmasına görə təşəkkürünü bildirdi.*

*Dövlətimizin başçısı vurğuladı ki, bu gün həm də Azərbaycanda «Dağıstan mədəniyyət günləri» başlanır və bu bizim ölkəmiz üçün önəmli bir hadisədir. Dağıstan həmişə bizim üçün dərin tarixi tellərlə bir-birimizə bağlı olan qardaşlarımızın yaşadığı doğma diyar olub və olacaq. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanla Dağıstan arasında qardaşlıq telləri bu gün Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hər iki tərəfin strateji əlaqələr kimi xarakterizə etdiyi ikitərəfli münasibətlərin inkişafında önəmli rol oynayır. Dövlətimizin başçısı İlham Əliyev Ramazan Abdulatipovun rəhbərliyi ilə Dağıstanda bu gün həyata keçirilən inkişaf proseslərinin, mövcud sabit ictimai-siyasi vəziyyətin Azərbaycanda böyük məmnunluq hissi doğurduğunu qeyd etdi və əldə edilən böyük uğurlar münasibətilə təbriklərini çatdırdı.*

*Xoş sözlərdən məmnun olduğunu bildirən Ramazan Abdulatipov ilk növbədə, Dağıstanla əməkdaşlıq məsələlərinə göstərdiyi diqqətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və dedi: «Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin əsası milli liderlərimiz Heydər Əliyev və Vladimir Putin tərəfindən qoyulmuşdur və Siz bu gün müasir Azərbaycanın rəhbəri kimi, ölkələrimiz arasında strateji əməkdaşlığa əsaslanan münasibətlərimizin inkişaf etdirilməsi siyasətini davam etdirirsiniz. Vladimir Putin hələ 2001-ci ildə Rusiya–Azərbaycan münasibətlərinin əhəmiyyətini qeyd edərkən, ölkələrimizin inkişafında regionlararası əməkdaşlığın rolunu vurğulamışdı. Mənim bu səfərim də həmin baxışlara əsaslanır və biz*

*Azərbaycanla əməkdaşlığı inkişaf etdiririk. Biz dünən Rusiyanın, Sovetlər İttifaqının, Azərbaycanın və Dağıstanın böyük dövlət xadimi Əziz Əliyevin abidəsinin açılışını bayram etdik. Əziz Əliyev dəfələrlə demişdi ki, biz bir xalqıq və doğrudan da minillik tarixi əlaqələrimizin ümumi kökləri, çox yaxın mədəniyyətləri və ənənələri vardır. Bundan başqa, biz 200 ildən artıqdır ki, rus xalqı ilə bağlıyıq».*

*Ramazan Abdulatipov prezident İlham Əliyevlə əvvəlki görüşləri məmnunluqla xatırladaraq, dövlətimizin başçısının rus dili və mədəniyyəti haqqında söylədiyi dəyərli fikirlərin çox önəmli olduğunu bildirdi.*

*Görüş zamanı əməkdaşlığın müxtəlif sahələrdə perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Norveç xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 may 2016-cı il*

## BOLQARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DANİEL MİTOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Bolqarıstan Respublikasının Xarici İşlər naziri Daniel Mitovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Bolqarıstan prezidenti Rosen Plevneliev və Baş nazir Boyko Borisov ilə həm Bolqarıstanda, həm Azərbaycanda keçirdiyi görüşləri məmnunluqla xatırladaraq, bu görüşlərin müntəzəm xarakter daşımasının önəmini qeyd etdi. Əlaqələrimizin uğurla və dostluq ruhunda inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Bolqarıstanın Azərbaycanın yaxın dostlarından biri olduğunu dedi. Siyasi sahədə münasibətlərimizin çox yaxşı səviyyədə olduğunu qeyd edən prezident İlham Əliyev ölkəmizin Bolqarıstan ilə iqtisadi əməkdaşlığı genişləndirmək niyyətində olduğunu bildirdi. Dövlətimizin başçısı Bolqarıstanın «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasında yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə edərək, «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla icra olunduğunu vurğuladı. Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin yüksək səviyyədə olduğunu diqqətə çatdıran prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlıq planlarını dəstəklədiyinə görə Bolqarıstana təşəkkürünü bildirdi. Avropa İttifaqı ilə danışıqların uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirən dövlətimizin başçısı strateji əhəmiyyət daşıyan əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.*

*Ölkələrimiz arasında səmimi, dostluq və qarşılıqlı etimada əsaslanan münasibətlərin önəmini vurğulayan Azərbaycan pre-*

*zidenti İlham Əliyev son vaxtlar Bolqarıstan ilə Azərbaycan arasında mədəniyyət sahəsində də fəal əməkdaşlıq aparıldığını qeyd etdi.*

*Dövlətimizin başçısı Bolqarıstanın Xarici İşlər naziri Daniel Mitovun ölkəmizə səfərinin səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Bolqarıstanın Xarici İşlər naziri Daniel Mitov göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlıq etdi. Ölkələrimiz arasında əlaqələrin çox yüksək səviyyədə olduğunu vurğulayan Daniel Mitov dinamik şəkildə inkişaf edən ikitərəfli münasibətlərimizin dostluq və strateji tərəfdaşlıq xarakteri daşıdığını dedi və əlaqələrimizi bu istiqamətdə gücləndirməyin zəruriliyini qeyd etdi.*

*Enerji layihələrindən danışan bolqarıstanlı nazir «Cənub Qaz Dəhlizi» layihəsinin ölkəsi üçün strateji əhəmiyyət daşıdığını vurğulayaraq, bu layihənin təkcə Azərbaycan ilə Bolqarıstan arasında deyil, eləcə də Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının genişləndirilməsi üçün imkanlar açacağına əminliyini bildirdi.*

*Görüşdə kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRİ MAHMUD HÖCCƏTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də İran İslam Respublikasının Kənd Təsərrüfatı naziri Mahmud Höccətinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafının razılıq doğurduğunu dedi. Azərbaycan ilə İranın dost, qardaş, qonşu ölkələr olduğunu vurğulayan prezident İlham Əliyev hər iki ölkənin siyasi rəhbərliyinin İran–Azərbaycan əlaqələrinin daha da yüksək səviyyədə olması üçün çalışdıqlarını məmnunluqla qeyd etdi. Kənd təsərrüfatının ölkələrimiz üçün vacib sahələrdən biri olduğunu deyən dövlətimizin başçısı digər sahələrdə olduğu kimi, bu sahədə də Azərbaycan–İran əməkdaşlığının yaxşı nəticələr verəcəyini əminliklə bildirdi. Prezident İlham Əliyev İranda kənd təsərrüfatı sahəsində çox böyük uğurların əldə edildiyini vurğulayaraq, Azərbaycanda da bu sahənin daha da inkişaf etdirilməsi və ölkəmizin öz ərzaq təhlükəsizliyini təmin etməsi istiqamətində böyük işlərin görüldüyünü dedi.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Kənd Təsərrüfatı naziri Mahmud Höccətinin başcılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı əməkdaşlığımıza dair danışıqların səmərəli olacağına və birgə layihələrin icrası istiqamətində ciddi addımların atılacağına ümidvar olduğunu bildirdi.*

*Nazir Mahmud Höccəti İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səmimi salamlarını dövlətimizin başçı-*

*sına çatdırdı. O, son vaxtlar ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərin İranda böyük məmnunluqla qarşılandığını dedi.*

*Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı sahəsində investisiya qoyuluşu, birgə müəssisələrin yaradılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## ŞAİR OLJAS SÜLEYMENOVA

Əziz Oljas Süleymenov!

Sizi – müasir ədəbiyyatın görkəmli nümayəndəsini və tanınmış ictimai xadimi 80 illik yubileyiniz münasibətilə təbrik edirəm. Sizə səmimi-qəlbdən xoşbəxtlik, cansağlığı, uzun ömür və çoxşaxəli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Hələ gənclik illərinizdə Sizə böyük populyarlıq gətirən poetik istedadınız fikrin dərinliyi və poetik dilin bənzərsizliyi ilə həmişə oxucuları cəlb edib. Poeziyanıza xas olan gerçəkliyin fəlsəfi qavranışı Sizin nəsrinizdə, publisistikanızda və kinodramaturgiyanızda daha da inkişaf edib. Bütün Azərbaycan xalqı üçün Siz ilk növbədə, 1990-cı ilin Qanlı Yanvar hadisələri dövründə itkilərimizin bütün ağırlığını bizimlə bölüşən və öz ictimai fəaliyyətində Azərbaycan gerçəkliklərini son dərəcə obyektiv işıqlandıran bir insansınız. Antinüvə hərəkatında Sizin parlaq vətəndaş mövqeniz dünyada nüvə silahı sınaqlarının qadağan edilməsi uğrunda mübarizədə, heç şübhəsiz, öz rolunu oynayıb.

Müxtəlif xalqların tarixinə və ədəbiyyatına yeni yanaşmaların formalaşmasının zəruriliyi barədə Sizin qeyri-ordinar ideyalarınız mədəniyyətlərarası dialoqa layiqli töhfə verib. BMT Sivilizasiyalar Alyansının bu yaxınlarda Bakıda keçirilən VII Qlobal Forumunda iştirakınız bir daha göstərdi ki, yarım əsrdən artıq müddətdə yaradıcılığınıza nüfuz etmiş mədəniyyətlərin qarşılıqlı mənəvi təsiri və bir-birini zənginləşdirməsi ideyası Sizə əvvəlki kimi yaxındır.

Sizə uğurlar diləyirəm.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 may 2016-cı il*

## ABŞ-ın DÖVLƏT KATİBİ CON KERRİ İLƏ GÖRÜŞ

*Vyana*

*16 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Avstriya Respublikasına işgüzar səfər etmişdir. Avstriyaya səfəri çərçivəsində Azərbaycan Prezidenti ABŞ-ın Dövlət katibi Con Kerri ilə görüşmüşdür.*

*Görüşdə ABŞ-ın Dövlət katibi Con Kerri ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin son dövrlər cəbhə xəttində baş verən hadisələrdən narahatlığını ifadə etdi. Bu səbəbdən də həmsədr dövlətlərin Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında görüşün keçirilməsi qənaətinə gəldiklərini vurğulayan Con Kerri bu görüşdə bir sıra məsələlərlə bağlı müəyyən razılığın əldə olunmasının vacibliyinə toxundu.*

*ABŞ-ın Dövlət katibi tərəflərin danışıqlar masası arxasına qayıtmalarını, qarşılıqlı etimad tədbirlərinin və anlaşmanın gücləndirilməsini istədiklərini bildirdi. Qeyd etdi ki, bu yolla danışıqlar prosesinə konstruktiv xarakter verilməli və danışıqlar davam etdirilməlidir.*

*Azərbaycan prezidenti İlham Əliyev bu görüşün təşkilinə görə Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı bu məsələlər ətrafında danışıqların davam etdirilməsinə hazır olduğunu vurğuladı.*

## AVROPA İTTİFAQININ ALİ NÜMAYƏNDƏSİ FEDERİKA MOQERİNİ İLƏ GÖRÜŞ

*Vyana*

*16 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin hazırkı vəziyyətindən məmnunluq ifadə olundu. Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerininin Azərbaycana səfərinin yüksək səviyyədə keçdiyi qeyd edildi və səfərin yaxşı nəticələrinin olduğu bildirildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyət ətrafında fikir mübadiləsi aparıldı. Qarşılıqlı anlaşma və etimad tədbirləri nəticəsində atəşkəs rejiminə riayət olunmasının vacibliyi vurğulandı, bu il aprelin əvvəlində qoşunların təmas xəttində baş vermiş hadisələri müzakirə edildi.*

## AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*Vyana*

*16 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın, ABŞ-ın Dövlət katibi Con Kerrinin, Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun, Fransa Respublikasının Avropa məsələləri üzrə Dövlət katibi Harlem Desirin, ATƏT-in Minsk qrupunun həmsədrlərinin, ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşikin iştirakı ilə mayın 16-da Vyanada görüş keçirilmişdir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 16-da Avstriya Respublikasına işgüzar səfəri başa çatdı.*

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kamerun xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 may 2016-cı il*

# MAASTRİXT MENECMENT MƏKTƏBİNİN PREZİDENTİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*18 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Maastrixt Menecment Məktəbinin prezidenti, Niderland Krallığı Senatının sabiq sədri, AŞPA-nın Fəxri sədri Rene van der Lindeni qəbul etmişdir.*

*Azərbaycan ilə Niderland arasında əlaqələrin fəal şəkildə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu işdə Rene van der Lindenin səylərini yüksək qiymətləndirdi. Ölkələrimiz arasında qarşılıqlı maraq doğuran məsələlərin daim artdığını deyən prezident İlham Əliyev iki dövlətin biznes sahəsində əməkdaşlığına toxunaraq, getdikcə daha çox Niderland şirkətlərinin Azərbaycanda fəaliyyət göstərdiyini qeyd etdi. Niderlandın Maastrixt Universiteti ilə Azərbaycanın ADA Universiteti arasında qurulan əlaqələrin strateji əhəmiyyət daşıdığını vurğulayan dövlətimizin başçısı bütün bunları əməkdaşlığımızın müsbət göstəriciləri kimi dəyərləndirdi.*

*Azərbaycanın ölkəsi ilə əməkdaşlığından məmnunluğunu ifadə edən Rene van der Linden bu əməkdaşlığa, xüsusən Niderlandın Limburq vilayəti ilə qurulan əlaqələrə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Rene van der Linden hər iki tərəfin bu əlaqələrin inkişafı istiqamətində səylərini əsirgəmədiyini dedi.*

*Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı, o cümlədən Azərbaycan ilə Niderland arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndirilməsi, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Rusiya ilə Azərbaycan arasında əlaqələrin uğurla və dinamik şəkildə inkişaf etdiyini deyən dövlətimizin başçısı Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin gündəliyi ilə bağlı məsələlərin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını bildirdi. Prezident İlham Əliyev Dmitri Roqozinin Azərbaycan–Rusiya hökumətlərarası birgə Komissiyasının həmsədri kimi, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafındakı rolunu xüsusi qiymətləndirdi. Ölkəmizin hökumətlərarası birgə Komissiyadakı fəaliyyətindən danışan dövlətimizin başçısı Azərbaycan tərəfinin də iki ölkə arasında münasibətlərin daha da yaxınlaşdırılması üçün səylərini əsirgəmədiyini vurğuladı. Dünyada müşahidə olunan iqtisadi böhran şəraitində bu istiqamətdə əldə edilmiş nəticələrin kifayət qədər müsbət olduğunu deyən prezident İlham Əliyev bildirdi ki, mövcud potensialın daha da artırılması üçün yaxşı imkanlar var. Əməkdaşlığımızın geniş spektrə malik olduğunu və ikitərəfli əlaqələrin bütün sahələrini, o cümlədən xarici siyasət, iqtisadiyyat, sosial, humanitar və digər sahələri əhatə etdiyini vurğulayan dövlətimizin başçısı ticari-iqtisadi əlaqələrin münasibətlərimizin vacib istiqamətlərindən birinə çevrildiyini dedi. Bu sahədə potensialın gələcəkdə daha da artırılacağına əminliyini*

*bildirən prezident İlham Əliyev görülən işlərin nəticələrinin nəzərdən keçirilməsi və atılacaq addımların müəyyənləşdirilməsi baxımından bugünkü görüşün əhəmiyyətini qeyd etdi.*

*Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozin Azərbaycan ilə Rusiya arasında ticari-iqtisadi, mədəni, təhsil və digər sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyanın iclaslarının əməkdaşlığımızın inkişafı baxımından önəmini vurğuladı. Görülən işlərə və əldə olunmuş razılaşmalara nəzarət baxımından belə görüşlərin yaxşı nəticələr verdiyini qeyd edən Dmitri Roqozin bildirdi ki, hazırda Rusiya və Azərbaycan üçün maraqlı və perspektivli ola biləcək maşınqayırma sahəsinə aid birgə layihə ilə bağlı iki ölkə arasında müzakirələr aparılır.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

«EgyptAir» şirkətinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 may 2016-cı il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

Parisdən Qahirəyə uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həmvətənlərinizin həlak olması xəbərini kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 may 2016-cı il*

## BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ MİXAİL RUSIY İLƏ GÖRÜŞ

*19 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Belarus Respublikası Baş nazirinin müavini Mixail Rusıyı qəbul etmişdir.*

*Bakıda keçirilən «Caspian Agro–2016» Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgisindən danışan dövlətimizin başçısı Belarusun bu sərgidə həmişəki kimi uğurla təmsil olunacağına, öz potensial və imkanlarını layiqli şəkildə nümayiş etdirəcəyinə əminliyini ifadə etdi. Ölkəmizdə kənd təsərrüfatının fəal inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev Belarus tərəfinin sərgidə nümayiş etdirəcəyi məhsulların Azərbaycanın müvafiq qurumlarının marağına səbəb olacağına əminliyini bildirdi. Dövlətimizin başçısı ölkəmizdə kənd təsərrüfatının fəal şəkildə inkişaf etdirilməsi planları ilə əlaqədar olaraq, bu sahədə istifadə edilən texnikaya tələbatın getdikcə artacağını vurğuladı. Qısa zaman ərzində ölkəmizin Belarus Respublikası ilə kənd təsərrüfatı sahəsində uğurlu layihə həyata keçirdiyini bildirən prezident İlham Əliyev birgə istehsal edilən məhsulların artıq ixrac olunduğunu dedi.*

*Ölkəsinin Azərbaycan ilə kənd təsərrüfatı sahəsində uğurlu əməkdaşlıq etdiyini bildirən Belarus Respublikası Baş nazirinin müavini Mixail Rusıy Bakıya səfərinin iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrinə dair məsələləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığını vurğuladı. Ölkələrimiz arasında kənd təsərrüfatı sahəsində çox işlərin görüldüyünü deyən Mixail Rusıy «Caspian Agro–2016» sərgisində təkcə Belarus istehsalı olan texnikanın deyil, eləcə də Belarus–Azərbaycan birgə məhsullarının nümayiş etdirildiyini məmnunluqla qeyd etdi. Belarus Respublikası Baş nazirinin müavini Azərbaycanın kənd təsərrüfatı sahəsində qarşıya qoyduğu məqsədlərlə*

*yaxından tanış olduğunu dedi. Mixail Rusıy bildirdi ki, Azərbaycan hökuməti qarşısına ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına tələbatını ödəmək və ixraca nail olmaq kimi çox vacib məqsədlər qoyub. Prezident İlham Əliyevin dəstəyi ilə bu il ölkəmizin müəssisələrində 2000 traktor istehsal olunacağını deyən Belarus Baş nazirinin müavini nəticədə Azərbaycanda kənd təsərrüfatı maşınqayırması kimi tam bir sənaye sahəsinin yaradılmasının önəmini qeyd etdi. Birgə istehsal olunan texnikanın üçüncü ölkələrə ixracı üçün Azərbaycanın yaxşı tərəfdaş olduğunu deyən Mixail Rusıy məhsulların artıq Gürcüstana ixracına başlanıldığını vurğuladı, gələcəkdə istehsal templərinin artacağına əminliyini bildirdi.*

*Görüşdə müxtəlif sahələrdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## XXII BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ X BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*20 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Bakı Ekspo Mərkəzində XXII Beynəlxalq qida sənayesi və X Beynəlxalq kənd təsərrüfatı sərgiləri ilə tanış olmuşdur.*

*Kənd Təsərrüfatı naziri Heydər Əsədov dövlətimizin başçısına məlumat verdi ki, XXII Beynəlxalq qida sənayesi sərgisində 34 ölkədən 313 şirkət təmsil olunur. X Beynəlxalq kənd təsərrüfatı sərgisinə də dünyada maraq artmaqdadır. Sərgi iştirakçılarının 67 faizi xarici şirkətlərdir. Prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycanın TUNA şirkəti 1998-ci ildən fəaliyyət göstərir, yumşaq və sərt paketləmə ilə məşğuldur. Şirkətin üstünlüklərindən biri xammalın müəssisənin özündə istehsal olunmasıdır. Burada quraşdırılan avadanlıq hesabına təkrar istehsal da mövcuddur. Gələcəkdə şirkətin məhsullarının Rusiyaya və Qazaxıstana ixracı planlaşdırılır.*

*«Azərsun Holdinq»in stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına 1996-cı ildə Çay fabrikinin açılışında iştirak edən ümummilli lider Heydər Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, «Azərçay» markasının inkişafı və bu brendin dünyada təbliği ilə bağlı görülən işlər barədə məlumat verildi. Qeyd edildi ki, Masallı, Lənkəran və Astara rayonlarında yeni çay plantasiyaları salınıb, çayçılıq sahəsində məhsuldarlıq ildən-ilə artır. Hazırda 50 ölkənin 100-dən çox hava limanında «Azərçay» markası ilə buraxılan məhsullar satılır. Bildirildi ki, bir qrup alim Azərbaycan çayının yeni fermentasiyası üsulunu ixtira edib.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Kənd Təsərrüfatı Nazirliyi sərginin iştirakçılarına «Elektron kənd təsərrüfatı»*

*xidmətlərindən istifadə qaydalarını nümayiş etdirir. Kənd təsərrüfatı ilə məşğul olan şəxslər fermerlərin reyestrində qeydiyyatdan keçmək, kənd təsərrüfatı texnikasının, cins heyvanların, subsidiyaların alınması üçün onlayn xidmətlər, kənd təsərrüfatı texnikalarının qeydiyyatı, sürücülük vəsiqəsinin alınması və dəyişdirilməsi xidmətlərindən istifadə edə bilər.*

*Azərbaycanın «Buta Group» şirkəti aqrar sahədə iki şirkətlə təmsil olunur. Prezident İlham Əliyevə məlumat verildi ki, pomidor istehsalı ilə məşğul olan «AzTomato» şirkətinin illik ixrac gücü 1300 tondur. Gələcəkdə bu rəqəmin 3000 tona çatdırılması planlaşdırılır. «İsmayıllı tərəvəzləri» şirkəti isə intensiv tərəvəzçiliklə məşğuldur. Burada müxtəlif çeşiddə kartof, soğan, kök, çuğundur, kələm istehsal edilir. Müəssisənin hazırda 5000 ton olan ixrac potensialının gələcəkdə 10000 tona çatdırılması planlaşdırılır. Hər iki şirkətdə istehsal olunan məhsullar ərəb ölkələri və Rusiya bazarlarına çıxarılır. Sərgidə ilk dəfə iştirak edən şirkətlər arasında «Agropromotion» da var. Belçika şirkəti olan «Agropromotion» Bolqarıstandan Azərbaycana süd məhsulları idxal edir. Şirkət qarşısına Azərbaycan bazarında layiqincə təmsil olunmağı məqsəd qoyub. Azərbaycana Bolqarıstandan idxal olunan pendir növləri yüksək keyfiyyətinə görə seçilir. «Agropromotion» Azərbaycandan başqa, bir sıra ölkələrə də Bolqarıstanın süd məhsullarını idxal edir.*

*Türkiyənin CANSA şirkətinin stendi ilə tanışlıq zamanı Azərbaycan Prezidentinə məlumat verildi ki, bu müəssisə kənd təsərrüfatı avadanlıqlarının istehsalı ilə məşğuldur. 1983-cü ildə yaradılan şirkət «Keyfiyyətli məhsul və yüksək xidmət» devizini fəaliyyətində əsas istiqamət kimi götürüb. Sərgidə şirkətin istehsalı olan müxtəlif kənd təsərrüfatı avadanlıqları nümayiş etdirilir. Şirkətin məhsulları dünyanın əksər ölkələrinə ixrac edilir. CANSA şirkəti ilk dəfədir sərgiyə qatılıb.*

*Belarus da builki sərgidə bir neçə şirkətlə təmsil olunur. Onlardan biri Qrodnodakı «Neman» tütün fabrikidir. Bu şirkət 40-dan çox çeşiddə məhsulunu dünya bazarına çıxarır. Müəssisənin istehsal gücü illik 20 milyon siqaretə bərabərdir.*

*Sərgidə öz imkanlarını təqdim edən yerli şirkətlərdən biri də «Kaspi-Yıldız» Azər-Türk müəssisəsidir. Prezident İlham Əliyevə müəssisə barədə məlumat verildi. Bildirildi ki, özəl sektorda 20 il-dir uğurla təmsil olunan bu şirkət ölkə iqtisadiyyatının inkişafına töhfələr verib. 2012-ci ildə təsis edilən «Lerik broyler» müəssisəsi artıq ölkənin kənd təsərrüfatı sektorunda kifayət qədər tanınıb. Bu yaxınlarda isə şirkət ölkəmizdə kənd təsərrüfatı texnikasının və avadanlıqlarının istehsalına başlayıb. Sərgidə bu avadanlıqlar geniş şəkildə təqdim olunur.*

*«Aztexnika» şirkəti sərgidə dördüncü dəfədir iştirak edir. Şirkət «John Deer» brendini Azərbaycana idxal edir. Ümumilikdə, bu brend altında istehsal edilən 20 adda kənd təsərrüfatı texnikası ölkəmizə gətirilir. 2007-ci ildən Azərbaycana idxal edilən bu brendin məhsulları keyfiyyəti və səmərəliliyi ilə seçilir.*

*Sərgidə iştirak edən müəssisələr arasında Azərbaycanın «Bee Hive» şirkəti də var. Şirkət tərəvəz və meyvə çiçəklərinin istixana və açıq bağlarda təbii tozlandırılması ilə məşğuldur. Dövlətimizin başçısına məlumat verildi ki, müəssisə İsrailin «Bio Bee» şirkə-tindən xüsusi cins ana arılar alır və onların yetişdirilməsini təmin edir. 2015-ci ildə yaradılan «Bee Hive» gələcəkdə fəaliyyətini genişləndirərək, məhsullarını ixrac etməyi nəzərdə tutur.*

*Sərgidə bir sıra ölkələr milli stendlərini təqdim edir. Onlardan biri də İndoneziyadır. Bu ölkə Azərbaycanda müxtəlif sahələrə aid keçirilən sərgilərdə həmişə fəal iştirak edir. Stend İndoneziyanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə təşkil edilib. İndoneziyadan sərgidə ümumilikdə 8 şirkət iştirak edir. Onlar kənd təsərrüfatının müxtəlif sahələrini əhatə edir. İndoneziyanın milli stendində bu ölkənin mətbəxi də iştirakçılara geniş təqdim edilir. İndoneziya dünyanın əsas tropik kənd təsərrüfatı məhsulları istehsalçısıdır. Azərbaycanda keçirilən bu sərgiyə böyük maraq göstərən ölkələrdən biri də Hollandiyadır. Bu ölkənin Bakı sərgisindəki milli stendində 7 müxtəlif şirkət təmsil olunub. Prezident İlham Əliyevə məlumat verildi ki, bu şirkətlər istehsalda innovativ texnologiyalardan istifadə etməklə, ənənəvi keyfiyyəti qoruyub saxlayır. Buna görə də*

*onların məhsullarına beynəlxalq bazarlarda böyük tələbat var. Hollandiya stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına hədiyyə təqdim edildi.*

*Sərgidə Gürcüstanın milli stendi də məhsulun çeşidinin çoxluğu və müxtəlifliyi ilə diqqəti cəlb edir. Burada Gürcüstanda istehsal edilən müxtəlif kənd təsərrüfatı məhsulları nümayiş etdirilir. Onların arasında mineral sular, təbii şirələr, bal və digər məhsullar vardır. Kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşan 9 müxtəlif şirkətin sərgidə nümayiş etdirdiyi məhsullar təbiiliyi və keyfiyyəti ilə seçilir. Gürcüstan artıq Bakı sərgisində ikinci dəfədir ki, milli stendlə təmsil olunur. Stendlə tanışlıq zamanı prezident İlham Əliyevə hədiyyə təqdim edildi.*

*«Maschio Gaspardo» şirkətinin məhsulları da sərgidə böyük maraqla qarşılanır. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, 1964-cü ildə yaradılan bu şirkət müxtəlif kənd təsərrüfatı avadanlıqlarının istehsalı ilə dünyada məşhurdur. Şirkətin kultivatorları, müxtəlif ölçülü dərmansəpənləri və kotanları yüksək keyfiyyəti ilə fərqlənir. İtaliyada 7, həmçinin Avropa, Asiya və ABŞ-da 3 istehsal sahəsi və 13 filialı olan şirkət rəqabətədavamlı məhsulları ilə seçilir. Şirkətin məhsulları ətraf mühitin qorunması ilə bağlı nəzərdə tutulan bütün tələblərə cavab verir.*

*Uzun illərdir kənd təsərrüfatı texnikası istehsal edən «Rostselmaş» şirkətinin məhsullarına dünyanın əksər ölkələrində tələbat var. 13 müəssisəni birləşdirən «Rostselmaş» Rusiyanın ən iri kombayn istehsalçısıdır. Bu şirkətin məhsullarına ölkəmizdə böyük tələbat var. Hazırda bu istehsalçının məhsulu olan «Niva» kombaynı ölkəmizdə fəaliyyət göstərən fermerlərə təklif edilir. Şirkətin taxılyığan iri TORUM kombaynları da sərgidə nümayiş etdirilir.*

*Diqqətə çatdırıldı ki, Almaniyanın «Horsch» şirkəti sərgidə qarğıdalı, soya, günəbaxan toxumu səpən «Maestro» qoşqusunu təqdim edir. Bu kənd təsərrüfatı texnikası innovativ sistemi özündə birləşdirərək, əkin və toxumsəpmə proseslərində fermerlərə böyük səmərə əldə etməyə geniş imkanlar yaradır.*

*«Grow Group Azerbaijan» MMC Avropa texnologiyaları ilə təchiz olunan və ən son standartlara cavab verməklə yanaşı, tam avtomatlaşdırılan müasir plastik və şüşə istixana komplekslərinin satışı və quraşdırılması ilə məşğuldur. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, şirkət hollandiyalı tərəfdaşları ilə birgə şüşə örtüklü istixanaların da quraşdırılmasını həyata keçirir. Amerikanın «John Deer» şirkəti dünyada ən etibarlı istehsalçılardan hesab edilir. Şirkətin fəaliyyətində innovasiyaların tətbiqinə və keyfiyyətə xüsusi diqqət yetirilir. Bu şirkətin məhsulları da sərgidə geniş nümayiş olunur.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin sərgidə nümayiş etdirilən traktorlarına baxdı. Burada müəssisənin istehsalı olan 10 müxtəlif model traktor, otbiçən və kotanlar nümayiş etdirilir. Traktor modellərindən bəziləri ilk dəfə olaraq müəssisə tərəfindən sərgidə təqdim edilir. Onların arasında pambıq əkini və kəskin isti hava şəraitində məhsul yığımı üçün nəzərdə tutulan kondisionerli traktorlar da var. Sərgidə nümayiş olunan traktorların 3-ü xüsusi təyinatlıdır. Onlardan tikinti, kommunal və yol təsərrüfatı sahələrində istifadə edilə bilər.*

*«Aztexnika» MMC ölkəmizə Avropa və Türkiyədən kənd təsərrüfatı texnikasını idxal edir. Onların arasında Türkiyə istehsalı olan müxtəlif markalı traktorlar da var. Eyni zamanda, burada heyvandarlıq təsərrüfatlarına aid texnikalar da nümayiş olunur. Şirkətin sərgidə nümayiş etdirilən südsağan aqreqatları və südsoyudan çənləri, buğda, arpa, qarğıdalı, kartof və pambıq toxumu səpən avadanlığı, ağacları dərmanlayan qurğuları, kiçik və iri inkubatorları böyük maraqla qarşılanır.*

*Prezident İlham Əliyevə ölkəmizdə tərəvəz bitkiləri üzrə toxumçuluq layihəsi barədə də məlumat verildi. Bildirildi ki, layihənin əsas məqsədlərindən biri daxili bazarda güclü tələbat olan, o cümlədən ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyan tərəvəz bitkiləri üzrə yüksək məhsuldar toxumlar əldə etməkdir.*

*Sərgidə kənd təsərrüfatı sahəsində dünya liderlərindən olan Almaniyanın «Claas» brendinin məhsulları da nümayiş olunur. Bu brendin ölkəmizdəki rəsmi nümayəndəsi «Original Motors» şirkətidir. Sərgidə şirkətin nümayiş etdirilən taxıl və qarğıdalı yığan kombaynları və traktorları yüksək keyfiyyəti ilə seçilir.*

*Prezident İlham Əliyev «Şəki-İpək» ASC və «İntertekstil» şirkətinin stendlərinə də baxdı. Məlumat verildi ki, təbii ipəkdən müxtəlif məhsullar istehsal edən «Şəki-İpək» ASC fəaliyyətini ildən-ilə genişləndirir və məhsulun çeşidini artırır. Şirkətin məhsulları arasında ipək parçalar, kəlağayılar, əllə toxunan Azərbaycan xalçaları diqqəti cəlb edir. «İntertekstil» şirkətinin məhsulları da keyfiyyəti ilə seçilir. İllik istehsal gücü 4000 ton pambıq ipliyi olan müəssisə müxtəlif çeşiddə məhsullar buraxır. Burada eyni zamanda, uniformalar və məktəbli geyimləri də istehsal edilir. Şəki, Zaqatala və Qaxda istehsal sahələri fəaliyyət göstərən «İntertobacco» müəssisəsi 2006-cı ildə yaradılıb və indiyədək bir sıra iqtisadi uğurlara imza atıb. Şirkət məhsullarını xarici ölkələrə ixrac edir.*

*Oğuz qarğıdalı emalı məhsulları kompleksi ən müasir texnoloji avadanlıq və yeni istehsal sahələri ilə təchiz edilmiş müəssisədir. Burada istehsal edilən qlükoza, fruktoza, quru nişasta qida sənayesi sektorunda, kəpək, qarğıdalı qırıntısı heyvandarlıq, quşçuluq və balıqçılıqda istifadə edilir.*

*«CTS-Aqro» MMC-nin stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, 2004-cü ildən fəaliyyət göstərən bu qurum əsasən pambıq istehsalı, onun tədarükü və emalı ilə məşğuldur. MMC üzrə 2016-cı il mövsümündə respublikanın 16 rayonunda 18 min hektar, 2017-ci ildə 25 min hektar, 2018-ci ildə 30 min hektar, 2019-cu ildə 35 min hektar, 2020-ci ildə isə 50 min hektar sahədə pambıq əkini nəzərdə tutulur.*

*Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, «Iteca Caspian» və «ITE Group» şirkətlərinin təşkilatçılığı ilə keçirilən bu sərgilər artıq yeni məhsul və texnologiyaların təqdimatı üçün nadir platformaya çevrilib.*

## BEYNƏLXALQ VALYUTA FONDUNUN AZƏRBAYCAN ÜZRƏ MİSSİYASININ RƏHBƏRİ MƏHƏMMƏD ƏL-QORÇİ İLƏ GÖRÜŞ

*20 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd əl-Qorçini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uzunmüddətli uğurlu əməkdaşlığın mövcud olduğunu dedi. Əməkdaşlığımızın müxtəlif formatları əhatə etdiyini bildirən dövlətimizin başçısı hazırda bu əməkdaşlığın yeni mərhələdə olduğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycandakı iqtisadi inkişafla bağlı Beynəlxalq Valyuta Fondunun ölkəmizə verdiyi dəstəyi və tövsiyələrini yüksək dəyərləndirdi. Dövlətimizin başçısı Məhəmməd əl-Qorçinin rəhbərlik etdiyi missiyanın fəaliyyətinin ölkəmiz ilə bu qurum arasında əlaqələrin gücləndirilməsi və lazımi islahatların davam etdirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, dünyada neftin qiymətinin kəskin surətdə aşağı düşməsi, əlbəttə, gəlirlərimizin azalmasına səbəb olub. Lakin ölkədə həyata keçirilən tədbirlər, büdcə konsolidasiyası, eləcə də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı islahatlar ciddi risklərin azaldılmasına kömək edib.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd əl-Qorçi Azərbaycan hökuməti tərəfindən dünyada iqtisadi böhranın törətdiyi fəsadların aradan qaldırılması istiqamətində həyata keçirilən işləri yüksək qiymət-*

*ləndirdi. Məhəmməd əl-Qorçi manatın devalvasiyası və digər tədbirlərin ölkəmizdə milli istehsalın qorunması, habelə qeyri-neft sektorunda istehsal olunan məhsulların xaricə ixrac edilməsi işinin təşviqinə töhfə verdiyini vurğuladı və bu istiqamətdə Azərbaycan hökuməti tərəfindən atılan addımları cəsarətli və uğurlu addımlar kimi qiymətləndirdi.*

*Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd əl-Qorçi hazırkı şəraitdə bank sektoruna diqqətin yönəldilməsinin vacibliyini vurğuladı və bu baxımdan Beynəlxalq Valyuta Fondunun Azərbaycanın müvafiq strukturları ilə fikir mübadiləsi aparılmasına, ölkəmizə texniki yardım göstərilməsinə və müvafiq məsləhətləşmələrdə iştirak etməsinə hazır olduğunu bildirdi.*

# ÇİN XALQ RESPUBLİKASI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ MENQ JİANZUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi, Kommunist Partiyası Siyasi Şurasının üzvü, Mərkəzi Komitənin siyasi və hüquqi məsələlər Komissiyasının katibi – Təhlükəsizlik Şurasının katibi Menq Jianzunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi Menq Jianzunun ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi, bu səfərin iki ölkə arasındakı dostluq münasibətlərinin gələcəkdə daha da möhkəmlənməsi işinə töhfə verəcəyini dedi. Əməkdaşlığımızın bir çox sahələri əhatə etdiyini deyən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan ilə Çin arasında siyasi, iqtisadi, nəqliyyat, ticarət və humanitar sahələrdə əlaqələr uğurla inkişaf edir. Hüquq-mühafizə və təhlükəsizlik sahələrində də əməkdaşlığımızın genişləndirilməsi ikitərəfli münasibətlərimizin möhkəmlənməsinə töhfə verə bilər.*

*Yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən xüsusi nümayəndə Menq Jianzu Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. Qeyd etdi ki, Azərbaycana səfərə gələn nümayəndə heyətinin tərkibinə Çinin bütün hüquq-mühafizə, təhlükəsizlik orqanlarının və Xarici İşlər Nazirliyinin rəhbər nümayəndələri daxildir. Çin xalqının ulu öndər Heydər Əliyevə və prezident İlham Əliyevə böyük hörmət bəslədiyini bildirən Menq Jianzu dedi: «Heydər Əliyev, sözün əsl mənasında, Azərbaycan xalqının ümummilli lideridir. Siz onun siyasətini uğurla davam etdirirsiniz.*

*Azərbaycanda Sizin rəhbərliyinizlə iqtisadiyyat sürətlə inkişaf edir, ictimai-siyasi sabitlik tam təmin olunub, əhalinin əhval-ruhiyyəsi yüksəkdir».*

*Çinin Azərbaycan ilə təhlükəsizlik, hüquq-mühafizə sahələrində, terrorizmə, transmilli iqtisadi cinayətkarlığa, kibercinayətkarlığa qarşı mübarizə, böyük İpək yolu boyunca təhlükəsizliyin təmin olunması və digər sahələrdə əməkdaşlığı genişləndirməsində maraqlı olduğunu deyən Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi bildirdi ki, təhlükəsizlik sahəsində əməkdaşlıq regional əməkdaşlığa da töhfəsini verə bilər. Menq Jianzu böyük İpək yolunun perspektivli layihə olduğunu vurğuladı.*

*Azərbaycan Prezidentinin Çinə dövlət səfərinin uğurlu keçdiyini, gələcək əməkdaşlığın genişləndirilməsi istiqamətində səfər zamanı mühüm sənədlərin imzalandığını xatırladan və Çin Xalq Respublikasının Sədri Si Cinpinlə Azərbaycan Prezidenti arasında dostluq əlaqələrinin yarandığını deyən Menq Jianzu vurğuladı ki, Azərbaycan Çin üçün dost və qardaş ölkədir. O bildirdi ki, səfərinin əsas məqsədi prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı iki ölkə liderləri arasında əldə olunmuş razılaşmaların həyata keçirilməsinə təkan verməkdir. Menq Jianzu dedi ki, Azərbaycana səfərdən əvvəl o, Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşüb.*

*Ulu öndər Heydər Əliyev və ölkəmiz haqqında xoş sözlərə görə minnətdarlığını bildirən prezident İlham Əliyev qeyd etdi ki, ümummilli lider Çin ilə ikitərəfli münasibətlərin təməl prinsiplərinin qurulmasında müstəsna rol oynayıb. Dövlətimizin başçısı bildirdi ki, ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət, eləcə də Çin ilə münasibətlərin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən siyasət bu gün uğurla davam etdirilir. Çinin Azərbaycan üçün dost və qardaş ölkə olduğunu və Çin ilə münasibətlərin inkişaf etdirilməsinin xarici siyasətimizdə əsas istiqamətlərdən biri olduğunu deyən prezident İlham Əliyev bildirdi ki, bu ölkəyə dövlət səfəri zamanı keçirilən görüşlər və aparılan səmərəli danışıqlar bunu bir daha təsdiq etdi.*

*Dövlətimizin başçısı Azərbaycandan keçərək, Çindən Avropaya dəmir yolu ilə yük daşınması sahəsində əməkdaşlığımızın yaxşı perspektivlərinin olduğunu vurğuladı və bu sahədə fəal iş aparıldığını dedi. Azərbaycan ilə Çin arasında terrorizm, ekstremizm və separatizmlə mübarizə sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayan prezident İlham Əliyev ölkəmizin erməni terrorizmi və separatizmi ilə üzləşdiyini bildirdi və qeyd etdi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Dövlətimizin başçısı Azərbaycanın Çinin ərazi bütövlüyünü dəstəklədiyini bir daha vurğuladı. Prezident İlham Əliyev Çinin daha çox şirkətlərinin Azərbaycanın iqtisadiyyatında iştirakında və turizm sahəsində əməkdaşlığın genişləndirilməsində ölkəmizin maraqlı olduğunu dedi. Dövlətimizin başçısı Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycana dialoq üzrə tərəfdaş statusunun verilməsində Çinin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi və bu təşkilatla fəal əməkdaşlığın aparılmasının Azərbaycanın xarici siyasətində prioritetlərdən biri olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Si Cinpini onun üçün münasib vaxtda ölkəmizə rəsmi səfərə dəvət etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Vyanada keçirilən son görüşün nəticələri müzakirə olundu. Çin tərəfi münaqişənin tezliklə sülh yolu ilə həllində maraqlı olduğunu bildirdi. Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi Menq Jianzu qeyd etdi ki, ölkəsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək istiqamətindəki səylərinə hörmətlə yanaşır.*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*22 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dünya Humanitar Sammitində iştirak etmək üçün mayın 22-də Türkiyə Respublikasına işgüzar səfərə gəlmişlər.*

*İstanbulun Atatürk Beynəlxalq Hava Limanında prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Türkiyənin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul*

*23 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 23-də İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Mütəmadi xarakter daşıyan yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu. İstanbulda keçirilən Dünya Humanitar Sammitinin beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edildi, ikitərəfli münasibətlərimizin gələcək inkişafına dair fikir mübadiləsi aparıldı.*

## DÜNYA HUMANİTAR SAMMİTİNDƏ İŞTİRAK

*İstanbul*

*23 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 23-də İstanbulda Dünya Humanitar Sammitində iştirak etmişlər.*

*Dünya Humanitar Sammiti liderlərin səhər yeməyi ilə başlandı.*

*Sonra Sammit iştirakçıları birgə foto çəkdirdilər.*

*Sammitin açılışı mərasimi dünyanın humanitar fəlakət bölgələrində mövcud vəziyyəti və həmin ərazilərə yardımların çatdırılmasını əks etdirən təqdimatla davam etdi.*

*BMT-nin Baş katibi Pan Gi Mun çıxış edərək, Humanitar Sammitin keçirilməsinə verdikləri dəstəyə görə bütün dünya liderlərinə təşəkkürünü bildirdi. 4 il əvvəl bu ideyanın yaranmasına səbəb kimi, dünyada humanitar böhranın getdikcə dərinləşdiyini deyən Pan Gi Mun bildirdi ki, bu böhran hər il dərinləşir və insanların bu sahədəki çətinlikləri daha da artır. Dünyada münaqişələrin qarşısının alınmasının vacibliyini diqqətə çatdıran Pan Gi Mun humanitar böhranların səbəbinə çevrilən siyasi sabitsizliyin qarşısının alınmasının və mülki şəxslərin daha çox qorunmasının zəruriliyini qeyd etdi. Qaçqın probleminin qarşısının alınmasında yeni forma və ideyaların yaradılmasının vacibliyini qeyd edən BMT-nin Baş katibi böhran içərisində olan milyonlarla insanın problemlərinin həllində bütün dövlətləri və cəmiyyətləri həmrəy olmağa çağırdı. «Biz insanlara yaşamaq və şərəflə həyat sürmək imkanını verməliyik» – deyən Pan Gi Mun əmin olduğunu bildirdi ki, dünya liderləri bu prosesə güclü dəstək verəcəklər.*

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Sammitin dünyada ehtiyac içində yaşayan milyonlarla insanın problemlərinin həlli baxımından mühüm imkan olduğunu bildirdi. Müharibələrin, təbii*

*fəlakətlərin, iqlim dəyişikliyinin bütün bəşəriyyətin təhlükəsizliyini və gələcəyini ciddi təhdid etdiyini deyən Rəcəb Tayyib Ərdoğan Türkiyənin humanitar problemlərin həllində fəal rol oynadığını qeyd etdi. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin bu gün dünyanın 140-dan çox ölkəsində humanitar yardım və sosial inkişaf sahəsində müxtəlif layihələri reallaşdırdığını diqqətə çatdırdı. Hazırda qlobal humanitar yardım sisteminin mövcud problemlərin həlli baxımından səmərəsiz olduğunu qeyd edən Rəcəb Tayyib Ərdoğan bildirdi ki, bu sistemin yükünü sadəcə, bəzi ölkələr öz çiynində daşıyır. Buna görə də bütün dünya ölkələri bu məsuliyyəti bərabər şəkildə bölüşməli, liderlər və beynəlxalq ictimaiyyətin nüfuzlu şəxsləri səylərini birləşdirməlidirlər.*

*Sonra dünyanın müxtəlif ölkələrində münaqişələrdən, təbii fəlakətlərdən əziyyət çəkən insanların üzləşdikləri çətinliklərdən bəhs edən maraqlı kompozisiya təqdim olundu və videoçarx nümayiş etdirildi.*

*Qısa fasilədən sonra Sammit işini plenar iclasla davam etdirdi.*

*Plenar iclasın həmsədri, BMT-nin Baş katibi Pan Gi Mun Sammitin qarşısında duran əsas öhdəlikləri açıqladı. O, müzakirələrin bu öhdəliklərin həyata keçirilməsi, qarşıda duran problemlərin həlli istiqamətində aparılacağını diqqətə çatdırdı.*

*İclasın digər həmsədri, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan sülhyaratma, qlobal sülhə nail olma və digər məsələlərdə Türkiyənin bundan sonra da eyni əzmlə çalışacağını bildirdi.*

*Almaniyanın Federal Kansleri Angela Merkel silahlı münaqişələrdə mülki şəxslərin həlak olmasının qarşısının alınması üçün səylərin artırılmasının vacibliyini bildirdi. O, Almaniyanın bundan sonra da humanitar yardımların dəstəklənməsi və müvafiq vəsaitin daha da artırılması istiqamətində fəaliyyətini gücləndirəcəyini vurğuladı. Bu sahədə mövcud fəaliyyətlərin əlaqələndirilməsinin əhəmiyyətini qeyd edən Kansler bununla bağlı daha səmərəli qlobal sistemin yaradılmasının vacibliyini diqqətə çatdırdı.*

*Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah qeyd etdi ki, bu Sammit BMT-nin öz məqsədlərinə*

*çatması üçün mühüm vasitədir. Küveyt Əmiri bildirdi ki, yeni meyarların müəyyənləşdirilməsi, bütün dövlətlərin və beynəlxalq təşkilatların humanitar böhranın aradan qaldırılmasına fəal dəstək verməsi xüsusi əhəmiyyət daşıyır.*

*Mali prezidenti İbrahim Bubakar Keyta dünyada humanitar məsələlərin müzakirə olunduğu ilk Sammitin keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirdi. Ölkəsində bu sahədə çətinliklərdən danışan Mali Prezidenti terror qruplaşmalarının humanitar və digər sosial problemlərdən istifadə etdiyini vurğulayaraq, bu təhdidlərin qarşısının alınması üçün bütün ölkələri humanitar sahəyə sərmayə qoymağa çağırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev Sammitin plenar iclasında çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Cənab Sədr!

Xanım Sədr!

Xanımlar və cənablar!

İnanıram ki, Sammitin nəticələri bütün dünyada humanitar böhrandan əziyyət çəkən insanların həyat səviyyəsinin yaxşılaşmasına öz töhfəsini verəcək.

Biz azərbaycanlılar qaçqınlığın və məcburi köçkünlüyün nə demək olduğunu çox yaxşı bilirik. Artıq 20 ildən çoxdur ki, 1 milyondan artıq azərbaycanlı Ermənistanın hərbi təcavüzü və işğalından əziyyət çəkir. Bu təcavüz nəticəsində bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizi işğal altındadır. 1 milyondan artıq azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilib.

Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törədib. 1992-ci ildə Ermənistanın törətdiyi Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən soyqırımı kimi tanınıb. Xocalı soyqırımı nəticəsində 613 mülki şəxs qəddarcasına qətlə yetirilib. Onların arasında 106 qadın, 63 uşaq, 70 yaşlı insan olub. 1000-dən artıq adam itkin düşüb. Ermənistan Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirir.

2016-cı ilin aprelində Ermənistan dinc Azərbaycan vətəndaşlarına qarşı yeni hücum həyata keçirdi. Bu hücum nəticəsində bizim əsgər və zabitlərimiz, o cümlədən 6 mülki şəxs qətlə yetirilib, 30-dan artıq mülki şəxs yaralanıb. Bizim kəndlərimizin atəşə tutulması nəticəsində 500-dən artıq evə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb və yandırılıb. Ermənistan ordusu mülki şəxslərə qarşı qadağan olunmuş kimyəvi silahdan, xüsusilə ağ fosfor bombalarından istifadə edib.

Ermənistan tərəfindən törədilən bütün müharibə cinayətləri sənədlərlə sübuta yetirilib və beynəlxalq müşahidəçilərə təqdim olunub. Mülki əhalimizi qorumaq üçün Azərbaycan Ordusu uğurlu əks-hücum həyata keçirdi və yalnız bundan sonra təcavüzkar dayandırıldı. Ermənistan BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə məhəl qoymur. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətrafındakı 7 rayonu işğal olunub. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində icra edilir. Bizə gəldikdə isə onlar 20 ildən çoxdur kağız üzərində qalır. Bu, Azərbaycana qarşı ikili standartlar siyasətidir. Ermənistan bu qətnamələrə əməl etməli və ya bu ölkəyə qarşı sanksiya tətbiq olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Bütün region üçün başqa bir təhlükə mənbəyi Ermənistandakı istismar müddəti başa çatmış Metsamor Atom Elektrik Stansiyasıdır. Ermənistanın radioaktiv tullantılardan qanunsuz istifadə etməsinə dair məlumatlar var. Sabiq Baş nazir, parlament üzvü və digər Ermənistan rəsmiləri bu ilin aprelində Ermənistanın «çirkli bomba» adlandırılan nüvə silahına malik olduğunu bəyan ediblər. Bu bəyanat müvafiq beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə araşdırılmalıdır. Ermənistanın nüvə təhdidi və şantajına son qoyulmalıdır. Azərbaycan səbəbkarı Ermənistan olan humanitar fəlakətin fəsadlarının öhdəsindən gəlmək üçün əlindən gələni edir.

Bizim qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün 6 milyard dollardan artıq vəsait sərf olunub. Qaçqın və məcburi köçkünlər arasında yoxsulluq səviyyəsi 75 faizdən

12 faizə endirilib. Ümumilikdə, son 12 ildə Azərbaycanda yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə enib. Azərbaycan oxşar problemlərdən əziyyət çəkən ölkələrə yardım edir və edəcək. Biz BMT-nin Ebola virusu ilə mübarizə və bərpa tədbirlərinə maddi yardım ayırmışıq. Biz əhalinin qabaqcadan xəbərdarlıq sistemi və fəlakət riski ilə bağlı informasiyaya çıxışını təmin etmək üçün müvafiq təsisatlar və maraqlı tərəflər arasında əməkdaşlığın təbliğinə sadiqik. Təşəkkür edirəm.

* * *

*Sonra Ukrayna prezidenti Petro Poroşenko, Makedoniya prezidenti George İvanov, Gürcüstan prezidenti Giorgi Marqvelaşvili çıxışlarında dünyada humanitar problemlərin həlli istiqamətində bütün fəaliyyətləri dəstəklədiklərini vurğuladılar.*

*Qeyd edək ki, Türkiyə Respublikasının və BMT-nin təşkilatçılığı ilə ilk dəfə keçirilən Sammit dünyada baş verən humanitar problemlərin həlli baxımından beynəlxalq ictimaiyyətə mühüm çağırışdır. Sammitdə BMT-yə üzv ölkələrdən 60-dək dövlət və hökumət başçısı, böhranlardan əziyyət çəkən ölkələrin rəsmiləri, beynəlxalq təşkilatların, QHT-lərin və özəl sektorun təmsilçiləri olmaqla, ümumilikdə, 5000-dən çox nümayəndə iştirak edir.*

*Hazırda dünyada 130 milyondan çox insanın humanitar yardıma və sosial müdafiəyə ehtiyacı var. Bu isə humanitar yardım üçün xərclərin məbləğini böyük dərəcədə artırıb. BMT-nin məqsədi bu problemlərin aradan qaldırılması üçün nəzərdə tutulan vəsaitin həcmini 21 milyard dollara çatdırmaqdır. Sammitin əsas hədəfi isə münaqişələrin həllinə və onların baş verməsinin qarşısının alınmasına, humanitar fəlakətlərə yol verilməməsi üçün güclü norma və prinsiplərin bərqərar edilməsinə, fəlakət zonalarındakı insanlara humanitar yardımlar çatdıraraq, onların ehtiyaclarının ödənilməsinə, humanitar sahəyə böyük sərmayələrin yatırılmasına yönəlib.*

## ALİ QONAQLARIN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*İstanbul*

*23 may 2016-cı il*

*İstanbulun Dolmabağça sarayında mayın 23-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından Dünya Humanitar Sammitində iştirak edən yüksək səviyyəli qonaqların şərəfinə ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ziyafətdə iştirak etdilər.*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAURİSİO MAKRİYƏ**

Hörmətli cənab Prezident!

Argentina Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Argentina xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2016-cı il*

**İORDANİYA KRALI ƏLAHƏZRƏT**
**II ABDULLAH İBN ƏL-HÜSEYNƏ**

Əlahəzrət!

Əziz qardaşım!

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş İordaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2016-cı il*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ

Hörmətli cənab Prezident!

Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün Azərbaycan ilə Gürcüstan arasındakı dərin tarixi köklərə əsaslanan çoxşaxəli əlaqələr, strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətlər məmnunluq doğurur. Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi, birgə gerçəkləşdirdiyimiz irimiqyaslı enerji və nəqliyyat layihələri, daim genişlənən humanitar əlaqələrimiz tərəfdaşlığımızın mühüm amillərindəndir.

İnanıram ki, dostluq və mehriban qonşuluq ənənələrimizə sadiq qalan xalqlarımızın iradəsi ilə Azərbaycan–Gürcüstan münasibətləri bundan sonra da öz dinamik inkişafını müvəffəqiyyətlə davam etdirəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2016-cı il*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Suma Çakrabartini yenidən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti seçilməsi münasibətilə təbrik etdi və onun bu vəzifəyə təkrar seçilməsini gördüyü işlərə verilən qiymət kimi dəyərləndirərək, ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında uzun illər mövcud olan əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirdi. Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığı davam etdirməkdə ölkəmizin maraqlı olduğunu deyən dövlətimizin başçısı bildirdi ki, bu bank ilə əməkdaşlıq Azərbaycanda müxtəlif layihələrin həyata keçirilməsinə öz töhfəsini verib.*

*Avropa Yenidənqurma və İnkişaf Bankının özəl sektora yönəltdiyi sərmayələrə toxunan prezident İlham Əliyev bunu bank tərəfindən bu sektorda vəziyyətin düzgün qiymətləndirilməsi kimi izah etdi və həmin sərmayələrin özəl sektorun inkişafı üçün əlavə maliyyə imkanları yaratdığını dedi.*

*Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin ölkəmizə səfərinin məhsuldar keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Suma Çakrabarti yenidən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti seçilməsində ölkəmizin verdiyi dəstəyə görə təşəkkürünü bildirdi. O, Avropa Yenidənqurma və İnkişaf Bankı*

*ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd etdi. Suma Çakrabarti rəhbərlik etdiyi qurum ilə Azərbaycan arasında tərəfdaşlığın getdikcə daha da gücləndiyini məmnunluqla vurğulayaraq, son illər özəl sektora, xüsusilə qeyri-neft sektoruna qoyulan sərmayələrin artdığını dedi. Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti ölkəmizdə aparılan iqtisadi islahatları yüksək qiymətləndirdi.*

*Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən Azərbaycan iqtisadiyyatına qoyulan investisiyanın 70 faizinin özəl sektorun payına düşdüyünü vurğulayan Suma Çakrabarti maliyyələşdirdikləri 9 layihədən 8-nin qeyri-neft sektoruna aid olduğunu dedi.*

*Görüşdə nəqliyyat, energetika, kənd təsərrüfatı, özəl sektor, sahibkarlıq və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

## *bp*-nin DİREKTORLAR ŞURASININ SƏDRİ KARL-HENRİK SVANBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də bp-nin Direktorlar Şurasının sədri Karl-Henrik Svanberqin başçılıq etdiyi və bp Qrupun baş icraçı direktoru Bob Dadlinin daxil olduğu Direktorlar Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*bp-nin Direktorlar Şurasının Azərbaycanda toplanmasından məmnunluğunu ifadə edən dövlətimizin başçısı bunun rəmzi məna daşıdığını vurğuladı. Prezident İlham Əliyev 20 ildən artıq davam edən bp–Azərbaycan əməkdaşlığı nəticəsində çox əhəmiyyətli layihələrin uğurla həyata keçirildiyini dedi. Dövlətimizin başçısı ötən dövr ərzində bp–Azərbaycan əməkdaşlığının inkişaf dinamikasını məmnunluqla xatırladaraq, bu illəri ölkəmizin iqtisadi inkişaf dövrü kimi xarakterizə etdi. Azərbaycanın müasir, inkişaf etməkdə olan ölkəyə çevrilməsindən qürur duyduğunu bildirən prezident İlham Əliyev əldə olunan bütün bu nailiyyətlərin enerji sektoruna yatırılan böyük həcmli sərmayələr sayəsində mümkün olduğunu dedi. O vaxtdan başlayaraq Azərbaycanda hasilat, kəşfiyyat, nəqletmə və digər sahələrdə çox mühüm layihələrin icra olunduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin hazırda təkcə regional deyil, qlobal əhəmiyyət daşıyan enerji layihəsini həyata keçirmək ərəfəsində olduğunu da bildirdi. Enerji təhlükəsizliyi və şaxələndirmə baxımından «Cənub Qaz Dəhlizi» layihəsinin önəmini vurğulayan prezident İlham Əliyev bu layihənin bir çox ölkələr arasında əməkdaşlığın genişləndirilməsi işinə də töhfə verəcəyini dedi. Azərbaycan ilə əməkdaşlığa sadiq qaldığına görə bp şirkətinə təşəkkürünü bildirən dövlətimizin başçısı şirkətin ölkəmizdə Azərbaycan Dövlət Neft*

*Şirkəti kimi etibarlı tərəfdaşı olmasının önəmini də qeyd etdi. Azərbaycan Dövlət Neft Şirkəti ilə bp arasında əməkdaşlığın artıq 22 ildir ki, davam etdiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın gələcək illərdə də uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev ölkəmizə ilk dəfə səfər edən nümayəndə heyəti üzvlərinin Azərbaycan ilə yaxından tanış olmaları üçün səfərin yaxşı fürsət yaratdığını dedi.*

*bp-nin Direktorlar Şurasının sədri Karl-Henrik Svanberq ölkəmizə səfərindən ötən dövr ərzində böyük dəyişikliklərin şahidi olduğunu, paytaxtımızda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. Azərbaycanın «Eurovision», Avropa oyunları və «Formula-1» kimi möhtəşəm beynəlxalq yarışlara ev sahibliyi etməsinin önəmini vurğulayan Karl-Henrik Svanberq bildirdi ki, ölkəmizdə əldə olunan bütün bu nailiyyətlərin əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə «Əsrin müqaviləsi» kimi tarixə düşən kontraktın imzalanması ilə qoyuldu. Azərbaycan ilə tərəfdaşlıqdan məmnunluğunu ifadə edən bp-nin Direktorlar Şurasının sədri tərəfdaşlığımızın ötən dövr ərzində çox güclü olduğunu dedi və regionun inkişafı ilə bağlı layihələrdə iştirak etmələrindən qürur duyduqlarını vurğuladı. «Şahdəniz-2» və «Cənub Qaz Dəhlizi» layihələrinin əhəmiyyətinə toxunan qonaq bu layihələrin bp–Azərbaycan əməkdaşlığının uzunmüddətli olması işinə xidmət edəcəyini bildirdi.*

## AVSTRİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDER VAN DER BELLENƏ

Hörmətli cənab Van der Bellen!

Avstriya Respublikasının Federal Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Avstriya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin daim möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Avstriya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 may 2016-cı il*

**EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MULATU TEŞOMEYƏ**

Hörmətli cənab Prezident!

Efiopiya Federativ Demokratik Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Efiopiya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 may 2016-cı il*

**NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ XANIM BİDHYA DEVİ BHANDARİYƏ**

Hörmətli xanım Prezident!

Nepal Federativ Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Nepal xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 may 2016-cı il*

## «THE BUSİNESS YEAR» JURNALININ BAŞ REDAKTORU LELAND RAYS VƏ DİREKTORU BƏTÜL ÇAKALOĞLU İLƏ GÖRÜŞ

*25 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də «The Business Year» jurnalının baş redaktoru Leland Raysı və jurnalın direktoru xanım Bətül Çakaloğlunu qəbul etmişdir.*

*«The Business Year» jurnalının baş redaktoru Leland Rays Azərbaycan prezidenti İlham Əliyevin İstanbulda keçirilən Dünya Humanitar Sammitində iştirakının və çıxışının önəmini vurğuladı. O, Azərbaycanın beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi və dünyada gedən iqtisadi proseslərdəki rolunu qeyd etdi.*

*Dünya Humanitar Sammitinin əhəmiyyətinə toxunan prezident İlham Əliyev Sammitin bu formatda ilk beynəlxalq humanitar tədbir olduğunu vurğulayaraq, tədbirin gündəliyinin geniş sahələri əhatə etdiyini dedi. Beynəlxalq iqtisadi əməkdaşlıq məsələlərinə toxunan dövlətimizin başçısı Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiya olunması istiqamətində görülən işlərdən danışdı.*

*«The Business Year» jurnalının direktoru xanım Bətül Çakaloğlu jurnalın gördüyü işlər barədə dövlətimizin başçısına məlumat verdi. 6 ilə yaxın bir müddətdə ölkəmiz ilə əməkdaşlıq etdiklərini vurğulayan xanım Bətül Çakaloğlu jurnalın dünyanın müxtəlif qitə və ölkələrində yaxşı əlaqələr qurduğunu dedi.*

*«The Business Year» jurnalının baş redaktoru Leland Rays prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfəyə, «Cənub Qaz Dəhlizi», «Şahdəniz-2», TANAP və TAP layihələrinin yaradılması və həyata keçirilməsi, mühüm beynəlxalq idman*

*tədbirlərinin, o cümlədən I Avropa oyunlarının nümunəvi təşkilinə və Azərbaycanın çox böyük potensialının dünyada təbliğinə, Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı göstərdiyi səylərə, Azərbaycanı əhəmiyyətli transmilli nəqliyyat layihələrinin mərkəzinə çevirdiyinə, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsinə verdiyi böyük dəstəyə, multikultural dəyərlərin təşviqi ilə bağlı beynəlxalq humanitar tədbirlərin keçirilməsi və regionda sülh və təhlükəsizliyin təmin olunması ilə bağlı digər uğurlu fəaliyyətinə görə rəhbərlik etdiyi jurnalın Azərbaycan prezidenti İlham Əliyevi 2015-ci ildə «Dünyada ilin adamı» mükafatına layiq gördüyünü dedi və mükafatı dövlətimizin başçısına təqdim etdi.*

*Dövlətimizin başçısı «The Business Year» jurnalının «Dünyada ilin adamı» mükafatına layiq görüldüyünə görə minnətdarlığını ifadə etdi. Prezident İlham Əliyev jurnalın baş redaktoru Leland Raysın təqdimatında Azərbaycanın həyata keçirdiyi siyasətin ən əhəmiyyətli istiqamətlərinin qeyd olunduğunu vurğulayaraq, iqtisadi şaxələndirmə, enerji təhlükəsizliyi, multikulturalizm, Azərbaycanın beynəlxalq nəqliyyat mərkəzinə çevrilməsi və bu infrastruktura investisiyaların yatırılması kimi məsələlərin əldə olunmasında regional əməkdaşlığın əhəmiyyətini qeyd etdi. Regional əməkdaşlığın yalnız qarşılıqlı inama əsaslandığını deyən dövlətimizin başçısı qarşılıqlı inamın isə multikultural, dini və etnik dözümlülük kimi dəyərlərin təşviqi ilə yaradıldığını bildirdi. Bütün bu dəyərlərə görə qürur duyduğunu qeyd edən prezident İlham Əliyev Azərbaycanın təbliğinə və ölkəmizlə bağlı həqiqətləri beynəlxalq auditoriyaya çatdırdıqlarına görə «The Business Year» jurnalına təşəkkürünü bildirdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

# TÜRKİYƏ RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ ZÜHTÜ ARSLANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İkitərəfli münasibətlərimizin bütün sahələrdə yüksək səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycan ilə Türkiyənin müttəfiq, dost və qardaş ölkələr olduğunu dedi. Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən məhkəmə-hüquq sahəsində də inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslanın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində mühüm məsələlərin müzakirə ediləcəyini və bu sahədə əməkdaşlığımızın iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi işinə böyük töhfə verəcəyini dedi. Bu yaxınlarda Türkiyəyə səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev Dünya Humanitar Sammitinin ilk dəfə İstanbulda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemi sahəsində də daha da inkişaf etdirilməsinin önəmini qeyd etdi.*

*Azərbaycana son dəfə 2010-cu ildə səfər etdiyini və ötən dövr ərzində Bakının tamamilə dəyişdiyini, yeni bir şəhərə çevrildiyini vurğulayan Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslan əldə olunan nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi. Zühtü Arslan Türkiyə ilə Azərbaycan arasında*

*bütün sahələrdə yüksək əlaqələrin mövcud olduğunu vurğulayaraq, bu əlaqələrin məhkəmə və hüquq sistemi sahəsində də davam etdirilməsinin zəruriliyini qeyd etdi.*

*Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İTALİYA RESPUBLİKASI SENATININ AVROPA İTTİFAQI SİYASƏTİ DAİMİ KOMİSSİYASININ SƏDRİ VANİNO KİTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da İtaliya Respublikası Senatının Avropa İttifaqı siyasəti daimi Komissiyasının sədri, senator Vanino Kitinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İtaliya–Azərbaycan əlaqələrinin çoxşaxəli olduğunu və ölkələrimizin bir sıra sahələrdə uğurlu əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı bu əlaqələrin daha da inkişaf etdirilməsində parlamentlərarası əməkdaşlığın mühüm yer tutduğunu qeyd etdi. Azərbaycan ilə Avropa İttifaqı arasında da səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun və Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerininin Azərbaycana uğurlu səfərlərini və Federika Moqerini ilə Vyanada keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Azərbaycanın Avropa İttifaqına üzv olan 8 ölkə ilə artıq strateji tərəfdaşlıq haqqında sənədlərin imzalandığını və qəbul edildiyini bildirən prezident İlham Əliyev bu ölkələrdən birinin də İtaliya olduğunu vurğuladı. Bunu əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirən dövlətimizin başçısı Avropa İttifaqının, İttifaqa üzv ölkələrin və Azərbaycanın bu əməkdaşlığa böyük əhəmiyyət verdiyini dedi. İtaliya Respublikası Senatının Avropa İttifaqı siyasəti daimi Komissiyasının sədri, senator Vanino Kitinin ölkəmizə səfərinin uğurlu keçəcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı səfərin ikitərəfli və Avropa İttifaqı–Azərbaycan əlaqələrinin müzakirə edilməsi baxımından önəmli olacağını dedi.*

*Senator Vanino Kiti Azərbaycanın həm Avropa İttifaqı, həm də İtaliya üçün mühüm ölkələrdən biri olduğunu vurğuladı. Vanino Kiti dedi: «Azərbaycanın əhəmiyyəti yalnız təbii sərvətləri ilə bağlı deyil. Azərbaycan müsəlman ölkəsidir və dünyəvi dövlətdir, bunun çox böyük əhəmiyyəti var». O eyni zamanda, bildirdi ki, Azərbaycan terrorizmə, ekstremizmə və radikalizmə qarşı qətiyyətlə mübarizə aparan bir dövlətdir. Vanino Kiti ikitərəfli əlaqələrimizin yaxşı nümunəsi kimi, İtaliya ilə Azərbaycan arasında mövcud olan dostluq əlaqələrini xüsusi qeyd etdi.*

## FRANSANIN KANN ŞƏHƏRİNİN MERİ DEVİD LİSNARD İLƏ GÖRÜŞ

*27 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Fransanın Kann şəhərinin meri Devid Lisnardı qəbul etmişdir.*

*Fransa şəhərləri ilə Azərbaycan şəhərləri arasında çox sıx əlaqələrin mövcud olduğunu vurğulayan prezident İlham Əliyev Fransanın və Azərbaycanın 10-dan artıq şəhərinin qardaşlaşdığını və bu şəhərlər arasında yaxşı təmasların yaradıldığını məmnunluqla qeyd etdi. Ölkələrimiz arasında əlaqələrin də yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı regional əməkdaşlığın xüsusi əhəmiyyət daşıdığını dedi. Kannın Fransanın gözəl memarlığa və infrastruktura malik şəhərlərindən biri olduğunu qeyd edən prezident İlham Əliyev qonağın ölkəmizdə də maraqlı yerlərlə tanış olacağını əminliklə qeyd etdi. Dövlətimizin başçısı Kann şəhərinin meri Devid Lisnardın ölkəmizlə və şəhərimizlə yaxından tanış olması üçün səfərin yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi.*

*Devid Lisnard bildirdi ki, Azərbaycana səfərinin məqsədi Fransanın Kann şəhəri ilə Qəbələ şəhəri arasında əməkdaşlığı genişləndirməkdir. Devid Lisnard Kannın kiçik bir şəhər olduğunu, lakin dünyada tanındığını vurğuladı. O, Azərbaycanın öz inkişafını möhkəm zəmində formalaşdırmasının və öz mədəniyyətini dünyada təşviq etməsinin əhəmiyyətini qeyd etdi.*

*Görüşdə mədəniyyət və təhsil sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ATƏT-in PARLAMENT ASSAMBLEYASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ KRİSTİAN VİQENİN İLƏ GÖRÜŞ

*27 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də ATƏT-in Parlament Assambleyasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Viqenini qəbul etmişdir.*

*ATƏT-in Parlament Assambleyasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Viqenin prezident İlham Əliyevə Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə təbriklərini çatdırdı və təşkil olunmuş rəsmi qəbulda iştirak etdiyini vurğulayaraq, dövlətimizin başçısının tədbirdə söylədiyi nitqin əhəmiyyətini qeyd etdi. O, tədbir iştirakçılarının prezident İlham Əliyevın nitqini böyük maraqla izlədiklərini dedi. Kristian Viqenin prezident İlham Əliyevin atdığı addımların Azərbaycanın beynəlxalq arenada böyük nüfuz qazanmasına xidmət etdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə ATƏT-in Parlament Assambleyası arasında əməkdaşlıq məsələlərindən danışdı. Söhbət zamanı Azərbaycan ilə ATƏT-in Parlament Assambleyası arasında əməkdaşlıq əlaqələri müzakirə edildi, bu əməkdaşlığın hazırkı vəziyyətinin məmnunluq doğurduğu bildirildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti, son danışıqlar prosesi və münaqişənin həllinin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

* * *

*1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.*

*98 il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş «İstiqlal Bəyannaməsi» – «Əqdnamə»dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.*

*XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində sürətli inkişafını uğurla davam etdirir.*

*Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonlarında yenidən istiqlaliyyətinə*

*qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız bu şərəfli tarixi – 28 mayı Respublika Günü kimi qeyd edir.*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*«Buta» sarayı*

*27 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də «Buta» sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak etmişdir.*

*Dövlətimizin başçısı tədbirdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Azərbaycan daim inkişaf etsin, xalqımız rahat yaşasın, ölkəmizdə sabitlik, təhlükəsizlik daim möhkəmlənsin.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız və dünya üçün tarixi hadisədir. Ona görə ki, ilk dəfə idi müsəlman aləmində demokratik respublika yaranmışdı. Bu respublikanı Azərbaycan xalqı, onun qabaqcıl nümayəndələri yaratmışlar. Biz təbii olaraq, bununla fəxr edirik. Məhz bizdən sonra digər müsəlman ölkələrində demokratik respublikalar yaranmağa başlandı. Azərbaycan xalqı və dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə həmişə çox böyük hörmətlə yanaşıb və yanaşır, onların xatirəsini qəlbində yaşadır. Əfsuslar ki, Azərbaycan Demokratik Respublikasının ömrü uzun olmadı. Respublika 2 ildən sonra süqut etdi. Bu bir daha onu göstərir ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir.

Xalqımız üçün yeni dövr – sovet dövrü başlandı. Əlbəttə, biz müstəqil deyildik, özümüz müstəqil siyasət apara bilmirdik. Ancaq bununla bərabər, o dövrdə də müsbət məqamlar az deyildi. İlk növbədə, təhsillə bağlı məsələlər öz həllini tapdı və bu gün Azərbaycanda savadlılığın səviyyəsi təxminən 100 faizdir. Elmin, mədəniyyətin, incəsənətin, kənd təsərrüfatının, sənayenin inkişafı sovet dövründə təmin olunmuşdu. Xüsusilə o dövrdə ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik edirdi. Əgər Sovet Azərbaycanının sosial-iqtisadi statistikasına nəzər salsaq, görərik ki, keçən əsrin 70-ci illərinə qədər Azərbaycan ən geridə qalmış yerlərdə idi. Ancaq Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan inkişaf etməyə başladı və qısa müddət ərzində donor respublikaya çevrildi. Sovet İttifaqında Rusiya Federasiyasından sonra 2 respublika – Belarus və Azərbaycan özünü təmin edirdi və ümumittifaq xəzinəsinə öz maddi töhfəsini verirdi.

Bu, böyük nailiyyət idi. Çünki Azərbaycan o illərdə inkişaf etmişdi, sənaye müəssisələri yaradılmışdı, kənd təsərrüfatı sürətlə inkişaf edirdi, xalqımız daha da yaxşı yaşamağa başlamışdı. Hesab edirəm ki, məhz o illərdə görülən işlərə və Heydər Əliyevə xalq tərəfindən olan hörmətə görə ən çətin anlarda xalqımız yenə də ulu öndərə üz tutdu, 1993-cü ildə onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini göstərdi. Əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsə idi, müstəqilliyimizin taleyi çox faciəli ola bilərdi.

1991-ci ildə bərpa edilən müstəqillik böyük tarixi şans, böyük sərvət idi. Ancaq əfsuslar olsun ki, o illərdə ölkəmizə rəhbərlik edən şəxslər bu şansdan istifadə edə bilmədilər. Ölkəmizi xaos bürümüşdü. Daxili çəkişmələr, anarxiya, silahlı quldur dəstələri meydan oxuyurdu. Özbaşınalıq, iqtisadi tənəzzül, hərbi böhran və bütün bu xoşagəlməz hallar nəticədə vətəndaş müharibəsinə gətirib çıxarmışdı. Bu dəhşətli vətəndaş müharibəsində qardaş qanı axıdıldı. Belə bir vəziyyətdən istifadə edən erməni millətçiləri, Ermənistan işğalçıları torpaqlarımızı işğal etdilər. 1992-ci ilin may ayında Şuşa və

Laçın, 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi əlaqə yarandı.

Həmin ağır və faciəli şəraitdə xalq Heydər Əliyevə müraciət etdi. O bu müraciətə öz dəstəyini verdi, hakimiyyətə gəldi və ondan sonra Azərbaycan inkişaf etməyə başladı. Təxminən 3 il vaxt lazım idi ki, iqtisadi sabitləşmə təmin edilsin. Biz statistikadan görürük ki, məhz 1996-cı ildə iqtisadi sabitləşmə əldə edilmiş, ondan sonra isə Azərbaycan iqtisadiyyatı inkişaf etməyə başlamışdır. Siyasi sistem yaradıldı, 1995-ci ildə Konstitusiya qəbul olundu, Azərbaycan xarici investorları ölkəmizə dəvət etdi və inkişaf dövrü başlandı. 1993–2003-cü illər inkişaf, sabitlik illəri oldu. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu, milli ideologiya – azərbaycançılıq ideologiyası xalq tərəfindən dəstəkləndi. Bu gün biz o illərdə həyata keçirilən işlərin bəhrəsini görürük, əlbəttə ki, Azərbaycanı bu möhkəm təməl üzərində uğurla, inamla irəliyə aparırıq.

2003-cü ildən bu günə qədər Azərbaycan Heydər Əliyev yolu ilə gedir, bu siyasətə sadiqdir. Əlbəttə, dünya dəyişir, bölgə dəyişir. Biz indi tam fərqli geosiyasi vəziyyətdə yaşayırıq. Ancaq biz həm xarici, həm daxili siyasətlə bağlı prinsipial seçimimizə sadiqik. Azərbaycanda xalq vahid amal uğrunda çalışır, vahid amal ətrafında birləşib ki, ölkəmizi daha da gücləndirək, xalqımızın rifah halını yüksəldək, Azərbaycanın dünyadakı nüfuzu daha da artsın və biz dayanıqlı, uzunmüddətli inkişaf strategiyamızı icra edə bilək. Buna nail olmaq üçün, əlbəttə ki, qarşımızda önəmli vəzifələr durur. Son illər ərzində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapır.

2003-cü ildən bu günə qədər görülən işlər haqqında çox danışmaq istəməzdim. Hər şey göz qabağındadır. Azərbaycanın beynəlxalq nüfuzu artıb, biz 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq, milli iqtisadiyyat 3 dəfədən çox artıb, maaşlar, pensiyalar dəfələrlə artırılıb. Azərbaycan çox böyük əhəmiyyət kəsb edən transmilli, enerji

və nəqliyyat layihələrini uğurla icra edib. Azərbaycan qaz, elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Biz enerji, xüsusilə neft-qaz layihələrinin icrasında liderlik keyfiyyətlərimizi bütün dünyaya nümayiş etdiririk. Biz indi regional nəqliyyat mərkəzinə çevrilirik. Azərbaycanda bütün dinlərin, bütün millətlərin nümayəndələri bir ailə kimi rahat yaşayır. Yəni bu siyahını uzatmaq olar. Mən görülən işlər haqqında danışsam, saatlarla vaxt lazım olacaq.

Əsas məsələ ondan ibarətdir ki, biz görüləcək işlər haqqında danışaq. Çünki möhkəm təməl var. Həm 1993–2003-cü illərdə, eyni zamanda, son illər ərzində əldə edilmiş nailiyyətlər inkişaf üçün möhkəm təməl yaradıb. Biz bu təməl üzərində müstəqil dövlət quruculuğu prosesini davam etdiririk.

Vəzifələrə gəldikdə, daxili siyasətlə bağlı ilk növbədə, Azərbaycanda bundan sonra da təhlükəsizlik və sabitlik təmin edilməlidir. Təhlükəsizlik və sabitlik – bu iki amil olmasa, heç bir ölkə inkişaf edə bilməz. Azərbaycanda təhlükəsizlik lazımi səviyyədə təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır. Xüsusilə indiki şəraitdə – dünyada gedən prosesləri biz görürük – bu, yüksək qiymətə layiq olmalıdır. Sabitliyə gəldikdə isə, bunun təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqı dövlət siyasətini dəstəkləyir, xalq–iqtidar birliyi möhkəmlənir və əlbəttə, Azərbaycan xalqı ölkəmizin seçiminə sadiqdir. Azərbaycan xalqı istəyir ki, sabitlik möhkəmlənsin, Azərbaycan daha da güclənsin. Ona görə sabitliyin təminatçısı Azərbaycan xalqıdır, onun iradəsidir.

Demokratiyanın inkişafı hər bir ölkə üçün böyük önəm daşıyır, o cümlədən Azərbaycan üçün. Hesab edirəm ki, biz bu istiqamətdə də böyük uğurlara nail olmuşuq. Azərbaycanda bütün demokratik təsisatlar uğurla fəaliyyət göstərir, bütün azadlıqlar – söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı təmin edilir, heç bir məhdudiyyət yoxdur və olmayacaq. Bu da qarşıya bir vəzifə kimi qoyulur ki, biz gələcəkdə də demokratik inkişafa sadiq olmalıyıq.

Əgər təhlükəsizlik və sabitlik olmasa, əlbəttə ki, demokratiyadan, iqtisadi və sosial inkişafdan söhbət belə, gedə bilməz və biz bunu yaxın tarixdən görürük. Ancaq indi bunu bütün dünya görür. Həm MDB məkanında, Avropada, Yaxın Şərqdə, həm də bizim qonşuluğumuzda çox təhlükəli proseslər gedir. Demokratik normalar pozulur, ayrı-seçkilik meyilləri güclənir, milli-dini zəmində qarşıdurmalar, anlaşılmazlıq və müharibələr başlanır. Televizordan görürük ki, inkişaf etmiş ölkələrdə nümayişçilərə qarşı necə zorakılıq tətbiq edilir. Bəziləri əvvəllər bizi ittiham etməyə çalışırdılar ki, Azərbaycanda hüquqlar pozulur, demokratiya zəifdir, burada sərbəst toplaşma azadlığı yoxdur. Əlbəttə, hər kəs bilir ki, bunun hamısı yalandır. Azərbaycanda heç kim vəhşicəsinə döyülmür, heç kim söyülmür, heç bir məhdudiyyət qoyulmur. Necə ola bilər ki, bizə gəldikdə bu uydurma ittihamlar avtoritar rejim kimi xarakterizə edilir, ancaq demokratiyanın beşiyi sayılan ölkələrdə bu günlərdə televizordan gördüyümüz o videosüjetlər demokratiya sayılır?! Necə ola bilər ki, nümayişçilər vəhşicəsinə döyülür, söyülür, təhqir edilir – bu, demokratiya hesab edilir?! Azərbaycanda sabit vəziyyət mövcuddur, xalq rahat, azad şəraitdə yaşayır, amma bu, demokratiya hesab olunmur. Bu ikili standartlar siyasətinə son qoyulmalıdır! Bu, artıq dözülməz hala gəlib çatıb. Əlbəttə ki, Azərbaycan xalqı hər şeyi çox yaxşı görür və bilir. Bilir ki, bizə qarşı aparılan kampaniyanın səbəbi nədir, hədəfi kimdir və hansı nəticə gözlənilir. Səbəbi odur ki, biz öz yolumuzla, müstəqillik yolu ilə gedirik. Heç bir başqa ölkənin daxili işinə qarışmırıq, heç kimi də qoymuruq ki, bizim daxili işimizə qarışsın. Bu da bəzi qüvvələr tərəfindən qəbul edilmir. Çünki onlar öyrəşiblər, bəzi ölkələr onların iradəsi ilə idarə olunur. Hədəf isə, əlbəttə ki, Azərbaycanın siyasi rəhbərliyidir və mənəm. Çünki mən bu ölkənin başında dayanıram və Azərbaycanın siyasətini mən müəyyən edirəm. Azərbaycanın müstəqilliyinin də qarantı mənəm və Azərbaycan xalqıdır.

Mübarizə üsullarına gəldikdə isə burada da heç bir innovasiya, yenilik yoxdur, köhnə, şablon, trafaret ittihamlar, əsassız iftiralar, uydurmalar, provokasiyalar, yalan, böhtan. Biz artıq

bütün bunlara öyrəşmişik. Bunların heç biri bizim siyasətimizə və iradəmizə zərrə qədər təsir edə bilməz. Mən bir daha demək istəyirəm ki, demokratiya bizim şüurlu seçimimizdir, yolumuzdur. Azərbaycan bu istiqamətdə böyük uğurlara imza atıb, ancaq biz etiraf etməliyik, hələ ki, görüləsi işlər çoxdur. Heç bir cəmiyyət kamil deyil. Biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik.

Azərbaycanda bu il «Multikulturalizm ili» elan edilibdir. Bu da xüsusilə indiki şəraitdə dünyaya bir mesajdır. Azərbaycan cəmiyyəti əsrlərboyu multikulturalizm şəraitində yaşayır. Hələ bu ifadə yaranmadan biz milli barışıq, tolerantlıq, qarşılıqlı dəstək və hörmət şəraitində yaşayırdıq. Bu gün bizim nümunəmiz dünyada öyrənilir və dəstəklənir. Biz çalışacağıq və çalışmalıyıq – bunu da qarşıya vəzifə kimi qoyuram – həm Azərbaycan təcrübəsi dünyada daha da geniş şəkildə təbliğ edilsin, həm də biz bu təcrübəni digər ölkələrlə paylaşaq ki, dini, milli dözümlülük, tolerantlıq, multikulturalizm meyilləri güclənsin. Əks təqdirdə, bu bizə də problemlər yarada bilər. Çünki biz adada yaşamırıq və istər-istəməz xarici təsir də mümkündür. Necə ki, biz təsir edirik, Azərbaycana da təbii olaraq, media və digər vasitələrlə təsir göstərilir. Ona görə biz, əlbəttə, maraqlıyıq ki, bölgədə və dünyada multikulturalizm meyilləri güclənsin. Biz bu istiqamətdə fəaliyyətimizi davam etdirməliyik.

Xarici siyasətə gəldikdə, bizim siyasətimiz müstəqil siyasətdir, Azərbaycan xalqının maraqlarını təmin edir və uğurla təmin edir. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qurmuşuq və Ermənistandan başqa, bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Qonşularla münasibətlərimiz bizim üçün prioritet təşkil edir. Hesab edirəm ki, hər bir ölkə üçün bu belə də olmalıdır. Çünki biz bu coğrafiyada, bu qonşuluqda yaşayırıq. Biz maraqlıyıq ki, qonşuluqda sabitlik olsun, inkişaf getsin, xoşagəlməz hallar, təhlükələr olmasın. Qonşularımızın təhlükəsizliyi bizim təhlükəsizliyimizdir. Əgər qonşunun evi

yanırsa, təbii olaraq, ilk növbədə, sən gedib qonşuya yardım edirsən. Digər tərəfdən, sən özünü qoruyursan. Siyasətdə də belədir. Ona görə bizim qonşularla münasibətlərimiz formalaşıb, oturuşub və çox gözəl münasibətlərdir. Türkiyə, Rusiya, İran və Gürcüstan ilə həm ikitərəfli, həm çoxtərəfli formatlarda çox gözəl siyasi-iqtisadi, mədəni əlaqələrimiz var. Bu əlaqələr bizim üçün çox önəmlidir. Qonşular da bizə eyni mövqedən yanaşır. Biz bu əlaqələri gələcəkdə prioritet kimi daim diqqət mərkəzində saxlamalıyıq. Biz bu əlaqələri gücləndirmək üçün nə lazımdırsa edəcəyik. Bununla bərabər, biz üçtərəfli formatda da işləyirik. Bu üçtərəfli formatın yaradılmasının təşəbbüskarı da biz olmuşuq. Azərbaycan–Türkiyə–Gürcüstan, Azərbaycan–İran–Rusiya. Bütün qonşularla ayrı-ayrılıqda üçtərəfli format artıq formalaşıb və bu sadəcə olaraq, formal xarakter daşımır. Çünki bu üçtərəfli əməkdaşlıq çərçivəsində bir çox önəmli məsələlər həll olunur, təhlükəsizliklə, iqtisadi əməkdaşlıqla, enerji və nəqliyyatla bağlı layihələr icra edilir. Yəni bu əməkdaşlıq bizə də, qonşularımıza da böyük xeyir gətirir.

Müsəlman ölkələri ilə əməkdaşlığımız həmişə ən yüksək səviyyədə olub. Biz islam həmrəyliyinin gücləndirilməsi istiqamətində çox önəmli addımlar atmışıq. Beynəlxalq arenada, BMT-də bizi ən çox dəstəkləyən məhz müsəlman ölkələridir, biz də onları dəstəkləyirik. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə qəbul edilmiş qətnamə Azərbaycanı birmənalı şəkildə dəstəklədi, Ermənistanın təcavüzünü, aprel təxribatını qətiyyətlə pislədi və bununla bərabər, İslam Əməkdaşlıq Təşkilatı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupunu da yaradıb. Bu əməkdaşlıq bizim üçün böyük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq tarixə, mədəniyyətə, dinə, ortaq maraqlara əsaslanır və daim diqqət mərkəzində olmalıdır.

Avropa ölkələri ilə də bizim əməkdaşlığımız genişlənir. Həm ikitərəfli formatda çox gözəl əlaqələrimiz var, həm də Azərbaycan–Avropa İttifaqı əlaqələrinin inkişafı istiqamətində böyük işlər görülüb və görülür. Hazırda münasibətlər yüksələn xətlə inkişaf edir. Bu bizi sevindirir, əminəm ki, Avropa qurumlarını da sevindirir. Avropa İttifaqının üzvü olan 8 ölkə ilə bizim strateji tərəfdaşlığımız

haqqında sənədlər imzalanıb və ya qəbul edilib. Bu, Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsidir. Bütövlükdə, Azərbaycan–Avropa İttifaqı əlaqələrinin formalaşdırılması istiqamətində təkliflər indi masa üzərindədir. Ümid edirəm ki, yaxın zamanlarda ciddi danışıqlar başlanacaqdır.

Əlbəttə, xarici siyasətimizin və nəinki xarici siyasətimizin, ümumiyyətlə, siyasətimizin əsas məsələsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı dəfələrlə fikirlərimi bildirmişəm. Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və xalq da bu mövqeni dəstəkləyir, bəyənir. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilməlidir, status-kvo dəyişdirilməlidir. Mən şadam, Minsk qrupuna həmsədrlik edən ölkələrin rəhbərləri, Xarici İşlər nazirləri, digər nümayəndələr artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğala son qoyulması deməkdir. Lakin status-kvo Ermənistanı qane edir, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu status-kvo əbədi qalsın. Onlar istəyirlər ki, bu danışıqlar sonsuz olsun. Yəni görüntü, imitasiya naminə danışıqlar aparılsın. Biz dəfələrlə demişik ki, bu, mümkün deyil. Biz artıq 20 ildən çoxdur ki, gözləyirik. Vasitəçilər həmişə bizə gözləyin, sülh yolu ilə həll edin deyirlər. Son vaxtlar bunu daha da tez-tez təkrarlayırlar. Biz də istəyirik ki, sülh yolu ilə həll olunsun. Kim istəyər ki, müharibə başlasın?! Amma biz istəyirik ki, həll olunsun. Burada Ermənistan ilə Azərbaycan arasında fərq məhz bundadır. Ermənistan guya istəyir ki, sülh yolu ilə həll olunsun, amma bunun həllini əngəlləyir, ortaya süni əngəllər qoyur. Qabaqcadan qəbuledilməz şərtlər qoyur ki, biz bunu qəbul etməyək və beləliklə, danışıqlar onilliklər ərzində belə davam etsin. Bizim isə mövqemiz konstruktivdir və bunu vasitəçilər bilir. Rəsmi açıqlamasalar da, bunu etiraf edirlər. Konstruktiv mövqe nümayiş etdiririk ki, bu məsələ həll olunsun, torpaqlarımız işğaldan azad edilsin, Azərbaycan köç-

künləri öz dədə-baba torpaqlarına qayıda bilsinlər. Bizim mövqemizdə heç bir dəyişiklik yoxdur. Bir daha demək istəyirəm, nə Azərbaycan xalqı, nə Azərbaycan dövləti heç vaxt imkan verə bilməz ki, tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılsın. Biz buna heç vaxt imkan verməyəcəyik.

O ki qaldı Dağlıq Qarabağda yaşayan ermənilərə, onlar orada necə yaşayırlar, elə də yaşasınlar. Düzdür, Ermənistan rəhbərliyi bizim mövqemizi öz xalqına həmişə təhrif edərək çatdırır. Amma mən bir daha demək istəyirəm, bizim mövqemiz ondan ibarətdir ki, kim harada yaşayıb, orada da yaşamalıdır.

Bir daha demək istəyirəm ki, Azərbaycan dünya miqyasında multikulturalizm, dini, milli tolerantlıq baxımından nümunəvi bir ölkədir. Sadəcə olaraq, Ermənistanın siyasi rəhbərliyi, millətçi qruplar, Azərbaycana daim nifrətlə yanaşan insanlar bütün bu müsbət meyilləri pozmaq, üzərindən xətt çəkmək istəyirlər. Ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil və hesab edirəm ki, Vyana görüşü uğurlu görüş idi. Biz gözləyirik ki, tezliklə, vaxt itirmədən çox ciddi, vasitəçilərin dedikləri kimi, substantiv, yəni mənalı danışıqlar başlansın.

Bununla bərabər, əlbəttə, biz gələcəkdə də hərbi gücümüzü artırmalıyıq və artırırıq. Neçə ildir ki, ordu quruculuğu prosesi uğurla gedir. Ordumuzun döyüş qabiliyyəti, maddi-texniki təminat yüksək səviyyədədir. Ən müasir silahlar, texnikalar gətirilir, eyni zamanda, Azərbaycanda istehsal olunur. Azərbaycanda artıq 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Bu gün Azərbaycan Ordusu dünyanın aparıcı orduları sırasındadır. Mən bunu dəfələrlə demişəm. Aprel ayında Ermənistanın törətdiyi təxribat, Azərbaycan Ordusunun əks-hücum əməliyyatı bunu həm Ermənistana, həm bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu güclü ordular sırasındadır. Biz gələcəkdə bu istiqamətdə əlavə tədbirlər görəcəyik və artıq müvafiq göstərişlər verilib. Mən onları açıqlamaq istəmirəm. Maddi-texniki təminat baxımından və əlavə müasir avadanlıq alınması üçün lazımi tədbirlər görülür. Azərbaycan xalqı əmin olsun ki, bu məsələ daim diqqət mərkəzindədir. Biz öz gücümüzü bilirik, amma öz gücümüzdən

istifadə etmirik, sadəcə olaraq, təxribatlara layiqli cavabımızı vermişik, veririk, lazım gələrsə verəcəyik və çalışacağıq ki, bu məsələ tezliklə və sülh yolu ilə həll edilsin.

Əlbəttə, bütün bu nailiyyətlərə çatmaq üçün güclü iqtisadiyyat olmalıdır. Son 10 il ərzində Azərbaycanda iqtisadi inkişaf çox sürətli idi. İndi isə biz yeni dövrdə yaşayırıq. Dünyada iqtisadi, maliyyə böhranı dərinləşir, neftin qiyməti aşağı səviyyədədir, gəlirlərimiz azalıb, təbii ki, xərclərimiz də azalır. Ancaq bununla bərabər, biz iqtisadiyyatı şaxələndirməklə, islahatlar aparmaqla bu çətinliyi aradan götürürük.

2016-cı il sabitləşmə ili olmalıdır. Düzdür, hələ ki, iqtisadi inkişafdan söhbət getmir. Milli iqtisadiyyat hələ ki, tənəzzülə uğrayır, bu təbiidir, amma bunun insanların gündəlik həyatına heç bir təsiri olmamalıdır. Əminəm ki, sabitləşmə artıq yaxınlaşır, makroiqtisadi göstəricilər yaxşılaşacaqdır.

Əksər neft-qaz ölkələrinin bu il maaşları, pensiyaları kəsmələrinə, ödəmələri dayandırmalarına baxmayaraq, biz maaşları, pensiyaları 10 faiz artırmışıq. Bu nəyi göstərir? İlk növbədə, bizim siyasətimizi – həmişə demişəm ki, biz sosial siyasət aparırıq – digər tərəfdən, bizim imkanlarımızı. Bizim kifayət qədər imkanlarımız var. Maliyyə vəziyyətimiz də yaxşıdır, sabitdir, valyuta ehtiyatlarımızı yığmışıq. Bu ilin əvvəlində hesab olunurdu ki, bizim Neft Fondunun gəlirləri, yəni vəsaiti azalacaq, ancaq artır. Nəyə görə? Çünki islahatlar, şaxələndirmə siyasəti aparılır, xərclərə qənaət edilir, maliyyə nizam-intizamı güclənir. O resurslar ki, onlardan səmərəli istifadə olunmurdu, indi onlardan səmərəli istifadə olunur, bütün maliyyə sisteminə şəffaflıq gətirilibdir. Ancaq hələ ki, görüləsi işlər çoxdur.

İqtisadi inkişaf bizim müstəqilliyimizin, hərbi gücümüzün və müstəqil xarici siyasətimizin təməlidir. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaq, onda biz müstəqil siyasət apara bilməyəcəyik. Ona görə bütün səylərimizi indi bu istiqamətə yönəltmişik. Həm cəmiyyətdə, həm ekspert səviyyəsində ciddi diskussiyalar gedir. Mən bunu alqışlayıram. Mən ekspertlərlə

dəfələrlə görüşmüşəm və yeni fikirlər, yeni təkliflər ortaya çıxır. Biz bütün bunları təhlil edirik və ən düzgün variantı seçirik.

Ölkə iqtisadiyyatı dayanıqlı inkişaf etməlidir. Neft amilindən asılılıq aradan götürülməlidir. Hesab edirəm, hələ bizə bir neçə il lazımdır ki, bu hədəfə çataq və çatacağıq. Bu il həm sənaye potensialının artırılması, həm də kənd təsərrüfatının inkişafı ilə bağlı çox önəmli qərarlar qəbul olunub və konkret addımlar atılıbdır ki, bunlar özünü statistik göstəricilərdə də büruzə verəcək.

Əlbəttə, bu ilin sonuna qədər «Cənub Qaz Dəhlizi»nin icrası ilə bağlı bütün lazımi tədbirlər görülməlidir. Heç bir yubanma olmamalıdır. Bizim kifayət qədər maliyyə resurslarımız var. Eyni zamanda, biz xarici bazarlardan maliyyə resursları cəlb etmişik. Özü də qısa müddət ərzində. Heç 1 həftə keçmədi. Azərbaycan «Cənub Qaz Dəhlizi»nə dünya bazarlarından 1 milyard dollar vəsait cəlb edib. Bu nəyi göstərir? Onu göstərir ki, xarici investorların bizə inamı kifayət qədər böyükdür, 2 milyard istəsəydik, 2 milyardı da götürəcəydik. Yəni bizim xarici borcumuz aşağı səviyyədə, maliyyə vəziyyətimiz və valyuta ehtiyatlarımız isə yüksək səviyyədə olduğuna görə belə imkanlarımız var. Eyni zamanda, biz öz vəsaitimizi qoyuruq və qoymalıyıq. Kifayət qədər böyük vəsaitdir. Ancaq «Cənub Qaz Dəhlizi» strateji layihədir. Bu, imkan verəcək ki, uzun illər, onilliklər bundan sonra biz böyük həcmdə əlavə gəlirlər əldə edək və bu, yeni bir əməkdaşlıq formatıdır.

«Cənub Qaz Dəhlizi»ndə iştirak edən ölkələr təbii müttəfiqlərə çevrilir. Bu müttəfiqlik regionumuzdan kənara çıxır. Bu bizim maraqlarımıza xidmət göstərir. Azərbaycan Avropa üçün əvəzolunmaz tərəfdaşa çevrilir və biz də çox böyük bazar əldə etmiş oluruq. Ona görə «Cənub Qaz Dəhlizi»nin qrafik üzrə icra edilməsi daim diqqət mərkəzindədir. Mənə mütəmadi qaydada məruzələr edilir. Əminəm ki, biz bu layihəni qrafik əsasında icra edəcəyik.

Bu ilin sonuna qədər Bakı–Tbilisi–Qars dəmir yolunun istismara verilməsi gözlənilir. Bildiyiniz kimi, Azərbaycan öz üzərinə düşən bütün öhdəlikləri yerinə yetirib. Məndə olan məlumata görə, bu yol

bu yaxınlarda açılacaq. Artıq yükgöndərən müvafiq tərəflərlə danışıqlar aparılır. Əminəm ki, Asiyadan Avropaya gedən bu ən qısa yol qısa müddət ərzində istifadəyə veriləcək və Azərbaycana çox böyük fayda gətirəcək.

Bu ilin sonuna qədər digər önəmli dəhlizin yaradılması istiqamətində vacib addımlar atılacaq. Azərbaycan öz dəmir yolunu İran sərhədinə qədər çatdırmalıdır. Bu da qarşıya qoyulan bir vəzifədir. Astara çayı üzərində yeni dəmir yolu körpüsü tikilməlidir. Beləliklə, Şimal–Cənub dəhlizinin önəmli hissəsi həll edilmiş olur. Qalan hissənin yaradılması üçün Azərbaycan gələcək illərdə öz dəstəyini verəcək və o cümlədən maliyyə resurslarını cəlb etməyə hazırdır.

Ölkə qarşısında duran əsas vəzifələr bundan ibarətdir. Mən heç şübhə etmirəm ki, ilin sonuna qədər bütün bu vəzifələr icra olunacaq. Biz 2016-cı ili də uğurla başa vuracağıq. Hesab edirəm ki, ondan sonra iqtisadi inkişaf daha da sürətli olmalıdır.

Bütün bunlar, bütün bu nailiyyətlər ancaq müstəqillik dövründə mümkün olubdur. Müstəqilliyin əhəmiyyəti bu gün göz qabağındadır. Heç vaxt Azərbaycan indiki qədər güclü olmayıb. Biz öz taleyimizin sahibiyik. Biz müstəqil ölkəyik. Biz azad xalqıq. Biz dünya miqyasında öz yerimizi, layiqli yerimizi tutmuşuq. Bundan sonra da müstəqillik, inkişaf yolu ilə gedəcəyik. Bu yolda bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram. Sağ olun.

*** * ***

*Sonra dövlət mükafatlarının təqdim edilməsi mərasimi oldu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2016-cı il üçün elm üzrə dövlət mükafatları Ramiz Məmmədov, Elbrus Əlizadə, Məhərrəm Həsənov və Zakir Eminova, ədəbiyyat üzrə mükafat isə Fikrət Qocaya təqdim edildi.*

*Dövlət mükafatlarını prezident İlham Əliyev təqdim etdi.*

**Ramiz Məmmədov** (*akademik*): Cənab Prezident, əməyimizə yüksək dövlət mükafatı verdiyinizə görə mən bizim qrupun adından təşəkkürümü bildirmək istəyirəm. Bu çox

yüksək mükafat olmaqla yanaşı, həm də bir avansdır. Mən niyə bu sözü demək istəyirəm? Ona görə ki, Siz Azərbaycanda elmin, təhsilin inkişafı üçün bütün şəraiti yaratmısınız. Mən öz fəaliyyətimlə əlaqədar dünyada müxtəlif elmi toplantılarda oluram. Görürəm və müqayisə edirəm ki, Azərbaycanda elmə, təhsilə olan dəstəyin səviyyəsi çox yüksəkdir. Hətta mən deyərdim ki, biz artıq inkişaf etmiş Avropa ölkələrinə də yaxınlaşırıq.

Bir məqamı da qeyd etmək istəyirəm. 1973-cü ildə mərhum akademik Həsən Əliyev BMT-nin Ətraf Mühit Proqramı çərçivəsində Xəzər dənizində dünyada ilk dəfə açıq dənizdə rəsədxana yaratdı və məni oraya işə dəvət etdi. Sonra isə gənclərin Rusiyanın qabaqcıl ali məktəblərinə, elm mərkəzlərinə göndərilməsinə dair ulu öndər tərəfindən əsası qoyulmuş proqram çərçivəsində mən Moskvada aspirantura təhsili almağa getdim. Bütün bunların nəticəsidir ki, mən bu gün bu yüksək mükafatı Sizin əlinizdən almaq şərəfinə nail olmuşam. Azərbaycanda intellektin intellektual olması üçün bütün münbit şərait var. Bu Sizin fikrinizdir və bu şəraiti Siz yaratmısınız. Bir daha təşəkkür edirəm. Yaşasın Azərbaycan!

**Fikrət Qoca** (*Xalq şairi*): Hörmətli cənab Prezident, bu mükafat, şübhəsiz, bizim ədəbiyyata verilən mükafatdır. Mən buna görə Sizə minnətdaram. Siz keçən il məni ölümün əlindən aldınız və dediniz ki, get yaşa. Mən də indi yaşayıram, özü də təşəkkürlə yaşayıram. Bir var elə-belə yaşayasan, bir də var 2–5 aprel hadisələrini görüb yaşayasan. O vüqarı, o fərəhi, o işığı bizə Siz verdiniz. Çox sağ olun. Təşəkkür edirəm. Allah Sizi qorusun, qoruyur, amma inşallah, biz də qoruyaq!

* * *

*Sonra bədii proqram nümayiş etdirildi.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ MƏHƏMMƏD XANİF ATMAR İLƏ GÖRÜŞ

*30 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Əfqanıstan İslam Respublikası Təhlükəsizlik Şurasının katibi Məhəmməd Xanif Atmarı qəbul etmişdir.*

*Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin ölkəmizə rəsmi səfərini xatırladan dövlətimizin başçısı səfərin uğurlu və səmərəli keçdiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev hər iki ölkənin dövlət başçıları səviyyəsində çox yaxşı münasibətlərin qurulduğunu dedi. Əfqanıstan İslam Respublikasının Prezidenti ilə apardıqları müzakirələrə toxunan dövlətimizin başçısı prezident Məhəmməd Əşrəf Qaninin Əfqanıstanda təhlükəsizliyin möhkəmləndirilməsi və ölkənin inkişafının davam etdirilməsi istiqamətində atdığı addımların, o cümlədən Əfqanıstanın gələcəyi ilə bağlı fikirlərinin onda dərin təəssürat yaratdığını vurğuladı. Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin olduğunu deyən prezident İlham Əliyev Azərbaycanın daim Əfqanıstanın yanında olacağını qeyd etdi. Dövlətimizin başçısı Əfqanıstan İslam Respublikasının Təhlükəsizlik Şurasının katibi Məhəmməd Xanif Atmarın Azərbaycana səfərinin ölkələrimiz arasında mövcud əlaqələrin, eləcə də əməkdaşlığımızın gələcək inkişafı ilə bağlı müzakirələrin davam etdirilməsi baxımından önəmini vurğuladı.*

*Təhlükəsizlik Şurasının katibi Məhəmməd Xanif Atmar Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O dedi ki, prezident Məhəmməd Əşrəf Qani Azərbaycan Prezidenti ilə görüşündən şərəf hissi duyur.*

*Məhəmməd Xanif Atmar bildirdi ki, ölkəsinin prezidenti Azərbaycan prezidenti İlham Əliyevin islam ölkələri birliyindəki rolunu yüksək qiymətləndirir və bu istiqamətdəki fəaliyyətini minnətdarlıqla qeyd edir.*

*Görüşdə iki ölkə arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Məhəmməd Əşrəf Qaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstan Prezidentinə çatdırmağı xahiş etdi.*

## DÖVLƏT NEFT ŞİRKƏTİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*30 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Bakının Heydər Əliyev prospektində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Son illərdə Bakıda tikilib istifadəyə verilən memarlıq nümunələri Azərbaycan paytaxtının inkişaf tempini göstərir, şəhərimizin abadlaşmasında və daha da gözəlləşməsində xüsusi rol oynayır. «Qara qızıl»ı insan kapitalına çevirməliyik» məqsədini qarşıya qoyan dövlətimizin başçısı neftdən gələn gəlirlərin bir hissəsini həm də nəhəng infrastruktur layihələrinin icrasına yönəltməklə, bu gün Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bu prosesdə paytaxtın ən hündür «göydələn»i olan SOCAR-ın yeni inzibati binası xüsusilə seçilir. Bu nəhəng tikilinin təməli 2010-cu il oktyabrın 12-də prezident İlham Əliyev tərəfindən qoyulub.*

*Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*SOCAR-ın prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat verdi.*

*Bildirildi ki, binanın layihələndirilməsi işlərinə 2007-ci ildə başlanılıb. Elan olunan müsabiqədə Fransa, İtaliya, Böyük Britaniya, Koreya Respublikası, Türkiyə və Azərbaycanın bir sıra nüfuzlu şirkətlərinin təkliflərinə baxılıb. Müasirlik, funksional xüsusiyyətlərinin əlverişliliyi, paytaxtın arxitekturasına, habelə Dövlət Neft Şirkətinin qoyduğu texniki şərtlərə uyğunluğu baxımından Koreya Respublikasının «Heerim Architects & Planners Co. Ltd» şirkəti tərəfindən təqdim olunan «Külək-alov» konsepsiyası daha cəlbedici hesab edilib və layihələndirmə işlərinin məhz həmin konsepsiya əsasında*

*aparılması məqsədəuyğun sayılıb. 2010-cu ilin martında SOCAR-ın yeni inzibati binasının tikintisi üzrə xidmətlərin göstərilməsi üçün açıq müsabiqə elan edilib. Dünyanın 8 nüfuzlu tikinti şirkətinin iştirak etdiyi tenderdə Türkiyənin «Tekfen İnşaat» şirkəti qalib gəlib. Təxminən 5 il ərzində aparılan tikinti işləri nəticəsində paytaxtın ən gözəl memarlıq nümunələrindən biri ərsəyə gəlib.*

*Binanın birinci mərtəbəsində xalqımızın ümummilli lideri, Azərbaycanın yeni neft strategiyasının banisi Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətindən bəhs edən fotoguşə yaradılıb, ulu öndərin barelyefi vurulub.*

*Qeyd olundu ki, SOCAR-ın yeni inzibati binası müasir beynəlxalq standartlara tam cavab verir və burada yüksək təhlükəsizlik tədbirləri görülüb. Binanın təhlükəsizlik və texniki sistemlərinin idarə edilməsi vahid mərkəzdən həyata keçirilir. Hündürlüyü 200 metr olan binanın 40 mərtəbəsi yerüstü, 2 mərtəbəsi isə yeraltı olmaqla, ümumilikdə 5 hektar sahəni əhatə edir. Paytaxtda müasir memarlıq üslubu ilə fərqlənən və xüsusi gözəlliyi ilə seçilən binanın 34–37-ci mərtəbələri rəhbərliyin ofisləri, 18–33-cü mərtəbələri baş ofisin idarə və şöbələri, 3–16-cı mərtəbələri isə şirkətin struktur bölmələrinin ofisləri kimi fəaliyyət göstərəcək. Binanın konstruksiyası dəmir-beton özək divarlı və polad quruluşlu kompozit sistemə əsaslanıb. Rixter cədvəli üzrə 9 ballıq zəlzələyə davamlı olan binanın layihəsi Kanadada xüsusi beynəlxalq laboratoriyada virtual şəraitdə sınaqdan keçirilib və saatda 190 kilometr külək sürətinə hesablanıb.*

*Bildirildi ki, yeni inzibati binada 3 konfrans zalı var. 233, 110 və 22 yerlik konfrans zallarında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb.*

*Konfrans zalı ilə tanışlıq zamanı prezident İlham Əliyev binanın tikintisini əks etdirən videogörüntülərə baxdı.*

*Binada hər cür avadanlıqla təchiz olunan 2 fitnes mərkəzi də qurulub. Yeni binanın 450 nəfərlik yeməkxanasında, həmçinin 130 nəfər üçün nəzərdə tutulan kafeteriyasında da hər cür*

*şərait yaradılıb. Binanın podium hissəsində əməkdaşların istifadəsi üçün zəngin ədəbiyyatla təmin edilən kitabxana var.*

*Diqqətə çatdırıldı ki, binanın yeraltı hissəsində 1045, ərazisində isə 240 avtomobil yerlik dayanacaqlar yaradılıb. Külək-tunel testinə uyğun olaraq, asma amplitudasının məhdudlaşdırılması məqsədilə bina damper sistemi ilə təchiz olunub. Fasadın təmizlənməsi və digər xidmətlər binanın üstündə yerləşən teleskopik səbətli kran vasitəsilə həyata keçiriləcək. Bundan əlavə, bina qoşa kabinəli liftlər və avtomatlaşdırılmış mərkəzi yönləndirmə sistemləri ilə təmin olunub.*

*Bina ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.*

*Bu gün dünyada Azərbaycan brendi kimi çıxış edən SOCAR artıq uzun illərdir ölkəmizin yanacaq-enerji təhlükəsizliyini, neft-qaz və neft-kimya sənayesinin inkişafı üzrə strateji maraqları təmin etməyi, qabaqcıl və ekoloji cəhətdən təmiz texnologiyalardan istifadə edərək, ölkənin elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına dəstək olmağı, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmağı, karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından maksimum mənfəət əldə etməyi qarşısına məqsəd qoyub və bu məqsədlərə də çatıb. 1994-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük səyi sayəsində imzalanan «Əsrin müqaviləsi» ilə başlanan yeni neft strategiyası Azərbaycanın sürətli inkişafında mühüm rol oynayıb. Hazırda 7 nəql marşrutuna malik olan ölkəmiz Avropanın enerji təhlükəsizliyində mühüm rolu ilə diqqət çəkir. Azərbaycan Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərindən sonra prezident İlham Əliyevin güclü dəstəyi ilə TANAP və TAP qaz kəmərlərinin, bütövlükdə «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasında aparıcı qüvvə kimi çıxış edir.*

*İndi Bakı sürətli inkişafı ilə dünyada mötəbər beynəlxalq tədbirlərin keçirildiyi, uğurlu iqtisadi və enerji layihələrinin icra olunduğu mühüm mərkəz funksiyasını şərəflə yerinə yetirir. Bu gün enerji resurslarımız dövlət müstəqilliyimizin*

*dayaqlarının daha da möhkəmlənməsində mühüm rol oynayır, xalqımızın rifahına və xoşbəxt gələcəyinə xidmət edir. Zəngin və şərəfli keçmişi olan Azərbaycan neftinin gətirdiyi uğurlar sayəsində ölkəmizin regionlarının və paytaxtımızın abadlaşdırılması istiqamətində görülən tədbirlərin geniş vüsət alması da bu amaldan qaynaqlanır. Bu isə özlüyündə Bakının müasir simasının yaradılması ilə bağlı prezident İlham Əliyevin həyata keçirdiyi konsepsiyanın uğurla reallaşdığını təsdiqləyir. SOCAR-ın yeni inzibati binası da bu istiqamətdə atılan addımlardan biridir.*

## XXIII BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ» SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi XXIII Beynəlxalq «Xəzər Neft və Qaz» sərgi və konfransının açılışı münasibətilə ürəkdən salamlayıram.

İlk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş və neft-qaz sənayesi sahəsində ənənəvi tədbirə çevrilmiş sərginin təşkilindən ötən müddətdə müstəqil Azərbaycan enerji sektorunun inkişafı istiqamətində mühüm irəliləyişə nail olmuşdur. Bu gün dünya iqtisadiyyatının inkişafında, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin enerji ehtiyatları böyük əhəmiyyətə malikdir.

Qürur hissi ilə deyə bilərik ki, Azərbaycan öz üzərinə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlmişdir. Hər biri nəhəng enerji layihəsi olan «Azəri–Çıraq–Günəşli» neft və «Şahdəniz» qaz yataqlarının işlənilməsi, Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri bunun bariz nümunəsidir. Hazırda uğurla həyata keçirilən «Cənub Qaz Dəhlizi» layihəsinin icrasında da Azərbaycan öz liderlik mövqeyini bir daha nümayiş etdirmişdir.

Xəzər hövzəsindən Avropaya çatdırılacaq qazın marşrutu çoxdan müzakirə mövzusu idi. Məhz bizim təşəbbüsümüzlə 2012-ci ildə Türkiyə və Azərbaycan arasında TANAP qaz kəməri layihəsinə dair müqavilənin imzalanması sonrakı prosesləri xeyli sürətləndirdi. Nəticə etibarilə Trans–Adriatik qaz kəməri Avropaya gedən əsas ixrac marşrutu seçildi, «Cənub Qaz Dəhlizi» layihəsinin icrasına başlanıldı və «Şahdəniz-2» layihəsinə start verildi.

Bu meqalayihənin tərkibinə daxil olan TANAP, TAP və digər layihələrlə bağlı işlər fasiləsiz davam etdirilir. Dünya bazarlarında neftin qiymətinin kəskin ucuzlaşmasına baxmayaraq, Azərbaycanın iştirakçısı olduğu və icra etdiyi bütün iri

layihələr, o cümlədən «Cənub Qaz Dəhlizi» layihəsi təsdiq edilmiş cədvəl üzrə vaxtında gerçəkləşdiriləcək və Azərbaycan qazı 2018-ci ildə Türkiyəyə, 2020-ci ildə isə Avropaya nəql olunacaqdır.

İnanıram ki, sərgi və konfransınız həm qlobal, həm də regional səviyyədə əməkdaşlığın daha da dərinləşməsinə zəmin yaradacaq, dünya miqyasında enerji sahəsindəki proseslərə öz töhfəsini verəcəkdir. Hamınıza gələcək fəaliyyətinizdə nailiyyətlər, ölkələrinizə sülh və əmin-amanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 may 2016-cı il*

# BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KEROL MERİ KROFTS İLƏ GÖRÜŞ

*31 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Kerol Meri Kroftsun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Kerol Meri Krofts etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin gündəliyinin geniş sahələri əhatə etdiyini deyən dövlətimizin başçısı səfir Kerol Meri Kroftsun diplomatik fəaliyyətinin bu əlaqələrin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Səfir Kerol Meri Krofts ölkəsinin Azərbaycan ilə 20 ildən artıqdır ki, uğurlu əməkdaşlıq etdiyini vurğuladı. bp-nin ölkəmizə ən böyük sərmayə yatıran şirkət olduğunu qeyd edən səfir Böyük Britaniyanın Azərbaycan ilə əməkdaşlıq imkanlarından danışdı. Azərbaycanda olduğu müddətdə Bakı ilə yanaşı, respublikamızın müxtəlif bölgələri ilə də tanış olduğunu deyən səfir Kerol Meri Krofts xalqımızın qonaqpərvərliyinin və ölkəmizdəki fərqli gözəlliklərin onda dərin təəssürat yaratdığını, Bakının beynəlxalq bir şəhər kimi, onu valeh etdiyini vurğuladı.*

*Azərbaycanın müxtəlif bölgələri ilə tanışlığın ölkəmizi daha yaxından tanımaq üçün yaxşı fürsət yaratdığını deyən dövlətimizin başçısı bu səfərlərin əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev səfirə gələcək fəaliyyətində uğurlar arzuladı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən proseslər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## ÇİN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN SİYASİ BÜROSUNUN DAİMİ ÜZVÜ, DÖVLƏT ŞURASI SƏDRİNİN BİRİNCİ MÜAVİNİ CAN QAOLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 may 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun daimi üzvü, Çin Xalq Respublikası Dövlət Şurası Sədrinin birinci müavini Can Qaolinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaqları Azərbaycanda salamlayan prezident İlham Əliyev bu səfərin ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişafına xidmət edəcəyinə əminliyini ifadə etdi. «Biz Çin Xalq Respublikası ilə münasibətlərin inkişafına böyük önəm veririk» – deyən dövlətimizin başçısı ötən ilin sonunda Çin Xalq Respublikasına dövlət səfərini məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev səfər çərçivəsində aparılan danışıqların, imzalanan sənədlərin gələcək əməkdaşlıq baxımından əhəmiyyətini vurğuladı. Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu, iqtisadi, humanitar, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın inkişaf etdiyini deyən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu səfər dostluq münasibətlərinin genişlənməsində daha bir mühüm addım olacaq.*

*Azərbaycana səfərindən məmnun olduğunu deyən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun daimi üzvü, Çin Xalq Respublikası Dövlət Şurası Sədrinin birinci müavini Can Qaoli Bakıya səfər etməzdən öncə Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşdüyünü bildirdi, onun ehtiramını və salamlarını prezident İlham Əliyevə çatdırdı. O dedi ki, Çin Xalq Respublikasının Sədri Azərbaycanı Çin üçün mühüm və dost ölkə hesab*

*edir. İlk dəqiqələrdən paytaxtımızda gedən inkişaf proseslərinin, şəhərimizin gözəlliyinin onda dərin təəssürat yaratdığını deyən Can Qaoli Bakının şəhərsalma baxımından tarixlə müasirliyin vəhdətinin nümunəsi olduğunu bildirdi, prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin sürətlə inkişaf etdiyini, əhalinin rifah halının yaxşılaşdığını vurğuladı.*

*Prezident İlham Əliyev qısa müddət ərzində Çindən yüksək səviyyəli nümayəndə heyətlərinin Azərbaycana həyata keçirdikləri səfərləri münasibətlərimizin yaxşı nümunəsi kimi qiymətləndirdi, Çin ilə əlaqələrin inkişafının Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında dialoq üzrə tərəfdaş statusunu almasını bu təşkilata tam inteqrasiya olunmaq istiqamətində ilkin addım kimi dəyərləndirir və bu təşkilat ilə əməkdaşlıq ölkəmizin xarici siyasətində mühüm yer tutur. Prezident İlham Əliyev Azərbaycanın Çin ilə terrorizm və ekstremizmlə mübarizədə əməkdaşlığa böyük önəm verdiyini bildirdi. Azərbaycanın Çin ilə İpək yolu infrastrukturunun yaradılması və inkişaf etdirilməsində birgə fəaliyyətdə maraqlı olduğunu qeyd etdi. Bildirdi ki, Azərbaycan malların Çindən Avropaya və əksinə daşınmasında mühüm tranzit rolunu oynamağa hazırdır. Bunun üçün ölkəmizdə dəmir yolunun, həmçinin Xəzər hövzəsində ən böyük yeni dəniz limanının inşası və burada azad iqtisadi zonanın yaradılması istiqamətində tədbirlər görülür və Azərbaycan bu işlərdə Çin şirkətlərinin fəal iştirakında maraqlıdır. Dövlətimizin başçısı Çin investisiyalarının iqtisadiyyatımızın müxtəlif sahələrinə yatırılmasının ölkəmiz tərəfindən alqışlandığını bildirdi. Çin şirkətlərinin Azərbaycanın inşaat sektorunda uğurla iştirak etdiklərini deyən prezident İlham Əliyev ölkələrimiz arasında turizm, mədəniyyət, təhsil, enerji, nəqliyyat, yüksək texnologiyalar, kənd təsərrüfatı, rabitə-kommunikasiya texnologiyaları və digər istiqamətlərdə əməkdaşlığın inkişafı üçün yaxşı potensialın mövcud olduğunu vurğuladı, Çinin iqtisadiyyatın bütün sahələrində əldə etdiyi uğurlar münasibətilə təbriklərini çatdırdı.*

*Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun daimi üzvü, Çin Xalq Respublikası Dövlət Şurası Sədrinin birinci müavini Can Qaoli vurğuladı ki, Çin Azərbaycan ilə münasibətlərə böyük önəm verir. Qonaq bundan əvvəl Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi, Kommunist Partiyası Siyasi Şurasının üzvü, Mərkəzi Komitəsinin siyasi və hüquqi məsələlər Komissiyasının katibi – Təhlükəsizlik Şurasının katibi Menq Jianzunun ölkəmizdə olduğunu və həmin səfərin onda böyük məmnunluq doğurduğunu bildirdi. Ölkələrimizin BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq strukturlarda birgə qarşılıqlı fəaliyyətinin önəmini qeyd edən Çin nümayəndə heyətinin rəhbəri regional təhlükəsizlik işində də qarşılıqlı fəaliyyətin əhəmiyyətini vurğuladı. «Biz Çin şirkətlərini Azərbaycan iqtisadiyyatına investisiya qoymağa təşviq edəcəyik» – deyən qonaq Çinin böyük İpək yolunun bərpasında, eyni zamanda, sənaye istehsalı, neft-qaz sektoru, maşınqayırma, yüksək texnologiyalar, infrastruktur, təhsil, mədəniyyət, turizm və digər sahələrdə Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını diqqətə çatdırdı. O, ölkələrimizin hakim partiyaları arasında əlaqələrin genişləndirilməsinin ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi işinə töhfə verdiyini bildirdi. Can Qaoli dedi: «Yeni Azərbaycan Partiyasının əsası Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Bu gün Sizin rəhbərliyinizlə bu partiya Azərbaycanın ümumi inkişafında və tərəqqisində mühüm rol oynayır. Sizin müdrik rəhbərliyinizlə Azərbaycanda gedən inkişaf prosesləri və yürütdüyünüz uğurlu siyasət Azərbaycan xalqının tərəqqisinə xidmət edir». Can Qaoli bildirdi ki, Çin Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyib və dəstəkləyir.*

*Prezident İlham Əliyev Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun daimi üzvü, Çin Xalq Respublikası Dövlət Şurası Sədrinin birinci müavini Can Qaolinin ölkəmiz haqqında dediyi xoş sözlərə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı ölkələrimizin BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq strukturlarda fəal əməkdaşlıq etdiyini bildirdi, Çinin bu təşkilatlarda ölkəmizə verdiyi dəstəyi yüksək qiymət-*

*ləndirdi. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxundu, Ermənistanın təcavüzkarlıq siyasəti və münaqişənin həlli ilə bağlı aparılan danışıqlar prosesi barədə məlumat verdi. Bildirdi ki, ölkələrimizin bir-birinin ərazi bütövlüyünü dəstəkləməsi mühüm əhəmiyyət daşıyır. Dövlətimizin başçısı ölkələrimizin hakim partiyaları arasında da əməkdaşlığın əhəmiyyətli olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpini onun üçün münasib vaxtda Azərbaycana rəsmi səfərə dəvət etdi. Dövlətimizin başçısı Çin Xalq Respublikası Sədrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.*

## XXIII BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2016» SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*1 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Bakı Sərgi Mərkəzində XXIII Beynəlxalq «Xəzər Neft və Qaz–2016» sərgi və konfransının, həmçinin «VI Xəzər Beynəlxalq energetika və alternativ enerji»sərgisinin açılışında iştirak etmişdir.*

*Xəzəryanı regionda energetika sektorunun ən əhəmiyyətli tədbiri olan XXIII Beynəlxalq «Xəzər Neft və Qaz–2016» sərgisi Azərbaycanın Energetika Nazirliyi və Dövlət Neft Şirkəti – SOCAR-ın dəstəyi, «ITECA Caspian» və «ITE Group Plc» şirkətlərinin təşkilatçılığı ilə keçirilir. Bu il sərgidə dünyanın 30 ölkəsini təmsil edən 240 şirkət iştirak edir. Bütövlükdə sərginin ekspozisiya sahəsinin 63,7 faizini xarici iştirakçılar tutur. VI Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisi Xəzəryanı regionun enerji səmərəliliyi və bərpa olunan enerji sahəsində yeganə ixtisaslaşmış tədbiridir.*

*Beynəlxalq «Xəzər Neft və Qaz–2016» sərgi və konfransında «ITE Group Plc» şirkətinin xüsusi məsləhətçisi Endryu Vud çıxış etdi.*

**E n d r y u V u d:** Zati-aliləri cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mənim üçün böyük şərəfdir ki, bu vacib tədbirin təşkilatçılarından olan «ITE Group Plc» şirkəti adından hər birinizə, xüsusən də Azərbaycan hökumətinə, Dövlət Neft Şirkətinə bu sərginin keçirilməsinə verdikləri dəstəyə görə minnətdarlığımı bildirim. Builki sərgi də keçən illərdə olduğu kimi, çox əhəmiyyətlidir. Çünki ötən illərdə, xüsusən də son illərdə dünya iqtisadiyyatında, o cümlədən neft, qaz, energetika sahələrində böyük dəyişikliklər baş verib. Düşünürəm ki, biz bu

tədbirin yaratdığı imkandan istifadə edərək, birgə fikir mübadiləsi, səmərəli müzakirələr aparmalıyıq.

Bizim sərgi tezliklə Azərbaycanda təşkil ediləcək çox möhtəşəm idman tədbiri ərəfəsində açılıb. Biz bu ayın ortalarında Bakıda «Formula-1» Avropa Qran-prisini izləyəcəyik. Sərgi və konfransın bu yarışlar ərəfəsində keçirilməsi çox sevindiricidir.

İndi isə mən çıxış üçün sözü Azərbaycan prezidenti cənab İlham Əliyevə verirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz qonaqlar!

Mən sizin hamınızı salamlayıram. Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. XXIII Beynəlxalq «Xəzər Neft və Qaz» sərgisi öz işinə başlayır. Bu sərginin təşkilində rol oynayan bütün insanlara, qurumlara öz minnətdarlığımı bildirmək istəyirəm.

Sərginin Azərbaycanda keçirilməsi ölkəmizin ümumi inkişafı üçün çox mühüm rol oynayır. Bildiyiniz kimi, birinci sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycanı, demək olar ki, dünyada tanımırdılar. Azərbaycan gənc müstəqil dövlət idi. Xüsusilə nəzərə alsaq ki, müstəqilliyimizin ilk illəri çox ağır keçirdi, Azərbaycanda iqtisadi, siyasi və hərbi böhran hökm sürürdü. Ermənistan torpaqlarımızı işğal etmişdi, 1993-cü ildə vətəndaş müharibəsi başlanmışdı. Yəni bütün bu amilləri nəzərə alsaq, bir daha görərik ki, sərginin nə qədər böyük əhəmiyyəti var idi. Çünki o vaxt bu sərgi vasitəsilə Azərbaycan öz neft potensialını dünyaya təqdim etdi. Azərbaycan bəyan etdi ki, o, investisiyalara açıq bir ölkədir. Azərbaycan inkişaf yolu ilə getmək, müasir dövlətə çevrilmək istəyir. Buna nail olmaq üçün, əlbəttə ki, ilk növbədə, ölkəmizə xarici sərmayə qoyulmalı idi. Xarici sərmayə üçün ən cəlbedici sahə, təbii ki, neft sahəsi idi.

Azərbaycan qədim neft ölkəsidir. Dünyada ilk dəfə sənaye üsulu ilə neft XIX əsrdə Azərbaycanda hasil edilmişdir. XX əsrdə isə ilk dəfə olaraq, dünyada dəniz yataqlarından neft yenə də Xəzər dənizində, Azərbaycanda hasil edilmişdir. Ancaq

keçən əsrin 90-cı illərinin əvvəllərində yaranmış vəziyyət, əlbəttə, o qədər də ümidverici deyildi. Ölkə çox böyük çətinliklərlə üzləşmişdi və Azərbaycanın, ümumiyyətlə, uzunmüddətli inkişaf perspektivləri çox qaranlıq idi.

Məhz belə bir şəraitdə birinci sərginin keçirilməsi, bir daha demək istəyirəm, çox önəmli bir hadisə idi. Bir daha bu fürsətdən istifadə edərək, bu sərgini uzun illər keçirən təşkilata minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, o şirkətlərə minnətdarlığımı bildirmək istəyirəm ki, bizə inandılar və bizimlə əməkdaşlıq etməyə başladılar. İlk növbədə, mən *bp* şirkətinin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Artıq 22 ildir ki, *bp* və SOCAR etibarlı tərəfdaşlar kimi, birgə işləyirlər. Bir çox layihələrdə – ölkəmiz üçün ən önəmli layihələr olan «Azəri–Çıraq–Günəşli», «Şahdəniz», «Cənub Qaz Dəhlizi» layihələrində, neft və qaz kəmərlərinin tikintisində birgə işləyirlər və bu əməkdaşlığın çox gözəl gələcəyi vardır. Çünki qeyd etdiyim layihələrlə yanaşı, digər perspektiv layihələr üzərində də birgə iş aparılır.

Bu illər ərzində SOCAR – Azərbaycan Dövlət Neft Şirkəti də beynəlxalq enerji şirkətinə çevrilib. İlk növbədə ona görə ki, Azərbaycanda belə genişmiqyaslı böyük layihələr icra edilib. Artıq SOCAR həm ölkə daxilində, həm xaricdə fəal iş aparır, böyük investisiyalar qoyur. Vaxtilə Azərbaycana yatırılan milyardlarla investisiyaları indi Azərbaycan xarici məkanlara qoyur. Beləliklə, həm bizim iqtisadi maraqlarımız təmin edilir və eyni zamanda, əlbəttə ki, xarici ölkəyə qoyulan investisiya o ölkə ilə bütün əlaqələrin inkişafına xidmət göstərir.

1994-cü ildən bu günə qədər Azərbaycan bütün sahələrdə olduğu kimi, neft-qaz sahəsində də çox uğurlu və şərəfli yol keçib. Qarşımıza qoyduğumuz bütün vəzifələr icra edilib. Planlaşdırdığımız bir dənə də layihə yarımçıq qalmayıb. Biz bütün layihələri icra etdik. Bu layihələri icra etmək üçün çox böyük səylər, həmçinin siyasi səylər göstərildi, eyni zamanda, böyük maliyyə resursları ayrıldı. Bu böyük layihələr bir çox ölkələrlə razılıq əsasında icra edildi. Çünki ilk növbədə, qarşıda nefti Xəzər

dənizindən çıxarmaq, sahilə gətirmək, onu dünya bazarlarına nəql etmək məsələləri dayanmışdı. Burada, əlbəttə ki, beynəlxalq əməkdaşlıq olmadan bu məsələləri həll etmək mümkün olmazdı. Eyni zamanda, regionda sabitlik olmalı idi. İnvestorların inamı artmalı idi ki, bu layihələr icra edilsin. Əks təqdirdə, nə beynəlxalq maliyyə qurumları, nə də ki, şirkətlər öz vəsaitlərini qoymazdılar. Məhz bu istiqamətdə çox ciddi iş aparıldı və keçən əsrin 90-cı illərinin ortalarında Azərbaycanda sabitlik tam təmin edildi. İnvestorlar bizə inandılar və Azərbaycana milyardlarla dollar məbləğində sərmayə qoyulmağa başlandı.

Biz də bu imkanlardan səmərəli şəkildə istifadə etdik. Neftdən əldə edilən gəlirləri qeyri-neft sektoruna yönəltdik. Ölkə iqtisadiyyatını şaxələndirmək üçün böyük səylər göstərildi və bu gün Azərbaycanın ümumi daxili məhsulunda neft amili təxminən 30 faizdən bir qədər çoxdur. Ümumi gəlirlərimizin əksəriyyəti qeyri-neft sektoru hesabına formalaşır. Vəsaitin şəffaf saxlanması və idarə edilməsi üçün Dövlət Neft Fondu yaradılıb. Bu gün bu Fond dünya miqyasında ən şəffaf, suveren neft fondlarından biridir. Aparılan bütün infrastruktur və yenidənqurma işləri bir məqsədi güdürdü ki, Azərbaycan iqtisadiyyatı çoxşaxəli olsun, biznes imkanları genişlənsin, neftdən və qazdan asılılıq daha da aşağı düşsün. Biz bu istiqamətdə bu gün də işləyirik. Bizim üçün bu gün ən önəmli vəzifə məhz bundan ibarətdir ki, uzunmüddətli dayanıqlı iqtisadi inkişaf konsepsiyamızı icra edək və gələcəkdə, ümumiyyətlə, neftin qiymətindən asılı olmayaq.

Ötən əsrin 90-cı illərinin ortalarında isə qarşımızda tam başqa vəzifələr dururdu. O vəzifələr ki, biz həm neft, həm qaz potensialımızı maksimum dərəcədə dünya bazarlarına çıxarmalı idik. Təsadüfi deyil ki, 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanmasından 2 il keçməmiş – 1996-cı ilin iyununda «Şahdəniz» qaz yatağı üzrə hasilatın pay bölgüsü kontraktı imzalandı. Bu gün «Şahdəniz» qaz yatağı dünya miqyasında ən böyük qaz yataqlarından biridir. Artıq «Şahdəniz»dən hasil olunan qaz regional bazarlara çıxarılır. «Cənub Qaz Dəhlizi» layihəsinin icrası bizə imkan verəcək ki, həm «Şahdəniz» qazı,

həm digər qaz yataqlarından hasil olunacaq Azərbaycan qazı dünya bazarlarına çıxarılsın və beləliklə, biz həm neft, həm qaz proqramlarımızı tam şəkildə icra edək.

Təbii ki, bu gün «Cənub Qaz Dəhlizi» haqqında danışarkən, biz XX əsrin 90-cı illərində görülmüş işləri mütləq qeyd etməliyik. Əgər o vaxt Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməsəydi, onda, əlbəttə ki, bu dəhliz də yaranmazdı. Bakı–Tbilisi–Ceyhan kəməri Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdi və enerji dəhlizini formalaşdırdı. İndi Azərbaycan qazı həmin dəhliz vasitəsilə dünya bazarlarına çıxarılacaq. Demək olar ki, o dəhlizlərin coğrafiyası böyük dərəcədə eynidir və bu dəhliz hazırda nəqliyyat dəhlizinə çevrilir. Çünki biz neftdən əldə olunan gəlirləri nəqliyyat infrastrukturuna yönəldərək, çox ciddi nəqliyyat bağlantıları yaratmışıq. Şərq–Qərb nəqliyyat dəhlizi bu gün reallaşır və əminəm ki, bu ilin sonuna qədər tam istifadəyə veriləcək. Beləliklə, neft, qaz, nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçəcək. Bu müddətdə biz elektrik enerjisinin ixracı ilə də bağlı lazımi addımlar atmışıq və bu gün Azərbaycan elektrik enerjisi də ixrac edir.

Yəni bizim coğrafi vəziyyətimiz, qoyulan sərmayə və düşünülmüş siyasət, tərəfdaşlarla apardığımız birgə fəaliyyət, bax, bu reallıqları yaradıbdır. Bu reallıqlar həm Azərbaycan dövlətinə, xalqına xidmət edir, həm qonşu dövlətlərin maraqlarını təmin edir və geniş coğrafiya baxımından beynəlxalq əməkdaşlığı gücləndirir. Beynəlxalq əməkdaşlıq olmadan, əlbəttə ki, biz heç bir layihəni icra edə bilmərik. Çünki Azərbaycanın açıq dənizlərə, dünya bazarlarına çıxışı yoxdur. Məhz buna görə neft və qaz kəmərlərinin tikintisinə böyük vəsait yönəldilir və beynəlxalq əməkdaşlığın təşəbbüskarı da biz olmuşuq. Bu da təbiidir. Çünki bu bizə lazım idi ki, neft-qaz kəmərləri tikilsin, bu resurslar dünya bazarlarına çıxsın. Tranzit, istehlakçı ölkələr də bu layihələrə böyük maraq göstərirlər. Əlbəttə ki, onlar da bu layihələrdən bəhrələnirlər. Tranzit ölkələr onilliklər bundan sonra böyük mənfəət götürəcəklər, istehlakçı ölkələr əlavə alternativ qaz mənbələrinə çıxış əldə

edəcəklər. Yəni burada bütün tərəflər ancaq qazanır və əlbəttə, bu beynəlxalq əməkdaşlığı formalaşdırmaq üçün, ilk növbədə, Azərbaycan öz səylərini göstərməli idi və göstərdi. Əgər keçən əsrin 90-cı illərinin ortalarında üçtərəfli format yaranıbdırsa – Azərbaycan–Gürcüstan–Türkiyə – bu gün bu format genişlənir və «Cənub Qaz Dəhlizi»nin üzv ölkələri müxtəlif qurumları təmsil edir. Yenə də Azərbaycan–Gürcüstan–Türkiyə və Avropa İttifaqına üzv ölkələr – Bolqarıstan, Yunanıstan, İtaliya və Albaniya – artıq 7 ölkə «Cənub Qaz Dəhlizi»nin üzvüdür və Balkan ölkələri də bu layihəyə maraq göstərir. Bəzi Balkan ölkələri ilə artıq memorandumlar da imzalanıb ki, gələcəkdə biz «Cənub Qaz Dəhlizi»nin qollarını açaq. Çünki indi əsas xətt Bakıdan İtaliya sahillərinə qədər uzanan bir xətdir. Ancaq bu xətdən kənara çıxan qollar da olmalıdır. Biz bu məsələlər üzərində işləyirik.

Bizim kifayət qədər qaz resurslarımız var. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Hazırda «Abşeron», «Ümid» yataqlarının işlənilməsi ilə bağlı hazırlıq işləri aparılır. Əminəm ki, bu layihələr də uğurla nəticələnəcək və beləliklə, Azərbaycanın qaz hasilatı daha da artacaqdır. «Azəri–Çıraq–Günəşli» yatağının dərin laylarında böyük qaz yataqları var və biz onların da hasilatı ilə bağlı ciddi addımlar atırıq. Yəni onu demək istəyirəm ki, biz öz fəaliyyətimizi «Cənub Qaz Dəhlizi»nin mövcud formatı ilə məhdudlaşdırmaq istəmirik. Biz istəyirik ki, daha da geniş coğrafiyaya çıxaq. Buna nail olmaq üçün qaz resursları var və artıq beynəlxalq əməkdaşlıq formatı da yaranıbdır.

Siz yaxşı bilirsiniz, artıq ikinci dəfədir ki, Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının iclası keçirilib. Bu ilin fevralında keçirilən ikinci iclasda bütün üzv ölkələrin nümayəndələri yüksək səviyyədə təmsil olunub. Avropa Komissiyasının iki vitse-prezidentinin, Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın yüksəkvəzifəli nümayəndələrinin iştirak etdikləri iclasda yekun Bəyannamə imzalanıb. Bu Bəyannamədə «Cənub Qaz Dəhlizi» layihəsinin icrasında Azərbaycanın liderlik rolu qeyd edilir. Əlbəttə, bu bizim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir. Məşvərət Şurasının yaradılması da məhz bizim

təşəbbüsümüz idi. Mən şadam ki, Avropa Komissiyası da bu təşəbbüsə öz dəstəyini göstərdi. Beləliklə, biz artıq çox ciddi koordinasiya formatı çərçivəsində işləyirik və şadam ki, bütün hədəflərə çatırıq.

Yadımdadır, keçən il bu sərginin açılışında iştirak edərkən demişdim ki, 2015-ci ildə TANAP layihəsinin təməli qoyuldu. Bu gün məmnunluq hissi ilə qeyd etməliyəm ki, keçən ay, 2 həftə bundan əvvəl TAP layihəsinin təməli qoyuldu. Yəni biz öz hədəflərimizə çatmaq üçün ardıcıllıqla irəliyə gedirik və bütün hədəflərə çatırıq. Əgər həyata keçirdiyimiz işlərin xronologiyasına baxsaq görərik ki, biz öz hədəflərimizə çatmaq üçün çox böyük ardıcıllıqla, məqsədyönlü, planlı şəkildə irəliləyirik.

1994-cü ildə «Əsrin müqaviləsi»nin, 1996-cı ildə «Şahdəniz» layihəsi üzrə kontraktın imzalanması, 1997-ci ildə «Çıraq» yatağından ilk neftin çıxarılması, 1999-cu ildə Qara dəniz limanları ilə bizi birləşdirən Bakı–Supsa neft kəmərinin tikilməsi, 2003-cü ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməlqoyma mərasimi, 2006–2007-ci illərdə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi, 2012-ci ildə Türkiyə ilə Azərbaycan arasında TANAP layihəsinin imzalanması, ondan sonra 2014-cü ildə «Cənub Qaz Dəhlizi»nin təməl daşının qoyulması, 2015-ci ildə TANAP-ın təməlinin qoyulması və nəhayət, 2016-cı ildə TAP layihəsinin təməlqoyma mərasimi – bax, budur xronologiya. Yəni bugünkü vəziyyət öz-özünə yaranmayıb. Əldə edilmiş bu uğurlar göydən düşməyib. Bu, gərgin, məqsədyönlü iş nəticəsində mümkün olub. Bir daha demək istəyirəm ki, biz ancaq beynəlxalq əməkdaşlıq çərçivəsində bu nailiyyətlərə çata bilərdik.

Bu gün vəziyyət ondan ibarətdir ki, «Cənub Qaz Dəhlizi»nin icrası qrafik üzrə gedir. Hazırda enerji sahəsində qarşımızda duran əsas vəzifə «Cənub Qaz Dəhlizi»nin icrasıdır. Əminəm ki, bu proses qrafik üzrə gedəcək. «Cənub Qaz Dəhlizi»nin bütün 4 seqmentində də – «Şahdəniz», «Cənubi Qafqaz» qaz kəməri, TANAP və TAP layihələrində işlər gedir və əminəm ki, vaxtında icra ediləcək.

«Cənub Qaz Dəhlizi» iqtisadi layihədir, eyni zamanda, təhlükəsizlik layihəsidir. Çünki bu gün dünyada enerji təhlükəsizliyi məsələləri ön plana çıxır. Hər kəs artıq başa düşür ki, enerji təhlükəsizliyi olmadan ölkələrin milli təhlükəsizliyi haqqında danışmaq mümkün deyil. O ölkələr ki, enerji resursları ilə zəngin deyillər, əlbəttə, onlar digər resurslardan asılıdır. Bizim vəzifəmiz həmişə ondan ibarət olub ki, əməkdaşlığı dərinləşdirmək üçün enerji amilindən istifadə edək. Azərbaycan heç vaxt öz potensialından başqa məqsədlər üçün istifadə etməyib. Bizim istəyimiz və arzumuz ondan ibarət olub ki, əməkdaşlığı dərinləşdirək, qonşuluğumuzda vəziyyət sabit olsun. Bu sabit vəziyyət imkan versin ki, biz transmilli layihələri icra edək və Azərbaycan xalqının rifah halını yaxşılaşdıraq, ölkəmizin qüdrətini artıraq. Buna görə də «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasında müzakirə olunan məsələlərlə bağlı heç bir fikir ayrılığı yoxdur. Nəyə görə? Ona görə ki, orada bütün maraqlar təmin edilir. İstehsalçı ölkənin – Azərbaycanın maraqları, tranzit ölkələrin maraqları və istehlakçı ölkələrin maraqları. Biz ancaq bu maraqların uzlaşması şəraitində istədiyimizə nail ola bilərik. Əgər bu 3 tərəfdən hər hansı biri ancaq öz maraqlarını güdsəydi, biz bu uğura nail ola bilməzdik. Bu çox gözəl bir nümunədir. Enerji siyasəti və bu sahədə uzunmüddətli əməkdaşlıq ancaq bu sağlam zəmində qurulmalıdır. Enerji amilindən heç vaxt başqa məqsədlər – şantaj, hansısa sahədə imtiyazlara nail olmaq üçün alət kimi istifadə edilməməlidir. Hesab edirəm ki, burada Azərbaycanın mövqeyi artıq dünya miqyasında rəğbət qazanıb.

Digər tərəfdən, bu mövqe öz haqqını artıq nümayiş etdirir və göstərir ki, ancaq belə yanaşma uğur gətirə bilər. Biz istəyirik ki, Azərbaycanda inkişaf daha da sürətlə getsin. İstəyirik ki, bölgədə sabitlik möhkəmlənsin. Bu gün dünyada baş verən hadisələr, təbii ki, bizi də narahat edir. Dünyanın müxtəlif yerlərində yeni münaqişə ocaqları yaranır, müharibələr, qarşıdurmalar, ziddiyyətlər, toqquşmalar baş verir. Əlbəttə ki, bu, arzuolunan mənzərə deyil.

Biz isə çalışırıq ki, bölgəmizdə sabitlik olsun. Ölkələr ancaq sabitlik şəraitində inkişaf edə bilər. Ölkələrə ancaq sabitlik şəraitində investisiya qoyula bilər. Ancaq sabitlik şəraitində xalqlar rahat, təhlükəsizlik, rifah içində yaşaya bilər. Azərbaycan nümunəsi, hesab edirəm ki, bir çox ölkələr üçün maraqlı ola bilər.

Bu il biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. 25 il ərzində Azərbaycan sübut edib ki, müstəqil ölkə kimi yaşaya bilər, yaxşı yaşaya bilər, öz taleyinin sahibi ola bilər, bütün ölkələrlə normal münasibətlər qura bilər. Ən əsası ondan ibarətdir ki, bizim gələcəyə də çox dəqiq və aydın baxışlarımız var.

Biz hazırda «Cənub Qaz Dəhlizi»nin icrası ilə ciddi məşğuluq. Bununla bərabər, biz iqtisadiyyatın şaxələndirilməsi ilə daha da ciddi məşğuluq ki, neft amilindən asılılığı tam aradan götürək və Azərbaycan iqtisadiyyatı uzunmüddətli, dayanıqlı iqtisadiyyat ola bilsin. Bu istiqamətdə görüləsi işlər hələ çoxdur. 2016-cı il bizim üçün, neftlə zəngin olan bütün ölkələr üçün sınaq ilidir. Neftin qiyməti bir neçə dəfə aşağı düşüb, təbii ki, bu, bütün ölkələr üçün sınaqdır. Ancaq hesab edirəm ki, Azərbaycan bu sınaqdan şərəflə çıxır. 2016-cı il sabitləşmə ili olmalıdır və artıq biz bunu görürük. Əminəm ki, gələn ildən iqtisadi artım bərpa ediləcək.

Biz son 10 il ərzində çox yüksək iqtisadi artım şəraitində yaşamışıq. Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıbdır. Əlbəttə, bizim iqtisadiyyatımız, əhalimiz buna öyrəşib, indi yeni dövr başlanıb. Ancaq biz istənilən şəraitdən üzüağ çıxa bilərik və çıxırıq da. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, dünyada yaranmış bu böhrandan Azərbaycan xalqı əziyyət çəkməsin. Ona görə də bütün sosial proqramlar icra edilir. Maaşlar, pensiyalar bu il 10 faiz qaldırılıbdır. Bütün sosial infrastrukturun yaradılması istiqamətində işlər gedir və əlbəttə ki, gələcək illər üçün gözəl zəmin yaradılır. Neftin qiymətinin aşağı düşməsi bir stress vəziyyəti yaratmışdır və hesab edirəm ki, bu bizim xeyrimizə oldu. Bir çox qurumlar, o cümlədən

dövlət qurumları öyrəşmişdilər ki, müxtəlif layihələrin icrası üçün onlara çox böyük həcmdə vəsait ayrılır. İndi biz bu məsələlərə daha qənaətlə yanaşırıq. Ancaq prioritet məsələlərə dövlət vəsaiti ayrılır. Əsas vəsait isə özəl sektordan gəlməlidir. Daxili və xarici investorlar vəsait qoyurlar, bizə inanırlar və hesab edirəm ki, bu illər ərzində biz etibarlı tərəfdaş kimi, gözəl reputasiya qazanmışıq. Bilirsiniz ki, neft sahəsində bütün kontraktlar hasilatın pay bölgüsü əsasında imzalanıbdır və biz orada bir nöqtəni və vergülü belə, dəyişə bilmərik və dəyişmək fikrimiz də yoxdur. Bu, inamı artırır. Neft sahəsində olan şəffaflıq və proqnozlaşdırma meyilləri bütün başqa sahələrdə daha da güclənməlidir.

Mən sərgidə iştirak edən bütün şirkətlərin nümayəndələrini bir daha salamlayıram. Sərgi həm Azərbaycan, həm dünya üçün doğrudan da çox önəmli, mötəbər tədbirdir. Ona görə ki, sərgi 23-cü dəfədir keçirilir. Ona görə ki, sərgiyə maraq artır. Eyni zamanda və ən başlıcası ona görə ki, dünyanın aparıcı ölkələrinin rəhbərləri bu sərgiyə çox böyük diqqət göstərirlər. Amerika Birləşmiş Ştatlarının Prezidenti, Böyük Britaniyanın Baş naziri sərgiyə öz səmimi təbriklərini göndəriblər. Bu təbriklərə görə mən həm Amerika Birləşmiş Ştatlarının Prezidentinə, həm Böyük Britaniyanın Baş nazirinə minnətdaram. Onların təbrikləri bir daha sərginin əhəmiyyətini göstərir. Sərgiyə uğurlar arzulayıram. Sağ olun.

* * *

**R o b i n D u n n i q a n** (*ABŞ Dövlət katibinin köməkçisinin müavini)*: Sabahınız xeyir, cənab Prezident!

Hörmətli nazirlər, səfirlər, qonaqlar!

«Xəzər Neft və Qaz–2016» sərgisində iştirak etmək mənim üçün çox böyük şərəfdir. Son 20 ildə ABŞ şirkətləri bu sərgidə çox böyük məmnuniyyətlə və fəallıqla iştirak edir. Azərbaycan ilə ABŞ arasında həm iqtisadi, həm siyasi münasibətlər inkişaf edir. Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tikintisi və

«Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsi uzunmüddətli əməkdaşlıq və tərəfdaşlığın bir nümunəsidir.

Mən XXIII Beynəlxalq «Xəzər Neft və Qaz–2016» sərgi və konfransı münasibətilə prezident Barak Obamanın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanladığı təbrik məktubunu diqqətinizə çatdırmaq istəyirəm.

*Robin Dunniqan prezident Barak Obamanın təbrik məktubunu oxudu.*

**Baronessa Emma Nikolson** (*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun ticarət üzrə elçisi*): Zati-aliləri cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Birləşmiş Krallığın Baş nazirinin təyin etdiyi səfir olaraq istərdim ki, çox mühüm tədbir olan XXIII Beynəlxalq «Xəzər Neft və Qaz–2016» sərgisinin açılışında hər birinizi salamlayım. Sevinirəm ki, Baş nazir Devid Kemeronun məktubunu sizin diqqətinizə mən təqdim edəcəyəm.

*Xanım baronessa Emma Nikolson Baş nazir Devid Kemeronun təbrik məktubunu oxudu.*

* * *

*Sonra prezident İlham Əliyev sərgilərlə tanış oldu.*

*SOCAR-ın stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına şirkətin layihələri barədə məlumat verildi. Bildirildi ki, SOCAR bir sıra uğurlu sosial və ekoloji proqramlar həyata keçirir. Bu proqramlar çərçivəsində tullantı mərkəzinin genişləndirilməsi layihəsi də var. Prezident İlham Əliyevə SOCAR-ın təlim və təhsil proqramları, Bakı Ali Neft Məktəbinin fəaliyyəti, elmi-tədqiqat işləri və şirkətin işində əsas götürdüyü nanotexnologiyalar barədə məlumat verildi. SOCAR-ın stendində Azərbaycanın neft emalı və neft kimyası müəssisələri, neft və qaz ixracı marşrutları, həmçinin sərmayələr barədə də geniş məlumat var. Hazırda Azərbaycan, İsveçrə, Gürcüstan, Rumıniya və Ukraynada «SOCAR» ticarət markası altında 370-dən artıq yanacaqdoldurma məntəqəsi xidmət göstərir.*

*bp şirkəti də uzun illərdir ki, Azərbaycanda neft-qaz sənayesində uğurla fəaliyyət göstərir. Prezident İlham Əliyevə «Şahdəniz» layihəsi ilə bağlı görülən işlər barədə məlumat verildi. Qeyd edildi ki, «Şahdəniz Mərhələ-2» və «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi layihələri üzrə işlərin 70 faizdən çoxu tamamlanıb. Şirkət SOCAR ilə birgə yeni yataqların kəşfi istiqamətində axtarışları davam etdirir.*

*«Türkiyə Petrolları» şirkəti «Əsrin müqaviləsi»nə start veriləndən Azərbaycanda geniş fəaliyyət göstərən şirkətlərdəndir. Bu qurum Azərbaycanda bundan sonra da reallaşdırılacaq layihələrdə yaxından iştirak etməyə və sərmayə yatırmağa hazırdır. Ümumilikdə, Türkiyə Azərbaycanın enerji sektorunda həyata keçirilən layihələrdə ölkəmizlə hərtərəfli və uğurlu əməkdaşlıq edir.*

*Prezident İlham Əliyev SOCAR–Türkiyə stendinə baxdı. Burada dövlətimizin başçısına SOCAR-ın Türkiyədə həyata keçirdiyi layihələr barədə məlumat verildi. SOCAR 2015-ci ildə Türkiyənin ən böyük xarici investoru olub. Bildirildi ki, «Petkim» Türkiyənin ilk və yeganə Neft-kimya zavodudur. Burada 60 növdə məhsul istehsal edilir. Məhsullar dünyanın 50-dən artıq ölkəsinə ixrac olunur və Türkiyədə 6 min müəssisə tərəfindən istifadə edilir.*

*«STAR» neft emalı zavodu Türkiyədə özəl sektorun inşa etdiyi ilk neft emalı müəssisəsidir. Zavodun 2 il sonra istifadəyə verilməsi nəzərdə tutulur. «Petkim» isə Egey dənizi bölgəsinin ən böyük konteyner limanıdır. Layihənin reallaşdırılması ilə dünyanın ən böyük gəmiləri limana yan ala biləcək.*

*Builki sərgiyə Çin də böyük maraq göstərir. Bu ölkənin Neft üzrə Texnologiya və İnkişaf Korporasiyası sərgidə öz xidmət və məhsullarını təqdim edir. Dünyada məşhur olan bu şirkət əsasən neft avadanlığının təchizatı ilə məşğuldur. Şirkət artıq 12 ildir ki, Azərbaycan bazarındadır.*

*Prezident İlham Əliyev «RussNeft» şirkətinin stendinə də baxdı. Bu şirkət Rusiyanın ən böyük 10 neft şirkətindən biridir.*

*«RussNeft» Azərbaycan ilə yanaşı, Qazaxıstanda, Afrika ölkələrində və dünyanın digər bölgələrində fəaliyyət göstərir.*

*«SOCAR-Polimer» müəssisəsi nəinki Azərbaycanda, regionda ən böyük investisiya layihələrindən biridir. Layihə son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək üçün 2013-cü ildə təsis edilən «SOCAR-Polimer» şirkətinin polipropilen və yüksək sıxlıqlı polietilen qurğuları prezident İlham Əliyevin sərəncamı ilə yaradılan Sumqayıt Kimya Sənaye Parkında inşa olunur. Şirkətin 2 qurğusu hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək.*

*SOCAR-ın «Caspian Driling Company» şirkəti 17 ildir fəaliyyət göstərir. Şirkətin fəaliyyətində əsas məqsəd qurğularla əlaqədar quyu tikintisi və kompleks layihə idarəetməsi xidmətlərini təmin edən dəniz qazma əməliyyatçısı olmaqdır. Şirkət artıq özünü Xəzər dənizinin qazma sənayesində təsdiq edə bilib.*

*Almaniya sərgidə milli stendlə təmsil olunur. Bu ölkənin 8 şirkəti sərgidə öz xidmət və məhsullarını təqdim edir. Bu şirkətlər nəinki Almaniyanın, eləcə də dünyanın tanınmış şirkətləridir. Əsasən qazma, neft hasilatı, kəşfiyyat, gəmi təmiri və xidmətlər, ölçü və avtomatlaşdırılmış texnika, dəniz platformaları, enerji təchizatı kimi xidmətlərini təqdim edir.*

*Qazaxıstanın «Caspian Offshore Construction» şirkəti 2003-cü ildə yaradılıb. Şirkət Xəzər dənizində gəmilərin idarə edilməsini, istismarını və texniki xidmətlərini həyata keçirir. Dünyanın tanınmış şirkətləri «Caspian Offshore Construction» ilə əməkdaşlıq edir. Şirkət fəaliyyətində əsas meyar kimi, keyfiyyət və operativliyi seçib.*

*İtaliya da sərgiyə böyük maraq göstərir. Bu ölkənin 8 şirkəti sərgidə neft-qaz sahəsinə aid məhsulları nümayiş etdirir. İtaliya şirkətləri ölkəmizdə neft-qaz sahəsində həyata keçirilən layihələrdə yaxından iştirak edir.*

*Amerika–Azərbaycan Ticarət Palatası da sərgidə təmsil olunur. Palatanın missiyası Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsinə və üzvlərə xidmətlər göstərməklə, onların biznes maraqlarını artırmağı təmin etməkdir. 1996-cı ildə yaradılmış Palata Azərbaycan iqtisadiyyatının hər bir sektorunda fəal olan 280-dən çox üzvdən və müxbir üzvdən ibarətdir.*

*Sərgidə məhsullarını nümayiş etdirən İranın «Qaz Souzan» şirkəti 1980-ci ildə yaradılıb və qaz avadanlığı istehsal edir. Onun məhsulları arasında sərgidə yüksəktəzyiqli qaz tənzimləyiciləri, sənaye üçün qaz qızdırıcıları və qaz sayğacları təqdim olunur.*

*Norveçin «Hexagon Composites» şirkəti də sərgiyə böyük maraq göstərir. Burada şirkətin sıxılmış qaz üçün balonları nümayiş etdirilir.*

*Belarusun Minsk Elektrotexnika zavodu məhsullarını sərgidə təqdim edir. 1956-cı ildə yaradılan müəssisə böyük təcrübəyə əsaslanaraq, keyfiyyətli məhsul istehsal edir. Zavodda güc, ölçü və çoxfunksiyalı transformatorlar, ayırıcı qurğular və digər avadanlıqlar istehsal olunur.*

*Prezident İlham Əliyev «Azalternativenerji» MMC-nin stendinə də baxdı. Son illərdə alternativ və bərpa olunan enerjidən istifadə sahəsində çox mühüm layihələr reallaşdırılıb. Ümumilikdə, Azərbaycanın bərpa olunan enerji mənbələrindən istifadə sahəsində də kifayət qədər zəngin təcrübəsi var.*

*Fransanın dünyada böyük nüfuz sahibi olan «Total» şirkəti Azərbaycanın ənənəvi tərəfdaşlarından biridir. Bu şirkət ən müasir texnologiyalarla bağlı zəngin təcrübəsini bundan sonra da ölkəmizlə bölüşməyə hazırdır. «Total» şirkəti «Abşeron», «Ümid» və «Babək» qaz yataqlarında ölkəmizlə yaxından əməkdaşlıq edir.*

*Sərgilərlə tanış olan prezident İlham Əliyev XXIII Beynəlxalq «Xəzər Neft və Qaz–2016» sərgi və konfransının Xatirə kitabını imzaladı.*

# BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ÜZRƏ ELÇİSİ BARONESSA EMMA NİKOLSON İLƏ GÖRÜŞ

*1 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Böyük Britaniya Baş nazirinin ticarət üzrə elçisi baronessa Emma Nikolsonu qəbul etmişdir.*

*Baronessa Emma Nikolsonun Bakıda keçirilən XXIII Beynəlxalq «Xəzər Neft və Qaz–2016» sərgisinin açılışında iştirakını yüksək qiymətləndirən dövlətimizin başçısı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun sərgi iştirakçılarına ünvanladığı məktubuna və məktubda dostluq münasibətləri ilə bağlı fikirlərinə görə minnətdarlığını bildirdi. Azərbaycan ilə Böyük Britaniyanın çox yaxşı ikitərəfli münasibətlərinin mövcud olduğunu vurğulayan prezident İlham Əliyev qeyd etdi ki, ölkələrimiz arasında qarşılıqlı anlaşma və qarşılıqlı dəstək yüksək səviyyədədir. Azərbaycan ilə Böyük Britaniyanın enerji sahəsində uğurlu əməkdaşlıq etdiyini deyən dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin bir çox digər sahələri də əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev ölkəmizin Böyük Britaniyanın kənd təsərrüfatı, texnologiyalar, infrastruktur layihələri və digər sahələr üzrə fəaliyyət göstərən şirkətləri ilə daha fəal əməkdaşlıqda maraqlı olduğunu bildirdi, bu baxımdan birgə işçi qrupun fəaliyyətinin əhəmiyyətindən danışdı.*

*Böyük Britaniya Baş nazirinin ticarət üzrə elçisi baronessa Emma Nikolson Baş nazir Devid Kemeronun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. XXIII Beynəlxalq «Xəzər Neft və Qaz–2016» sərgisinin açılışı mərasimində iştirakından məmnunluğunu ifadə edən baronessa Emma Nikolson ölkəsinin Azərbaycanın vacib tərəfdaşı olmasından şərəf duyduğunu bildirdi. Baronessa Emma Nikolson Böyük Britaniya Baş nazirinin ticarət üzrə elçisi kimi, ölkələrimiz*

*arasında əlaqələrin gələcəkdə daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini qeyd etdi.*

*Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Böyük Britaniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

**DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ**

Ülyahəzrət!

Danimarka Krallığının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Danimarka xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2016-cı il*

## AVROPA PARLAMENTİNİN NÜMAYƏNDƏLƏRİ NORİKA NİKOLAİ VƏ İVETA QRİQULE İLƏ GÖRÜŞ

*2 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Avropa Parlamentində liberal-demokratlardan ibarət fraksiya – ALDE Qrupun vitse-sədri, «Şərq Tərəfdaşlığı» Proqramının Azərbaycan üzrə məruzəçisi Norika Nikolaini və Avropa Parlamentinin üzvü İveta Qriquleni qəbul etmişdir.*

*Dövlətimizin başçısı Avropa Parlamenti ilə əlaqələrdə qurumun ölkəmizlə bağlı qəbul etdiyi qətnamələrin əsas rol oynadığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, təhqirlərlə dolu və tamamilə əsassız olan həmin qətnamələrin qəbul edilməsi ölkəmizin bu qurumla əlaqələrinin kəsilməsinə səbəb olub. Hazırda Avropa Parlamenti ilə ölkəmizin hər hansı əlaqəsi mövcud deyil və bu, Azərbaycanın günahı ucbatından baş verməyib. Ölkəmiz yalnız öz haqlı mövqeyini müdafiə edib. Dövlətimizin başçısı vurğuladı ki, qurumun ən yüksək rütbəli şəxsləri – prezidenti və vitse-prezidenti faktiki olaraq, antiazərbaycan qüvvələrinin bir hissəsini təşkil edir və onlar tərəfindən səsləndirilən təhqiramiz bəyanatlar, hücumlar və böhtanlar Azərbaycanın Avropa Parlamenti ilə əlaqələrinin perspektivlərini sual altına qoyub. Prezident İlham Əliyev bildirdi ki, belə münasibətlərin nəticəsi olaraq, indiyədək Azərbaycan parlamentində bu qurumla əməkdaşlıq üzrə işçi qrupu yaradılmayıb. Bütün bunlarla bərabər, Avropa Parlamentində Azərbaycana ədalətlə yanaşan deputatların da olduğunu bildirən dövlətimizin başçısı onların məsələlərə obyektiv yanaşdıqlarını dedi, ötən ilin sentyabrında son qətnamənin qəbulu zamanı Azərbaycana böyük dəstək nümayiş etdirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, Avropa Parlamentinin bəzi rəhbər şəxslərinin ədalətsiz antiazərbaycan qətnamələrinin qəbulunda tutduqları mövqe Avropa Komissiyasının mövqeyinə ziddir.*

*Prezident İlham Əliyev qeyd etdi ki, ötən il Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycana uğurlu səfəri çərçivəsində hər iki tərəf əlaqələrimizin inkişafına böyük maraq göstərib. Bu ilin fevral ayında Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Federika Mogerininin ölkəmizə səfəri Avropa Komissiyası–Azərbaycan əməkdaşlığının daha da möhkəmləndirilməsi işinə xidmət edib. Hazırda bu əlaqələr uğurla inkişaf edir. Azərbaycan ilə Avropa İttifaqına üzv olan bir çox dövlətlər arasında strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb, ya da qəbul edilib. Eyni zamanda, Azərbaycan Avropa Şurasında öz fəaliyyətini uğurla davam etdirir və Avropa Şurası da Azərbaycanda gedən prosesləri yüksək qiymətləndirir. Bütün bunlar bir daha göstərir ki, Avropa Parlamentinin bəzi rəhbər şəxsləri və antiazərbaycan qruplaşmaları öz ədalətsiz mövqeləri ilə sadəcə olaraq, Avropa–Azərbaycan əlaqələrini pozmaq istəyirlər və nə qədər ki, bu destruktiv qüvvələr öz siyasətində düzəlişlər etməyəcək, Azərbaycan Avropa Parlamenti ilə əlaqələrini bərpa etmək fikrində deyildir.*

*Avropa Parlamentində liberal-demokratlardan ibarət fraksiya – ALDE Qrupun vitse-sədri, «Şərq Tərəfdaşlığı» Proqramının Azərbaycan üzrə məruzəçisi Norika Nikolai Azərbaycan ilə yaranmış vəziyyətin dəyişməkdə olduğunu dedi və Avropa Parlamenti ilə Azərbaycan arasında əlaqələrin bərpa olunması istəyini ifadə etdi. Avropa Parlamentində özünün daxil olduğu liberal-demokratlardan ibarət fraksiyanın – ALDE Qrupun fəaliyyətinin ölkəmizə dəstək nümayiş etdirdiyini vurğulayan Norika Nikolai qrupun bu istiqamətdə fəaliyyətini davam etdirəcəyini vurğuladı. Azərbaycanın Avropa Parlamenti ilə əməkdaşlığına dair hesabat hazırladıqlarını bildirən Norika Nikolai qeyd etdi ki, ölkəmizə səfərində məqsəd bu hesabatla bağlı yekun fikir mübadiləsi aparmaqdır.*

*Dövlətimizin başçısı xanım Norika Nikolaiyə obyektiv və ədalətli mövqeyinə görə minnətdarlığını bildirdi və Avropa Parlamentində Azərbaycanın dostları olan deputatlara onun salamlarını çatdırmağı xahiş etdi.*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

İsveç Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İsveç xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2016-cı il*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIMIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*3 iyun 2016-cı il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın iyunun 3-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyənin Baş nazirinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkiyənin Baş naziri Binəli Yıldırımı və xanımı Semiha Yıldırımı qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyənin Baş nazirinə raport verdi.*

*Türkiyənin və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və Baş nazir Binəli Yıldırım Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Baş nazir Binəli Yıldırım Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Binəli Yıldırıma, Türkiyə nümayəndə heyətinin üzvləri isə prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezident İlham Əliyevin və Baş nazir Binəli Yıldırımın qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, Türkiyənin Baş naziri Binəli Yıldırım və xanımı Semiha Yıldırım rəsmi foto çəkdirdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*3 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 3-də Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olundu.*

*Türkiyənin Baş naziri Binəli Yıldırımın Azərbaycana səfərinin əlaqələrimizin daha da genişləndirilməsinə töhfə verəcəyi qeyd edildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, iqtisadi əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*3 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın iyunun 3-də təkbətək görüş başa çatdıqdan sonra geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Hörmətli Baş nazir, ilk növbədə, Sizi bu yüksək vəzifəyə təyin olunmağınız münasibətilə Azərbaycan xalqı adından bir daha ürəkdən təbrik edirəm. Sizə bu məsuliyyətli vəzifədə böyük uğurlar arzulayıram.

Biz indi Sizinlə təkbətək görüşümüzdə ikitərəfli məsələlərin həlli ilə bağlı fikir mübadiləsi apardıq. Bir daha gördük ki, bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Bizim istəyimiz, məqsədimiz Türkiyə–Azərbaycan birliyini daha da güclü etmək və möhkəmləndirməkdir. Biz həm siyasi, iqtisadi, nəqliyyat sahələrində və həm də bütün başqa sahələrdə uğurlu əməkdaşlıq edirik. Bu gün Türkiyə və Azərbaycan əlaqələri ən yüksək zirvədədir.

Görüləcək işlər də var. Bizi birləşdirən önəmli nəqliyyat, enerji layihələri icra edilir və şadam ki, vaxtında icra edilir. Əminəm ki, yaxın zamanlarda biz bu önəmli, dünya miqyaslı layihələrin açılışlarını qeyd edəcəyik.

Türkiyə–Azərbaycan əlaqələri həm xalqlarımız, dövlətlərimiz, həm də bölgə üçün böyük əhəmiyyət daşıyır. Bizim birliyimiz bölgədə sabitliyi daha da möhkəmləndirir. Mən şadam ki, Siz Azərbaycana böyük heyətlə gəlmisiniz, yeni nazirlər Azərbaycan nazirləri ilə ünsiyyətdə olacaq və bütün

lazımi danışıqları aparacaqlar. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**B i n ə l i   Y ı l d ı r ı m**: Hörmətli cənab Prezident!

Hörmətli nazirlər!

Bu gün artıq Türkiyə Respublikası üçün bir ənənə halı alan səfəri həyata keçiririk. Türkiyədə yeni hökumət qurulduğu zaman Baş nazirin ilk işi Şimali Kiprə, ondan dərhal sonra «bir millət – iki dövlət» olan qardaş Azərbaycana səfər etməkdir. Bu baxımdan mən də yoldaşlarımla birlikdə bu səfəri həyata keçiririk. Bu səfər zamanı dost və qardaş Azərbaycanda Sizdən gördüyümüz bu gözəl, mehriban qarşılanma, ev sahibliyi üçün təşəkkür edirik.

* * *

*Baş nazir Binəli Yıldırım Türkiyə prezidenti Rəcəp Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan və Türkiyə arasında enerji layihələri, o cümlədən «Cənub Qaz Dəhlizi», TAP, TANAP layihələrinin həyata keçirilməsi, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin inşası, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, regional əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Azərbaycan prezidenti İlham Əliyev Türkiyə prezidenti Rəcəp Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

# TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*3 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım iyunun 3-də geniş tərkibdə görüş başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Əziz qonaqlar, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Bu gün Türkiyə Cümhuriyyətinin Baş nazirinin Azərbaycana rəsmi səfəridir. Bu, Türkiyə–Azərbaycan əlaqələrinin inkişafı üçün çox böyük əhəmiyyət daşıyan bir səfərdir. Mən hörmətli Baş naziri bu yüksək vəzifəyə təyin olunması münasibətilə təbrik etdim və bir daha öz təbriklərimi çatdırmaq istəyirəm.

Əminəm ki, Türkiyə Cümhuriyyətinin yeni hökuməti bundan sonra da Türkiyə–Azərbaycan əlaqələrinin inkişafı üçün çalışacaq. Biz də çalışacağıq və bu əlaqələri birlikdə daha da yüksək səviyyəyə qaldıracağıq. Baxmayaraq ki, bunu etmək çox çətin olacaq. Çünki hesab edirəm ki, Türkiyə–Azərbaycan əlaqələri bu gün ən yüksək zirvədədir.

Bu il mən Türkiyəyə 3 dəfə səfər etmişəm, hörmətli prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfər edib. Bu gün hörmətli Baş nazir bizim qonağımızdır. Yəni bu il artıq 5 yüksək səviyyəli görüş keçirilib. Bu da özlüyündə bir göstəricidir. Bu göstərir ki, Türkiyə–Azərbaycan əlaqələri inkişaf edir, yüksək səviyyədədir. Mən hesab edirəm ki, dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə

yaxın olan ölkələr tapmaq mümkün deyil. Bütün sahələrdə əməkdaşlıq, işbirliyi genişlənir, güclənir. Biz daim bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Bütün beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstəririk. Bu yaxınlarda Türkiyədə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü çərçivəsində Ermənistan–Azərbaycan, Dağlıq–Qarabağ münaqişəsi ilə bağlı çox önəmli qərar qəbul edildi, Kontakt Qrupu yaradıldı. Türkiyənin bu qərarların qəbul olunmasında çox böyük rolu var. Türkiyə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycanın yanındadır və biz bu dəstəyə görə minnətdarıq.

Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi uzun illərdir ki, işğal altındadır. 1 milyondan artıq azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüş, bizə qarşı etnik təmizləmə siyasəti aparılmış, torpaqlarımızın təxminən 20 faizi 20 ildən çoxdur ki, işğal altındadır. Baxmayaraq ki, beynəlxalq təşkilatlar, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatı müvafiq qərar və qətnamələr qəbul edib, ancaq məsələ öz həllini tapmır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib və orada göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. O qətnamələrin qəbul olunmasından 20 ildən çox vaxt keçir. Ancaq bu qətnamələr kağız üzərində qalıb. Nəyə görə?! Çünki ikili standartlar var, ayrı-seçkilik göstərilir. Bəzi hallarda Birləşmiş Millətlər Təşkilatının qətnamələri bir gün ərzində icra edilir, amma bizə gəldikdə bu, 20 ildən çoxdur ki, icra edilmir və işğalçı dövlətə qarşı heç bir sanksiya tətbiq edilmir. Bu, böyük ədalətsizlikdir.

Azərbaycan öz prinsipial mövqeyini gücləndirir, siyasi, iqtisadi, hərbi üstünlüyü əldə edib və aprel döyüşləri bunu bir daha göstərdi. Ermənistanın hərbi təxribatı cavabsız qalmadı. Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirdi. Əks-hücum əməliyyatı nəticəsində 20 kvadratkilometrdən çox ərazi işğalçılardan təmizləndi və bundan bir neçə dəfə böyük ərazi də Azərbaycan Ordusunun nəzarətinə keçdi. Biz, əlbəttə, çalışırıq və çalışacağıq ki, bu məsələ sülh, danışıqlar yolu ilə həll edilsin, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqlarımızdan erməni silahlı birləşmələrinin çıxarılması deməkdir.

Azərbaycan öz növbəsində, bütün məsələlərdə Türkiyəni dəstəkləyir, Türkiyənin yanındadır və bəzi hallarda Türkiyəyə qarşı edilən ədalətsizliklərə Türkiyə qədər heyifsilənir və öz sözünü deyir. Misal üçün, dünən Almaniya parlamenti tərəfindən ədalətsiz, qərəzli, tarixi yalan üzərində qəbul edilmiş qətnaməni Azərbaycan dərhal qınadı, pislədi, Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat verdi və bu gün mən ölkə prezidenti kimi, bu yalan üzərində qurulan təxribatı bir daha pisləyirəm, qınayıram. Bu ədalətsizlikdir, ikili standartlardır, tarixin təhrif edilməsidir və buna təbii ki, biz dözə bilmərik və dözmürük.

Yəqin bilirsiniz, bu gün Azərbaycanda Dünya Azərbaycanlılarının IV Qurultayı keçirilir. Bizim bütün diaspor təşkilatlarımızın rəhbərləri bu gün Azərbaycandadır. Onlara təlimat verilmişdir ki, bütün türk diaspor təşkilatları ilə daim birlikdə olsunlar, birgə aksiyalar, nümayişlər keçirsinlər, öz etirazlarını bildirsinlər. Biz həm bu bölgədə, həm də xaricdə birliyimizi nümayiş etdirməliyik. Almaniya parlamentinin qəbul etdiyi ədalətsiz qərar, əlbəttə ki, siyasi sifarişdir. Çünki bunu hər kəs yaxşı bilir ki, bu, yalan üzərində, böyük erməni yalanı üzərində qəbul edilib. Nə üçün bu məhz dünən qəbul edilib?! Təbii ki, bunun siyasi tərəfləri var və əsas rol oynayır. Yəqin ki, Türkiyəni nəyəsə məcbur etmək istəyirlər. Yəqin ki, Türkiyənin müstəqil siyasətinə təzyiq və təsir etmək istəyirlər. Budur bu ədalətsizliyin təməlində dayanan amillər. «Erməni məsələsi» sadəcə olaraq, bir bəhanədir. «Erməni məsələsi» yenə də böyük dövlətlərin əlində alətə çevrilib. Onu da qeyd etməliyəm ki, Azərbaycan da oxşar vəziyyətlə üzləşib. Keçən il iyun ayının 12-də Almaniya parlamenti Azərbaycana qarşı çox ədalətsiz, yalan üzərində hazırlanmış, təhqirlərlə dolu qətnamə qəbul edib. Guya ki, Azərbaycanda demokratiya, insan haqları pozulur və sair. Birincisi, bu yalandır. Azərbaycanda demokratiya inkişaf edir. Bütün azadlıqlar təmin edilir – söz azadlığı, mətbuat azadlığı. Azərbaycanda azad internet mövcuddur və əhalinin 75 faizi internetdən istifadə edir. Sual olunur: azad internet olan yerdə söz azadlığı necə boğula bilər?! Azərbaycanda sərbəst toplaşma azadlığı var. Kim istəyir, nə vaxt istəyir sərbəst toplaşa bilir. Biz indi görürük ki, bəzi Avropa

ölkələrində dinc nümayişçilərə qarşı hansı vəhşiliklər törədilir. Biz görürük ki, onlar necə döyülür, söyülür, təhqir edilir. Yəni bu demokratiyadır. Amma Azərbaycanda insanlar rahat, sülh, əmin-amanlıq, sabitlik, azadlıq şəraitində yaşayır və bu, sən demə, demokratiya deyil. Yəni bu sözləri mən nəyə gətirirəm? Keçən il iyunun 12-də Bakıda dünyada ilk dəfə olaraq Avropa oyunları keçirilmişdir. Yəni iyunun 12-si Avropa oyunlarının açılışı günü idi. Almaniya parlamenti məhz bu gündə Azərbaycana qarşı bu qətnaməni qəbul edib. Yəni bu bizə sataşmaqdır, bizə ləkə vurmaqdır, şər, böhtan atmaqdır. Ona görə biz də o vaxt bu qətnaməyə fikir vermədik. Əminəm ki, Türkiyə xalqı da, dövləti də buna fikir verməyəcək. Bunun heç bir mənası yoxdur. Sadəcə olaraq, bu, siyasi sifarişdir. Bunu qəbul edənlər böyük səhv buraxıblar – həm tarixi, həm də siyasi səhv.

Azərbaycan hər zaman olduğu kimi, Türkiyənin yanındadır. Biz birliyimizi daha da gücləndirəcəyik. Bax, bizə qarşı aparılan bu təxribatlar bir daha onu göstərir ki, biz ancaq birlikdə daha güclü ola bilərik. Bu gün Türkiyə–Azərbaycan birliyi nəinki regionda, dünya miqyasında bir amildir. Bu amili heç kim inkar edə bilməz. Biz gücümüzü birləşdiririk. Biz birgə layihələr icra edirik. Bu gün hörmətli Baş nazirlə birgə icra etdiyimiz bütün layihələri bir daha müzakirə etdik. Hörmətli Baş nazirin Nəqliyyat naziri olduğu dövrdə Bakı–Tbilisi–Qars dəmir yolunun inşasına başlamışıq. Hörmətli Baş nazir o yolun tikintisi üçün çox böyük səylər göstərib. Artıq yaxın zamanlarda biz bu dəmir yolunun açılışını qeyd edəcəyik. Enerji layihələri artıq regional çərçivədən çıxıb qlobal layihələrə çevrilibdir. Bunu da Azərbaycan və Türkiyə birlikdə icra edir. 2012-ci ildə hörmətli prezident Rəcəb Tayyib Ərdoğanla İstanbulda TANAP layihəsinə start verdik. Əgər o vaxt biz bu məsuliyyəti öz üzərimizə götürməsəydik, hələ bu günə qədər bu enerji təhlükəsizliyi məsələləri müzakirə mövzusu olacaqdı. Biz bu məsuliyyəti üzərimizə götürdük. Həm siyasi məsuliyyəti, həm də iqtisadi, maliyyə öhdəliklərini üzərimizə götürdük. İndi 45 milyard dollar dəyərində «Cənub Qaz Dəhlizi» layihəsi icra edilir. Bu bizi

daha da birləşdirəcək, bölgəyə sabitlik gətirəcək. Bölgə ölkələri bir-biri ilə daha sıx əlaqədə olacaqdır.

Bir sözlə, birgə icra etdiyimiz layihələr həm bizi gücləndirir, həm də bölgənin daha da etibarlı və əməkdaşlığa, işbirliyinə hazır olmasını təsdiqləyir. Biz birliyimizi gələcəkdə daha da gücləndirəcəyik. Bu gün Türkiyə dünya miqyasında bir gücdür, «Böyük İyirmilik»in üzvüdür. Bütün böhranlara baxmayaraq, Türkiyənin iqtisadiyyatı inkişaf edir, Türkiyə güclənir. Türkiyənin gücü bizim gücümüzdür. Biz Sizin bütün uğurlarınıza öz uğurlarımız kimi sevinirik. Bugünkü səfər, görüşlər və müzakirələr əminəm ki, gələcək illər üçün də gözəl şərait yaradacaqdır.

Hörmətli cənab Baş nazir, bir daha sizi salamlayıram və bir daha «Xoş gəlmisiniz!» – deyirəm.

**Türkiyənin Baş naziri Binəli Yıldırımın bəyanatı**

Hörmətli cənab Prezident, təşəkkür edirəm!

Hörmətli nazir dostlarım!

Hörmətli mətbuat nümayəndələri!

Ortaq tarix və mədəniyyəti paylaşdığımız, eyni dili danışdığımız, tale ortağımız, qardaşımız Azərbaycana bu dəfə Baş nazir olaraq səfər etməkdən çox böyük məmnunluq duyuram. Şəxsən mənə və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürlərimi bildirirəm.

Azərbaycan ilə Türkiyə arasında artıq ənənə formalaşıb: Türkiyədə yeni bir hökumət qurulduqda, ilk səfər Şimali Kiprə, dərhal sonra dost və qardaş Azərbaycana təşkil olunur. Bu baxımdan biz hökumətimizin qurulub etimad səslərini aldıqdan sonra ikinci xarici səfərini buraya həyata keçiririk. Bu bir ənənədən daha çox dərin məna da ifadə edir. Azərbaycan ilə Türkiyə əlaqələri iki dövlət əlaqələrindən daha yüksəkdə dayanan, qardaşlıq hüququna söykənən «bir millət – iki dövlət» olaraq bizim keçmişdən gələcəyə uzanan birliyimizdir.

Hörmətli cənab Prezident, hörmətli mətbuat nümayəndələri!

Azərbaycan–Türkiyə münasibətləri ölkənizin müstəqilliyinin bərpasından ötən 25 ildə həqiqətən də bütün sahələrdə sürətlə inkişaf

edib. Ticarət, investisiya, mədəni, siyasi sahələrdə uzun yol qət etmişik. Hörmətli Prezidentin dediyi kimi, O, 1 il ərzində Türkiyəyə 3 dəfə səfər edib. Xüsusən Ankarada törədilən və bütün millətimizi dərindən üzən mənfur terror hücumundan sonra hörmətli prezidentimiz Ərdoğanın Azərbaycana səfər etməsi gözlənilərkən, möhtərəm prezident İlham Əliyevin çox böyük jest edərək, Ankaraya gəlməsi, dərdimizə şərik olduğunu ifadə etməsi ona türk xalqının böyük rəğbətini qazandırdı. Sizə təşəkkür edirik. Əsl dostluğun, qardaşlığın nə olduğunu bütün dünyaya bu yolla göstərdiniz.

Dünya Humanitar Sammitində, İslam Əməkdaşlıq Təşkilatının Sammitində  yüksək səviyyədə iştirakınıza görə də Sizə təşəkkür edirik.

Möhtərəm Prezident, mən Bakıya ilk dəfə 2003-cü ildə gəlmişəm. Ovaxtkı mənzərəni xatırlayır, şəhərin bugünkü görkəmi ilə müqayisə edirəm. Bakı hər cəhətdən tam başqa bir şəhər olub. Şəhərləşmə, ətraf mühit, sosial həyat baxımından Bakının tamamilə başqa bir yeri var. Bu şəhəri bu səviyyəyə Siz çatdırmısınız. Buna görə çox təşəkkür edirik.

Bu sürətli inkişaf sadəcə, Bakı ilə məhdudlaşmır, böyük şəhərlərdə, yollarda, infrastrukturda, haraya getsək yenidənqurma, davamlı inkişaf görürük.

Siz Türkiyə–Azərbaycan əlaqələrinin necə xarakter daşıdığını çox gözəl ifadə etdiniz. Mən bununla əlaqədar əlavə bir söz demək istəmirəm. Sadəcə, dünya bunu bilməlidir ki, azərbaycanlı qardaşlarımızın haqlı mübarizəsində sonadək yanınızdayıq. Azərbaycanın dostu bizim dostumuzdur, düşməni də bizim düşmənimizdir. Azərbaycan torpaqlarının 20 faizini illərdir işğal edən ermənilərin hüququ kobud şəkildə pozmalarına artıq «yox» deməyin vaxtı çatıb. Bu məsələni zamana buraxaraq unutdurmaq əsla mümkün deyil. Bir sıra beynəlxalq təşkilatlar, ATƏT, Minsk qrupu toplanıb yenidən dağılışırlar. İndi artıq vaxtı uzatmaq deyil, həll yolu tapmaq zamanıdır və biz Türkiyə olaraq, bunu yaxından müşahidə edirik. Onlara sərf edən məsələdə tez-tez toplanıb qərar qəbul edənlər Azərbaycanın, Türkiyənin məsələsinə gələndə hərəkət etmək istəmirlər.

Bu, ikili standartdır və əsla qəbul edilə bilməz. Nə vaxt ki, Azərbaycan torpaqlarının 20 faizi geri qaytarılsa, Azərbaycanın suverenliyi tam təmin edilsə, o zaman bu məsələ həll edilmiş olacaq. Bu baxımdan bu məsələni beynəlxalq ictimaiyyətin daha ciddi ələ almasının və ikili standartdan əl çəkməsinin vaxtı çoxdan yetişib. Biz bunu gözləyir və izləyirik.

Dünən Almaniya parlamentində əsassız bir qərar qəbul edildi. Sizin dediyiniz kimi, tarixi bir yalana imza atıldı. Bu bizim üçün, türk milləti üçün böyük bir məna daşımır, hər hansı hökm ifadə etmir. Çünki tarix tarixçilərin ixtiyarına verilməlidir. Tarixçilərin belə, münasibət bildirmədiyi, mübahisə apardıqları, hətta beynəlxalq məhkəmələrdə fərqli qərarların qəbul edildiyi bir məsələ ilə bağlı qərara Almaniya parlamentinin imza atması xoşagəlməzdir. Bu, Almaniya–Türkiyə münasibətlərinə zərbə vurub, onu zədələyib. Ümid edirik ki, bu yanlışlıq qısa müddətdə aradan qaldırılar və illərdən, yüz illərdən bəri davam edən Türkiyə–Almaniya əlaqələri minimum zərər görər və bu məsələ həllini tapar.

Təbii ki, Almaniya ilə bizim əlaqələrimizi gücləndirən orada yaşayan 3,5 milyonadək qardaşlarımızdır. Bu yanlış qərar onları da dərindən kədərləndirib. Əminəm, Almaniya siyasətçiləri, alman hökuməti daha düzgün dəyərləndirmə apararaq, bu vəziyyətin düzəldilməsi ilə bağlı qısa müddətdə tədbirlər görəcəklər.

Bu proses baş verərkən, onların Azərbaycan torpaqlarında yaşanan dəhşətləri görməzliyə vurması səmimiyyətsizlikdir. Bu ölkələr tarixə qaranlıq gecə kimi düşən Xocalı qətliamını nə üçün gündəmə gətirmirlər? Bu da bir soyqırımıdır, qətliamdır. O qədər də keçmişdə deyil, yüz ilə uzanan bir hadisə də deyil. Ona görə də burada ikili standartın yaşandığını görürük.

Almaniya parlament vasitəsilə belə bir qərar qəbul etməklə, əslində öz tarixi səhvini və eybini ört-basdır etmək məqsədini güdür. Keçmiş dəftərləri vərəqlədiyimiz zaman ən çox cavab verməli olan ölkələrin başında Qərb dövlətləri gəlir. Bu baxımdan Türkiyənin tarixi çox açıq və təmizdir. Həmin köhnə dəftərlərdə ən aşağı sıralarda bizik. Buna görə də düşünürük ki, beynəlxalq ictimaiyyət regional, qlobal hadisələrdə ikili standartlardan uzaqlaşmalı və Yaxın Şərq başda

olmaqla, Qara dənizin şimalında, dünyanın müxtəlif yerlərində yaşanan insanlıq faciəsinə, məsum insanların ölməsinə müşahidə mövqeyində qalmamalıdır. Bu məsələdə BMT-yə üzv ölkələri üzərlərinə daha çox məsuliyyət götürməyə çağırırıq. Mən Almaniya parlamentinin bu qərarından sonra dost və qardaş Azərbaycanın ən ciddi etirazını dəqiq şəkildə ortaya qoyduğu üçün millətim adından bir daha təşəkkürümü bildirmək istəyirəm.

Möhtərəm Prezident, hörmətli mətbuat nümayəndələri!

Türkiyə və Azərbaycan çox mühüm birgə layihələr həyata keçirir. Bu layihələr barədə müzakirə aparmaq, hazırkı vəziyyəti dəyərləndirmək imkanımız oldu. Xüsusilə enerji və nəqliyyat layihələri sadəcə, Türkiyənin və Azərbaycanın deyil, regionun, hətta Orta Asiyanın, Uzaq Şərqin Anadolu torpaqları vasitəsilə Avropanın gələcəyinə yönələn layihələrdir. Xüsusilə TANAP və TAP layihələri Avropanın enerji təhlükəsizliyi baxımından ən mühüm layihələrdəndir. Bu layihələri də Sizin və hörmətli Prezidentimizin rəhbərliyi ilə həyata keçiririk. XXI əsrin 18-ci illərinin əvvəllərində, inşallah, layihə tamamlanacaq, yeni təbii qaz yataqlarının istifadəyə verilməsi ilə istər Türkiyənin, istərsə də Avropa ölkələrinin qaz ehtiyacı ödəniləcəkdir.

Mən bu səfərdən istifadə edərək, iki qitəni – Asiya ilə Avropanı birləşdirən Yavuz Sultan Səlim körpüsünün avqustun 26-da nəzərdə tutulan açılışı mərasimində Sizin də iştirakınızı arzu edirəm. Avqustun 26-sının xüsusi bir tarix olduğunu da bilirəm. İştirakınız bizə şərəf verəcək.

Bu gün keçiriləcək Azərbaycan–Kanada futbol matçında da Azərbaycana uğurlar diləyirəm.

Qarşıdan müqəddəs Ramazan ayı gəlir. Bütün Azərbaycan millətinin, qardaşlarımızın Ramazanını təbrik edirəm. Ramazanın bütün islam aləminə sülh, qardaşlıq, rifah gətirməsini Allahdan diləyirəm.

Çox təşəkkür edirəm.

# DÜNYA AZƏRBAYCANLILARININ IV QURULTAYININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*3 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Heydər Əliyev Mərkəzində Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı qurultayda nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz həmvətənlər!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycandadırlar, doğma Vətəndədirlər. Bu gün IV Qurultayın açılışı münasibətilə bütün dünya azərbaycanlılarını təbrik edirəm. Əminəm ki, qurultay dünya azərbaycanlılarının birləşmələri, daha da fəal olmaları üçün çox önəmli tədbir olacaq.

Bildiyiniz kimi, I Qurultay ulu öndər, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilmişdir. O vaxtdan bu günə qədər Azərbaycanda böyük işlər görülüb, Azərbaycan daha da güclənib, bizim imkanlarımız artıbdır.

Əlbəttə, biz həmişə xaricdə yaşayan azərbaycanlıların həyatı, taleyi, işləri ilə maraqlanırıq. Çalışırıq ki, onlara öz dəstəyimizi verək. İstəyirik ki, onlar olduqları ölkələrdə rahat yaşasınlar, yaxşı mövqe tutsunlar, onların yaxşı imkanları olsun və eyni zamanda, öz doğma Vətəninə də xidmət etsinlər.

2001-ci il Azərbaycan diaspor təşkilatlarının formalaşdırılması işində çox önəmli il olmuşdu. Çünki I Qurultaydan sonra 2002-ci ildə Heydər Əliyevin sərəncamı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Hazırda onun adı Diasporla İş üzrə Dövlət Komitəsidir. Diaspor təşkilatlarının təşkilatlanma, formalaşma prosesi daha da geniş vüsət alıb. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, hazırda onların sayı 462-dir. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmişdir. Bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayır.

Bilirsiniz ki, ulu öndər Heydər Əliyev bütün dövrlərdə, o vaxt Sovet İttifaqı çərçivəsində başqa respublikalarda yaşayan azərbaycanlılara həmişə diqqət göstərirdi. Məhz onun təşəbbüsü ilə Sovet İttifaqında istisna hal kimi, Azərbaycan gəncləri imtahan vermədən Rusiyanın, digər müttəfiq respublikaların ali məktəblərində təhsil alırdı. Hər il 800-dən çox Azərbaycan gənci ən qabaqcıl təhsil ocaqlarında təhsil alırdı. Ondan sonrakı dövrdə – müstəqillik dövründə ulu öndər bu məsələni daim diqqət mərkəzində saxlayırdı. Məhz onun təşəbbüsü ilə 1991-ci ildə 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi və Birlik Günü təsis edilmişdir. Bu gün bu bayramı bütün dünya azərbaycanlıları qeyd edir.

Beləliklə, Azərbaycanda 15 il ərzində diaspor təşkilatları ilə qurulan iş, əlaqələr tam yeni bir vəziyyətə gətirib çıxartdı. Bu gün biz dünyanın müxtəlif yerlərində istənilən tədbiri keçirə, dünya ictimaiyyətini Azərbaycan reallıqları ilə daha da geniş şəkildə tanış edə bilərik və bunu edirik. Əlbəttə, əminəm ki, qurultayda səslənəcək fikirlər, aparılacaq müzakirələr bizim imkanlarımızı daha da genişləndirəcək.

Diaspor təşkilatlarının fəaliyyəti daim diqqət mərkəzindədir. Bu gün mən diaspor təşkilatlarının gələcək fəaliyyəti ilə bağlı bəzi fikirlərimi bildirmək istəyirəm. İlk növbədə, əlbəttə, biz istəyirik ki, dünyada yaşayan azərbaycanlılar öz tarixi Vətənləri

ilə əlaqələri heç vaxt kəsməsinlər. Daim əlaqədə olsunlar, Azərbaycan ilə bağlı olsunlar. Beləliklə, onlar özlərini daha da rahat hiss edəcəklər. Belə olan halda, Azərbaycan dövləti onlara daha da böyük dəstək verə biləcək.

Hazırda xaricdə yaşayan azərbaycanlıların sayı milyonlarla ölçülür. Əlbəttə ki, onlar yaşadıqları ölkələrin vətəndaşlarıdır. Mən çox istəyirəm ki, onlar yaşadıqları ölkələrdə daha da yüksək mövqelərə nail ola bilsinlər. Yaşadıqları ölkələrin ictimai, siyasi, iqtisadi həyatında daha da fəal rol oynasınlar.

Yetişən gənc nəsil də Azərbaycan ilə bağlı olmalıdır. İlk növbədə, Azərbaycan dilini bilməlidir. Mən şadam ki, hazırda müxtəlif ölkələrdə 160-dan çox həftəsonu məktəbi fəaliyyət göstərir. Yəqin ki, biz bu məktəblərin sayını artırmalıyıq və Azərbaycan dövləti bu istiqamətdə öz səylərini davam etdirəcək.

Qeyd etdiyim kimi, xaricdə bizim 462 diaspor təşkilatımız var. Bu özlüyündə onu göstərir ki, azərbaycanlıların yaşadıqları hər bir ölkədə bir neçə diaspor təşkilatı var. Əlbəttə, bu təşkilatlar arasında koordinasiya işi aparılmalıdır, birlik, həmrəylik olmalıdır. Bəzi hallarda bizim diaspor təşkilatlarımız bir-biri ilə rəqabət aparır. Əgər bu, sağlam rəqabətdirsə, mən bunu ancaq alqışlaya bilərəm. Bu rəqabət ümumi işimizə xidmət etməlidir. Biz ölkə daxilində də, xaricdə də birlik nümayiş etdirməliyik və bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanda vətəndaş cəmiyyəti birlik nümayiş etdirir. Biz vahid amal uğrunda çalışırıq. Ölkəmizin gələcəyi ilə, strateji istiqamətlə bağlı cəmiyyətimizdə fikir ayrılığı yoxdur. Dövlət müstəqilliyi, iqtisadi müstəqillik, sosial məsələlərin həlli, ərazi bütövlüyümüzün bərpası, digər məsələlər ətrafında cəmiyyətdə vahid fikir var, konsensus var.

Əlbəttə, mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq. Əgər xarici ölkələrin ictimaiyyəti görsə ki, Azərbaycan diaspor təşkilatları bir-biri ilə yola getmirlər, bir-birinin əleyhinə

fəaliyyət göstərirlər, əlbəttə, bu, yaxşı hal olmayacaq. Belə hallar var, onlar çox deyil. Ancaq mən istərdim ki, bu gün bu kürsüdən bu mövzuya toxunum və qeyd edim ki, birlik əsas məsələdir. Xüsusilə nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin.

Əlbəttə, dövlət orqanları ilə Azərbaycan diaspor təşkilatlarının əlaqələri daimi olmalıdır, güclənməlidir. Diasporla İş üzrə Dövlət Komitəsi burada koordinasiya funksiyalarını icra edir. Eyni zamanda, bizim xarici ölkələrdə fəaliyyət göstərən səfirliklərimiz də bu işdə çox fəal olmalıdır. Mən onlara da dəfələrlə tövsiyə etmişəm, göstəriş vermişəm ki, diaspor təşkilatları ilə daim əlaqədə olsunlar. Mən xaricdə fəaliyyət göstərən səfirlərlə iki ildən bir görüş keçirirəm və hər bir çıxışda xüsusilə bu mövzuya toxunuram ki, onlar diaspor təşkilatlarına kömək etməlidirlər. Diaspor təşkilatları ilə səfirliklər arasında möhkəm əlaqələr olmalıdır və bu əlaqələr güclənməlidir. Çünki bir daha demək istəyirəm, biz bir məqsədə qulluq edirik, biz hamımız istəyirik ki, Azərbaycan daha da güclənsin. Hamımız istəyirik ki, xaricdəki azərbaycanlılar rahat yaşasınlar, yaşadıqları ölkələrdə yüksək mövqelərə malik olsunlar və Azərbaycanı ləyaqətlə təmsil etsinlər.

Bir daha qeyd etmək istəyirəm ki, dövlət, hökumət, qanunvericilik orqanlarında Azərbaycan diaspor nümayəndələrinin sayı daha da çox olmalıdır. Hesab edirəm ki, bu sahədə hələ görüləsi işlər çoxdur. Əfsuslar olsun ki, azərbaycanlılar müxtəlif dövlət və qanunvericilik orqanlarında lazımi səviyyədə təmsil olunmurlar. Bu təmsilçilik onların sayına uyğun deyil. Ona görə bu istiqamətdə də iş aparılmalıdır. Əlbəttə, Azərbaycan dövləti bu işə heç cür müdaxilə edə bilməz və etməməlidir. Bu vəzifəni ancaq diaspor təşkilatları özləri həll etməlidir. Necə? Yenə də birlik hesabına. Əgər misal üçün, bir ölkədə bütün diaspor təşkilatları arasında vahid koordinasiya və qarşılıqlı dəstək, anlaşma varsa, deməli, bu məqsədə çatmaq üçün daha da asan yollar müəyyən ediləcək.

Azərbaycanlılar müxtəlif ölkələrdə böyük biznes imkanlarına malikdirlər. Mən bunu alqışlayıram, bu çox müsbət

haldır. Bu, xalqımızın iqtisadi imkanlarını genişləndirir. Eyni zamanda, xaricdə yaşayan iş adamları Azərbaycandakı qohumlarına da kömək göstərirlər. Bu da burada yaşayanlar üçün çox önəmlidir. Əlbəttə, mən çox istərdim ki, xaricdə yaşayan azərbaycanlı iş adamları Azərbaycana sərmayə qoysunlar.

Bu gün Azərbaycanda sərmayə iqlimi çox müsbətdir. Bunu bütün mötəbər beynəlxalq maliyyə qurumları qeyd edir. Son 20 il ərzində – 1995-ci ildən bu günə qədər ölkə iqtisadiyyatına 200 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin təxminən yarısı xarici investisiyalardır.

Azərbaycanda sərmayə iqlimi yaxşıdır, biznes mühiti gündən-günə yaxşılaşır. Xüsusilə bu ilin əvvəlindən imzaladığım sərəncamlar, fərmanlar nəticəsində bu istiqamətdə çox ciddi dönüş yaranıb. Bütün bürokratik əngəllər aradan götürülür, şəffaflıq tam təmin edilir və bunların nəticələrini biz gündəlik həyatda görürük. Biz bunu mötəbər beynəlxalq maliyyə qurumlarının hesabatlarında və bəyanatlarında görürük. Ona görə sərmayə qoyuluşu üçün Azərbaycan dünya miqyasında ən cəlbedici ölkələrdən biridir.

Bu gün sərmayə qoyuluşu problemləri, həmçinin bazarlarla bağlıdır. Çünki dünyada, yaşadığımız bölgədə, Yaxın Şərqdə, Avropada vəziyyət gərginləşir. Yeni qarşıdurma, münaqişə ocaqları yaranır, sabitlik pozulur. Sabitlik olmayan yerdə investisiya da olmayacaqdır. Azərbaycanda sabitlik var. Bu sabitliyin təminatçısı, qarantı Azərbaycan xalqıdır. Bu, biznes imkanları üçün də gözəl şərait yaradır. Ona görə bir daha demək istəyirəm və xüsusilə böyük maliyyə imkanlarına malik olan azərbaycanlı iş adamlarına müraciət edirəm: Azərbaycana sərmayə qoyun! Müxtəlif sahələrə, xüsusilə iqtisadiyyatın real sektoruna, kənd təsərrüfatı, sənaye, turizm, yüksək texnologiyalar sektorlarına. Bütün bu sektorlar sürətlə inkişaf edir və bu sektorlara qoyulan sərmayə batmır. Biz bunu iqtisadi göstəricilərdə görürük. Sərmayələr Azərbaycan dövləti, o cümlədən qəbul edilmiş qanunlar tərəfindən layiqincə qorunur.

Bir məsələyə də toxunmaq istəyirəm. Azərbaycanlılar dünyada özlərini həmişə öz Vətəninə bağlı insanlar kimi göstəriblər. Bu gün də bu belədir. Əlbəttə, biz çox istəyirik ki, xaricdə yaşayan hər bir azərbaycanlı heç olmasa, ildə bir dəfə Azərbaycana gəlsin. Birincisi, ona görə ki, Vətənlə əlaqələr qırılmasın. İkincisi, ona görə ki, Azərbaycanın müxtəlif yerlərində çox gözəl şərait yaradılıb. Bakı şəhərində, bölgələrimizdə istirahət üçün gözəl, müasir hotellər, istirahət zonaları var. Hesab edirəm ki, Azərbaycan indi dünya miqyasında öz imkanlarını ortaya qoyur. Bunun, əlbəttə ki, ölkə iqtisadiyyatına da xeyri olacaq. Çünki hazırda biz turizm sektorunu sürətlə inkişaf etdiririk. Bu sektoru daha da sürətlə inkişaf etdirmək üçün vizalarla bağlı çox ciddi islahatlar aparılır və görürük ki, hazırda Azərbaycana gələn turistlərin sayı getdikcə artır. Əlbəttə ki, biz onların arasında dünya azərbaycanlılarını da görmək istəyirik. Əgər xaricdə yaşayan hər bir azərbaycanlı ailəsi, hesab edirəm ki, ildə ən azı bir dəfə Azərbaycana gəlsə, bu çox yaxşı olar.

Bizim xarici ölkələrlə əlaqələrimizdə heç bir problem yoxdur. Hazırda bizim 92 diplomatik nümayəndəliyimiz, 60 səfirliyimiz var. Qeyd etdiyim kimi, bu səfirliklər, nümayəndəliklər diaspor təşkilatları ilə daim əlaqə saxlamalıdırlar. Ümumiyyətlə, Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli ölkə kimi tanınır. Bizim heç bir ölkə ilə – Ermənistandan başqa – heç bir problemimiz yoxdur.

Azərbaycan reallıqları dünya ictimaiyyətinə daha da geniş şəkildə çatdırılır. Hesab edirəm ki, bizim zəif yerlərimizdən biri, qeyd etdiyim kimi, xarici ölkələrin dövlət, hökumət, qanunvericilik orqanlarında təmsilçiliyimizin aşağı səviyyədə olmasıdır. İkincisi, xarici media qurumları ilə bizim işimiz o qədər də yaxşı qurulmayıb. Burada da əsas rolu, əlbəttə ki, diaspor təşkilatları oynamalıdır. Çünki Azərbaycan dövləti bu işlərə müdaxilə edə bilməz. Biz heç bir xarici ölkənin daxili işinə qarışmırıq. Bu qəbuledilməzdir. Ancaq hesab edirəm ki, Azərbaycan diaspor təşkilatları bu istiqamətdə öz işini lazımi

səviyyədə qura bilməyibdir. Bizim xarici mediaya çıxışımız çox məhduddur.

Aydın məsələdir ki, Ermənistanın, ermənilərin diaspor təşkilatları artıq onilliklər ərzində formalaşıb. Onlar dünyanın aparıcı media qurumlarına müxtəlif yollarla müdaxilə ediblər və orada təmsil olunurlar. Azərbaycanı ləkələyən, Azərbaycan reallıqlarını təhrif edən, bizə böhtan atan yazıların böyük əksəriyyətinin arxasında erməni qulaqları görünür.

Biz bu istiqamətdə işimizi daha da təkmilləşdirməliyik. İlk növbədə, media ilə iş aparılmalıdır. Biz çalışmalıyıq ki, azərbaycanlı jurnalistlər təbəqəsi yetişsin və onlar müxtəlif media orqanlarında təmsil olunsunlar. Onlar öz Vətənini müdafiə edəcəklər. Onlar həqiqətləri çatdıracaqlar. Çünki XXI əsr informasiya əsridir. Bu gün informasiya müharibələri bir alət, bir silah kimi artıq mövcuddur. İndi dünyanın müxtəlif yerlərində qanlı toqquşmalar baş verir. Biz burada, Bakıda, yaxud da başqa bir şəhərdə oturub necə bilərik ki, orada nələr baş verir, kim haqlıdır, kim haqsızdır, kim hücum edir, kim özünü müdafiə edir? Biz onu ancaq media vasitəsilə bilərik. Əgər hər hansı bir ölkəyə qarşı əlaqələndirilmiş çirkin kampaniya aparılarsa, istər-istəməz ictimai fikir də o istiqamətdə gedəcək.

Ona görə, bax, bu, zəif yerimizdir. Bu, prioritet istiqamətdir və hesab edirəm ki, qurultay zamanı bu məsələ çox ciddi müzakirə edilməlidir. Azərbaycan həqiqətlərini müxtəlif ölkələrə çatdırmaq üçün burada lazımi tədbirlərin görülməsi haqqında müzakirələr aparılmalıdır, proqram tərtib edilməlidir. Əgər Azərbaycan dövləti bu işdə hər hansı bir formada öz dəstəyini verə bilərsə, biz buna hazırıq. Əsas odur ki, biz bunu planlı şəkildə icra edək. Bu, Azərbaycanın diaspor təşkilatları olan bütün ölkələrdə bəlkə də birinci məsələ olmalıdır.

Azərbaycan həqiqətləri haqqında, əlbəttə ki, dünya ictimaiyyətinə geniş informasiya verilməlidir. Biz dövlət olaraq, bunu etməyə çalışırıq. Ancaq diaspor təşkilatlarından da çox şey asılıdır. Xüsusilə biz bunu Ermənistan–Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsinin həlli ilə bağlı informasiya təminatında görürük. Müstəqilliyimizin ilk illərində zəif olmağımızdan istifadə edən erməni diasporu uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya aparır. Bu kampaniyanın tərkib hissəsi o idi ki, Azərbaycanı qaralasınlar, Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, «blokada» şəraitində olan ölkə kimi təqdim etsinlər, Dağlıq Qarabağın tarixi ilə bağlı yalan, uydurma məlumatları sızdırsınlar və onlar buna müəyyən dərəcədə nail ola biliblər.

Əgər belə olmasaydı, 1992-ci ildə ABŞ Konqresi o məlum və mənfur 907-ci düzəlişi qəbul etməzdi. Təsəvvür edin, Ermənistan Azərbaycan torpaqlarını zəbt edir, Xocalı soyqırımını törədir, insanları didərgin salır, etnik təmizləmə aparır, ABŞ Konqresi «Azadlığa dəstək aktı»na düzəliş qəbul edir ki, Azərbaycan Amerika dövlətinin birbaşa yardımından məhrum edilməlidir. Nəyə görə? Ona görə ki, Azərbaycan Ermənistanı blokadada saxlayır. Bundan cəfəng və riyakar qətnaməni bəlkə heç bir parlament görməyib.

Bu nəyə görə baş verdi? Ona görə ki, erməni lobbisinə aid olan satqın, rüşvətxor konqresmenlər – bəziləri bu çirkin missiyanı hələ də davam etdirir – belə bir yalanı ortaya atıblar. Azərbaycan isə sadəcə olaraq, susub. O vaxt bizim diasporumuz da yox idi. Azərbaycanı idarə edənlər də, ümumiyyətlə, heç bilmirdilər ki, idarəçilik nədir. Ona görə ölkəni belə uçurum kənarına qoydular və vətəndaş müharibəsinə başladılar. İndi də bu düzəliş qüvvədədir. Bu düzəlişi aradan götürmək üçün böyük səylər göstərilməlidir. Birinci mərhələdə biz doğrudan da böyük səylər göstərirdik. Sonra isə qərara gəldik ki, buna ehtiyac yoxdur. Onsuz da bu düzəlişin heç bir mənası yoxdur. Biz heç kimin yardımından asılı deyilik, ayaqda möhkəm dayanmışıq. Özümüz kimə lazımdırsa yardım göstərə bilərik.

Ancaq nəyi demək istəyirəm, bax, bu, erməni təxribatı idi. Bu gün onlar müxtəlif ölkələrdə Azərbaycana qarşı eyni üsulla çirkin kampaniya aparırlar. Biz isə həqiqətləri çatdırmalıyıq. Çatdırmalıyıq ki, birincisi, Dağlıq Qarabağ tarixi, əzəli

Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Ermənilər Dağlıq Qarabağa Şərqi Anadoludan və İrandan XIX əsrin əvvəllərində köçürülüb. Nəyə görə köçürülüb? Biz hamımız bunu yaxşı bilirik. Hətta 1978-ci ildə Dağlıq Qarabağda ermənilərin Dağlıq Qarabağa köçürülməsinin 150 illik yubileyini təsvir edən abidə də ucaldılmışdı. Müharibə zamanı ermənilər özləri o abidəni dağıtdılar ki, bu, tarixdən silinsin.

Yəni budur reallıq. Bu bizim tarixi torpağımızdır. Bütün toponimlər, bütün şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir. Nəinki Dağlıq Qarabağda, Ermənistanın özündə də. İrəvan xanlığı, Zəngəzur, Göyçə – bütün bunlar bizim tarixi torpaqlarımızdır. Götürün XX əsrin əvvəllərində çar Rusiyasında çap edilmiş xəritələrə baxın, bütün toponimlərin 80 faizi Azərbaycan mənşəlidir. Sonra ermənilər bunları yavaş-yavaş dəyişməyə başladılar, bizim tarixi abidələrimizi, məscidlərimizi dağıtdılar ki, o tarix silinsin. Bu, birinci məsələ.

İkinci məsələ, biz işğala məruz qalmışıq və bu, dünyanın gözü qarşısında baş verib. Torpaqlarımızın 20 faizi – Dağlıq Qarabağ və ətraf 7 rayon işğal altındadır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılıb. 1 milyondan artıq qaçqın və köçkünümüz var. Azərbaycanlılara qarşı Xocalı soyqırımı törədilib. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib, tələb edib ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılsın. Bunlara əməl edilmir. Yəni budur bu işin tarixi və hüquqi tərəfi. Əlbəttə ki, bunu heç kim inkar edə bilməz. Hətta ermənipərəst qüvvələr də inkar edə bilməzlər, halbuki buna çalışırlar.

Ona görə bu həqiqətlər çatdırılmalıdır. Azərbaycanda bu mövzu ilə bağlı kifayət qədər materiallar, xəritələr, kitablar, tarixi sənədlər var. Bizim alimlərimiz çox böyük işlər görürlər. «İrəvan xanlığı» adlı böyük bir elmi əsər yaradılıb. Çünki dünyada bir çoxları bilmir ki, bu bizim tarixi torpağımızdır. Ancaq biz bunu sənədlər əsasında sübut edirik, xarici dillərə tərcümə edirik.

Ona görə bu istiqamət diaspor təşkilatları üçün əsas olmalıdır. Diaspor təşkilatları yaşadıqları ölkələrdə internet saytları açmalıdır. Biz bunu hələ ki, görmürük. O internet saytları yaşadıqları ölkələrin ictimaiyyəti üçün maraqlı olmalıdır, eyni zamanda, Azərbaycan həqiqətləri orada göstərilməlidir. Bu proses daim aparılmalıdır. Azərbaycan dilində və xarici dillərdə qəzetlər dərc edilməlidir ki, azərbaycanlılar, onların övladları oxusunlar, ana dilini bilsinlər, həm də o ölkələrin ictimaiyyəti oxusun.

Yenə də deyirəm, biz informasiya dövründə yaşayırıq və informasiyanın əhəmiyyəti getdikcə artacaq. Biz buna hazır olmalıyıq. Bilirsiniz ki, erməni diasporu bunu öz hesabına edir. Ermənistan səfil bir ölkədir, orada heç büdcəni doldurmaq üçün pul tapa bilmirlər, nəinki harasa, xaricə nəsə yardım edə bilsinlər. Ancaq Azərbaycan dövləti bir çox məsələləri həll edir və həll edə bilər, dəstək verir və verə bilər. Sadəcə olaraq, bu işlər məqsədyönlü şəkildə aparılmalıdır və səmərəli şəkildə qurulmalıdır. Beləliklə, Azərbaycan reallıqları haqqında həqiqətə uyğun informasiya veriləcək.

Bax, ən yeni misal aprel döyüşləri ilə bağlı olubdur. Ermənistan nə qədər çalışdı ki, bu döyüşlər haqqında yenə də yalan məlumatlar, informasiyalar ötürsün, buna nail ola bilmədi. Ancaq erməni diasporu ilə sıx biznes əlaqəsində olan çox məhdud sayda bəzi satılmış jurnalistlər – onları biz hamımız yaxşı bilirik, bu auditoriyada onların adlarını çəkmək yerinə düşməz – çalışdılar ki, Azərbaycanı günahlandırsınlar və o aprel döyüşlərini Ermənistanın böyük qələbəsi kimi qələmə versinlər.

Amma alınmadı. Nəyə görə? Çünki birincisi, artıq bizim də imkanlarımız var. İkincisi, biz də öz sözümüzü deyirik. Hamı bilir ki, nələr baş verib. Hamı bilir ki, aprel döyüşlərinin nəticəsi nədir.

Çox təəccüblüdür, Ermənistan rəhbərliyi bu situasiyada da çalışır ki, öz xalqını, dünya ictimaiyyətini aldatsın. Bu gün bu, mümkün deyil. İndi isə nəticə etibarilə, özünü belə gülünc vəziyyətə qoyub. Gah deyirdilər ki, onlar heç bir torpaq itirməyiblər. Gah deyirdilər ki, əksinə, onlar Azərbaycan torpaqlarını zəbt ediblər. Gah deyirdilər

ki, onlar qələbə qazanıblar. Sonra deyirdilər ki, torpaqları itiriblər. Sonra deyirdilər ki, bu torpaqların əhəmiyyəti yoxdur. Daha sonra deyirdilər ki, əhəmiyyəti var, Azərbaycan o torpaqları qaytarsın. Əgər əhəmiyyəti yoxdursa, Azərbaycan bunu nəyə görə qaytarmalıdır?! Yəni özlərini tamamilə itiriblər, özlərini belə gülünc ifadələrlə ifşa edirlər.

Bunun son nümunəsini Ermənistan prezidenti bu yaxınlarda Avrasiya İqtisadi İttifaqının Zirvə görüşündə ifadə etdi. Onun sözləri təxminən bundan ibarət idi ki, Azərbaycan apreldə bu əməlləri edib, «Dağlıq Qarabağ ordusu» vəziyyəti nəzarətə alıb və Azərbaycan Rusiyadan xahiş edib ki, döyüşlər dayandırılsın. Bax, bu cümlədə bu adam 4 dəfə yalan danışıb. Birincisi, aprel döyüşlərini törədən Ermənistandır. Nəyə görə? Mən artıq bunu demişəm və qısaca olaraq, bir daha qeyd etmək istəyirəm ki, çünki Ermənistan sülh istəmir. Görəndə ki, məsələnin sülh yolu ilə həll olunması üçün onlara təzyiq artır, status-kvonun dəyişdirilməsi haqda bəyanatlar səslənir – status-kvonun dəyişməsi isə işğalçı qoşunların torpaqlarımızdan çıxarılması deməkdir – təxribatlara əl atır.

Onlar aprel döyüşləri ərəfəsində də bizim mövqelərimizə hücumlar ediblər. Hətta təmas xəttində deyil, başqa istiqamətdə, Qazax bölgəsində bizim iki hərbçimiz həlak olub. Onlar daim bizim kəndləri atəşə tutur, mövqelərimizə hücum edirdilər. 2014-cü ildə növbəti təxribat törədib, bizim mövqelərimizə hərbi helikopterlə hücum çəkmişdilər. Bizim ordumuz isə onu vurmuşdu. Ermənistan bundan bəhanə kimi istifadə etdi və danışıqlar 1 il donduruldu. Yəni görəndə ki, onlara təzyiq güclənir, daim təxribatlara əl atırlar. Bu aprel döyüşləri də bu sıradan olan təxribat idi. Azərbaycan Ordusu onlara layiqli cavab verdi və düşməni yerinə oturtdu. Bu, birinci yalan.

İkinci yalan odur ki, «Dağlıq Qarabağ ordusu» vəziyyəti nəzarətə alıb. Bu necə nəzarətdir ki, özləri etiraf edirlər, onlar 800 hektar torpağı itiriblər?! Bu çox qəribə bir nəzarətdir. Onu da qeyd etməliyəm ki, Azərbaycan Ordusu 800 hektar deyil, 2000 hektardan çox torpağı işğalçılardan azad edib. Ağdərə – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazisi, Füzuli və Cəbrayıl

rayonlarında 2000 hektardan çox ərazi işğalçılardan azad edilib. Ondan bir neçə dəfə böyük əraziyə hazırda Azərbaycan Ordusu nəzarət edir. O ərazidə erməni ordusu heç tərpənə də bilmir.

Üçüncü yalan odur ki, «Dağlıq Qarabağ ordusu» yoxdur. Bu, beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün bir mifdir. Dağlıq Qarabağda erməni silahlı birləşmələrinin tərkibində xidmət edən hərbçilər Ermənistan vətəndaşlarıdır. Onların 80 faizi Ermənistan vətəndaşlarıdır, Ermənistanda doğulublar. «Dağlıq Qarabağ ordusu» mifdir. Bu, üçüncü yalan.

Dördüncü yalan isə ondan ibarətdir ki, guya Azərbaycan Rusiyadan xahiş edib ki, bu döyüşlər dayandırılsın. Bu yalandır. Azərbaycan belə bir xahiş etməyib. Bu təxribat törədiləndən sonra Azərbaycan əks-hücum əməliyyatı keçirib və dərhal lazımi mövqelərə sahib çıxıb. Ondan sonra hələ bir 2-3 gün Ermənistan ordusu çalışırdı ki, o mövqeləri geri götürsün. Görəndə ki, buna nail ola bilmir, görəndə ki, böyük itkilər verir, görəndə ki, əgər dayanmasa, daha da böyük torpaqlar itirəcək, Rusiyaya müraciət etdilər. Rusiyanın Baş Qərargah rəisi bizim Baş Qərargah rəisinə zəng etdi, dedi ki, Ermənistan xahiş edir ki, atəşkəs bərpa edilsin və bizim qərargah rəisini Moskvaya danışıqlara dəvət etdi. Ondan sonra Rusiya Prezidenti mənə eyni təkliflə zəng etdi ki, atəş dayandırılsın və qərara gəldik ki, aprelin 5-də atəş dayandırılsın.

Yəni budur reallıq. Mən bir cümlədə 4 dəfə yalan danışan ikinci prezident tanımıram. Bu, mütləq «Ginnesin rekordlar kitabı»na salınmalıdır, amma antirekord kimi. Heç olmasa, Ermənistan dünyada hansısa bir sahədə birinciliyi əldə edər.

Aprel döyüşləri bir daha Azərbaycanın qüdrətini, ordumuzun gücünü göstərdi. Xahiş edirəm ki, bütün dünya azərbaycanlıları adından bizim qəhrəman hərbçilərimizi salamlayaq.

Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!

* * *

*2 gün davam edəcək Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq*

*iştirak edir. Qonaqların içərisində xarici ölkələrin Azərbaycana dost münasibətilə tanınan nüfuzlu siyasətçiləri, ictimai xadimləri, elm adamları və bir neçə ölkənin yüksəkvəzifəli şəxsləri, parlament üzvləri də var. Xaricdən dəvət edilən qonaqlarla yanaşı, qurultayın işinə Azərbaycanın müxtəlif dövlət və hökumət strukturlarının, qeyri-hökumət təşkilatlarının, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumların, siyasi partiyaların təmsilçilərindən ibarət 360 nəfərlik nümayəndə heyəti də qatılmışdır. Qurultayda diaspor rəhbərləri müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparacaq, rəy və təkliflərini səsləndirəcəklər. Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olunacaq.*

*Xatırladaq ki, Dünya Azərbaycanlılarının I Qurultayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə, II Qurultay prezident İlham Əliyevin sərəncamına əsasən 2006-cı ildə, III Qurultay isə 2011-ci ildə keçirilmişdir.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*6 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Almaniya Federativ Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Berlin şəhərinin Tegel aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

## ALMANİYA–AZƏRBAYCAN FORUMUNUN İDARƏ HEYƏTİNİN SƏDRİ HANS-EBERHARD ŞLAYER İLƏ GÖRÜŞ

*Berlin*

*6 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 6-da Berlində Almaniya–Azərbaycan Forumunun İdarə Heyətinin sədri Hans-Eberhard Şlayer və qurumun üzvləri ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Almaniya arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu, əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev Almaniya–Azərbaycan Forumunun İdarə Heyətinin üzvlərini aprelin əvvəlində Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağda cəbhə xəttində törətdiyi təxribatlar barədə məlumatlandırdı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı danışıqların vəziyyəti ilə bağlı Almaniya–Azərbaycan Forumunun İdarə Heyətinin üzvlərinə məlumat verdi.*

## «AİRBUS GROUP» ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ JAN PYER TALAMONİ İLƏ GÖRÜŞ

*Berlin*

*6 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Berlində «Airbus Group» şirkətinin icraçı vitse-prezidenti Jan Pyer Talamoni ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Airbus Group» şirkəti arasında səmərəli əməkdaşlığın olduğu bildirildi. Müxtəlif sahələrdə, xüsusilə «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə «Airbus Group» arasında, o cümlədən kosmik sənaye sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

# MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİ VOLFQANQ FREDRİK İŞİNGER İLƏ GÖRÜŞ

*Berlin*

*6 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Berlində Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq Fredrik İşinger ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Münhen Təhlükəsizlik Konfransı arasında yaxşı əməkdaşlığın olduğu bildirildi. Ölkəmizin konfransın işində hər zaman fəal olduğu vurğulandı. Azərbaycanın dünyada təhlükəsizliyin təmin olunması işinə verdiyi töhfənin əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı aprelin əvvəlində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində qoşunların təmas xəttində törətdiyi təxribat, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ANGELA MERKEL İLƏ GÖRÜŞ

*Berlin*

*7 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkel ilə görüşmüşdür.*

*Kansler Angela Merkel prezident İlham Əliyevin Almaniyaya səfərlərinin və Azərbaycan dövlətinin başçısı ilə müxtəlif tədbirlərdə keçirdiyi görüşlərin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Azərbaycanın mühüm coğrafi mövqedə yerləşdiyini deyən Federal Kansler dünyada gedən iqtisadi böhran və neftin qiymətinin kəskin düşməsi məsələlərinə toxunaraq, Almaniya hökumətinin bu böhranın aradan qaldırılması üçün Azərbaycan hökumətinin həyata keçirdiyi iqtisadi islahatları, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması sahəsində gördüyü tədbirləri alqışladığını bildirdi.*

*Prezident İlham Əliyev son zamanlarda Azərbaycanda həyata keçirilən iqtisadi tədbirlərdən danışaraq, ölkəmizdə iqtisadiyyatın neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, iqtisadi imkanların daha da artırılması və digər sahələrdə ciddi addımların atıldığını bildirdi. Dövlətimizin başçısı ölkədə yoxsulluğun azaldılması, əhalinin rifahının yaxşılaşdırılması sahəsində həyata keçirilən işlərdən danışdı. Prezident İlham Əliyev səfər çərçivəsində Berlində keçirilən Azərbaycan–Almaniya İqtisadi Forumunun əhəmiyyətini vurğulayaraq, bu tədbirin ölkələrimiz*

*arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyini bildirdi.*

*Görüşdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsindəki rolu qeyd edildi, «Cənub Qaz Dəhlizi»nin bu baxımdan regional əməkdaşlığa, eyni zamanda, Azərbaycan–Avropa İttifaqı iqtisadi əməkdaşlığının genişləndirilməsinə töhfə verdiyi bildirildi. Bundan başqa, görüşdə Azərbaycanda insan haqlarının təmin olunması, demokratikləşmə prosesinin inkişafı istiqamətində atılan müsbət addımlardan danışıldı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər ətrafında geniş müzakirələr aparıldı. Prezident İlham Əliyev cəbhə xəttində baş verən son hadisələr və indiki vəziyyət barədə məlumat verdi, bu münaqişənin həlli ilə bağlı aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti və perspektivləri barədə danışdı. Hazırda ATƏT-ə sədrlik edən ölkə kimi, Almaniyanın Minsk qrupu çərçivəsində münaqişənin nizamlanması prosesində rolu barədə fikir mübadiləsi aparıldı.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ VİTSE-KANSLERİ, İQTİSADİYYAT VƏ ENERJİ NAZİRİ ZİQMAR QABRİEL İLƏ GÖRÜŞ

*Berlin*

*7 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Berlində Almaniya Federativ Respublikasının vitse-kansleri, İqtisadiyyat və Enerji naziri Ziqmar Qabriel ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Almaniya ikitərəfli əlaqələrinin yüksək səviyyəsindən məmnunluq ifadə edildi, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirildi.*

*Söhbət zamanı böyük iqtisadi layihələrin həyata keçirilməsi, kənd təsərrüfatı, əczaçılıq, təhsil, nəqliyyat, enerji, su təsərrüfatı, torpaqların təmizlənməsi, kosmik sənaye və digər sahələrdə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

İstanbulda törədilmiş partlayış nəticəsində insanların həlak olması və yaralanması xəbəri bizi son dərəcə kədərləndirdi.

Bu amansız terror aktı terrorizmin bütün təzahürlərinə qarşı ən kəskin şəkildə mübarizə aparılmasının vacibliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2016-cı il*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MARSELO REBELO DE SUSAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Portuqaliya Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2016-cı il*

# ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ANGELA MERKEL İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Berlin*

*7 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin iyunun 7-də mətbuat konfransı olmuşdur.*

*Kansler Angela Merkel və prezident İlham Əliyev əvvəlcə bəyanatlarla çıxış etdilər.*

## Almaniyanın Federal Kansleri Angela Merkelin bəyanatı

Xanımlar və cənablar!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Almaniyada bir daha salamlamaqdan məmnunluq hissi keçirirəm. Xoş gəlmisiniz!

Biz beynəlxalq sammitlərdə kifayət qədər tez-tez görüşürük. Bir qədər bundan əvvəl biz ikitərəfli əlaqələrin daha da intensivləşdirilməsi ilə bağlı razılığa gəldik və hazırda gündəlikdə duran məsələləri müzakirə etdik. Beləliklə, mən prezident Əliyevi burada salamlamaqdan çox məmnunam.

Biz Azərbaycandakı iqtisadi vəziyyəti müzakirə etdik. Neft və qazın qiymətinin ucuzlaşmasını nəzərə alaraq, bir neçə il bundan əvvəlki vəziyyətlə müqayisədə bir az gərginlik var. Lakin bu, iqtisadi islahatlara başlamaq üçün münbit bir şərait yaratdı. Hesab edirəm ki, bu, Azərbaycana öz iqtisadi bazasını şaxələndirmək imkanı verəcək.

Prezident bu gün Almaniyanın İqtisadiyyat naziri, alman biznes icmasının nümayəndələri ilə görüşdü. Almaniya öz imkanları daxilində ölkənizin iqtisadi bazasının şaxələndirilməsində iştirak etməyə hazırdır.

Biz həmçinin Azərbaycandakı sosial vəziyyəti müzakirə etdik. Mən ümidvar olduğumu bildirdim ki, alman siyasi fondları Azərbaycanda fəaliyyətə başlaya biləcək. Biz belə bir addımı alqışlayarıq və bu məsələ üzərində işləməyə davam edəcəyik. Bu, cəmiyyətdə şəffaflığa, mətbuat azadlığına nail olmaq və əlbəttə ki, insan hüquqlarına hörmət istiqamətində atılan addımlardır. Azərbaycan hökuməti tərəfindən bir neçə əfv qərarı qəbul edilib və biz bu addımı alqışlayırıq.

Bundan başqa, biz Dağlıq Qarabağdakı vəziyyəti müzakirə etdik. Aprel ayının əvvəlində atəşkəs rejimi kəskin şəkildə pozulmuşdur. Hazırda isə ATƏT-ə sədrlik edən Almaniya münaqişənin sülh yolu ilə həll edilməsinə öz töhfəsini vermək istəyir. Buna nail olmaq üçün nəinki atəşkəs rejiminə əməl etmək lazımdır, eyni zamanda, siyasi proses irəliləyərək, davam etdirilməlidir. Minsk qrupu fəaliyyət göstərir. Biz hesab edirik ki, Minsk qrupu təkcə həmsədrlər formatında görüşməməlidir. Eyni zamanda, bura başqaları da daxil olmalıdır, məsələn, Almaniya. Biz istərdik ki, bu qrup razılaşdırılmış prinsiplər əsasında fəaliyyət göstərsin. Biz bu siyasi prosesə necə dəstək olmaq barədə müzakirələr apardıq. Əlbəttə ki, münaqişənin bütün tərəfləri danışıqlar masasına əyləşməli və münaqişənin həllinə nail olmalıdırlar. Birtərəfli həll olmamalıdır. Düşünürəm ki, hazırkı vəziyyətin ürəkaçan olmamasına hər ikimiz razılaşarıq, çünki münaqişə istənilən zaman kəskinləşə bilər. Biz Azərbaycanın yerləşdiyi regionda münaqişələr barədə danışdıq. Aydındır ki, İranda cərəyan edən hadisələri, nüvə sazişinin bağlana bilməsi faktını, İranla münasibətlərin, o cümlədən Avropa İttifaqı ilə münasibətlərin daha da intensivləşdirilməsini hər ikimiz müsbət hal kimi qiymətləndiririk. Əlbəttə ki, bir qonşu ölkə kimi, bunun Azərbaycana da müsbət təsiri olacaq. Ümumilikdə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində Rusiya mühüm rol oynayacaq. Biz

Dağlıq Qarabağ münaqişəsinin həll edilməsinə nail olmaq üçün Minsk qrupunun həmsədr ölkələri qismində Rusiya, ABŞ və Fransa hökumətlərinə dəstək vermək üçün əlaqələrimizdən maksimum şəkildə istifadə etməliyik.

Bu gün bizimlə görüşdüyünüz üçün Sizə təşəkkürümü bildirirəm. Avropa İttifaqı və Azərbaycanın, eyni zamanda, Almaniya və Azərbaycanın mövcud əlaqələrini daha da inkişaf etdirmək, əlaqə saxlamaq, bütün sosial aspektləri, o cümlədən iqtisadi aspektləri müzakirə etmək üçün yaxşı səbəblər var. Bir daha xoş gəlmisiniz, cənab Prezident!

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Xanım Kansler, çox sağ olun!

Hər şeydən əvvəl, məni bir daha Almaniyaya səfərə dəvət etdiyiniz üçün Sizə minnətdarlığımı ifadə etmək istəyirəm. Mən burada keçən il olmuşdum, indi də səfər edirəm. Bu isə aramızda çox fəal siyasi dialoqun mövcud olduğunu göstərir.

Bu gün xanım Kanslerlə görüş bizə bir daha ikitərəfli gündəliyimizə daxil olan vacib məsələlər, habelə regional məsələlərlə bağlı fikir mübadiləsi aparmaq imkanı verdi. Xanım Kanslerin qeyd etdiyi kimi, biz qarşılıqlı marağa və əhəmiyyətə malik olan bir çox sahələri müzakirə etdik. Əminəm ki, Almaniya–Azərbaycan əlaqələrinin uğurlu inkişafı regionumuzda sülh və sabitliyin möhkəmlənməsinə xidmət edəcək. Əlbəttə ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli müzakirələrimizin ən vacib hissələrindən biri idi. Biz bu münaqişənin beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələrin icra olunması əsasında ən tez zamanda həllini istəyirik. Bu 4 qətnamə 20 ildən çoxdur ki, qəbul edilib və Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir və onların icrası üçün heç bir mexanizm yoxdur. Təəssüflər olsun ki, beynəlxalq hüququ kobud şəkildə

pozduğuna, etnik təmizləmə siyasəti yürütdüyünə və suveren dövlətin ərazisinin 20 faizini işğal etdiyinə görə Ermənistana heç bir sanksiya tətbiq edilməyib. Biz münaqişənin sülh yolu ilə, tez bir zamanda, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq qətnamələr əsasında həllini istəyirik. Regionda, təmas xəttində baş verən son hadisələr onu göstərdi ki, atəşkəs rejimi sabit deyil və tez-tez pozulur, mövcud status-kvo qəbuledilməzdir. Aprel ayının əvvəlində Ermənistan Azərbaycana qarşı bir daha hərbi təxribat törətdi. Biz özümüzü, vətəndaşlarımızı müdafiə etmək məcburiyyətində qaldıq. Yeri gəlmişkən, Ermənistanın təcavüzü nəticəsində 6 mülki şəxs qətlə yetirilib, 100 ev tamamilə məhv edilib və 500 evə ziyan dəyib. Status-kvo dəyişməlidir. Minsk qrupunun həmsədrləri, həmsədr ölkələrin prezidentləri bir neçə dəfə bunu qeyd ediblər. ATƏT-ə sədrlik edən ölkə – Almaniya da status-kvonun qəbuledilməz olduğunu açıq şəkildə bəyan edib. Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad olunmasına başlanılması deməkdir. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir. Bu ilin may ayında Vyanada 3 həmsədr ölkənin Xarici İşlər nazirlərinin təşkilatçılığı ilə görüş baş tutdu və biz müxtəlif istiqamətlər üzərində çalışacağımıza razılaşdıq. Hər şeydən əvvəl biz əsaslı danışıqlara başlayacağıq, atəşkəs rejimini gücləndirəcəyik və atəşkəs rejiminin gücləndirilməsi üçün əlavə imkanlar yaradacağıq. Lakin bu proses, əlbəttə ki, paralel şəkildə aparılmalıdır.

Biz həmçinin regional təhlükəsizliyə və əməkdaşlığa aid məsələləri və əlbəttə, aramızda olan iqtisadi əməkdaşlığı da müzakirə etdik. Bu gün səhər mən aparıcı alman şirkətlərinin qatıldığı Azərbaycan–Almaniya İqtisadi Forumunda iştirak etdim və birgə biznesin aparılmasında böyük qarşılıqlı marağın olduğunu gördüm. Almaniya nümayəndəsi tərəfindən qeyd edildiyi kimi, Azərbaycan ilə ticarət Almaniyanın Cənubi Qafqaz regionu ilə apardığı ticarətin 80 faizini təşkil edir. Əminik ki, bu göstərici daha da artacaq. Həyata keçirdiyimiz

islahatlar siyasəti sayəsində şirkətlərimiz üçün birgə biznes aparmaq imkanları daha da çoxalacaq.

Əlbəttə ki, bu gün enerji təhlükəsizliyi məsələsi geniş şəkildə müzakirə olundu. Azərbaycan hazırda 7 ölkəni əhatə edən «Cənub Qaz Dəhlizi» adlanan irimiqyaslı enerji layihəsinin icrasında öz rolunu oynayır. Bu ölkələrin 3-ü Avropa İttifaqına üzv dövlətlərdir. Avropa İttifaqı bizim təşəbbüsləri ciddi şəkildə dəstəkləyir. «Cənub Qaz Dəhlizi» bizlər – istehsalçılar və istehlakçılar üçün enerji şaxələndirilməsi layihəsidir. Çünki onların Azərbaycandan gələn, müasir nəqliyyat infrastrukturu vasitəsilə çatdırılan yeni alternativ qaz mənbəyinə çıxışı olacaq. Bu gün enerji təhlükəsizliyini ölkələrin milli təhlükəsizliyindən ayırmaq olmaz. Enerji təchizatından asılı olan ölkələrə, əlbəttə ki, şaxələndirilmiş mənbə və marşrutlar lazımdır. Bu baxımdan Azərbaycan yeni ölkədir və dost olaraq, biz layihəni vaxtında icra etmək üçün əlimizdən gələn hər şeyi edəcəyik. «Cənub Qaz Dəhlizi» layihəsi 2020-ci iləədək tamamlanmalıdır. Bu layihənin dəyəri 45 milyard dollar təşkil edir.

Əməkdaşlığın digər sahələri də böyük əhəmiyyət daşıyır. Mən xanım Kanslerə mövcud infrastrukturumuzdan istifadə edərək, ölkəmizin ərazisindən Asiya və Avropa arasında etibarlı əlaqəni yaratmaq üçün Azərbaycanın icra etdiyi nəqliyyat layihələri barədə də məlumat verdim. Beləliklə, Asiyadan Avropaya ən qısa yol Azərbaycandan keçən yol olacaq və bu yol bu ilin sonuna istismara veriləcək.

Biz həmçinin Azərbaycanda siyasi sahədə inkişaf edən prosesləri də müzakirə etdik. Azərbaycan demokratiyaya, insan hüquqlarının qorunmasına sadiqdir. Bu məsələləri həll etmək üçün son zamanlarda bir çox addımlar atılıb və bu gün Azərbaycanda bütün əsas azadlıqlar təmin olunub – sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, ifadə azadlığı. Bizdə azad internet var, əhalimizin 75 faizi internet istifadəçisidir, din azadlığı var. Bu il Azərbaycanda «Multikulturalizm ili» elan olunub və Azərbaycan müxtəlif konfessiyaları təmsil edən

insanların sülh, harmoniya və ləyaqət içərisində yaşadığının yaxşı nümunəsidir.

Xanım Kansler, göstərdiyiniz qonaqpərvərliyə, bu məsələləri Sizinlə müzakirə etməyə imkan yaratdığınıza görə bir daha minnətdarlığımı ifadə etmək istəyirəm. Mən ümid edirəm ki, bizim ikitərəfli əməkdaşlığımız gələcəkdə də uğurla davam edəcək. Təşəkkür edirəm.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**A n d r e a s İ n k e r (***Reuters Agentliyi***): Sualım Sizə ünvanlanıb, cənab Prezident. Rusiyanın oynadığı rolu qiymətləndirə bilərsinizmi? Rusiya Dağlıq Qarabağ münaqişəsində həm Ermənistanı, həm də Azərbaycanı silah-sursatla təchiz edir. O, ədalətli vasitəçidir, yoxsa neft və qaz təchizatına gəldikdə sizin üçün rəqibdir?**

**Xanım Kansler, Siz Türkiyə Prezidentinin Almaniyanın erməni soyqırımı ilə məşğul olduğu, lakin Holokosta və Herero qətliamına kifayət qədər diqqət yetirməməsi ilə bağlı ittihamlarına nə deyərdiniz?**

**İ l h a m Ə l i y e v:** Rusiya bizim qonşumuzdur və bizə dost ölkədir. Bizim çox konstruktiv və mehriban münasibətlərimiz var. Biz Rusiya ilə bir çox sahələrdə əməkdaşlıq edirik – iqtisadiyyat, təhlükəsizlik, nəqliyyat sahələrində. Bizim yaxşı ticarət əlaqələrimiz var və biz Rusiyanı öz strateji tərəfdaşımız hesab edirik. Rusiyanın da Azərbaycana qarşı münasibəti eynidir. Rusiyanın Ermənistana silah satması faktı Azərbaycanı qıcıqlandırmır. Biz Rusiyanın böyük silah istehsalçısı olduğunu bilirik və o bu silahı lazım bildiyi istənilən tərəfə, istənilən ölkəyə sata bilər. Əfsuslar olsun ki, Rusiya silahı Azərbaycana satanda bu, Ermənistanı qıcıqlandırır. Ermənistandan fərqli olaraq, Azərbaycan bu silah-sursata görə tam qiyməti ödəyir. Rusiya bizim silah aldığımız yeganə ölkə deyil. Bizim Türkiyədən, İsraildən, Belarusdan, İrandan və bir

çox digər ölkələrdən silah almağımız sirr deyil, çünki biz silahlı qüvvələrimizi müasirləşdiririk. İstənilən ölkə, xüsusilə işğal altında yaşayan və mürəkkəb geosiyasi vəziyyətdə olan ölkə lazımi şəkildə müdafiə olunmalıdır. Rusiya, həmçinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrlərindən biridir. Biz Rusiyanın rolunu müsbət qiymətləndiririk və ümid edirik ki, ABŞ və Fransa ilə birlikdə Rusiya Ermənistanı ona mənsub olmayan torpaqları boşaltmağa artıq vaxtın yetişdiyinə inandırmaq üçün bütün potensialdan istifadə edəcək.

**A n g e l a  M e r k e l:** Biz Türkiyə barədə də danışdıq. Açıq-aydındır ki, Türkiyə cənub hissədəki iqtisadi əlaqələrinə görə Azərbaycanla çox sıx bağlıdır və Türkiyə, ümumiyyətlə, Azərbaycana bağlıdır. Buna görə biz Dağlıq Qarabağ münaqişəsinin həlli barədə də danışdıq və bu da Türkiyə–Ermənistan münasibətlərinin yaxşılaşdırılmasına şərait yarada bilər. Bildiyiniz kimi, 2005–2009-cu illərdə Azərbaycan və Ermənistan arasında münasibətləri yaxşılaşdırmaq üçün çoxlu səy göstərilmişdi və bunun bir səbəbi də Azərbaycanın bu münaqişənin həllində özünə kifayət qədər dəstək göstərilmədiyini hiss etməsi ilə bağlı idi. Hesab edirəm ki, bu münaqişə çözülsəydi, Türkiyə və Ermənistan arasında münasibətlər də nisbətən az gərgin olardı. O ki qaldı bir ölkənin keçmişi ilə bağlı olan məsələnin həll edilməsinə, Bundestaq tərəfindən qəbul edilmiş qətnamədə Holokostun özünəməxsusluğu açıq şəkildə göstərilir. Orada açıq bildirilir ki, Almaniya nəinki təkcə öz milli sosializm və Holokost tarixi ilə məşğul olub, o bunu hər bir nəsildə etməyə davam edəcək. Bunu etmək bizim vəzifəmizdir. Biz inanırıq ki, başqalarına, məsələn, Türkiyə və Ermənistana öz tarixlərini həll etməyə kömək etmək üçün töhfəmizi verməliyik. Məsələn, tarixçilərdən ibarət ümumi panelin təsis edilməsi yolu ilə. Mən, əlbəttə ki, bu məsələlərə Ermənistanla danışıqlarda, lakin eyni zamanda, Türkiyə tərəfi ilə də müzakirələrimdə toxunacağam. Türkiyə barədə danışdığımıza görə icazə verin, fürsətdən istifadə edərək, bu

gün səhər aldığımız xəbərdən dəhşətə gəldiyimizi bildirim. Yenə də 11 nəfərin terrorçuların nifrət və ağlasığmazlıq ideyalarının qurbanına çevrilməsi faktı bizi çox kədərləndirir. Belə terror aktlarına heç cür bəraət qazandırıla bilməz və belə qəddarlığa heç bir bəhanə gətirilə bilməz. Həlak olanların, yaralananların ailə üzvləri daim bizim fikrimizdədir. Həyatını itirənlərin ailə üzvlərinə başsağlığı diləyirəm. Bir daha əlavə etmək istəyirəm ki, terrorizmlə mübarizə aparmağın mümkün olduğu hər bir yerdə Almaniya Türkiyənin yanında olacaq.

**A z ə r X ə l i l o v** *(CBC televiziya kanalı)*: **Mənim sualım xanım Kanslerədir. Ermənistanın Azərbaycana qarşı 20 ildən çoxdur ki, davam edən təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunub və 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Lakin Ermənistan bu qətnamələri icra etmir. Sizcə, Ermənistanı BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş qətnamələri icra etməyə və işğal olunmuş əraziləri boşaltmağa məcbur etmək üçün hansı mexanizmlər ola bilər? Yeri gəlmişkən, nəyə görə Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq olunmur? Təşəkkür edirəm.**

**A n g e l a M e r k e l:** Bu gün biz bu məsələni müzakirə etdik, münaqişənin diplomatik və sülh yolu ilə həll ediləcəyinə dair ümidvar olduğumuzu bildirdik. ATƏT-ə sədrlik etdiyi müddətdə Almaniya bu münaqişənin həllinə nail olmağa çalışacaq. Biz təzyiq və təsir vasitələrindən istifadə etməyə səy göstərəcəyik. Biz ümumi paketin icra olunmasını istəyirik. Bir tərəfdən, qüvvədə olan atəşkəs rejiminə, digər tərəfdən isə münaqişənin Madrid prinsipləri əsasında həllinə nail olunmalıdır. İlkin addımlar təklif olunub və mən cənab Prezidenti əmin edə bilərəm ki, ATƏT-in Minsk qrupunun bütün həmsədrlərinə – ABŞ, Fransa və Rusiyaya gəldikdə, bu prosesin icra edilməsi və irəliləyişə nail olunması

üçün bu təkliflər üzərində işin aparılmasını nəzarətimizdə saxlayacağıq.

**K r i s t i n a D u n n z** *(Alman Mətbuat Agentliyi).* **Cənab Prezident, Siz Ermənistanı Azərbaycana qarşı kütləvi şəkildə təcavüz etməkdə ittiham etdiniz. Ermənistan prezidenti isə burada olanda əksini söyləyirdi. O deyirdi ki, təxribat törədən tərəf həmişə Sizin ölkənizdir. İndi isə Ermənistan bu ərazinin mümkün müstəqilliyi barədə danışmaq istəyir. Sizcə, münaqişənin sülh yolu ilə həlli üçün imkanlar varmı və fikrinizcə, Sizin ölkə bunun üçün nə edə bilər?**

**Xanım Kansler, Almaniya Bundestaqında Ermənistanla bağlı qətnamə qəbul edildikdən sonra Türkiyə Prezidenti türkiyəli parlament üzvlərinin faktiki qan analizləri vasitəsilə kökünün və mənşəyinin sübuta yetirilməsini istəyir. Sizcə, bu cür münasibət nə qədər təhlükəlidir?**

**İ l h a m Ə l i y e v:** Ermənistan prezidentinin Azərbaycanı ittiham etmək üçün hər bir fürsətdən istifadə etməsinə təəccüblənmirəm. Bizim mövqemiz çox aydındır. Kimin təcavüzkar, kimin də təcavüzün qurbanı olduğunu bilmək üçün regionun xəritəsinə baxmaq kifayət edər. Keçən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan güc tətbiq edərək, Azərbaycana məxsus olan əraziləri işğal edib. Əhalisinin 30 faizi Azərbaycan mənşəli olan Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Azərbaycanlıların hamısı oradan qovulub. Ermənistan hərbi cinayət olan Xocalı soyqırımını törədib və hazırda bu hadisə 10 ölkə tərəfindən soyqırımı kimi tanınır. Bir gecədə 613 insan qətlə yetirilib. Bunların arasında 106 qadın, 63 uşaq olub. 1000-ə yaxın insan isə bu vaxta kimi itkin düşmüş hesab olunur. Bütün bunlar sənədləşdirilib. Bu bir neçə onillik bundan əvvəl baş vermiş və kifayət qədər sübutu olmayan hadisə deyil. Bu hadisə beynəlxalq ictimaiyyətin gözləri önündə baş verib. Dağlıq Qarabağın işğalı onlar üçün kifayət etməyib. Sonra onlar Azərbaycanın digər 7 rayonunu da işğal ediblər və bütün əhalini evlərindən didərgin salıblar, tarixi abidələrimizi məhv ediblər, məscidlərimizi, məzarlarımızı dağıdıblar. 20 ildən artıqdır ki, onlar bu torpaqlarda

qanunsuz olaraq məskunlaşıblar və münaqişənin sülh yolu ilə həll edilməsi üçün beynəlxalq vasitəçilərin müraciətlərinə məhəl qoymurlar.

Münaqişənin həll edilməsi nə deməkdir? Bu çox sadədir. Bu, Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasıdır, münaqişənin sülh yolu ilə həll edilməsidir. Biz dəfələrlə Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət, mümkün olan ən yüksək muxtariyyət verməyə hazır olduğumuzu bəyan etmişik. Bu sonsuz danışıqları uzatmaq üçün vaxtaşırı olaraq, onlar bu cür təxribatlar törədirlər. Bu təxribatlardan biri aprel ayının əvvəlində baş vermişdi və burada yeganə məqsəd danışıqlar prosesini dayandırmaqdır. Beynəlxalq vasitəçilərin onlara göstərdiyi təzyiq güclənəndə, onlar bundan bəhanə kimi istifadə edirlər. Lakin düşünürəm ki, bu dəfə onlar bunun nəticələrini pis hesablamışdılar. Azərbaycan Ordusunun əks-hücumu nəticəsində biz işğal olunmuş ərazilərimizin bir hissəsi üzərində nəzarəti bərpa edə bildik. Hesab edirəm ki, bu, Ermənistan hökumətinin unutmamalı olduğu bir dərsdir. Onlar beynəlxalq hüquqa əməl etməlidirlər, digər ölkələrə məxsus ərazilərin qanunsuz işğalı tamamilə yolverilməzdir. Onlar ABŞ, Rusiya və Fransa prezidentlərinin status-kvonun qəbuledilməzliyi ilə bağlı fikirlərinə qulaq asmalıdırlar və torpaqların boşaldılmasına başlamalıdırlar. Bu proses başlanan kimi, biz bütün kommunikasiyaları açacağıq, nəqliyyat infrastrukturunu bərpa edəcəyik və hərbi ssenari üçün istənilən imkanları aradan qaldıracağıq. Əvvəl də qeyd etdiyim kimi, bir daha söyləmək istəyirəm, biz münaqişənin sülh yolu ilə həllinə sadiqik. Əks halda, aprel ayının əvvəlində toqquşma dayanmazdı. Biz müharibəni istəmədiyimizə görə toqquşmanı dayandırdıq. Lakin bizə sülh, münaqişənin həlli və ərazilərimiz lazımdır.

**Angela Merkel**: Almaniya Bundestaqında qətnamə qəbul edildikdə, Almaniya Bundestaqının çoxluğu və türk tərəfi arasında fikir ayrılığının olduğu yaxşı məlum idi. Buna görə də mən Ermənistan və Türkiyə arasında birbaşa danışıqların aparılması istiqamətində çalışmışam və çalışmağa da davam

edəcəyəm. Almaniya Bundestaqının üzvləri heç bir istisnalar olmadan, azad şəkildə seçilmiş parlament üzvləridir və buna görə də mən türk tərəfinin irəli sürdüyü ittihamları heç cür başa düşə bilmirəm.

**İ l h a m Ə h m ə d o v** (*Azərbaycan Televiziyası)*: **Sualım xanım Kanslerədir. Azərbaycan uzun illərdir ki, Avropa bazarları üçün etibarlı neft təchizatçısı olub. İndi Azərbaycan Avropaya qaz təchizatı mənbələrini şaxələndirməyə kömək etmək üçün «Cənub Qaz Dəhlizi» layihəsini icra edir. Sizcə, Avropada Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol kifayət qədər dəyərləndirilirmi? Çox sağ olun.**

**A n g e l a M e r k e l:** Bəli, məndə belə bir təəssürat var ki, bu rol kifayət qədər dəyərləndirilir. Biz uzun illərdir ki, bu barədə danışmışıq. Məmnunluqla qeyd etmək istəyirəm ki, «Cənub Qaz Dəhlizi» indi sadəcə, bir layihə deyil, o, icra olunacaq. Cənab Prezident də Avropa İttifaqına üzv olan neçə ölkənin bu layihədən birbaşa faydalanacağını doğru qeyd etdi. Bu layihə, həmçinin Avropa İttifaqı və Azərbaycan arasında əlaqələri gücləndirəcək, Avropa İttifaqına enerji təchizatını şaxələndirməyə kömək edəcək. Bunun da Avropa enerji siyasətinin məqsədi olması aydındır. Layihə çərçivəsində əldə olunmuş tərəqqini qeyd etmək bizi çox məmnun edir. Cənab Prezidentin də söylədiyi kimi, biz qeyd olunmuş vaxt çərçivəsində təkcə planlardan deyil, eyni zamanda, layihənin reallaşmasından danışırıq.

## AZƏRBAYCAN–ALMANİYA İQTİSADİ FORUMUNDA İŞTİRAK

*Berlin*

*7 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Almaniyanın İqtisadiyyat və Enerji Nazirliyində Azərbaycan–Almaniya İqtisadi Forumunun açılışında iştirak etmişdir.*

*Almaniya Federativ Respublikasının vitse-kansleri, İqtisadiyyat və Enerji naziri Ziqmar Qabriel Azərbaycan prezidenti İlham Əliyevi salamladı və bu forumun keçirilməsindən məmnun olduğunu bildirdi.*

**Z i q m a r  Q a b r i e l:** Azərbaycan–Almaniya–2016 İqtisadi Forumuna xoş gəlmisiniz!

Cənab Prezident, hörmətli nazir, xoş gəlmisiniz!

Cənab Prezident, Sizi İqtisadiyyat və Enerji Nazirliyində görmək bizim üçün şərəfdir. Bir neçə dəqiqə əvvəl Siz dediniz ki, bu bina Sizi heyran edib. Bu bina əvvəllər hərbi həkimlər üçün təlim akademiyası olub. Bu, Böyük Fridrixin dövründə idi. Bu gün artıq burada insanları müalicə etmirik, onun əvəzinə dünyadakı mümkün qədər çox insana faydalı olacaq iqtisadi siyasət yaratmağa çalışırıq.

Bu gün burada Azərbaycan–Almaniya İqtisadi Forumunun keçirilməsi bizim üçün qürurvericidir. Bir neçə gün sonra milyonlarla avtoyarış həvəskarı nəzərlərini Azərbaycana yönəldəcək – ölkəniz ilk dəfə «Formula-1» yarışı keçirəcək. Əminəm ki, Bakı diqqət mərkəzində olacaq. Bir çox almaniyalının bilmədiyi bir məqam var ki, o da yarış yolunun alman mühəndisi tərəfindən hazırlanmasıdır. O, yarış yolunu tərtib edərkən, televiziyadan yarışı izləyənlərin Bakı mənzərəsini mümkün qədər çox görməsinə xüsusi diqqət yetirib. Bu çox möhtəşəm bir məsələdir.

Əlbəttə, ölkələrimiz uzunmüddətli ikitərəfli əlaqələr ənənəsi yarada bilər. 100 il əvvəl dünyanın ən uzun boru kəməri tikilib. O vaxt alman şirkəti «Mannesmann»ın borularından istifadə olunmuşdu. O zamanlar Bakının ətrafındakı sahələr dünyada neft çıxarılan ən böyük ərazi idi. Biz bunu birlikdə inşa etdik. Əlbəttə, bu hamısı deyil. Xəzər hövzəsindən nefti Avropaya gətirən yeni boru kəmərləri var. Bu bizim enerji təchizatımıza çox yaxşı bir əlavədir, bizə şaxələndirmə imkanı verir.

2020-ci ildə Avropa İttifaqı ölkələri Xəzər dənizinin qazını əldə etmək üçün «Cənub Qaz Dəhlizi»ndən istifadə edə biləcək. Bu nəhəng layihənin icrası bir qədər əvvəl – mayın 17-də başlandı. «Siemens» və «Salskitta» kimi alman şirkətlərinin bu layihədə iştirakı bizi sevindirir.

Xanımlar və cənablar, Azərbaycan davamlı tərəqqi edən bir ölkədir. Onun inkişafı bəzən ikirəqəmli ədədlərlə ifadə olunur. 2006-cı ildə Siz dünyada ən sürətli inkişaf edən iqtisadiyyata malik idiniz. Cənab Prezident, əlbəttə, xammal qiymətlərinin kəskin düşməsi Sizin ölkəniz üçün böyük çağırışdır. İqtisadiyyatınızın xammaldan asılılığını azaltmaq üçün səyləriniz təqdirəlayiqdir. Siz iqtisadiyyatı müasirləşdirməyə, şaxələndirməyə çalışırsınız, əsas sektorlara, xüsusilə sənayeyə daha çox diqqət yetirirsiniz.

Biz Almaniyada iqtisadiyyatda uğurlar əldə etmək üçün araşdırma və inkişafın ən əhəmiyyətli amil olduğunu bilirik. Alman şirkətləri bu istiqamətdə güclü tərəfdaşlardır, xüsusilə enerji səmərəliliyi, yenilənən enerji sahələrində öndə olan alman şirkətləri. Federal hökumət alman şirkətlərinin xarici ticarət təşviqini bir çox üsullarla dəstəkləyir. Buna ixracat zəmanətləri, almanlar üçün investisiya zəmanətləri, birbaşa investisiyalar daxildir. Xaricdə sərgilərdə iştirak edən şirkətləri dəstəkləyirik, faktaraşdırma missiyaları təşkil edirik və menecer təlim proqramımız var. Bu üsullar 2012-ci ildən bəri Bakıdakı Alman–Azərbaycan Xarici Ticarət Palatası tərəfindən dəstəklənir. Diplomatik qurumlarımıza daxil olmasa da, iqtisadi nümayəndəliyə yaxın qurumumuz var. Bu, hökumətin bir hissəsi deyil. Onlar özəl sektorun əsl

nümayəndələridir. Nazirliyimizin köhnə əməkdaşlarından biri indi Dünya Ticarət Təşkilatının üst qrupunun sədridir.

Xanımlar və cənablar, bilirik ki, bu, ancaq iqtisadiyyatla əlaqəli deyil. Ölkənizdə müsbət inkişafa mane olan böyük təhlükə var. Bu, Dağlıq Qarabağ münaqişəsidir. Bu hadisələri böyük narahatlıqla izləyirik. Atəşkəsin sabitləşməsi və danışıqların yenidən başlanması üçün bütün tərəflərə müraciət etmişik. Həmkarım, eyni zamanda, ATƏT Komitəsinə həmsədrlik edən Federal nazir Frank-Valter Ştaynmayer bu danışıqları dəstəkləmək üçün səylərini əsirgəmir.

Cənab Prezident, Siz mayın 16-da Vyanada erməni həmkarınızla görüşdünüz. Bütün dünya bu görüşdən nikbinlik qazandı. Bu münaqişəni sona çatdırmaqda Sizi dəstəkləmək istəyirik. Bilirik ki, Dağlıq Qarabağ münaqişəsi ölkənizin üzləşdiyi çağırışlardan biridir. Hökumətlər, investorlar və şirkətlər əmindirlər ki, inkişaf təhlükəsizlik və sabitlik olan yerdə mümkündür. Qanunun aliliyi, insan hüquqlarının qorunması da sabitlik yaradan amillərdir. Ümidvarıq ki, Siz Almaniya ilə ölkəniz arasında güclü əlaqələr yaradacaqsınız və Sizə güclü tərəfdaşlıq təklif edirik. Azərbaycan–Almaniya əlaqələrini davam etdirmək niyyətindəyik. Ümid edirik ki, Sizin səfəriniz və bu forum əlaqələrimizə töhfə verəcək. Almaniyaya, İqtisadiyyat və Enerji Nazirliyinə xoş gəlmisiniz!

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab vitse-kansler!

Xanımlar və cənablar!

İlk növbədə, bu gün bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür etmək istərdim. Cənab vitse-kanslerin dediyi kimi, bu bina məndə böyük təəssürat yaratdı. Lakin təkcə bu bina deyil, həm də auditoriya məndə böyük təəssürat yaratdı. Bu onu göstərir ki, bizim ölkələrimizin biznes dairələri arasında bizneslə məşğul olmağa, əməkdaşlığımızı genişləndirməyə böyük maraq var. Əminəm ki, biznes-forumun nəticələri ölkələrimiz və şirkətlərimiz arasında daha çox əməkdaşlığa yol açacaq.

Almaniya və Azərbaycan yaxşı tərəfdaşlardır. Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Bizim aramızda çox fəal siyasi dialoq mövcuddur. Mən ötən il Almaniyaya səfər etmişəm, indi də səfərdəyəm. Bu onu göstərir ki, bizim aramızda iqtisadi əlaqələrin inkişafı üçün vacib olan çox fəal siyasi əlaqələr var. Sabitlik və təhlükəsizlik digər ölkələr kimi, bizim iqtisadiyyatımız və ölkəmizin gələcək inkişafı üçün ən vacib məsələlərdəndir. 1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs rejimi əldə olunandan biz sülh şəraitində yaşayırıq. Lakin bu sülh kövrəkdir və təmas xəttindəki son hadisələr göstərir ki, Ermənistan və Azərbaycan arasındakı münaqişə dondurulmuş deyil və bu münaqişə həll olunmalıdır.

Aprelin əvvəlində Ermənistan Azərbaycana qarşı hərbi təxribat törətdi. Biz cavab verməli, mülki əhalimizi, şəhərlərimizi, kəndlərimizi və hərbi mövqelərimizi müdafiə etməli olduq. Aprel toqquşmalarının nəticələri göstərdi ki, Ermənistan artıq vəziyyətə nəzarət etmək və status-kvonu dəyişməz saxlamaq iqtidarında deyil. Status-kvo mümkün qədər tez bir zamanda dəyişdirilməlidir. ATƏT-in Minsk qrupu bu məsələ ilə məşğul olur. Minsk qrupuna həmsədrlik edən ölkələrin – ABŞ, Fransa və Rusiyanın prezidentləri status-kvonun qəbuledilməz olması ilə bağlı dəfələrlə açıq bəyanat yayıblar. ATƏT-in sədri kimi, Almaniya da bu bəyanatla çıxış edib. Nazir Ştaynmayer status-kvonun dəyişdirilməli olduğunu çox açıq şəkildə bəyan edib. Bu nə deməkdir? Status-kvonun dəyişdirilməsi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğaldan azad olunmasının başlanması deməkdir. Azərbaycanın torpağı olan Dağlıq Qarabağ və digər 7 rayon 20 ildən artıqdır ki, işğal edilib. Hər şey dağıdılıb, biz etnik təmizlənməyə məruz qalmışıq, bütün azərbaycanlılar o ərazilərdən qovulub, torpaqlarımızın təxminən 20 faizi işğal altındadır, 1 milyondan artıq insan qaçqın və məcburi köçkünə çevrilib.

İndi biz bir çox Avropa ölkələrində miqrantlarla bağlı böyük narahatlığın şahidi oluruq. Siz təsəvvür edə bilərsinizmi ki, müstəqilliyimizin ilk illərində, biz yoxsul, qeyri-mütəşəkkil olanda, inkişaf üçün heç bir vəsaitimiz olmayanda belə humanitar fəlakətlə

üzləşmişdik?! Həmin dövrdə sayı 8 milyon olan əhalinin 1 milyonu evsizə çevrilmişdi. Beynəlxalq təşkilatlar miqrant məsələsi ilə məşğul olur, biz bunu dəstəkləyir və qiymətləndiririk.

BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Lakin onlara əməl edilmir və əməlolunma mexanizmi yoxdur. Təəssüf ki, Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmədiyinə görə Ermənistana sanksiyalar tətbiq olunmur. Biz burada ikili standartlar siyasəti ilə üzləşirik. Çünki bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində həyata keçirilir. Bizə gəldikdə isə onlar 20 ildən çoxdur kağız üzərində qalır. Başqa sözlə, münaqişənin Helsinki Yekun Aktı, BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tez bir zamanda həlli Cənubi Qafqaz regionunun sabitliyinə, proqnozlaşdırıla bilməsinə və iqtisadi inkişafına xidmət edəcək. Bu ağır yükə baxmayaraq, Azərbaycan uğurlu inkişafa nail oldu. Bu il 25 illiyini qeyd edəcəyimiz müstəqillik onu göstərir ki, biz öz dəyərlərimiz, baxışımız, ənənələrimiz və güclü, müstəqil, suveren dövlət yaratmaqla bağlı planlarımıza əsasən yaşaya bilirik. Bu illər transformasiya – siyasi və iqtisadi transformasiya illəri oldu.

Biz siyasi və iqtisadi islahatlar siyasəti həyata keçiririk. Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən media azadlığı təmin olunur. Bizdə internet azaddır, senzura yoxdur. Ölkə əhalisinin 75 faizdən çoxu internet istifadəçisidir, azad siyasi fəaliyyət, sərbəst toplaşma və din azadlığı mövcuddur. Bu il Azərbaycanda «Multikulturalizm ili» elan olunub və Azərbaycan müxtəlif dini və etnik qrupların nümayəndələrinin sülh şəraitində birgə yaşayışına yaxşı nümunədir.

Əlbəttə ki, iqtisadi transformasiya. İqtisadi müstəqillik olmadan biz siyasi müstəqilliyə nail ola bilməzdik. Əgər biz başqa ölkələrdən asılı olsaydıq və iqtisadi cəhətdən müstəqil olmasaydıq, müstəqil siyasət həyata keçirmək üçün imkanlarımız çox məhdud olardı. Bu səbəbdən də biz Azərbaycanın inkişafına böyük sərmayə yatırdıq. Biz Ermənistanla atəşkəs dövründən ölkəni inkişaf etdirmək üçün

istifadə etdik və düşünürəm ki, çox yaxşı nəticələr əldə etdik. Hazırda Azərbaycan müasir, inkişaf edən, iqtisadi cəhətdən müstəqil, iqtisadiyyatı şaxələndirilmiş, qlobal enerji və nəqliyyat layihələrinin həyata keçirilməsinə rəhbərlik edən və dünyada çox yaxşı nüfuza malik bir ölkədir.

BMT-nin üzvü olan 155 ölkə bir neçə il bundan əvvəl Azərbaycanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçdi. Bu bizim etdiklərimizə verilən beynəlxalq dəstək və qiymətləndirmədir. Son 10–12 ildə əsasən neft hasilatının artması hesabına – lakin təkcə buna görə yox – iqtisadiyyatımız sürətlə inkişaf etdi. 2004-cü ildən Azərbaycanda iqtisadiyyat 300 faiz artıb. Biz yoxsulluq və işsizlik səviyyəsini əhəmiyyətli dərəcədə azaltmağa nail olmuşuq. Hazırda hər iki göstərici 5 faizə yaxındır. Neft satışından əldə olunan gəlirləri qeyri-neft sektoruna yatırmağa başladığımızdan iqtisadiyyatımızın rəqabətliliyi artıb. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyəti indeksinə görə dünyada 40-cı yerdədir.

Əlbəttə ki, enerji sektorunun inkişafı və enerji amili bizim üçün, həm də təkcə bizim üçün deyil, digər ölkələr üçün də vacibdir. 1994-cü ildən Azərbaycan nəhəng enerji layihələrini – ilk növbədə, Azərbaycanı Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərlərinin tikintisini həyata keçirir. Hazırda bəzi Avropa ölkələri enerji balanslarındakı neftin təxminən 30 faizini Azərbaycandan alır. 2012-ci ildən biz qonşu ölkələrə və Avropaya qaz kəmərinin tikintisi layihəsini həyata keçiririk. Artıq bizim Gürcüstan, Türkiyə, Rusiya və İran kimi qonşu ölkələrə qaz ixrac etməyə imkan verən bir neçə kəmərimiz var. Biz hər 4 istiqamətdə təbii qaz ixrac edirik. Hazırda biz tərəfdaşlarımızla birlikdə «Cənub Qaz Dəhlizi» layihəsini həyata keçiririk. Bu, 2012-ci ildə Azərbaycan və Türkiyənin Trans–Anadolu kəmərinin tikintisinə dair sazişin imzalanması ilə başlandı. O vaxtdan bir çox başqa layihələrə, o cümlədən cənab vitse-kanslerin qeyd etdiyi layihəyə start verilib. «Cənub Qaz Dəhlizi» layihəsinin bir hissəsi olan Trans–Adriatik kəmərinin tikintisinə bu ilin mayında başlanılıb. «Cənub Qaz Dəhlizi» layihəsi 4 layihədən ibarətdir – dünyanın ən böyük qaz yataqlarından biri olan

«Şahdəniz»dən qazın hasil olunması, Azərbaycanı Gürcüstan və Türkiyə ilə birləşdirən kəmərin tikintisi, sonra Türkiyənin şərq sərhədindən qərb sərhədinə kəmər – bu, TANAP adlanır və Türkiyə–Yunanıstan sərhədindən İtaliyaya kəmər – bu, TAP – Trans–Adriatik kəməri adlanır.

Bütün bu layihələr tərəfdaşlarımızla razılaşdırılmış şəkildə həyata keçirilir. Bu layihələrdə 7 ölkə iştirak edir, onlardan 3-ü Avropa İttifaqının üzvüdür. Avropa Komissiyası bizim təşəbbüslərə güclü dəstək verir. Ötən il və bu il biz Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının iclaslarını keçirmişik. Orada Azərbaycanın aparıcı rolu yüksək qiymətləndirilib. Planlarımıza əsasən, Azərbaycan və Türkiyəni birləşdirən kəmər 2 ilə istismara veriləcək və 2020-ci ilədək Azərbaycan qazı ilk dəfə olaraq Avropa bazarlarına çıxarılacaq. Bizim üçün bu, təchizat marşrutlarını şaxələndirmək imkanıdır. Tranzit ölkələr üçün bu, pul qazanmaq, eləcə də tikintiyə və sonra layihənin texniki təminatına minlərlə insanı cəlb etmək imkanıdır, istehlakçılar üçün isə alternativ enerji mənbəyidir. Layihəmizin üstünlüyü ondadır ki, bu, təkcə marşrutların deyil, mənbələrin şaxələndirilməsidir. Bu daha vacibdir.

Bizim böyük qaz ehtiyatlarımız var. Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Əminəm ki, vaxt keçdikcə yeni kəşfiyyat layihələri ilə biz mütləq bu göstəriciləri daha da artıracağıq. Lakin enerji amili bizim üçün artıq prioritet deyil. Biz iqtisadiyyatı şaxələndirməklə, əsas diqqəti qeyri-enerji sektoruna cəmləşdirmişik. Bu gün enerji amili ümumi daxili məhsulda cəmi 30 faizdən bir qədər artıq, gəlirlərimizdə yarıdan aşağıdır. Lakin bir nömrəli məsələ ixrac potensialımızın şaxələndirilməsidir və biz şəffaflıq, düzgün idarəetmə, ixracın stimullaşdırılması, investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı mühüm iqtisadi islahatların həyata keçirilməsini davam etdirmək üçün beynəlxalq maliyyə institutları ilə sıx şəkildə işləyirik.

1995-ci ildən bəri Azərbaycana 200 milyard dollar investisiya yatırılıb, bunun yarısı xarici investisiyalardır. Bizim hazırda prioritet hesab etdiyimiz sahələr arasında kənd təsərrüfatı birinci yerdədir. Çünki əhalinin demək olar ki, yarısı kənd yerlərində yaşayır və

bunun üçün yaxşı iqlim şəraiti mövcuddur. Yüksək texnologiyalar – İKT sektoru kifayət qədər inkişaf edib. Azərbaycan kosmik sənayesi olan ölkəyə çevrilib, 2 peyki orbitə buraxıb və bu proses davam etdiriləcək.

Nəqliyyat sahəsində biz coğrafi mövqemizdən istifadə edərək, qitələri birləşdirən çox güclü logistik və nəqliyyat infrastrukturu yaratmışıq. Məsələn, İpək yolunun bərpası ilə bağlı layihəyə 2007-ci ildə – biz Türkiyə və Gürcüstan ilə birgə 3 ölkə arasında Asiya və Avropanı birləşdirən dəmir yolunun tikintisinə başlamağımızla start verildi. Beləliklə, indi bu layihə, demək olar ki, hazırdır və ümidvaram, bu ilin sonunadək bu marşrut açılacaq.

Artıq Azərbaycan ərazisi ilə Çindən Avropaya ilk sınaq konteyner qatarları keçib. Bu, Asiyadan Avropaya və əks istiqamətdə ən qısa yol olacaq. Ümidvaram ki, alman şirkətləri bu ilin sonunadək reallaşacaq bu imkandan yararlanacaqlar. Eyni zamanda, Xəzər dənizində Bakıya yaxın yerdə ən böyük dəniz limanının tikintisi və yenə də Azərbaycan ərazisindən istifadə etməklə, Cənubdan Şimala daha bir dəhlizin yaradılması layihələri ilə Azərbaycan nəqliyyat nöqteyi-nəzərindən regionun coğrafi və logistik mərkəzinə çevriləcək. Bu nəinki iqtisadi cəhətdən faydalı olacaq, həm də əməkdaşlığı və qarşılıqlı əlaqələri gücləndirəcək. Əgər biz sabit vəziyyət yaratmaq istəyiriksə – düşünürəm ki, regionun bütün ölkələri bunu etmək istəyir – bizim regionda fəal beynəlxalq əməkdaşlığa ehtiyacımız var və ən yaxşı yol qarşılıqlı əlaqələrdir.

Enerji layihələri bizim hamımızı bir-birimizdən asılı edir. Biz bazarlardan asılıyıq, bazarlar təchizatdan asılıdır. Nəqliyyatla bağlı vəziyyət də eynidir. Bu, ölkələr arasında proqnozlaşdırılmanı və əməkdaşlığı artıracaq, eyni zamanda, Avropa İttifaqı–Azərbaycan əlaqələri də daha sürətlə inkişaf edəcək.

Bu gün bizim aramızda yaxşı əməkdaşlıq mövcuddur. Azərbaycan Avropa İttifaqına üzv olan 8 ölkə ilə strateji tərəfdaşlıqla bağlı sənədləri imzalayıb və ya qəbul edib. Bu, Avropa İttifaqı–Azərbaycan əməkdaşlığının ümumi formatı üçün yaxşı əsasdır.

Turizm potensialı əməkdaşlıq sahələrindən biridir. Cənab vitse-kanslerin dediyi kimi, 2 həftədən az müddətdə başlanacaq

«Formula-1» ölkəmizə böyük diqqət cəlb edəcək. 500 milyon insan bu yarışı izləyəcək və bu, şəhər halqası olduğundan, onlar təkcə stadion və avtomobilləri deyil, inkişaf etmiş Bakı şəhərini görəcəklər. Ümid edirəm ki, hətta yarışı izləyənlərin cəmi 1 faizi Bakıya gəlsə, bu bizim turizm sənayesi üçün böyük əhəmiyyət kəsb edəcək. Turizm üçün bizim bütün lazımi ilkin şərtlərimiz var – əlverişli coğrafi mövqe, sabit siyasi vəziyyət, təhlükəsizlik, qonaqpərvər insanlar, yaxşı iqlim, yaxşı qida və çoxlu tarixi abidələr. Turistləri cəlb etmək üçün yeganə ehtiyacımız olan şərt bunu dünyaya, Avropaya təqdim etməkdir. Düşünürəm ki, «Formula-1» bunu etmək üçün ən yaxşı yoldur.

Ötən il biz Bakıda olimpiya hərəkatının tarixində ilk dəfə olaraq I Avropa oyunlarına ev sahibliyi etdik. Oyunlar çox uğurlu oldu. 2017-ci ildə biz IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcəyik. Bu onu göstərir ki, Azərbaycan islam mədəniyyətinin bir hissəsi olan və eyni zamanda, Avropa təsisatları və ölkələrinə yaxından inteqrasiya etmiş bir ölkədir.

Mən şadam ki, Azərbaycanda 169 alman şirkəti fəaliyyət göstərir. Mən ölkəmizdə daha çox alman şirkətinin fəaliyyət göstərməsini istəyirəm. Onlar podratçı olaraq, Azərbaycanın inkişafı üçün çox əhəmiyyətli layihələr həyata keçirirlər. Əlbəttə ki, Azərbaycandakı yaxşı investisiya mühitini və siyasi mühiti nəzərə alaraq, biz onları həm də investor kimi görmək istəyirik. Düşünürəm ki, mənim qeyd etdiyim sahələr ən cəlbedici olacaq. Yeri gəlmişkən, «Cənub Qaz Dəhlizi» layihəsinin dəyəri 45 milyard dollardır və məndə olan məlumata görə, bu məbləğin dörddəbiri ilə bağlı müqavilələr bağlanıb. Almaniyanın mühəndislik, tikinti və avadanlıq istehsal edən şirkətlərinin burada iştirakı üçün böyük potensial var. Nəqliyyat, yüksək texnologiyalar, kosmik sənaye, turizm, təhsil – bütün bu sahələr bizim üçün prioritetdir və ümidvaram ki, bu forumun nəticələri ölkələrimiz arasında təkcə iqtisadi sahədə deyil, həyatımızın digər bütün sahələrində əməkdaşlığın genişlənməsinə yol açacaq.

Almaniya dünyanın və Avropanın aparıcı ölkələrindən biridir. Əlbəttə ki, biz sizin ölkənizlə daha sıx əməkdaşlıq etmək istəyirik və

bugünkü auditoriyanı nəzərə alaraq, mən sizin tərəfinizdən də eyni yanaşmanı görə bilirəm. Foruma uğurlar arzulayıram və biz yaxşı nəticələr gözləyirik. Təşəkkür edirəm.

* * *

**Manfred Qrunke** *(Şərqi Avropa İqtisadi Əlaqələr Komitəsinin İdarə Heyətinin üzvü):* Cənab prezident Əliyev!

Xanımlar və cənablar!

Şərqi Avropa İqtisadi Əlaqələr Komitəsi adından sizi salamlamaq mənim üçün şərəfdir.

Son illərin maliyyə çətinlikləri müəyyən mənada bütün Şərqi Avropa ölkələrinə təsir edib. Ölkələrə təsir edən sadəcə, maliyyə nəticələri deyildi. Bu həm də ölkələr arasında ticari əlaqələrə mənfi təsir göstərib. Ümidvaram ki, Azərbaycan bütün bunlara baxmayaraq, çıxdığı islahatlar yoluna davam edəcək və investisiya mühitini yaxşılaşdıracaq. Eyni zamanda, Azərbaycan, əlbəttə, qonşuları və dünya bazarı ilə yaxından əlaqədədir. Azərbaycandakı inkişaf qonşu ölkələr və dünya bazarı ilə əlaqədə davam edəcək. Neftin qiymətlərinin kəskin düşməsi Azərbaycana da təsir edib. Azərbaycan Almaniyanın Cənubi Qafqazdakı ən vacib ticarət tərəfdaşıdır. Ötən il Almaniya və Cənubi Qafqaz ölkələri arasındakı ticarətin 80 faizdən çoxu Azərbaycanın payına düşürdü. Keçən il mal dövriyyəsi, ümumiyyətlə, 2,9 milyard avro təşkil edib. Təəssüf ki, bu rəqəm 2014-cü ilin göstəricisindən 10 faiz azdır. Almaniyanın ixracatı 12 faizdən çox, idxalı isə 9 faiz azalıb.

Böhranlar dəyişikliklər vaxtıdır, lakin həm də yeni imkanlar yaradır. Azərbaycan öz səhiyyəsini inkişaf etdirib, iqtisadiyyatında islahatlar keçirməyə qərar verib. Bunu edərkən, Almaniyaya və alman şirkətlərinə öz tərəfdaşları kimi, etibar edə bilər. Alman şirkətləri yerli tərəfdaşlarla işləməkdə maraqlıdır və bununla yerli bazara, yerli biznesə töhfə verir. Bu, böyük həcmdə ixracatdan daha faydalıdır. Bu, uzunmüddətli müştəri əlaqələri qurmaq deməkdir. Biz əlaqələrin bu yeni formasını dəstəkləyirik.

Yaxın zamanda biznes-forum təşkil edəcəyik və onun çərçivəsində əməkdaşlıq müqavilələri imzalanacaq. Bunlar biznes assosiasiyaları, maliyyə təşkilatları və şirkətlər arasında daha yaxın əməkdaşlıq sazişləridir, çox güclü mesajlardır və bizi Azərbaycan ilə daha çox əməkdaşlıq növləri yaratmağa həvəsləndirməlidir.

Regiondakı sülh şəraitində inkişaf daim iqtisadi əməkdaşlığın əsas şərti olub. Bizə sabitlik və cəlbedici investisiya mühiti lazımdır. Əgər münaqişələr varsa, bunlar olmayacaq, münaqişələr iqtisadi inkişafa zərər verir. Almaniya–Azərbaycan Ticarət və Sənaye Palatası alman və Azərbaycan şirkətlərinə kömək etməyə daim hazır olan çox əhəmiyyətli tərəfdaşdır. Bizim Komitə, həmçinin bir çox böyük tədbirlər təşkil edir. 2015-ci il oktyabrın 1-də Komitə Bakıya faktaraşdırıcı missiya təşkil etdi və 10 şirkət bunda iştirak etdi, potensial əməkdaşlıq imkanları araşdırıldı. Ötən ilin sentyabrında biz Düsseldorfda Almaniya–Azərbaycan biznes konfransı təşkil etdik. Yanvarda isə Münhen Təhlükəsizlik Konfransında Şərqi Avropa Komitəsinin sədri ilə dövlət başçısı İlham Əliyev arasında görüş baş tutdu. Mayın 17-də Azərbaycan ilə əməkdaşlıq mövzusunda «dəyirmi masa» təşkil edildi. Bu, əczaçılıq sənayesinə həsr edilmişdi və Şimali Vestfaliya investisiya təşkilatı və Şimali Vestfaliyanın İqtisadi Məsələlər üzrə Nazirliyi tərəfindən Berlində birgə təşkil olunmuşdu. Şərqi Əlaqələr Komitəsi, habelə ticarət və investisiya haqqındakı müzakirələrdə iştirak edirdi. Biz həm də Ticarət Nazirliyi ilə müzakirələr apardıq.

Bu gün Almaniya–Azərbaycan İqtisadi Forumunu keçiririk. Bu forum İqtisadi Məsələlər və Energetika üzrə Federal Nazirlik, ikitərəfli Ticarət və Sənaye Palatası və Şərqi Avropa İqtisadi Əlaqələr Komitəsi tərəfindən birgə təşkil edilib. Burada cənab prezident İlham Əliyev və vitse-kansler Ziqmar Qabriel iştirak edirlər. Bu da öz növbəsində, bu tədbirin ikitərəfli iqtisadi əlaqələr üçün əhəmiyyətinin göstəricisidir. Bu tədbir daha çox ölkələrimizin iqtisadi əməkdaşlıq potensialının araşdırılması və istifadə edilməsi məqsədini daşıyır. Hamınıza xoş təmaslar və faydalı müzakirələr arzulayıram.

* * *

*Sonra Almaniya–Azərbaycan Ticarət və Sənaye Palatasının rəhbəri Samir Axundov çıxış etdi. Prezident İlham Əliyevin bu tədbirə verdiyi dəstəyə görə minnətdarlığını bildirən Samir Axundov forumun Almaniya–Azərbaycan iqtisadi əlaqələrinin gələcəyi üçün çox əhəmiyyətli olduğunu vurğuladı. Almaniyanın Azərbaycanın əhəmiyyətli tərəfdaşlarından biri olduğunu bildirən Samir Axundov iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi işində Almaniya–Azərbaycan Ticarət və Sənaye Palatasının fəaliyyəti barədə ətraflı məlumat verdi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri iyunun 7-də başa çatdı.*

*Berlin şəhərinin Tegel Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzüldü.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz və 90 illik yubileyiniz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Siz dərin məzmunlu və şərəfli bir ömür yolu keçərək, bütün həyat və fəaliyyətinizi Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının rifahına həsr etmisiniz. Sizin həyat yolunuz Vətənə və xalqa böyük məhəbbət, sədaqət və ləyaqətlə xidmət nümunəsidir.

Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında Sizin müstəsna xidmətləriniz vardır. Bu gün dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi, əlaqələrimizin bütün sahələrdə gündən-günə genişlənməsi, bir sıra irimiqyaslı transmilli iqtisadi layihələrdə səmərəli əməkdaşlığımız və tərəfdaşlığımız xüsusi məmnunluq doğurur.

Ülyahəzrət!

Əlamətdar yubileyinizin qeyd olunduğu belə bir xoş məqamda şəxsinizə və ailənizə olan dərin hörmət və ehtiramımı xüsusi vurğulamaq istərdim. Ölkənizə rəsmi səfərim zamanı Sizinlə görüşümüzü Mehriban xanımla birlikdə həmişə ən xoş təəssüratlarla xatırlayırıq.

Bu əlamətdar gündə bir daha Sizə ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 iyun 2016-cı il*

## ÇEÇENİSTAN RESPUBLİKASININ BAŞÇISI RAMZAN KADIROVUN ŞƏXSİ NÜMAYƏNDƏSİ ADAM DELİMXANOV İLƏ GÖRÜŞ

*8 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının deputatı, Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun şəxsi nümayəndəsi Adam Delimxanovu qəbul etmişdir.*

*Adam Delimxanov Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarını dövlətimizin başçısına çatdırdı. Ramzan Kadırovun və bütün çeçen xalqının ölkəmizdə əldə olunan uğurlara görə prezident İlham Əliyevə dərin hörmət bəslədiklərini deyən qonaq Azərbaycanın nailiyyətlərinə sevindiklərini bildirdi. O, Azərbaycanın milli bayramı – Respublika Günü və Ramazan ayının başlanması münasibətilə təbriklərini çatdırdı. Qonaq Bakıda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı Azərbaycan və çeçen xalqları arasında tarixi əlaqələrin mövcud olduğunu vurğuladı. Çeçenistanda gedən böyük inkişaf proseslərinə toxunan prezident İlham Əliyev bu uğurlu inkişafın, sabitliyin və əmin-amanlığın önəmini qeyd etdi. Çeçenistandakı inkişafın ölkəmizdə maraqla izlənildiyini deyən dövlətimizin başçısı əldə edilən uğurlar münasibətilə çeçen xalqına və şəxsən Ramzan Kadırova təbriklərini çatdırdı. Dövlətimizin başçısı müqəddəs Ramazan ayının başlanması münasibətilə çeçen xalqını təbrik etdi.*

*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu münasibətlərin geniş-*

*lənməsinə ölkəmizlə Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Çeçenistan Respublikası arasında əməkdaşlığın öz töhfəsini verdiyini bildirdi.*

*Prezident İlham Əliyev Ramzan Kadırovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çeçenistan Respublikasının başçısına çatdırmağı xahiş etdi.*

# RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN VƏ BEYNƏLXALQ TƏŞKİLATLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*8 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərinin və beynəlxalq təşkilatlarının rəhbərlərini qəbul etmişdir.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli səfirlər və təşkilat rəhbərləri, mən sizin hamınızı müqəddəs Ramazan ayının başlanması münasibətilə ürəkdən təbrik edirəm. Ramazan ayında bizim görüşlərimiz gözəl ənənəyə çevrilib.

Mən şadam ki, müsəlman ölkələrinin səfirliklərinin sayı Azərbaycanda artır. Bu bizim dostluğumuzu, həmrəyliyimizi göstərir. Xahiş edirəm ki, Ramazan ayının başlanması münasibətilə mənim salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox sıx əlaqələri vardır. Biz həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurlu əməkdaşlıq edirik. Əminəm ki, bu əməkdaşlıq gələcək illərdə daha da dərinləşəcək. Müsəlman ölkələri ilə əməkdaşlıq bizim xarici siyasətimizin prioritet istiqamətlərindən biridir. Respublika Gününə həsr edilmiş rəsmi qəbulda xarici siyasət prioritetləri haqqında danışarkən mən bu məqamı xüsusi qeyd etmişdim. Biz eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində

də uğurlu əməkdaşlıq edirik və daim bir-birimizi dəstəkləyirik. Biz həmişə BMT-də Azərbaycan ilə bağlı məsələlər müzakirə olunarkən müsəlman ölkələrinin dəstəyini hiss edirik və öz növbəmizdə, həmişə BMT-də müsəlman ölkələrini dəstəkləyirik. Aprel ayında İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə də biz bir daha bu həmrəyliyi nümayiş etdirdik. Bildiyiniz kimi, Zirvə görüşündə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ciddi sənəd qəbul edildi, aprel ayında Azərbaycana qarşı törədilən erməni təxribatı pislənildi və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaradıldı. Biz bu addımları çox yüksək qiymətləndiririk və bütün bunlara görə müsəlman ölkələrinə minnətdarlığımızı bildiririk.

Bildiyiniz kimi, Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmaması region üçün böyük təhlükədir. Bizə qarşı ədalətsizlik törədilib, torpaqlarımızın təxminən 20 faizi işğal altındadır və 1 milyondan çox qaçqın-köçkün bu münaqişədən əziyyət çəkir. Ermənistan bizə qarşı etnik təmizləmə siyasəti aparıb, Xocalı soyqırımını törədibdir. İşğal edilmiş torpaqlarımızda bütün tarixi-dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Məscidlərimizin böyük hissəsi dağıdılıb, qalan yarıdağılmış məscidlərdə ermənilər hərbi qərargahlar yaradıblar. Bu barədə bu yaxınlarda xarici jurnalistlər də məlumat vermiş və fotomateriallar təqdim etmişlər. Bununla bərabər, Ermənistanın rəhbərliyi Avropa ölkələrində olarkən, daim münaqişə ilə bağlı həm təhrif edilmiş məlumatları ötürür, eyni zamanda, bu münaqişəyə dini don geyindirməyə çalışır. Bir çox hallarda Ermənistan rəhbərliyi qeyd edir ki, onlar bu çətin coğrafi vəziyyətdə – 3 müsəlman ölkəsinin əhatəsində xristian dəyərlərini müdafiə edirlər. Bu, böyük riyakarlıqdır. Siz – Azərbaycanda yaşayan insanlar yaxşı bilirsiniz ki, Azərbaycanda dini, milli zəmində heç vaxt heç bir münaqişə, yaxud da ki, anlaşılmazlıq olmayıb. Azərbaycanda məscidlərlə bərabər, kilsələr, sinaqoqlar tikilir. Erməni kilsəsi şəhərin mərkəzində toxunulmaz olaraq qalır və eyni zamanda,

Azərbaycan dövləti o kilsənin təmirinə vəsait ayırıbdır. Ona görə Ermənistan prezidentinin və digər şəxslərin belə ucuz, nalayiq çıxışları, əlbəttə, bir daha demək istəyirəm ki, riyakarlığın təzahürüdür. Bu bir daha onu göstərir ki, Ermənistan rəhbərliyi müsəlman ölkələrinə düşmən gözü ilə baxır, əks təqdirdə, belə cəfəng bəyanatlar verməzdi. Amma bununla bərabər, öz çirkin niyyətlərini pərdələmək üçün beynəlxalq arenada cəhdlər göstərir ki, müsəlman ölkələri ilə sıx əlaqələr qursun. Mən əminəm, müsəlman ölkələrinin rəhbərliyi və ictimaiyyəti kifayət qədər məlumatlıdır ki, Ermənistan islam abidələrini dağıdıb, məscidlərimizi təhqir edib və Azərbaycan torpaqlarını işğal altında saxlamaq üçün cəhdlər göstərir.

Bir sözlə, bütün müsəlman aləmi həm Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə, həm də bütün başqa məsələlərlə bağlı birlik, həmrəylik nümayiş etdirməlidir. Azərbaycan islam həmrəyliyinin güclənməsi üçün çox böyük səylər göstərir, ciddi addımlar atır. Azərbaycan müxtəlif ölkələrdə baş qaldıran islamofobiyaya qarşı çox ciddi mübarizə aparır. Biz açıq şəkildə ən yüksək səviyyələrdə bu məsələ ilə bağlı öz sözümüzü deyirik, islamofobiyanı pisləyirik və öz nümunəmizi təqdim edirik. İslamofobiya həm müsəlman ölkələri və xalqları, eyni zamanda, bu çirkin meyillərə rəvac verənlər üçün də təhlükədir. Bu, qarşıdurmanı daha da dərinləşdirir, qarşılıqlı inamsızlığı artırır. Azərbaycanda bütün dinlərin nümayəndələri rahat, bir ailə kimi, sülh şəraitində yaşayırlar. Biz qardaşlıq, dostluq şəraitində yaşayırıq. Nümayiş etdiririk ki, multikulturalizm dəyərləri yaşayır və yaşamalıdır. Bildiyiniz kimi, bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. BMT Sivilizasiyalar Alyansının bu il Azərbaycanda Qlobal Forumunun nəticələri bir daha onu göstərir ki, Azərbaycan bu yolda çox böyük uğurlara imza atıb.

Ötən il Bakıda I Avropa oyunları keçirildi, gələn il isə İslam Həmrəyliyi oyunları keçiriləcək. Əminəm ki, İslam Həmrəyliyi oyunları tarixdə təkcə idman yarışı kimi qalmayacaq. Biz

istəyirik ki, İslam Həmrəyliyi oyunları gələn il bütün dünyaya nümayiş etdirsin ki, islam aləmi birliyə, sülhə, sabitliyə çağırır. Eyni zamanda, əminəm ki, bu oyunlar islam mədəniyyətinin təzahürü olacaqdır.

Həmrəylik oyunlarından 1 il sonra – 2018-ci ildə qədim Azərbaycan şəhəri Naxçıvan «İslam mədəniyyətinin paytaxtı» elan olunacaq. Bir neçə il bundan əvvəl Bakı bu şərəfli ada layiq görülmüşdü. İndi isə Naxçıvan bu şərəfli missiyanı icra edəcək.

Bir sözlə, bir daha qeyd etmək istəyirəm, biz Azərbaycanda çalışırıq ki, islam ölkələri arasındakı birliyi daha da gücləndirək. Biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik.

Bir daha sizi salamlayıram və sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

**H ə s ə n  H a m i** (*Mərakeş Krallığının Azərbaycandakı səfiri):* Zati-aliləri cənab Prezident!

Bizi qəbul etdiyinizə görə Sizə çox təşəkkür edirik. Biz – müsəlman ölkələrinin səfirləri və müvəqqəti işlər vəkilləri Sizə müqəddəs Ramazan ayı və qarşıdan gələn Ramazan bayramı münasibətilə ən xoş arzularımızı bildirmək istərdik. Allah Sizi, ailənizi və qardaş Azərbaycan xalqını qorusun! Biz həmçinin fürsətdən istifadə edərək, Sizi və Azərbaycan xalqını müstəqilliyinizin bərpa olunmasının qarşıdan gələn 25-ci ildönümü münasibətilə təbrik edirik.

Onu da demək lazımdır ki, biz uzun müddət ərzində Azərbaycanın müxtəlif sahələrdə böyük inkişafını məmnuniyyətlə izləmişik və hazırkı qlobal iqtisadi vəziyyətə baxmayaraq, ölkənizin iqtisadiyyatı artmaqda davam edir. Azərbaycan iqtisadiyyatına olan etimad hər zaman eyni səviyyədədir və hətta artmaqdadır. Sizin müdrik rəhbərliyiniz ilə hökumət vəziyyətə daha yaxşı nəzarət etmək üçün işləyir. Bir çox sahələrdə layihələrin həyata keçirilməsi uğurla davam edir.

İnfrastruktur inkişaf edir və bütün layihələrin icrası bir neçə il ərzində başa çatacaq.

Zati-aliləri, təxminən bir həftədən sonra Bakı «Formula-1» Qran-prisinin şahidi olacağıq. Gələn il Bakıda İslam Həmrəyliyi oyunları keçiriləcək. 2012-ci ildə Azərbaycanda «Eurovision» mahnı müsabiqəsi və 2015-ci ildə I Avropa oyunları təşkil olunmuşdu. Bu çox böyük nailiyyətdir. Bütün bunlar Azərbaycanın zəngin mədəniyyətinə və sivilizasiyasına sadiqliyi nümayiş etdirməklə bərabər, ölkənin müasirləşdirilməsi ilə bağlı möhtəşəm plan kimi qəbul olunur. Azərbaycan balanslaşdırılmış diplomatik davranışı formalaşdıran müdrik xarici siyasət sayəsində inkişaf edir. Bu, mehriban qonşuluq və münaqişələrin sülh yolu ilə həlli prinsiplərində öz əksini tapıb. Bizim ölkələrimiz İslam Əməkdaşlıq Təşkilatının üzvləri olaraq, bir daha Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini ifadə edir, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə tam əməl olunması ilə həllinin tərəfdarıdır.

Zati-aliləri, icazə verin, bir daha Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına inkişaf və firavanlıq arzulayım.

Təşəkkür edirəm.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Sizi və Sizin şəxsinizdə dost Rusiya xalqını dövlət bayramınız – Rusiya Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Rusiya Federasiyası dövlətçiliyin və hüquqi qaydanın möhkəmlənməsində, səmərəli iqtisadiyyat qurulmasında sanballı uğurlar qazanıb. Siyasi, sosial-iqtisadi həyatda ardıcıl dəyişikliklər, cəmiyyətdə həmrəylik və sabitlik, fəal xarici siyasət kursu Rusiyanın beynəlxalq nüfuzunun güclənməsi üçün etibarlı zəmin olub.

Azərbaycan–Rusiya dövlətlərarası münasibətlərin yüksək səviyyəsi, bütün sahələrdə əməkdaşlığımızın dinamik və hərtərəfli inkişafı xüsusi məmnunluq doğurur.

Əminəm ki, birgə səylərimiz bundan sonra da ölkələrimizin strateji tərəfdaşlığının və çoxplanlı qarşılıqlı fəaliyyətinin daha da genişlənməsinə, xalqlarımız arasında möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələrinin möhkəmlənməsinə yönələcək.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Rusiyanın bütün dost xalqına isə sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2016-cı il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB III BENİQNO AKİNOYA**

Hörmətli cənab Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2016-cı il*

## RUSİYA FEDERASİYASININ ƏDLİYYƏ NAZİRİ ALEKSANDR KONOVALOV İLƏ GÖRÜŞ

*9 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Rusiya Federasiyasının Ədliyyə naziri Aleksandr Konovalovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ölkələrimizin müxtəlif strukturları, o cümlədən hüquq-mühafizə və ədliyyə orqanları arasında əməkdaşlığın bu münasibətlərin möhkəmləndirilməsi işinə öz töhfəsini verdiyi qeyd olundu. Söhbət zamanı ölkələrimizin ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətin, o cümlədən insanlara hüquqi yardımın göstərilməsi sahəsində sıx əməkdaşlığın həyata keçirilməsinin əhəmiyyətindən danışıldı. Rusiya Federasiyasının Ədliyyə naziri Aleksandr Konovalovun Azərbaycana səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÖVLƏT SƏRHƏD XİDMƏTİ SAHİL MÜHAFİZƏSİNİN İKİNCİ DƏRƏCƏLİ YENİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ İLƏ TANIŞLIQ

*13 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 13-də Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində tikintisi başa çatdırılan ikinci dərəcəli sərhəd gözətçi gəmisi və yeni istifadəyə verilən müasir itisürətli qayıqlarla tanış olmuşdur.*

*Dövlət Sərhəd Xidmətinin rəisi–Sərhəd Qoşunlarının komandanı, general-polkovnik Elçin Quliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı İlham Əliyev əvvəlcə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin fəaliyyətini əks etdirən filmə baxdı, onların texniki göstəriciləri ilə tanış oldu.*

*Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı sərəncamla təsdiq olunmuş «Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006–2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı» çərçivəsində Bakının Türkan qəsəbəsində Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin yeni bazası inşa edilib. Xidmətin sahil mühafizəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, sərhədçi dənizçilərin peşəkarlıq səviyyəsinin artırılması xidməti-döyüş fəaliyyətinin nəticələrinə bilavasitə müsbət təsir göstərib. Şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsinə, ekstremal şəraitdə peşə vərdişlərinin yüksək səviyyədə olmasına xidmət edən müxtəlif mövzularda döyüş və taktiki təlimlərin keçirilməsi Dövlət Sərhəd Xidmətində artıq ənənə halı alıb.*

*Dövlətimizin başçısı ikinci dərəcəli sərhəd gözətçi gəmisində yaradılan şəraitlə tanış oldu.*

*Bildirildi ki, yeni gəmi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı kompleks, gecə-gündüz görmə müşahidə sistemləri və hidroakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən və itisürətli qayıqla təchiz olunmuş sərhəd gözətçi gəmisinin uzunluğu 62 metrdir. Dəniz şəraitində göyərtəsinə helikopterin enməsi mümkün olan gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhədboyu rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə ediləcək.*

*Sonra Azərbaycan Prezidenti sərhəd gözətçi gəmilərinin keçidinə baxdı.*

*Yeni istifadəyə verilən itisürətli qayıqlarda quraşdırılmış aşkaretmə qurğuları məhdud görmə şəraitində axtarış-xilasetmə tədbirlərinin həyata keçirilməsinə, sərhəd növbətçilərinin çevikliyinin artırılmasına imkan yaradır. Müasir tipli radio-elektron və naviqasiya cihazları, qəza xilasetmə və digər avadanlığın quraşdırıldığı sərhəd gözətçi gəmiləri və katerlərinə malik olan Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi hazırda Xəzər dənizində hər cür hava şəraitində dövlət sərhədinin mühafizəsini təmin etmək iqtidarındadır.*

*Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində indiyədək itisürətli və yüksək üzmə qabiliyyətli müasir silahlar, mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı ilə təchiz edilmiş bir ədəd ikinci və 6 ədəd üçüncü dərəcəli sərhəd gözətçi gəmisi inşa olunaraq, Dövlət Sərhəd Xidmətinin döyüş sıralarına daxil edilib. Bunun sayəsində Xəzər dənizində Azərbaycan sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində uğurlu nəticələr əldə edilib.*

*Dövlət Sərhəd Xidməti Xəzər dənizində beynəlxalq terrorizmə, qeyri-leqal miqrasiyaya və qaçaqmalçılığa qarşı müba-*

*rizə aparılması, döyüş hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli layihələr reallaşdırır. Xidmət əməkdaşlarının mənzil və iş şəraitlərinin ən müasir səviyyədə qurulması, yeni inzibati və yaşayış binalarının inşası isə ümumilikdə, Dövlət Sərhəd Xidmətinin fəaliyyətinə Ali Baş Komandanın göstərdiyi qayğının nəticəsidir. Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin şəxsi heyəti Xəzər dənizində çətin şəraitdə dövlət sərhədinin mühafizəsi üzrə qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirir. Bu isə bir daha təsdiq edir ki, Azərbaycan sərhədçiləri Ali Baş Komandan İlham Əliyevin etimadını doğrultmaq üçün dənizdə dövlətimizin maraqlarını qorumağa və sərhədlərimizin toxunulmazlığını şərəflə təmin etməyə daim hazırdır.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Florida ştatının Orlando şəhərində törədilmiş amansız terror aktı nəticəsində insanların həlak olması və yaralanması xəbəri məni son dərəcə sarsıtdı.

Bu gün bütün dünya terrorizm kimi dəhşətli bir bəla ilə üzləşmişdir. Belə bir vəziyyət qüvvələrin hamılıqla səfərbər olunmasını və terrorizmə qarşı qətiyyətlə mübarizə aparılmasını tələb edir. Azərbaycan terrorizmdən əziyyət çəkən ölkə kimi, daim terrorizmi pisləyir və terrorizmə qarşı mübarizəni dəstəkləyir.

Bu ağır anlarda kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyun 2016-cı il*

## AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ SEZAR FLORİN PREDA VƏ STEFAN ŞENNAK İLƏ GÖRÜŞ

*15 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Predanı və Stefan Şennakı qəbul etmişdir.*

*AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Preda və Stefan Şennak Bakıda keçiriləcək «Formula-1» yarışlarının beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyini vurğuladılar. Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığa toxunan qonaqlar bu əməkdaşlığın uğurla inkişaf etdiyini diqqətə çatdırdılar. Həmməruzəçilər «Məhkum olunmuş bir sıra şəxslərin əfv olunması haqqında» Azərbaycan Prezidentinin sərəncamının və Amnistiya aktı haqqında qərarın qəbul edilməsinin Avropa Şurası tərəfindən alqışlandığını dedilər və bunların önəmini vurğuladılar.*

*Dövlətimizin başçısı ölkəmiz ilə Avropa Şurası arasında uzun illər səmərəli və konstruktiv əməkdaşlığın həyata keçirildiyini bildirdi və əməkdaşlığımızın hazırkı səviyyəsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Azərbaycanın bu təşkilatın ən fəal üzvlərindən biri olduğunu dedi. Dövlətimizin başçısı əməkdaşlığımızın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti və əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «FORMULA ONE MANAGEMENT»İN PREZİDENTİ BERNİ EKKLSTOUN İLƏ GÖRÜŞ

*16 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da «Formula One Management»in prezidenti Berni Ekklstounu qəbul etmişdir.*

*«Formula One Management»in prezidenti Berni Ekklstoun «Formula-1» yarışının Bakıda yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. O, Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Berni Ekklstoun bu tədbirin Bakıda keçirilməsinin Azərbaycanda gedən inkişaf prosesləri ilə bağlı məlumatların dünyada yayılması işinə xidmət edəcəyini vurğuladı. O, Azərbaycanın «Formula-1» ailəsinə daxil olmasından məmnun qaldığını dedi.*

*Beynəlxalq tədbirlərin təşkili baxımından ölkəmizin yaxşı təcrübəyə malik olduğunu deyən dövlətimizin başçısı «Formula-1» yarışının keçirilməsi üçün paytaxtın artıq hazır olduğunu dedi. Prezident İlham Əliyev yarım milyardlıq auditoriyası ilə maraq doğuran və dünyanın məşhur idman yarışlarından olan «Formula-1»in keçirilməsi münasibətilə əhali arasında yüksək əhval-ruhiyyənin olduğunu vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, biz Bakının gözəlliyi və ölkəmizin inkişafı ilə bağlı dünyada daha çox məlumatın yayılmasında maraqlıyıq. Bu baxımdan ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin önəmini qeyd edən dövlətimizin başçısı son vaxtlar Azərbaycana gələn turistlərin sayının artmasını sevindirici hal kimi dəyərləndirdi. «Formula-1» yarışının əhəmiyyətinə toxunan prezident İlham Əliyev ölkəmizə daha çox turistin gəlməsi üçün tədbirin yaxşı imkan yaratdığını vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, turistlərin Azərbaycanda sayının artması daha çox insanın*

*təkcə Bakıda deyil, ölkəmizin digər bölgələrində gedən inkişaf prosesləri ilə bağlı dolğun informasiya əldə etmək imkanı yaradır. Prezident İlham Əliyev «Formula-1» yarışının bu baxımdan böyük önəm daşıdığını vurğuladı.*

*Görüşdə əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA XALQ PARTİYASININ BAŞ KATİBİ ANTONİO-LOPEZ İSTURİZ İLƏ GÖRÜŞ

*16 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Avropa Xalq Partiyasının baş katibi, Mərkəzçi Demokratlar İnternasionalının icraçı katibi Antonio-Lopez İsturizi qəbul etmişdir.*

*Görüşdə Azərbaycanın Avropa Xalq Partiyası və Mərkəzçi Demokratlar İnternasionalı ilə əməkdaşlığının inkişafından məmnunluq ifadə olundu, Azərbaycan–Avropa İttifaqı əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı.*

# BELÇİKA KRALLIĞININ SENATORU, AŞPA KOMİTƏSİNİN SƏDRİ, AZƏRBAYCANDA İNSAN HAQLARI ÜZRƏ MƏRUZƏÇİ ALEN DESTEKS İLƏ GÖRÜŞ

*17 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Belçika Krallığının senatoru, AŞPA-nın Hüquqi İşlər və Demokratiya üzrə Komitəsinin sədri, Azərbaycanda insan haqları üzrə məruzəçi Alen Desteksi qəbul etmişdir.*

*Senator Alen Desteks «Formula-1» yarışlarının başlanması münasibətilə təbriklərini çatdırdı. Dünyada «Formula-1» yarışına marağın getdikcə artdığını vurğulayan qonaq ölkəsində də Qran-pri yarışlarının keçiriləcəyini dedi. Alen Desteks 90 saylı Ağdaş seçki dairəsi üzrə Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək təkrar seçkiləri müşahidə etmək üçün ölkəmizə səfər etdiyini vurğuladı.*

*Bakının «Formula-1» xəritəsində yeni şəhər olduğunu deyən dövlətimizin başçısı yarışların gələn qonaqlarda maraq doğuracağına, onların ölkəmizlə yaxından tanış olmaları, Azərbaycanda gedən inkişaf prosesləri ilə bağlı dolğun informasiyaların əldə edilməsi baxımından tədbirin yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## FRANSADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCANIN DOSTLARI ASSOSİASİYASININ PREZİDENTİ JAN FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Fransada fəaliyyət göstərən Azərbaycanın Dostları Assosiasiyasının prezidenti, Milli Assambleyanın deputatı Jan Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Jan Fransua Manselin başçılığı ilə fransalı deputatların yeni qrupunun Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi və qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün səfərin yaxşı imkan yaratdığını dedi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev parlamentlərarası əməkdaşlığın bu münasibətlərin genişləndirilməsindəki müsbət rolunu qeyd etdi. Fransa prezidentlərinin Azərbaycana, özünün isə Fransaya səfərlərini məmnunluqla xatırladan dövlətimizin başçısı ölkələrimizin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, enerji, nəqliyyat, yüksək texnologiyalar, ticarət, təhsil və digər sahələrdə uğurlu əməkdaşlıq etdiyini diqqətə çatdırdı. Dövlətlərarası əlaqələrin səviyyəsinin razılıq doğurduğunu deyən prezident İlham Əliyev bildirdi ki, indi əsas vəzifə Fransa ictimaiyyətini Azərbaycan reallıqları, ölkəmizdə gedən inkişaf prosesləri ilə bağlı daha geniş məlumatlarla tanış etməkdir. Bu baxımdan qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən dövlətimizin başçısı Jan Fransua Manselin başçılıq etdiyi nümayəndə*

*heyətinin respublikamıza səfərinin xalqlarımızın və ölkələrimizin bir-birinə daha da yaxınlaşması işinə xidmət edəcəyini vurğuladı.*

*Jan Fransua Mansel nümayəndə heyəti üzvlərinin Azərbaycana ilk dəfə səfər etdiklərini dedi. O, heyət üzvlərinin Azərbaycanla bağlı xoşa gəlməyən təşəbbüslərin qarşısını almaq üçün Milli Assambleyada səfərbər olduqlarını və artıq onların Azərbaycana olan dostluq hisslərini sübuta yetirdiklərini vurğuladı. Ölkəmizə səfərləri çərçivəsində «Azərbaycanı özün üçün kəşf et» proqramını hazırladıqlarını deyən Jan Fransua Mansel respublikamızda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün bunun önəmini qeyd etdi. Jan Fransua Mansel Bakıda keçirilən «Formula-1» yarışlarına onların böyük maraq göstərdiklərini dedi. O belə beynəlxalq tədbirlərin keçirilməsində Azərbaycanın zəngin təcrübəyə malik olmasının önəmini qeyd etdi.*

## NOBEL SÜLH MÜKAFATI LAUREATI MƏHƏMMƏD YUNUS İLƏ GÖRÜŞ

*18 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Nobel sülh mükafatı laureatı Məhəmməd Yunusu qəbul etmişdir.*

*Məhəmməd Yunus prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda böyük inkişaf proseslərinin getdiyini vurğuladı, ölkəmizdə müsbət dəyişikliklərin onda dərin təəssürat yaratdığını dedi. Məhəmməd Yunus Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın gördüyü işləri də yüksək dəyərləndirdi.*

*Ölkəmizin müstəqillik dövründə əldə etdiyi nailiyyətlər və bu müddət ərzində görülən işlərdən danışan dövlətimizin başçısı 25 illik dövrün Azərbaycan üçün iqtisadi transformasiya dövrü olduğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə, xüsusilə iqtisadi sahədə genişmiqyaslı islahatların həyata keçirildiyini vurğuladı. Son dövrlər neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar yaranmış vəziyyətə toxunan dövlətimizin başçısı iqtisadiyyatın şaxələndirilməsi və neftdən asılılığın azaldılması istiqamətində görülən işlərin müsbət nəticələr verdiyini dedi.*

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*18 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxül-islam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə iqamətgahında açdığı iftar mərasimində iştirak etmişdir.*

*İftar mərasimi müqəddəs Qurani-Kərimdən ayənin oxunması ilə başlandı.*

**Allahşükür Paşazadə** (*Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam*): Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm prezident İlham Əliyev həzrətləri!

Hörmətli məclis iştirakçıları!

Əziz qonaqlar!

Dəvətimi qəbul etdiyinizə görə sizə təşəkkürümü bildirirəm. Hamınıza «Xoş gəlmisiniz!» – deyirəm.

Qurani-Şərifin nazil olduğu mübarək Ramazan ayında dini konfessiyaların rəhbərləri ilə birlikdə iftar süfrəsində dövlətimizin rəhbəri ilə bərabər olmaq bizim üçün çox qürurvericidir, özümüzü xoşbəxt hiss edirik. Bu bir ənənə halı alıb. Bu ənənənin bünövrəsini qoyan dövlətçiliyimizin banisi, milli-mənəvi dəyərlərimizə həyat verən, müstəqilliyimizi əbədi edən ulu öndər Heydər Əliyev həzrətləri olub.

Allah-Taalanın mərhəmət qapılarının açıq olduğu, duaların qəbul olunduğu bir dövrdə, zati-aliləri, dindarlarımız Sizin həmişə müzəffər olmağınız üçün dualar edirlər. Biz bunun nəticəsini görürük. Sizin rəhbərliyinizlə ordumuz möhtəşəm qələbə qazandı. Çoxdan gözlədiyimiz, arzu etdiyimiz qələbənin sevincini yaşadıq. İnanıram ki, erməni işğalçıları tərəfindən zəbt edilmiş Azərbaycan torpaqları, inşallah, tezliklə Sizin

rəhbərliyinizlə azad olunacaq. Şəhidlərimizin qanı yerdə qalmayacaq. Allah-Taala Vətənin şəhid oğullarına rəhmət eləsin.

Zati-aliləri, Siz hörmətli Mehriban xanımla cəbhə bölgəsində oldunuz, səngərlərdə əsgərlərlə, ictimaiyyətlə görüşdünüz. Siz bizdə bir inam – qələbəyə inam yaratdınız. İnanırıq ki, Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz, inşallah, hər an düşmənə layiqli cavab verməyə hazırdır.

Zati-aliləri, Siz 2016-cı ili «Multikulturalizm ili» elan etmisiniz. Hazırda iqtisadi, mənəvi böhran, dinc birgəyaşayış problemləri ilə üzləşən dünyaya Siz Azərbaycanın tolerantlıq, dialoq modelini təklif edirsiniz. Siz həm də bəşəriyyəti qorxudan, lərzəyə salan terrorizmi, ekstremizmi, islamofobiyanı və bu cür təhdidləri aradan qaldırmaq üçün dünyanı multikulturalizmə, dinlər arasında, mədəniyyətlər arasında dialoqa çağırırsınız.

BMT səviyyəsində sivilizasiyalararası qlobal forumun, mədəniyyətlərarası dialoq forumunun, dünya dini liderlərinin zirvə görüşünün, möhtəşəm idman oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin hərtərəfli inkişafının göstəricisidir.

Çox böyük Avropa dövlətləri bu gün miqrant, qaçqın problemlərindən çətinlik çəkir. Amma Azərbaycan XX əsrin axırlarında üzləşdiyi çətinliklərə baxmayaraq, 1 milyondan artıq məcburi qaçqın və köçkünün problemlərini özü həll etdi. Bununla bərabər, həm də mənəviyyatımıza böyük önəm verdi. Dövlətimizin başçısının təşəbbüsü və qayğısı ilə inanclı insanlar üçün yeni dini məbədlərin tikilməsi və ya bərpa olunması, dini icmalara maddi və mənəvi kömək və sair məsələlər Azərbaycan dövlətinin qüdrətli və qüvvətli olmasını təsdiq edən amillərdən biridir.

Zati-aliləri ulu öndər Heydər Əliyevin mənəviyyat yoluna sadiq qalan İlham Əliyev həzrətlərinin təşəbbüsü ilə möhtəşəm Heydər məscidinin, Azərbaycan xalqının mənəvi həyatında xüsusi yeri olan Gəncə İmamzadə Kompleksinin tikilib

dindarlara təhvil verilməsi təkcə Azərbaycan müsəlmanlarına deyil, islam dünyasına böyük bir töhfədir.

Azərbaycanda dövlət–din münasibətləri çox yüksək səviyyədə inkişaf edir. Bunu daha da inkişaf etdirmək üçün Qafqaz Müsəlmanları İdarəsi çox iş görür, millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, ictimai təşkilatlar və dini konfessiyalarla birlikdə ölkəmizin daxilində və xaricdə tez-tez ictimaiyyətlə görüşlər keçirir, məbədlərdə olur, Azərbaycan reallığını, Azərbaycanın birgəyaşayış həyat tərzini onlara təlqin edir.

Biz deyəndə ki, Azərbaycanda sünnilər və şiələr bir məsciddə namaz qılır, bir vaxtda azan verir, eyni vaxtda bayram edir, yaxud da yəhudilər məsciddə, kilsədə, xristianlar sinaqoqda, müsəlmanlar digər dinlərin məbədlərində ola bilir – yəni biz həmişə birlikdəyik – bəzən buna inanmaq istəmirlər, təəccüblənirlər. Yüzillik Konstitusiyası olan dövlətlər belə, bu məsələdə acizdirlər. Bu bizim həyatımızın reallığıdır.

Zati-aliləri, Siz həmişə çıxışlarınızda deyirsiniz ki, Azərbaycanda dinlər arasında dialoq, tolerantlıq adi həyat tərzidir. Bu həqiqətən, belədir. Biz başqa dövlətlərə baxanda bunun əksini görürük.

Zati-aliləri, Siz Respublika Günü münasibətilə keçirilən mərasimdə çıxış edərkən söylədiniz ki, Azərbaycan heç zaman bu qədər güclü olmamışdır. Bu həqiqətən də belədir. Azərbaycan öz ordusu, öz mədəniyyəti, öz tarixi, öz dövlətçiliyi, öz lideri ilə həqiqətən də qüvvətlidir. Amma bəzi dövlət rəhbərləri və dövlətlər bunu həzm edə bilmir, gözləri götürmür. Ona görə də Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, bəzən də ölkəmizdə iğtişaş yaratmaq istəyirlər. Ancaq buna nail ola bilməyəcəklər. Çünki Azərbaycanda yaşayan hər bir vətəndaş dinindən, dilindən asılı olmayaraq, ulu öndərin təbiri ilə desək, özünün azərbaycanlı olması ilə fəxr edir.

Allah-Taala haqqın tərəfdarıdır və haqqı istəyir. Ona görə də Allah-Taala Qurani-Şərifdə buyurur ki, bir insanı mən

ucaltdımmı və bir haqq çırağını yandırdımmı, onu heç bir qara əllər, qara qüvvələr söndürə və yıxa bilməz.

Zati-aliləri, Siz Azərbaycan üçün, Vətənin gələcəyi üçün çox böyük işlər görürsünüz. Mən inanıram ki, inşallah, hələ Sizin gələcəkdə müzəffər işləriniz çox olacaq. Allah-Taalanın nəzəri həmişə Sizin üstünüzdədir. Xalqın məhəbbəti həmişə Sizinlədir.

Mən istərdim Mehriban xanıma təşəkkürümü bildirəm. Bu yaxınlarda amnistiya ilə bağlı Milli Məclisə müraciət etmiş və bu barədə qərar qəbul olunmuşdur. Bu çox savab işdir. Bunun Ramazan ayına təsadüf etməsi daha çox savabdır. Ona görə də mən Allah-Taaladan Mehriban xanıma, ailəsinə səadət arzu edirəm.

Zati-aliləri, Sizin konfessiyalara qayğıkeş münasibətinizi, dini lider kimi, mənə olan ehtiramınızı və etimadınızı çox yüksək qiymətləndirir və dəyərləndirirəm. Onu da demək istəyirəm ki, zati-aliləri, Sizin şəxsimə olan qardaşlıq, dostluq münasibətiniz ulu öndərin bünövrəsini qoyduğu ikitərəfli iman və inam üstündə qurulub. Bu da dövlətçiliyimizin yüksəlişinin, dövlət–din və dövlət–dindar münasibətlərinin təsdiqidir.

Bu gün Azərbaycanda tolerantlıq yüksək səviyyədə inkişaf edir. Əgər biz bu gün bu mərasimə nəzər salsaq görərik ki, Azərbaycanda dövlət–din, mənəviyyat və mədəniyyət münasibətləri birlikdə inkişaf edir. Budur dövlət rəhbərimizin siyasəti, budur bizim dediyimiz multikulturalizm modeli!

Zati-aliləri, Sizin hörmətiniz təkcə Azərbaycanda deyil, dünyada hər gün artmaqdadır. Dünyada tanınmış bir dərginin bu yaxınlarda Sizi «İlin adamı» elan etməsi bunun bariz nümunəsidir. İcazə verin, burada əyləşənlər adından Sizi bu mükafat münasibətilə təbrik edim.

Zati-aliləri, Sizin Almaniyaya səfəriniz çox böyük bir tarixi səfər oldu. Bundestaq görüşündən imtina etməyiniz bilavasitə Sizin müstəqil siyasətinizin nəticəsi, yüksəlişi və şəxsiyyətinizin ucalığıdır. Siz nə qədər ucalırsınızsa, Azərbaycan xalqı da Sizinlə o qədər ucalır. Bütün türk xalqı Sizinlə ucalır, fəxr edir. Bütün Azərbaycan xalqı Sizinlə fəxr edir. Mən

bir şeyxülislam kimi, fəxr edirəm ki, Siz mənim prezidentimsiniz. Əgər bu gün qardaşım ulu öndər Heydər Əliyev həzrətləri və anamız Zərifə xanım burada olsaydılar, onlar hamıdan çox fəxr edərdilər. Biz hamımız Sizinlə fəxr edirik.

Allah-Taaladan Azərbaycan xalqına xoşbəxtlik arzulayır, qarşıdan gələn Ramazan bayramını bir daha təbrik edirəm. Burada diplomatik korpusun nümayəndələri iştirak edirlər. Onlara «Xoş gəlmisiniz!» – deyirəm. Onlardan xahiş edirəm ki, mənim salam-dualarımı öz xalqlarına və dövlət rəhbərlərinə çatdırsınlar.

Zati-aliləri, mən Sizə, ailənizə səadət, gələcək işlərinizdə zəfərlər arzu edirəm. Allah-Taala ölkəmizi qorusun! Allah-Taala Prezidentimizi qorusun! Əssalamu-aleykum və rəhmətullahi və bərəkətuhu!

**A l e k s a n d r  a t a** (*Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri*): Hörmətli cənab Prezident!

Möhtərəm şeyx həzrətləri!

Hörmətli xanımlar və cənablar!

Bugünkü mərasimin şəkilləri kütləvi informasiya vasitələrində dərc olunanda, yaxud onun haqqında televiziya ilə veriliş gedəndə, bir çoxları düşünəcəklər ki, bu, 2016-cı il «Multikulturalizm ili»nə həsr olunmuş xüsusi qəbuldur. Əlbəttə, bu, təntənəli qəbuldur, iftardır. Buna baxmayaraq, bu, Azərbaycanda ötən il də, 5 il, 10 il əvvəl də bu gözəl məclisdə iştirak etmək üçün din xadimlərinin, Milli Məclisin və hökumət üzvlərinin, ölkənin tanınmış insanlarının cənab Prezidentlə, Qafqaz müsəlmanlarının rəhbəri ilə bir yerə toplaşdıqları ənənəvi qəbul, ənənəvi iftardır.

Həqiqətən də multikulturalizm Azərbaycan xalqının mentalitetinin səciyyəvi cəhəti və Azərbaycan dövlətinin daxili siyasətinin xüsusi istiqamətidir. Yəqin ki, XX əsrin sonlarında multikulturalizmin dövlətlərin və xalqların həyatında ciddi əhəmiyyəti barədə heç kəs düşünməyib. Uzaqgörən ümummilli lider Heydər Əliyev Azərbaycanın gələcək taleyi barədə

düşünərkən, ölkənin əsas möhkəmləndirici cəhətini multikulturalizmdə görürdü. O, «Çoxmillətlilik bizim sərvətimizdir» sözlərini təsadüfən deməyib. Artıq XXI əsrdə tam aydın oldu ki, multikulturalizmə söykənmək nə dərəcədə düzgündür.

Hələ XX əsrdə ağlagəlməyən XXI əsrdə özünü çox qabarıq surətdə göstərməyə başladı. Bunlar ksenofobiya, dini dözümsüzlük, dinlərarası münaqişələr kimi mənfi cəhətlərdir. Təəssüf ki, bütün bunlar dünya birliyinin həyatının təzahürünə çevrilib. Hətta insanların birliyinə, qarşılıqlı anlaşmasına, dinc yanaşı yaşamasına yönələn hadisələr – məsələn, idman yarışları dərin millətlərarası münaqişələrə çevrilir, belə idman tədbirlərinin təşkilatçılarına çətinliklər yaradır. Ona görə də Azərbaycanın seçdiyi məxsusi yol zəmanəmizdə baş verənlər nöqteyi-nəzərindən öz əhəmiyyətini və vacibliyini bir daha təsdiq edir. Cənab Prezident, multikulturalizm amilinə xüsusi diqqət yetirdiyinizə görə ölkəmizin rəhbərliyinə və şəxsən Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Təsadüfi deyil ki, artıq ölkəmizdə müntəzəm olaraq konqreslər, sivilizasiyalararası alyanslar keçirilir. Təsadüfi deyil ki, ölkəmizdə dinlərarası forum keçirilib. Təsadüfi deyil ki, ölkəmizdə təkcə din xadimlərinin deyil, həm də bütün dünya mədəniyyət xadimlərinin görüşləri keçirilir. Təsadüfi deyil ki, böyük İpək yolunun dirçəldilməsi məsələsinə məhz ölkəmizdə xüsusi diqqət yetirilir. Bu istər iqtisadi və siyasi, istərsə də mədəni və millətlərarası planda insanların bir-biri ilə ünsiyyət saxlamasına imkan verəcək.

Bugünkü iftar süfrəsindən istifadə edərək, bütün Azərbaycan xalqını, bütün dünya müsəlmanlarını Ramazan ayı münasibətilə təbrik etmək, onlara uğurlar arzulamaq, diqqətlərini islamın əsas dəyərlərinə cəlb etmək istəyirəm ki, bu dəyərlər insanlar arasında quruculuğa və qarşılıqlı anlaşmaya xidmət etsin. Əlbəttə, bütün Azərbaycan xalqına sülh və firavanlıq, dövlətə isə öz mövqelərini möhkəmləndirməyi arzu edirəm. Azərbaycan

xalqına və Azərbaycan dövlətinə qarşıya qoyduğu məqsədlərə nail olmağı diləyirəm.

Cənab Prezident, icazə verin, Sizə cansağlığı və yenilməz qüvvə arzu edim. Sizə xalqımızın və ölkəmizin həyatında baş verən sınaqlardan rəşadətlə çıxıb qalib gəlməyi, bu müddətdə, bizim yüzillikdə qazanılan heyrətamiz uğurlara təkrar-təkrar nail olmağı arzu edirəm.

**M i l i x  Y e v d a y e v** (*Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri*): Möhtərəm Prezident!

Şeyx həzrətləri!

Əziz qonaqlar!

Müqəddəs Ramazan ayı haqqında çox deyilib. Mən bircə məqama toxunmaq istərdim ki, səmavi dinlərin bütün müqəddəs kitabları məhz Ramazan ayında nazil olub. Biz bu ayın 12-də müqəddəs «Tövrat»ın Musa peyğəmbərə nazil olduğunu böyük təntənə ilə qeyd etdik.

Şeyx həzrətləri, ürəyinizin genişliyi, qəlbinizin hərarəti ilə, xüsusi incəliklə təşkil etdiyiniz bu iftar süfrələri Azərbaycan xalqının tarixinə yazılacaq və gələcək nəsillərə yadigardır.

Ən böyük yadigar, Allah qəni-qəni rəhmət eləsin ulu öndərə, onun şah əsəri olan çağdaş müstəqil Azərbaycan dövlətidir. İnanın Allaha ki, çox dövlətlər müstəqillik qazanıblar, amma dövlət özü müstəqil ola bilməyib. Bizim dövlətimiz isə müstəqildir, əsrlər keçəcək, qədirbilən xalqımız həmişə ulu öndərə minnətdar olub, ona rəhmət diləyəcək.

Yarat bir əsər ki, adın ucalsın,
Sən köçüb getsən də, yerində qalsın.

Möhtərəm Prezident, bugünkü Azərbaycana, bugünkü əmin-amanlığa, bugünkü gücə, qüdrətə görə Sizə minnətdarıq. Dövlətlər içərisində öz yeri, öz dəst-xətti olan Azərbaycana görə Sizə minnətdarıq.

Şeyx həzrətləri, Xudavəndi-Aləm Məhəmməd peyğəmbərə müqəddəs Qurani-Kərimi nazil edəndə soruşur: «ey mənim Rəsulum, məndən daha bir istəyin varmı?» Məhəmməd peyğəmbər cavab verir ki, «Xudavəndi-Aləm, sən bizə hər şeyi

verdin – görməyə göz, sevməyə ürək, yaşamağa ağıl. Bircə təvəqqem var, ürəyimi geniş elə ki, bütün insanları qəlbimə sıxa bilim».

Möhtərəm Prezident, mən əminəm ki, Sizin səma kimi geniş ürəyiniz var. Geniş ürəyinizdə Azərbaycan xalqı ilə birlikdə Azərbaycanda yaşayan bütün xalqların öz yeri var və Siz qəlbinizin hərarəti ilə bizi həmişə qızdırmağa hazırsınız.

Əziz qonaqlar, sizi bir daha təbrik edirəm. Allah-Taala Azərbaycana bütün arzularına çatmağı nəsib etsin.

**Vladimir Fekete** *(Roma Katolik kilsəsinin ordinarisi)*: Zati-aliləri hörmətli cənab Prezident!

Şeyx həzrətləri!

Hörmətli xanımlar və cənablar, mərasim iştirakçıları!

Qonaqpərvər ev sahibi şeyx həzrətlərinin ənənəvi olaraq, öz iqamətgahında təşkil etdiyi bu iftar mərasimində iştirak etdiyimə görə böyük fərəh hissi keçirirəm. Göstərdiyiniz həyat örnəyinə və yaratdığınız bu imkana görə çox sağ olun.

Müqəddəs Ramazan ayı müsəlmanların həm şəxsi, həm də ictimai həyatında çox mühüm aydır. Dindarların tutduqları oruc, etdikləri dua və gördükləri xeyirxah əməllər insanın şəxsi həyatını daha da zənginləşdirir. Eyni zamanda, belə iftar süfrələrinin təşkili cəmiyyəti bir araya gətirir. Biz buraya böyük bir ailə kimi toplaşmışıq. Siyasi xadimlər, din xadimləri, mədəniyyət adamları, ictimaiyyətin nümayəndələri, deputatlar – indi biz hamımız gözəl örnəyik, çünki möhtərəm şeyxin dəvətilə bir yerdə çörək kəsib, söhbət edib, uca Tanrının bizə bəxş etdiyi həyata sevinirik.

Allah-Taala insanın xaliqidir. O, ədalətli və rəhimlidir. Müsəlmanlar belə bir həqiqəti xristianlarla bölüşürlər ki, Allah insanı sevir. Allah istəyir ki, biz bütün dünyada vahid ailə yaratmağa çalışaq və bir ailə kimi olaq. Əminəm ki, dünyada baş verən bütün pisliklər yox olacaq və Azərbaycanın nümunəsi bütün dünyaya parlaq örnəkdir. Çünki biz – müxtəlif xalqların, müxtəlif dinlərin nümayəndələri bir-birimizə ehtiramla yanaşa,

ünsiyyət saxlaya və bu yolla ictimai və mənəvi həyatımızı möhkəmləndirə bilirik.

Roma Papası Fransisk hər il Ramazan münasibətilə bütün dünya müsəlmanlarına müraciət ünvanlayır. Möhtərəm şeyxülislam Allahşükür Paşazadə, bu müraciəti sizə və sizin şəxsinizdə bütün qardaşlarımıza – Azərbaycan müsəlmanlarına çatdıra bilməyim mənim üçün böyük sevincdir.

Qoy Allah xeyir-duasını bu ölkədən əsirgəməsin. Qoy bu ölkə burada yaşayan bütün insanların səadəti naminə dünyaya parlaq nümunə kimi çiçəklənsin. Çox sağ olun.

*Ordinari Vladimir Fekete Roma Papası Fransiskin müraciətini Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.*

*Sonra dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli şeyx həzrətləri!

Hörmətli din xadimləri, mərasim iştirakçıları!

Mübarək Ramazan ayında ənənəvi olaraq şeyx həzrətlərinin iftar süfrəsində toplaşmışıq. Bu, gözəl ənənədir. Şeyx həzrətləri qeyd etdiyi kimi, bu ənənənin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Ulu öndər Heydər Əliyev müasir Azərbaycanın qurucusudur, onun banisidir. Onun müəyyən etdiyi siyasət bu gün də yaşayır, davam edir, zənginləşir. O cümlədən dövlət–din münasibətlərinin tənzimlənməsində ulu öndərin xüsusi rolu və müstəsna xidmətləri vardır.

Ulu öndər ilə şeyx həzrətlərini dostluq əlaqələri bağlayırdı. Bu dostluq həm şəxsi xarakter daşıyırdı, həm də bu dostluğun çox böyük ictimai mənası var idi. Çünki bu dostluq, bu əlaqələr, bu səmimiyyət dövlət–din münasibətlərinin əsasını təşkil edirdi və bütün cəmiyyətə verilən bir mesaj idi ki, bu münasibətlər bu şəkildə öz həllini tapmalıdır.

Azərbaycan müstəqil dünyəvi dövlətdir, Konstitusiyaya görə din dövlətdən ayrıdır, ancaq din və dövlət həmişə birdir, bir

yerdədir. Belə də olmalıdır. Çünki bizim amalımız da, istəyimiz də birdir. Biz istəyirik ki, Azərbaycan daha da güclü dövlətə çevrilsin, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənsin, torpaqlarımız işğalçılardan azad edilsin və uzunmüddətli inkişafımız uğurlu olsun.

Bugünkü məclisdə şeyx həzrətlərinin fəaliyyətini mən xüsusilə qeyd etmək istəyirəm. Şeyx həzrətləri həm ölkə daxilində, həm beynəlxalq aləmdə çox böyük iş görür. Azərbaycan dindarları, Azərbaycan ictimaiyyəti bunu görür və qiymətləndirir. Mən də prezident kimi, bunu yüksək qiymətləndirirəm. Doğrudan da şeyx həzrətlərinin gördüyü çox böyük işlər bizim ölkəmizi gücləndirir. Çünki dövlət–din münasibətləri təkcə ölkə prezidenti tərəfindən həll oluna bilməz. Burada, əlbəttə ki, dini rəhbərlər, bütün dini konfessiyaların rəhbərləri öz töhfəsini verməlidir və verirlər.

Şeyx həzrətləri ilə bizim şəxsi münasibətlərimiz, dostluq əlaqələri bu gün heç kəs üçün sirr deyil. Azərbaycan ictimaiyyəti də bunu görür, bilir və eyni zamanda, biz yol göstəririk. Biz yol göstəririk ki, ölkə necə inkişaf etməlidir, vətəndaş cəmiyyəti necə qurulmalıdır, azadlıqlar necə təmin edilməlidir. Şeyx həzrətlərinin Qafqazda böyük nüfuzu var. Mən Qafqaz respublikalarının rəhbərləri və dini rəhbərləri ilə keçirdiyim çoxsaylı görüşlərdə bunun şahidi olmuşam. Şeyx həzrətlərini müsəlman aləmində, MDB məkanında, qonşu dövlətlərdə yüksək qiymətləndirirlər. Bu bizim böyük üstünlüyümüzdür. Üstünlüyümüzdür ki, Azərbaycan müsəlmanlarının rəhbəri dünya miqyasında çox böyük nüfuza malik olan şəxsiyyətdir.

Əlbəttə, gələcəkdə biz birgə fəaliyyətimizi davam etdirəcəyik. Çünki bir daha demək istəyirəm ki, bizim məqsədimiz birdir. Biz hamımız çalışırıq ki, Azərbaycanda vəziyyət daha da yaxşılaşsın, sabitlik daha da möhkəmlənsin, insanlar daha da yaxşı yaşasınlar. Biz hamımız çalışırıq və çalışacağıq ki, Azərbaycan cəmiyyətində xalqımıza xas olan dəyərlər,

Azərbaycan dəyərləri daim üstünlük təşkil etsin. Dini dəyərlər isə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Bizim milli və dini bayramlarımız böyük sərvətimizdir. Biz bu bayramları yaşadırıq, birlikdə qeyd edirik. Dövlət–din münasibətlərinin belə sağlam zəmində inkişafı gələcəkdə ölkəmizi daha da gücləndirəcəkdir.

Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Azərbaycan müsəlman aləmində çox böyük nüfuza və hörmətə malikdir. Bu yaxınlarda – aprel ayında keçirilən İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün yekunları da bunu bir daha təsdiqləyir. Zirvə görüşündə Azərbaycana çox böyük dəstək verildi. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və aprel hadisələri ilə bağlı Ermənistanın işğalçı və təcavüzkar siyasəti bütün dünya müsəlmanları tərəfindən bir daha pislənildi. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaradıldı və bütün müsəlman dünyası öz liderlərinin iştirakı, onların səsi ilə Azərbaycanı bir daha dəstəklədi. Bu bizim böyük uğurumuzdur. Bu onu göstərir ki, cəmi 25 il ərzində müstəqil dövlət, o vaxta qədər onilliklər ərzində ateist dövlətdə yaşayan bir xalq – Azərbaycan xalqı bütün müsəlman aləmində çox böyük rəğbətə, hörmətə layiqdir. Biz bunu öz əməyimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Öz dini, milli-mənəvi dəyərlərimizə sadiqlik nümayiş etdirərək qazanmışıq. Bu gün bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələri bizi dəstəkləyir, biz də onları dəstəkləyirik.

Bu yaxınlarda müsəlman ölkələrinin səfirləri ilə ənənəvi olaraq, Ramazan ayında görüşüm əsnasında biz bir daha bu məsələlərə toxunduq. Mən qeyd etdim ki, biz islam həmrəyliyini gücləndirməliyik, müsəlman aləmində gedən proseslər, onların bir hissəsi bizi narahat edir. Biz istəyirik ki, müsəlman aləmində sülh bərqərar olsun, sabitlik bərpa edilsin, məzhəb əsasında münaqişələrə son qoyulsun və birlik olsun. Əgər birlik olmasa, biz güclü ola bilmərik. Azərbaycan öz növbəsində, islam həmrəyliyinin gücləndirilməsi üçün çox böyük işlər görür və biz bu işləri ardıcıl şəkildə aparırıq. Azərbaycanda İslam

Əməkdaşlıq Təşkilatının xətti ilə çoxsaylı yüksək səviyyəli tədbirlər keçirilib. Bakı şəhəri bir neçə il bundan əvvəl «İslam mədəniyyətinin paytaxtı» elan edilmişdi. 2018-ci ildə Naxçıvan bu şərəfli missiyanı daşıyacaqdır. Azərbaycan islam dəyərlərini dünyada, xüsusilə Avropada təbliğ etmək üçün çox böyük işlər görür, sərgilər, təqdimatlar keçirir, bədii-musiqili proqramlar təşkil edir. Azərbaycan birinci müsəlman ölkəsidir ki, Vatikanda öz sərgisini nümayiş etdirib. Əlbəttə ki, bu bizim siyasətimizin təzahürüdür, eyni zamanda, ümumbəşəri dəyərlərə verdiyimiz töhfədir. Biz istəyirik ki, islam aləmində birlik olsun, bütün dünyada anlaşma və qarşılıqlı hörmət daha da artsın.

Bildiyiniz kimi, Azərbaycan eyni zamanda, Avropa Şurasının üzvüdür. Biz o təşkilatda da fəal iş aparırıq. Bizi istəməyən bəzi qüvvələrin təxribatlarına baxmayaraq, o təşkilatda da böyük hörmət qazanmışıq. Bu gün xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, Ermənistanın işğalçı siyasətini pisləyən qətnamələr artıq Avropa Şurasında da qəbul edilir. Bu doğrudan da nadir bir vəziyyətdir. Çünki dünyada hər 2 təşkilata üzv ölkələrin sayı o qədər də çox deyil və hər 2 təşkilatda rəğbət, dəstək qazanmaq, əlbəttə ki, bizim böyük uğurumuzdur. Biz bunu nəyin hesabına qazanmışıq? Hesab edirəm ki, səmimi siyasətimizə görə. Ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Ona görə ki, biz sözümüzü imzamız qədər qiymətləndiririk və əgər nəyisə deyiriksə, buna əməl edirik. Heç vaxt yalançı vədlər verməmişik. Heç vaxt kiminsə xoşuna gəlmək üçün hər hansı bir addım atmamışıq. Prinsipial mövqemizi nümayiş etdirmişik. Eyni zamanda, biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə uğur qazanmışıq.

Bu gün Azərbaycan o ölkələrdəndir ki, bütün sahələrdə çox böyük inkişaf yolu keçib, uğur qazanıb. Xüsusilə indiki şəraitdə ki, dünyanın müxtəlif yerlərində yeni münaqişə ocaqları yaradılır. Yaxın Şərqdə artıq bir neçə ölkə idarəedilməz vəziyyətə düşüb. Qeyd etdiyim kimi, Yaxın Şərqdə, əfsuslar olsun ki, müharibələr alovlanır. Avropada miqrantlarla bağlı dərin böhran yaşanır. Bu

eyni zamanda, dəyərlər böhranıdır. İstər-istəməz miqrantlar böhranı Avropada islamofobiya meyillərini gücləndirir. Bu həm müsəlmanlar, həm Avropa üçün çox böyük təhlükədir. Belə bir vəziyyətdə Azərbaycan öz yolu ilə gedir. Əslində bizim siyasətimizdə heç bir dəyişiklik olmamışdır. Sadəcə olaraq, biz həmişə çalışmışıq ki, ölkəmizi mümkün olan bütün risklərdən, mənfi kənar təsirdən qoruyaq və buna müvəffəq olmuşuq.

İndiki şəraitdə, dünyada gedən çox ağır proseslər şəraitində, əlbəttə ki, Azərbaycan nümunəsi özünü daha da gözəl şəkildə büruzə verir. Deməli, mümkündür ki, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşasınlar. Mümkündür ki, multikulturalizm meyilləri güclənsin. Mümkündür ki, bir ölkədə dini, milli zəmində heç vaxt qarşıdurma olmasın. Nəinki qarşıdurma, heç anlaşılmazlıq da heç vaxt olmayıb və əminəm ki, olmayacaq. Yəni bu gün Azərbaycan çox fərqli bir inkişaf modelini nümayiş etdirir. Ona görə yox ki, biz kiməsə nəyisə sübut etmək istəyirik. Sadəcə olaraq, bizim həyat tərzimiz belədir. Bizim siyasətimiz bundan ibarətdir. Getdikcə Azərbaycanı dünyada daha da çox tanıyırlar. Tanıdıqca da görürlər ki, bu gün dünyada, bu coğrafiyada müasir, öz gücünə güvənən, ayaqda möhkəm dayanan, prinsipial siyasət aparan, bütün azadlıqları, bütün dinlərin birgə yaşamasını təmin edən bir ölkə var. Ona görə, əlbəttə ki, bizim təcrübəmiz öyrənilir. Bizi istəyən, dəstəkləyən ölkələr, qüvvələr bizi daha da dəstəkləyirlər, bizi istəməyənlər daha da məyus olurlar. Çünki bədxahlar, antiazərbaycan qüvvələr nə qədər çalışsalar da, bizim siyasətimizə, iradəmizə, uğurlu inkişafımıza təsir edə bilmədilər.

Bu gün Azərbaycan dünya miqyasında nadir rol oynayan bir ölkədir. Mən bunu tam məsuliyyətlə deyirəm. Yəni bunu özümüzü tərifləmək üçün demirəm. Bu reallıqdır. Çünki hər şey müqayisədə müəyyən olunur və bu gün müqayisə aparmaq üçün bizim kifayət qədər imkanlarımız var. Biz dünyanın hər bir yerində baş verən hadisələri görürük, izləyirik. Bu fonda

Azərbaycanın uğurlu, hərtərəfli inkişafı, əlbəttə ki, daha da böyük rəğbət qazanır.

Azərbaycanda həyata keçirilən islahatlar, aparılan siyasət bizə diqqəti daha da çox cəlb edir və bu, müsbət haldır. Mən hesab edirəm ki, dünya bizi daha da yaxşı tanımalıdır. Özümüzü tanıtmaq üçün biz, əlbəttə ki, təşəbbüslər irəli sürürük. Artıq bir neçə ildir ki, Azərbaycan dünya ictimaiyyətinin diqqətini çəkən tədbirlər keçirir. Bu tədbirlər həm qitə, həm dünya miqyaslı tədbirlərdir. Bu gün dünyanın ən mötəbər idman yarışlarından biri olan «Formula-1» Bakı küçələrində keçirilir. Bu yarışın auditoriyası dünyada yarım milyard insandır. Bu yarım milyard insan görəcək ki, dünyada belə bir gözəl ölkə, gözəl memarlıq abidələri olan, səliqəli, müasir bir şəhər var – Bakı şəhəri.

Əlbəttə, bu bizim gücümüzü artıracaq. Çünki bizə qarşı aparılan qarayaxma, təxribat kampaniyalarının hamısını alt-üst edir. Azərbaycana, Bakıya gələn on minlərlə turist bizim reallıqlarımızı öz gözü ilə görəcək. Görəcək və haqqımızda yazılan o çirkin məqalələrə daha fikir verməyəcək. Elə bir hal olmayıb ki, ilk dəfə Azərbaycana gələn insan təəccüb etməsin. Bu təəccüb nədən yaranır? Ölkəmizə gəlməzdən əvvəl yəqin ki, o müxtəlif çirkin yazıları oxuyurlar. Gəlib görəndə ki, insanlar azad, rahat, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, əlbəttə, onların birinci reaksiyası təəccüb, ikincisi isə sual olur ki, siz buna necə nail ola bilmisiniz?! Biz buna öz siyasətimizlə nail ola bilmişik. Çünki düşünülmüş siyasət aparırıq. Öz gücümüzə arxalanırıq, Azərbaycan xalqımızın iradəsi ilə idarə olunur. Əlbəttə ki, bizim bütün uğurlarımızın təməlində vətəndaş birliyidir. Vətəndaş birliyi millətlərarası, dinlərarası birlik olmadan mümkün deyil, xüsusilə çoxmillətli və çoxkonfessiyalı ölkələrdə. Biz fəxr edirik ki, çoxmillətli ölkəyik. Biz fəxr edirik ki, Azərbaycanda bütün dinlərin, millətlərin nümayəndələri rahat yaşayırlar. Onlar fəxr edirlər ki, Azərbaycan vətəndaşlarıdır. Onlar həm ölkə daxilində, həm xaricdə ölkəmizin inkişafına çox böyük töhfələr verirlər. Bizim pravoslav rus icmamız pravoslav rus aləmində Azərbaycanla bağlı həqiqətləri çatdırır, təbliğ edir, izah edir. Bizim

yəhudi icmamız bütün dünyada, Avropada, Amerikada, digər ölkələrdə Azərbaycanla bağlı həqiqətləri çatdırır. Bizi xaricdə ən çox dəstəkləyən yəhudi təşkilatlarıdır. Nəyə görə? Çünki birincisi, onların böyük əksəriyyəti Azərbaycandan köçüb gediblər. İkincisi, heç vaxt Azərbaycanla əlaqələri itirməyiblər. Üçüncüsü, onlar bilirlər ki, burada yəhudilər və bütün başqa xalqlar rahat yaşayırlar. Azərbaycanda heç vaxt ksenofobiya, antisemitizm olmayıb və olmayacaq da. Bizim siyasətimiz bundan ibarətdir. Bu bizim birliyimizi daha da gücləndirir. Biz bütün bayramları bir yerdə qeyd edirik. Şeyx həzrətləri qeyd etdiyi kimi, İmamzadə hər bir müsəlman üçün müqəddəs yerdir. Biz hamımız, bax, burada əyləşənlər nəinki orada iştirak etmişik, hətta çıxış etmişik. Mən oraya ölkəmizin hər bir rayonundan nümayəndələr dəvət etmişdim ki, gəlsinlər, o müqəddəs yerin bərpasından sonra açılışında iştirak etsinlər və bizim sözlərimizi eşitsinlər. Orada, müqəddəs yerdə bizim çıxışlarımız artıq bir siqnaldır, cəmiyyətə ünvanlanan bir siqnal. Bax, belə olmalıdır. Ayrı-seçkiliyə, ekstremizmə yol vermək olmaz. Biz ancaq birlikdə ölkəmizi gücləndirə bilərik, ancaq birlikdə xoşbəxt gələcəyə nail ola bilərik. Bizim üçün bu həm həyat tərzidir, həm dövlət siyasətidir. Bu siyasət Azərbaycan xalqı tərəfindən bəyənilir və dəstəklənir.

Bu gün bu iftar mərasimində səslənən fikirlər çox dəyərli fikirlərdir. Bu mənalı və dəyərli fikirlər bizim birliyimizi daha da möhkəmləndirir. Ona görə biz gələcəyimizi bu müsbət nəticələr əsasında uğurla qururuq. Keçən il və bu il ölkəmiz üçün sınaq ili olub. Çünki dünya iqtisadiyyatı hələ ki, böhran içindədir. Neftin qiyməti 3-4 dəfə aşağı düşüb. Əlbəttə ki, bu bizim üçün böyük bir sınaq idi. Ancaq biz bu sınaqdan şərəflə çıxırıq. Biz bu müddət ərzində gördük ki, cəmiyyət daha da sıx birləşib, həmrəylik daha da artıb. Bizim siyasətimizə daha da böyük dəstək görürük. Əlbəttə ki, bu bizi daha da ruhlandırır, gücləndirir və yeni işlər görməyə sövq edir. 2016-cı il iqtisadi sabitləşmə ili kimi tarixdə qalacaq. Gələn ildən isə bizim uğurlu iqtisadi inkişafımız davam edəcəkdir.

Bizim ən ağrılı problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində də Azərbaycanda yaşayan bütün millətlərin, konfessiyaların nümayəndələri bir nöqtəyə vurur. Yəni bu bizim ümummilli məsələmizdir. Hər bir Azərbaycan vətəndaşı hər gün çalışmalıdır və əminəm, çalışır ki, bu məsələ tezliklə öz həllini tapsın. Azərbaycan ərazisinin bir hissəsi uzun illərdir ki, işğal altındadır, torpaqlarımız zəbt edilib. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıb, Xocalı soyqırımı törədilib. ATƏT-in faktaraşdırıcı missiyasının hesabatlarına görə, işğal edilmiş torpaqlarda bütün binalar dağıdılıb. Bizim tarixi binalarımız, qəbirlər, məscidlər ermənilər tərəfindən dağıdılıbdır. Bu, misli görünməmiş vəhşilikdir. Azərbaycanda isə Bakının mərkəzində erməni kilsəsi yerləşir. Heç kim ona toxunmur, əksinə, təmir olunubdur. Azərbaycanda kilsələr, sinaqoqlar, məscidlər tikilir. Bax, fərq bundan ibarətdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapmalıdır. Beynəlxalq hüquq normaları bizim mövqemizi müdafiə edir. Tarixi ədalət də bizim tərəfimizdədir. Son vaxtlar bu məsələ ilə məşğul olan vasitəçilər, onların rəhbər şəxsləri qeyd edirlər ki, məsələ tezliklə həll olunmalıdır, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bunu müsbət qarşılayırıq. Ancaq belə bəyanatlar əvvəllər də verilib. Status-kvonun qəbuledilməzliyi haqqında artıq neçə ildir ki, bəyanatlar verilir, amma bəyanatlardan sonra heç bir addım atılmır. Vaxt gəlib çatıb ki, konkret addımlar atılsın. İşğalçıya çox ciddi təzyiqlər göstərilməlidir ki, bu məsələ sülh yolu ilə öz həllini tapsın. Biz bunun tərəfdarıyıq. Həmişə bunun tərəfdarı olmuşuq.

Ancaq bununla bərabər, heç kəs üçün sirr deyil ki, bu gün regionda və xüsusilə Ermənistan ilə Azərbaycan arasında qüvvələr nisbəti kəskin dəyişilib. Azərbaycan hər bir sahədə böyük üstünlüyə nail olub və bu üstünlüyü əldən verməyəcək. Ermənistan ilə Azərbaycan arasında bütün sahələrdə fərq daha da böyüyəcək. Çünki biz inkişaf yolu ilə gedirik. Bizim

gələcəyə çox dəqiq və aydın baxışlarımız, proqramlarımız var. Ermənistan isə xarici ianə, dəstək olmasa yaşaya bilməz. Bunu artıq onların iqtisadi vəziyyəti göstərir. Bunu aprel hadisələri də göstərdi. Biz gücümüzü, o cümlədən hərbi gücümüzü bilirik və öz gücümüzə arxalanırıq. Aprel ayında döyüşlər zamanı hərbi potensialımızın ancaq kiçik bir hissəsi nümayiş etdirildi.

Mən hesab edirəm ki, bu, Ermənistan rəhbərliyi üçün yaxşı bir dərs oldu. Eyni zamanda, vasitəçilərə də, dünya ictimaiyyətinə də siqnal oldu ki, bu, dondurulmuş münaqişə deyil. Əgər kimsə fikirləşir ki, biz növbəti 20 il də mənasız danışıqlar aparacağıq, səhv edir. Biz mənasız danışıqlar aparmaq fikrində deyilik. İmitasiya naminə danışıqlar aparmayacağıq. Mənalı, məzmunlu danışıqlar dərhal, qeyd-şərtsiz başlanmalıdır. Əgər belə olarsa, məsələnin sülh yolu ilə həlli yaxınlaşa bilər.

May ayında Vyanada görüş keçirildi. Gələn həftə Rusiyada, Sankt-Peterburq şəhərində görüş keçiriləcək. Bizim ümidlərimiz var ki, bu məsələ sülh yolu ilə öz həllini tapa bilər və tapmalıdır. Buna nail olmaq üçün Ermənistan öz işğalçı siyasətindən əl çəkməlidir və bizim torpaqlarımızdan çıxmalıdır.

Bir daha qeyd etmək istəyirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycan cəmiyyətində fikir birliyi var. Aprel hadisələri xalqımızı daha da birləşdirdi. Azərbaycan xalqı dövlətə, ordumuza çox böyük dəstək göstərdi. Bu, xalqımızın mətinliyini, səviyyəsini göstərir.

Əminəm ki, biz bütün başqa sahələrdə də inkişaf yolu ilə gedəcəyik. Biz ölkəmizi inamla idarə edirik. Bir daha demək istəyirəm ki, iqtisadi və əlbəttə, enerji məsələləri həll olunur. Amma bizim əsas güc mənbəyimiz birliyimizdir. Bu gün bu salonda əyləşən insanlar Azərbaycan dövlətinin, xalqının birliyini nümayiş etdirirlər.

Hörmətli şeyx həzrətləri, mən bir daha Sizə öz hörmətimi ifadə etmək istəyirəm. Minnətdarlığımı bildirmək istəyirəm ki, ənənəvi olaraq bizi iftar süfrəsinə dəvət etmisiniz. Burada əyləşənlərə yeni uğurlar, Azərbaycan xalqına xoşbəxtlik, əmin-amanlıq, inkişaf arzulayıram. Sağ olun.

* * *

**Ş e y x ü l i s l a m  A l l a h ş ü k ü r  P a ş a z a d ə**: Zati-aliləri, etimadınıza, mənim haqqımda, dindarlar barədə dediyiniz xoş sözlərə görə Sizə təşəkkürümü bildirirəm. İnşallah, Allah-Taala gələcəkdə də bu cür görüşləri bizə nəsib edəcək. Allah-Taala bütün oruc tutanların, namaz qılanların, ibadət edənlərin ibadətlərini, namazlarını qəbul etsin. Allah-Taala şəhidlərimizə rəhmət eləsin. İnşallah, torpaqlarımız Sizin rəhbərliyinizlə tezliklə azad olsun.

Bir daha Sizə «Xoş gəlmisiniz!» – deyirəm.

* * *

*Sonra iftar süfrəsi açıldı.*

## BEYNƏLXALQ AVTOMOBİL FEDERASİYASININ PREZİDENTİ JAN TOD İLƏ GÖRÜŞ

*19 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Todu qəbul etmişdir.*

*Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Tod Bakıda «Formula-1» yarışının yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. O, tədbirin önəmini yüksək qiymətləndirərək, bunun təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə, o cümlədən regionda mühüm əhəmiyyət daşıdığını dedi.*

*«Formula-1» yarışının əhəmiyyətini qeyd edən dövlətimizin başçısı tədbirin beynəlxalq əməkdaşlığa töhfəsini verdiyini bildirdi. Prezident İlham Əliyev yarışın Azərbaycana gələn turistlərin ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı imkan yaratdığını vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olundu.*

## «FORMULA-1» AVROPA QRAN-PRİSİNİN AÇILIŞI MƏRASİMİNƏ VƏ FİNAL YARIŞINA BAXIŞ

*19 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iyunun 19-da «Formula-1» Avropa Qran-prisinin açılışı mərasiminə və final yarışına baxmışlar.*

*Odlar Yurdunun paytaxtı Bakı öz tarixində daha bir mötəbər beynəlxalq idman yarışına ev sahibliyi etdi. Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri – «Formula-1» Avropa Qran-prisi keçirildi. Növbəti dəfə bütün Avropanın idman nəbzi Bakıda – Şərq ilə Qərbin koloritinin cəmləşdiyi bu nadir şəhərdə döyündü.*

*«Formula-1» Avropa Qran-prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılışı mərasimi maraqlı anlarla yadda qaldı. Bu anlar təsdiqlədi ki, dünyada yarım milyard tamaşaçı auditoriyası olan «Formula-1» yarışının Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirir. I Avropa oyunlarından sonra «Formula-1» kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Təsadüfi deyil ki, gələn il Azərbaycan IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcək. Bütün bunlar ölkəmizin dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır.*

*Karnaval üslubunda hazırlanan açılış mərasimində Azərbaycan mədəniyyətinin incə koloriti, milli rəqslərimiz və ən əsası da xalqımızın əsrlərdir qoruyub saxladığı simvollar dünya tamaşaçılarına canlı yayımda nümayiş etdirildi. Beynəlxalq*

*idman aləmi müstəqillik yolu ilə uğurla addımlayan Azərbaycanı bir daha tanıdı. Qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmizin güclü potensialına bələd oldu. Dünya qarşıya qoyulan hər bir məqsədin, niyyətin sürətli inkişafı ilə örnək olan Azərbaycanda necə uğurla reallaşmasına şahidlik etdi. Milli mədəniyyətimizi «Formula-1» dəyərləri ilə birləşdirən açılış mərasimində alov, su, külək, irəli və birlikdə rəmz və modellərinin vəhdəti könüllülər, azərbaycanlı sənətçilər, milli qruplar və beynəlxalq ifaçılardan ibarət 626 nəfərlik heyət tərəfindən təqdim edildi.*

*Açılış mərasimi başa çatdıqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yarışın idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldular.*

*«Formula One Management»in prezidenti Berni Ekklstoun məlumat verdi ki, böyük bir ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, «Formula-1» rəhbərliyinin ofisləri, eləcə də 22 iştirakçının hər biri üçün 2 ədəd olmaqla, 44 dayanacaq tikilib. İkinci mərtəbə Paddok Klubun üzvləri üçün nəzərdə tutulub. Paddok Klubun üzvləri burada «pit-stop» əməliyyatlarını da rahatlıqla izləyirlər. Yarışın startı və finişi məhz bu ərazidə yerləşir.*

*Azərbaycan Dövlət Uşaq Filarmoniyasının 40 nəfərdən ibarət kollektivi tərəfindən Dövlət himnimiz ifa olundu.*

*Sonra «Formula-1» Avropa Qran-prisinin final mərhələsinə start verildi. Bir gün əvvəl keçirilən sıralama yürüşünün nəticəsinə əsasən, start xəttinə ən yaxın məsafədə «Mercedes»in pilotu Niko Rosberq dayandı. Onun ardınca isə «Red Bull Racing»in sürücüsü Daniel Rikkardo və «Ferrari»nin pilotu Sebastian Fettel yer aldılar. Beləliklə, 22 pilot qalib adı uğrunda mübarizəyə qatıldı.*

*Bakı Qran-prisində trekin uzunluğu 6 kilometrdir. Pilotlar 20 çətin döngəsi olan trekdə 51 dövrə vururlar. Yarışlar zamanı təhlükəsizlik ən yüksək səviyyədə təmin olunur. Turnirdə orta sürət saatda 210, maksimum sürət isə 340 kilometrdir. Bu da ən*

*sürətli yarışlar kateqoriyasına daxildir. Trek Bakının tarixi məkanlarından, dəniz sahilindən keçməklə, azarkeşlərdə xoş ovqat yaradır. Yarışları 30 mindən artıq tamaşaçının izləməsi üçün trass boyunca hər cür şərait yaradılıb.*

*Xatırladaq ki, Bakıda «Formula-1» Avropa Qran-prisinə iyunun 17-də start verildi. Yarışın ilk günündə əvvəlcə hər biri 2 pilotdan ibarət 11 komanda birinci test yürüşünə qatıldı. Pilotlar öz bolidləri ilə 6 kilometrlik Bakı trekində yarışdılar. İlk test yürüşündə «Mercedes»in sürücüsü Luis Hamilton 1 dəqiqə 46 saniyə ilə birinci oldu. Onun komanda yoldaşı Niko Rosberq mübarizəni ikinci, Valtteri Bottas üçüncü, Avropa Qran-prisinin rəsmi elçisi Fernando Alonso isə dördüncü yerdə başa vurdu. İyunun 17-də keçirilən ikinci test yürüşündə də «Mercedes»in pilotu Luis Hamilton birincilik qazandı.*

*İyunun 18-də «Formula-1» azarkeşləri Avropa Qran-prisinin ikinci günündə də maraqlı idman mübarizəsinin şahidi oldular. Üçüncü test yürüşünə də hər biri 2 pilotdan ibarət 11 komanda qoşuldu. Bu mərhələni «Mercedes» komandasının britaniyalı pilotu, üçqat dünya çempionu Luis Hamilton birinci, onun komanda yoldaşı Niko Rosberq ikinci, «Force İndia» komandasının pilotu Niko Hulkenberq isə üçüncü pillədə başa vurdular. Həmin gün baş tutan sıralama yürüşündə isə «Mercedes» komandasının pilotu Niko Rosberq rəqiblərini qabaqlayaraq, finiş xəttinə birinci çatdı. Bununla da Avropa Qran-prisinin iyunun 19-da keçiriləcək final mərhələsində pilotların düzülüşü müəyyən olundu.*

*Qeyd edək ki, «Formula-1» birnəfərlik, açıq təkərli avtomobil yarışları üzrə dünya çempionatıdır. Bu yarışlar 1950-ci ildən etibarən müntəzəm olaraq keçirilir. Qeyri-rəsmi olaraq «Formula-1» sürücüləri pilot, avtomobillər isə bolid adlandırılır. «Formula-1» yarışları Beynəlxalq Avtomobil Federasiyasının müəyyən etdiyi qaydalara əsasən təşkil olunur. Yarışlar il ərzində müxtəlif ölkələrdə keçirilən mərhələlərdən ibarət olur. Hər mərhələyə Qran-pri adı verilir. İlin sonunda bütün Qran-prilərdən toplanan xalların əsasında pilotlar və*

*komandalar arasında qalib müəyyən edilir və mükafatlandırılır. «Formula-1» yarışları dünyada ən çox televiziya izləyicisi toplamış yarışlardan biridir. 1950-ci ildə keçirilən ilk yarışda «Alfa Romeo» komandası və onun italiyalı pilotu Cüzeppe Farina birinci olub. Sonuncu çempion «Mercedes» komandası ilə britaniyalı pilot Luis Hamiltondur. Ən çox çempion adını «Ferrari» komandasının əfsanəvi alman pilotu Mixael Şumaxer qazanıb – 7 dəfə. Bakı Qran-prisi isə cari çempionatın 8-ci mərhələsidir.*

*«Formula-1» Avropa Qran-pri yarışlarının Bakı mərhələsi dünyada böyük maraq doğurdu. Almaniyalı Herman Tilke tərəfindən layihələndirilən şəhər treki qeyri-adiliyi ilə seçilir. Ona görə ki, Monte-Karlo, Melburn, Monako və Sinqapur kimi, Bakı Qran-prisi də şəhər trasına ev sahibliyi edirdi. Belə ki, Bakıda keçirilən yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edir, şəhərin ən qədim hissəsi olan və YUNESKO-nun dünya irsi siyahısına daxil edilən İçərişəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövr edirdi. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərin tam simasını görmək imkanı qazanmışdılar.*

*Gərgin idman mübarizəsi şəraitində keçən Avropa Qran-prisinin qalibi «Mercedes» komandasının üzvü Niko Rosberq oldu. Almaniyalı pilot məsafəni 1 saat 32 dəqiqə 52 saniyəyə qət etdi. İkinci yerə «Ferrari» komandasının almaniyalı pilotu Sebastian Fettel çıxdı. Üçüncü yerdə isə «Force İndia» komandasının meksikalı pilotu Serxio Peres qərarlaşdı.*

*Xatırladaq ki, bu, Niko Rosberqin mövsümdə 5-ci, karyerasında isə 19-cu qələbəsidir. Hesabına 25 xal əlavə edən Niko Rosberq ümumi sıralamada liderlik mövqeyini bir qədər də möhkəmləndirdi. Hazırda onun hesabında 141 xal var. Niko Rosberqin komanda yoldaşı, britaniyalı Luis Hamilton 117 xalla ikinci yerdə qərarlaşıb. Ümumi hesabda ilk üçlüyü 96 xalla Sebastian Fettel tamamladı.*

*Niko Rosberqə kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva isə mühəndislər kubokunu «Mercedes» komandasının nümayəndəsinə təqdim etdi.*

*Kuboklar ikinci yerin sahibi Sebastian Fettelə Gənclər və İdman naziri Azad Rəhimov, üçüncü yeri tutan Serxio Peresə isə Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov tərəfindən təqdim olundu.*

*Bununla da «Formula-1» üzrə dünya çempionatının 8-ci mərhələsi olan Bakı Avropa Qran-prisi başa çatdı.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Kareliyadakı Syamozero gölündə fırtına nəticəsində uşaqların həlak olması xəbəri məni dərindən kədərləndirib.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyun 2016-cı il*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Böyük Hersoqun Təvəllüd Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Lüksemburq xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyun 2016-cı il*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*Sankt-Peterburq*

*20 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Sankt-Peterburqun «Pulkovo-1» Beynəlxalq Aeroportunda dövlətimizin başçısını şəhərin qubernatoru Georgi Poltavçenko və digər rəsmi şəxslər qarşıladılar.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Sankt-Peterburq*

*20 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Sankt-Peterburq şəhərində Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşmüşdür.*

**V l a d i m i r  P u t i n:** Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

İcazə verin, sizi Peterburqda salamlayım!

Bizim hansı problemlə bağlı toplaşmağımız yaxşı məlumdur. Bu bizə çoxdan qalmış Qarabağ problemidir. Lakin mən bizim görüşümüzdən istifadə edib, ilk növbədə, yenicə başa çatmış Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu fonunda ikitərəfli münasibətlərimiz barədə danışmaq istərdim. Təəssüflə qeyd etmək istərdim ki, bizə məlum olan səbəblər üzündən həm keçən il, həm də bu il əmtəə dövriyyəsinin bir qədər azalmasını müşahidə edirik. Burada enerji daşıyıcılarının qiymətlərinin azalması da, valyutaların məzənnə fərqləri də təsirini göstərir. Biz sizinlə səbəbləri bilirik.

Mən bizim bugünkü görüşümüzdən istifadə edərək, həm bu barədə, həm də ikitərəfli görüşlərimizin məzmununu təşkil edən bütün məsələlər, o cümlədən humanitar aspektlər barədə danışmaq istərdim. Azərbaycanda rus dilinin öyrənilməsinə necə qayğı ilə yanaşıldığını, bizim ali məktəblərimizin filiallarının necə uğurla fəaliyyət göstərdiyini bilirik. Biz bütün bunları yüksək qiymətləndiririk. Ümidvaram ki, bu iş bütün istiqamətlər üzrə davam etdiriləcək.

Sizi görməyə çox şadam. Xoş gəlmisiniz!

**İ l h a m  Ə l i y e v**: Sağ olun, hörmətli Vladimir Vladimiroviç!

Əvvələn, bizi növbəti dəfə Rusiyaya səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür etmək istəyirəm. Fürsətdən istifadə edib Sizi

növbəti Peterburq Beynəlxalq İqtisadi Forumunun uğurla keçirilməsi münasibətilə də təbrik etmək istərdim. Builki forum yubiley forumudur. Forum bu illər ərzində qlobal siyasət və iqtisadiyyat məsələlərinin müzakirəsi və həlli üçün ən mühüm məkanlardan birinə çevrilib. Azərbaycan forumun işində fəal iştirak edib. Bizə xüsusilə xoşdur ki, Azərbaycanda Rusiya Bankı tərəfindən qismən maliyyələşdiriləcək iri energetika obyektinin yaradılması barədə sənəd Sizin iştirakınızla imzalanıb.

Əlbəttə, bugünkü əsas diskussiyanın mövzusu Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsidir. Mən bu görüşü keçirmək təşəbbüsünə və məsələnin həllində Rusiyanın oynadığı konstruktiv rola görə Sizə təşəkkür edirəm. Münaqişə uzanıb. Rusiyanın və ATƏT-in Minsk qrupunun digər həmsədrlərinin bəyan etdiyi kimi, status-kvo qəbuledilməzdir. Biz bu bəyanatı tamamilə dəstəkləyirik. Lakin status-kvonun dəyişməsi üçün 20 ildən artıq müddətdə Azərbaycanın işğal altında olan ərazisinin işğaldan azad edilməsi başlanmalıdır. Bu gün biz bu barədə ətraflı danışacağıq. Biz ümid edirik ki, son 2 ildə praktiki olaraq, aparılmayan danışıqlar prosesinə konstruktiv dinamika verməyə nail olacağıq.

Əlbəttə, bu görüş həm iqtisadi, həm də digər sahələrdə münasibətlərimizin geniş spektrini müzakirə etmək üçün yaxşı imkandır. Düşünürəm ki, əmtəə dövriyyəsinin azalması müvəqqəti haldır. Biz onun bərpa edilməsi və artırılması yollarını axtarırıq. Düşünürəm ki, belə də olacaq. Energetika sahəsində fəal qarşılıqlı əlaqələrimiz, nəqliyyat sahəsində əməkdaşlıqda yaxşı perspektivlər var. Humanitar mövzu həmişə xüsusi əhəmiyyət kəsb edib. Bu, xalqlarımızı bir-birinə yaxınlaşdıran mövzudur. Bunsuz münasibətlər qurmaq mümkün deyil. Bizim münasibətlərimizi həm Rusiya, həm də Azərbaycan strateji tərəfdaşlıq münasibətləri kimi səciyyələndirir.

Dəvətə görə bir daha təşəkkürümü bildirirəm və ümid edirəm ki, Sizi tezliklə Azərbaycanda görəcəyəm.

**V l a d i m i r  P u t i n:** Sağ olun.

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*Sankt-Peterburq*

*20 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın iyunun 20-də Sankt-Peterburq şəhərində görüşü olmuşdur.*

*Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin görüşünün yekunlarına dair birgə bəyanat qəbul edilib.*

*Prezidentlər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müntəzəm əlaqələrin mühüm əhəmiyyət daşıdığını qeyd edərək, ATƏT-in Minsk qrupunun işini tamamlayacaq bu formatda görüşləri davam etdirmək barədə razılığa gəldilər. Dövlət başçıları münaqişənin nizamlanmasında inkişafa şərait yaratmağa imkan verən bir sıra məsələlərdə qarşılıqlı anlaşmanın əldə olunduğunu ifadə etdilər.*

## MAŞTAĞA–BİLGƏH YOLUNUN, NARDARANDAKI ABŞERON VƏ NƏSRULLA ƏSGƏROV KÜÇƏLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*21 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Sabunçu rayonu ərazisində əsaslı şəkildə yenidən qurulan Maştağa–Bilgəh yolunun, həmçinin Nardaran qəsəbəsində Abşeron və Nəsrulla Əsgərov küçələrinin açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına Sabunçu rayonu ərazisində həyata keçirilən yol-tikinti işləri barədə məlumat verdi.*

*Prezident İlham Əliyevin 2016-cı il 7 mart tarixli Sərəncamı ilə əsaslı şəkildə yenidən qurulan Maştağa–Bilgəh avtomobil yolu 63 min nəfər əhalinin yaşadığı 3 qəsəbəni birləşdirir. Uzunluğu 9 kilometr olan bu yolun hərəkət hissəsinin eni əvvəllər 7 metr idi. Yolun asfalt-beton örtüyünün yararsız vəziyyətə düşməsi, səkilərin olmaması həm avtonəqliyyat vasitələrinin normal hərəkətində, həm də vətəndaşların rahat və təhlükəsiz gediş-gəlişində problemlər yaradırdı. Tikinti işləri zamanı yolun eni 9,5 metrə qədər genişləndirilib. Bundan başqa, yol yatağının deformasiyaya uğramış hissələri bərpa edilib, köhnə asfalt-beton örtüyü yenilənib.*

*Maştağa–Bilgəh avtomobil yolunun kənarlarında 1 və 2 metr enində səkilər tikilib, yeni işıq dirəkləri və yol nişanları qoyulub. Bu yolun yenidən qurulması ilə nəqliyyat vasitələrinin inşası davam edən Dənizkənarı dairəvi və Zabrat–Maştağa–Buzovna avtomobil yollarına rahat və maneəsiz çıxışı təmin olunub.*

*Prezident İlham Əliyevə Nardaran qəsəbəsindəki Abşeron və Nəsrulla Əsgərov küçələrinin yenidən qurulması layihəsi barədə məlumat verildi.*

*Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Nazirlər Kabinetinin sərəncamı ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinin ehtiyat fondundan «Azəravtoyol» ASC-yə ayrılan vəsait hesabına bu küçələrdə tikinti altına düşən yaşayış və qeyri-yaşayış obyektlərinin köçürülməsi, yolların genişləndirilərək yenidən qurulması, su, kanalizasiya və rabitə xətlərinin yenilənməsi işləri aparılıb. 2016-cı ilin martında imzalanan sərəncamla işlərin davam etdirilməsi üçün «Azər-avtoyol» ASC-yə əlavə vəsait ayrılıb və küçələrin yenidən qurulması işləri bu qurum tərəfindən yekunlaşdırılıb.*

*Bildirilib ki, 2360 metr uzunluğunda Abşeron küçəsinin yenidənqurmadan əvvəl hərəkət zolaqlarının sayı 2, eni isə orta hesabla 8 metr olub. Küçənin uzun müddət təmir edilməməsi, ensizliyi, hərəkət hissəsinin sıradan çıxması, səkilərin və işıqlandırma sisteminin olmaması nəqliyyatın və piyadaların hərəkətində böyük çətinliklər yaradırdı. Layihəyə əsasən, yolun eni genişləndirilərək, dördzolaqlı olmaqla, 18 metrə çatdırılıb. Küçəboyu hər 2 istiqamət üzrə 2 metr enində yeni səkilər tikilib. Abşeron və Nəsrulla Əsgərov küçələrinin kəsişməsində yeni dairə inşa olunub.*

*Nardaran qəsəbəsinin mərkəzindən «Rəhimə xanım» ziyarətgahına qədər 1050 metr uzunluğunda Nəsrulla Əsgərov küçəsinin eni əvvəllər 6 metr olub. Layihə çərçivəsində yolun eni genişləndirilərək, 16 metrə çatdırılıb. İkitərəfli işıqlandırma dirəkləri quraşdırılaraq, tam yeni müasir yol infrastrukturu yaradılıb. Hazırda bu küçə 2 gediş və 2 gəliş olmaqla, 4 hərəkət zolağından ibarətdir. Burada hər 2 istiqamət üzrə 2 metr enində yeni səkilər tikilib. «Rəhimə xanım» ziyarətgahının qarşısında avtomobillər üçün dayanacaq da yaradılıb.*

*Yüksək keyfiyyətlə aparılan işlər zamanı hər 2 küçəboyu yeni hasarlar tikilib, həyətlərə dekorativ giriş qapıları qoyulub, yeni*

*yeraltı qaz, işıq, rabitə, su və kanalizasiya xətləri çəkilib, köhnələri isə tamamilə təzələnib.*

*Azərbaycan Prezidentinə hazırda inşası davam etdirilən Ramana–Maştağa avtomobil yolu ilə bağlı da məlumat verildi.*

*Dövlətimizin başçısının bu ilin martında imzaladığı sərəncama əsasən, tikintisi «Azəravtoyol» ASC tərəfindən davam etdirilən Ramana–Maştağa yolunun uzunluğu 11500 metrdir. Yolun hazırda eni 6-7 metrdir. Genişləndirildikdən sonra yolun eni 8-9 metrə çatdırılacaq, hərəkət zolaqlarının sayı isə 2 olacaq. Təmir işləri zamanı su, qaz, elektrik və rabitə xətləri köçürülüb.*

*Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Maştağa–Bilgəh yolunun, həmçinin Nardaran qəsəbəsində Abşeron və Nəsrulla Əsgərov küçələrinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı yeni yolda avtomobili idarə etdi.*

## NARDARAN QƏSƏBƏSİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*21 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Sabunçu rayonunun Nardaran qəsəbəsində sakinlərlə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Bu gün Nardaran qəsəbəsinin infrastrukturunun yenilənməsi işində çox əlamətdar bir gündür. Daxili yolların təmiri başa çatıb və biz bu gün birlikdə bu yolların açılışını qeyd edirik.

Bir müddət bundan əvvəl Nardaran sakinləri mənə məktubla müraciət etmiş, qəsəbəyə dəvət etmişlər. Mən hesab etdim ki, əliboş gəlməyim. O vaxt gəlim ki, artıq bu yollar hazır olsun. Bu gün bu yollar açılır. Mən çox şadam ki, artıq bu yollar tam gözəl, yeni görkəm alıb. Həm Maştağa–Bilgəh yolu yenidən qurulub, həm də Nardaran qəsəbəsinin daxili yolları təmir olunub, genişlənib. Köçürülmüş binalar üçün lazımi səviyyədə kompensasiya verilib. Bu işlərdə qəsəbə sakinləri də iştirak edirlər. Yəni bu, gözəl layihədir. Bu layihə göstərir ki, Azərbaycanın hər bir yeri, hər bir guşəsi, hər bir qəsəbəsi diqqət mərkəzindədir. Mən çalışıram Azərbaycanda elə bir qəsəbə qalmasın ki, onun infrastrukturu lazımi səviyyədə olmasın. O cümlədən Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafı prosesi sürətlə gedir. Bütün qəsəbələrdə infrastruktur layihələri icra edilir. Qəsəbələrdə elektrik enerjisi, qaz, su təchizatı yaxşılaşır. Demək olar ki, bu infrastruktur layihələrinin böyük əksəriyyəti artıq həll olunub. O ki qaldı yol infrastrukturuna, əlbəttə ki, bu infrastruktur digər layihələrlə uzlaşmalıdır. Xüsusilə kanalizasiya xətlərinin çəkilişi ön planda olmalıdır ki, sonra yolların qazılmasına ehtiyac qalmasın.

Bakı bizim gözəl şəhərimizdir, dünyanın ən gözəl şəhərlərindən biridir. Əlbəttə ki, Bakıətrafı qəsəbələr də bu

səviyyəyə yaxın olmalıdır. Ona görə qəsəbədə yaşayan insanların şəraiti, iş yerləri, abadlıq işləri öz həllini tapmalıdır və tapır. Əminəm ki, gələcək illərdə bu günə qədər həll olunmayan məsələlər də öz həllini tapacaq və bütün qəsəbələrdə daha da yaxşı şərait yaradılacaq.

Əlbəttə, iş yerlərinin açılması prosesi daim getməlidir. Son illərdə Azərbaycanda bu istiqamətdə böyük işlər görülüb, ancaq əhali artır. Bu da iqtisadi inkişafımızın təzahürüdür. Çünki insanlar daha da yaxşı yaşayır və beləliklə, demoqrafik vəziyyət yaxşılaşır. Ancaq eyni zamanda, bu, yeni iş yerlərinin yaradılmasını tələb edir. Ölkə iqtisadiyyatı, sənaye istehsalı, bax, bu demoqrafik vəziyyətə uyğun şəkildə inkişaf etməlidir. Ona görə iş yerlərinin yaradılması daimi prosesdir. Baxmayaraq ki, son illər ərzində 1 milyondan artıq iş yeri yaradılıbdır, biz, əlbəttə, bu məsələni daim diqqət mərkəzində saxlamalıyıq. İş yerlərinin yaradılması investisiya tələb edir, dövlət, özəl sektor sərmayə qoymalıdır. Buna görə də biznes mühiti daha da yaxşı olmalıdır. Bu istiqamətdə son vaxtlar çox ciddi addımlar atılır, islahatlar dərinləşir və beləliklə, ölkəmizin dayanıqlı inkişafı təmin edilir.

Ölkəmizin hər bir yerində quruculuq, abadlıq işləri aparılır. İctimai infrastruktur yaradılır – məktəblər, tibb mərkəzləri, ictimai binalar, parklar. Mən istəyirəm ki, hər bir yaşayış məntəqəsində çox gözəl şərait olsun, o cümlədən Nardaran qəsəbəsində. Son aylar ərzində görülən işlər göz qabağındadır. Buna heç bir şərh verməyə də ehtiyac yoxdur. Nardaran qədim yaşayış yeridir. Burada əsrlərboyu insanlar yaşayıb, yaradıb, dövlətçiliyə həmişə sadiq olublar. Bu qəsəbənin sakinlərinin rahat yaşaması üçün Azərbaycan dövləti hər şeyi edir.

Azərbaycanın hər bir yerində qanunun aliliyi təmin edilməlidir və edilir, hər bir yerdə insanlar rahat yaşamalıdır. Azərbaycanda bütün azadlıqlar təmin edilir. Azərbaycan bu baxımdan çox sürətlə inkişaf edən ölkədir. O cümlədən dini azadlıqlar təmin edilir. Mən bu yaxınlarda iftar süfrəsində bu məsələlərlə bağlı fikirlərimi bir daha demişəm. Azərbaycanda

məscidlər, digər dinlərin məbədləri tikilir, təmir olunur. Biz nadir bir ölkədə yaşayırıq. Bunu biz yaratmışıq. Bütün dinlərin nümayəndələri rahat yaşayırlar və ölkəmizin inkişafına öz töhfələrini verirlər. Ona görə bütün bu məsələlər kompleks şəkildə öz həllini tapır.

Azərbaycan xalqı və Azərbaycan dövləti öz milli, dini ənənələrinə sadiqdir. Bizim bu işdə dünya miqyasında oynadığımız rol müsəlman aləmi tərəfindən yüksək qiymətləndirilir. Müsəlman aləmini birləşdirən ən böyük təşkilat İslam Əməkdaşlıq Təşkilatıdır. İslam Əməkdaşlıq Təşkilatının, onun rəhbərlərinin Azərbaycanla, Azərbaycanda gedən proseslərlə bağlı fikirləri – bunlar mətbuatda dərc edilib – bizdə dini məsələlərə onlar tərəfindən verilən yüksək qiymət ən böyük göstəricidir. Bunu biz demirik, bunu müsəlman aləmini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı deyir. Bu təşkilat həmişə bizi dəstəkləyir, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyir.

Yəni Azərbaycanda bütün məsələlər ardıcıl şəkildə, düşünülmüş siyasət əsasında öz həllini tapır. Əsas məsələ ondan ibarətdir ki, ölkənin uğurlu inkişafı davam etsin, Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşasın, ictimai asayiş təmin edilsin, insanlar özlərini rahat hiss etsinlər, inkişaf üçün imkan olsun, azadlıqlar təmin edilsin, infrastruktur yaradılsın və beləliklə, biz gələcəyə daha da inamla baxaq və taleyimizi bundan sonra da öz əlimizdə saxlayaq, bundan sonra da müstəqil siyasət aparaq. Müstəqillik bizim ən böyük sərvətimizdir. 25 ildir ki, biz müstəqil həyat yaşayırıq və ancaq müstəqillik dövründə Azərbaycan xalqı artıq böyük nailiyyətlərə çata bilib.

Əsrlərboyu başqa dövlətlərin tərkibində yaşamışıq. Abşeron yarımadasının zəngin neft yataqlarının bəhrəsini Azərbaycan xalqı, demək olar ki, lazımi səviyyədə görməyib. Baxmayaraq ki, hələ XIX əsrdə Azərbaycan dünya neftinin yarısını verirdi, XX əsrin əvvəllərində, ortalarında Sovet İttifaqı miqyasında

xüsusi yer tuturdu. Ancaq Sovet İttifaqı dağılanda hamımız yaxşı xatırlayırıq biz nəyi gördük. Dağılmış sənaye, bərbad vəziyyətdə olan infrastruktur, torpaqlarımızın işğalı, xaos, anarxiya, özbaşınalıq, silahlı quldur dəstələri meydan oxuyurdu. Ancaq bu gün biz öz taleyimizin sahibiyik. Bunu hər bir Azərbaycan vətəndaşı qiymətləndirməlidir. Hər bir Azərbaycan vətəndaşı çalışmalıdır ki, bu müstəqilliyi daha da möhkəmləndirsin və müstəqilliyin əleyhinə heç bir addım atmasın. Birincisi, bu cinayətdir. İkincisi, bu yolverilməzdir, mənəvi nöqteyi-nəzərdən də yolverilməzdir.

Bu gün cəmiyyətdə bütövlükdə bu məsələlərlə bağlı fikir ayrılığı yoxdur. Hər bir vətənpərvər Azərbaycan vətəndaşı çalışır ki, öz dövlətinin gücünü artırsın, o cümlədən Nardaran sakinləri. Onların da bu işlərdə çox dəyərli töhfələri var. Əminəm ki, burada bundan sonra işlər daha da yaxşı gedəcək.

Mən bu gün xüsusilə Nardaran qəsəbəsinə gəlmişəm ki, bu mübarək Ramazan ayında sizinlə birlikdə olum, sizi, bütün Azərbaycan xalqını bir daha bu mübarək ay münasibətilə təbrik edim və bu gözəl yenilikləri birlikdə qeyd edək. Bundan sonra da daim yeniliklər olacaq. Bilməlisiniz ki, bu qəsəbənin problemləri digər qəsəbələrin problemləri kimi, daim diqqət mərkəzindədir. Bu gün Bakıətrafı qəsəbələrdə həyata keçirilən infrastruktur layihələri bunu göstərir. Bütün qəsəbələrdə, harada ki, indi ehtiyac var, yol, su, kanalizasiya xətləri çəkilir, məktəblər tikilir, iş yerləri açılır. Bu proses daha da sürətlə getməlidir və gedəcək. Sizi bir daha salamlayıram, sizə uğurlar arzulayıram.

**Ağasəid Orucov** *(məktəb direktoru)*: Möhtərəm cənab Prezident, qəsəbəmizə xoş gəlmisiniz! İcazə verin, bu mübarək günlərdə öz dəyərli vaxtınızı sərf edib bizimlə görüşə gəldiyinizə görə qəsəbəmizin əhalisi adından Sizə minnətdarlığımızı bildirim.

Cənab Prezident, ölkəmizin hər yerində olduğu kimi, bizim Nardaran qəsəbəsində də gördüyünüz kimi, böyük abadlıq-

quruculuq işləri həyata keçirilib. Qəsəbəmizdə qaz, su, işıq barədə, demək olar ki, heç bir problem qalmayıb.

**İ l h a m Ə l i y e v:** Həll olunub?

**A ğ a s ə i d O r u c o v:** Bəli, həll olunub. Dünyada iqtisadi-siyasi böhranın getdiyi bir dönəmdə ölkəmizin daxili və xarici siyasətində apardığınız uğurlu işlərin hamısını hər birimiz xatırlayırıq, hər birimizin bu barədə məlumatı var. Xüsusilə qeyd etmək istəyirəm ki, son vaxtlarda, yəni aprel ayının əvvəllərində ordumuzun erməni işğalçılarına qarşı apardığı 4 günlük müharibədə Azərbaycan əsgərinin göstərdiyi şücaət, cənab Prezident, Sizin təbirinizcə desək, sübut etdi ki, Azərbaycan güclü dövlətdir, onun güclü ordusu var. Bizim təbirimizcə desək, həmin ordunun başında öz xalqını, Vətənini canından da artıq sevən Sizin kimi Ali Baş Komandanımız var, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Sağ ol.

**A ğ a s ə i d O r u c o v:** Sizinlə fəxr edirik, qürur duyuruq, cənab Prezident. Məhz Sizin qətiyyətli siyasətiniz nəticəsində Ermənistanın prezidenti son qısa müddət ərzində 2 dəfə danışıqlar masası arxasında oturmağa məcbur oldu. Biz bunu dünən də hiss etdik, gördük. Bu yolda Sizə uğurlar arzu edirik. Cənab Prezident, Sizi əmin edirik ki, bütün Azərbaycan əhalisi kimi, Nardaran əhalisi də Sizin yürütdüyünüz siyasəti bəyənir – bunu sözdə demirəm, həqiqətən də belədir – dəstəkləyir və bu yolda Sizə uğurlar arzu edirik. İnanırıq ki, inşallah, Sizin rəhbərliyiniz ilə torpaqlarımız tezliklə işğaldan azad olunacaq. Bu mübarək Ramazan günlərində Sizə və ailənizə ulu Tanrıdan cansağlığı, uzun ömür arzulayırıq. Allah Sizi qorusun, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

*Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev prezident İlham Əliyevə son dövrlərdə Nardaranda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Qeyd etdi ki, qəsəbədə mədrəsənin tikintisi davam edir.*

**İ l h a m Ə l i y e v:** Tezliklə mədrəsə tikilməlidir və orada tədris prosesi başlanmalıdır. Mən şeyx həzrətləri ilə bu yaxınlarda bu barədə danışmışam.

**A ğ a s ə i d O r u c o v:** Sökülәndə elə dedilər, cənab Prezident. Adil müəllim gəldi, camaatla görüş keçirdi.

**A d i l V ə l i y e v:** Möhtərəm Prezident, burada 9700 nəfər əhali yaşayır. 2 tam orta məktəbin, xəstəxananın, poliklinikanın binaları Sizin göstərişinizlə tam təmir olunub. İş yerləri ilə bağlı vaxtilə heç kəsə olmayan güzəştlər edilib. Balıqçılıqla məşğuldurlar, özlərinin şəxsi təsərrüfatları var, tədarük edirlər. Yeni iş yerlərinin yaradılması ilə bağlı tapşırıq vermisiniz. Bununla bağlı İqtisadiyyat Nazirliyi ilə danışmışıq, işlər görüləcək.

**İ l h a m Ə l i y e v:** Burada kiçik müəssisələr yaradılmalıdır ki, insanları işlə təmin edə bilək.

*Qəsəbə sakinləri bu yaşayış məntəqəsində aparılan silsilə abadlıq-quruculuq işlərinə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər. Qeyd olundu ki, yerli əhalinin məşğulluğunun tam təmin olunması və ixrac imkanlarının artırılması üçün də tədbirlər davam etdirilir.*

*Prezident İlham Əliyev bu baxımdan Nardaranda istixana komplekslərinin yaradılmasına xüsusi diqqət yetirməyin vacibliyini vurğulayaraq dedi:*

– İndi istixanalara daha böyük maraq var. Çünki bazar açılıb. Biz daha da böyük bazarlara çıxırıq. Bu bazarlarda bizim məhsulumuzu bəyənirlər, gözləyirlər. Ona görə istixanaların yaradılmasına diqqət artırılmalıdır. İndi Bakıda işləyənlər də var. Çoxdur Bakıda işləyənlər?

**A d i l V ə l i y e v:** Bəli, buradan Bakıda işləyənlər çoxdur. Şəhərdə tikintidə, ticarətdə işləyirlər. Müxtəlif yerlərdə, neft şirkətlərində işləyənlər, ali məktəblərdə dərs deyənlər var. Çoxdur.

**İ l h a m Ə l i y e v:** Orta məktəblər də tam hazırdır. Yəni ehtiyac yoxdur, 2 məktəbdir.

**A d i l V ə l i y e v:** Ehtiyac yoxdur. Dövlət Proqramında 295 saylı məktəbin təmiri nəzərdə tutulur, onu da bu yaxınlarda başlayacağıq.

**İ l h a m Ə l i y e v:** Burada insanların asudə vaxtlarını səmərəli keçirmələri üçün ictimai yerlər də olmalıdır.

**A d i l V ə l i y e v:** Hamısı var, möhtərəm Prezident. Bayaq gördünüz, orada idman kompleksi var.

**İ l h a m Ə l i y e v:** Artıq hazırdır?

**A d i l V ə l i y e v:** Bəli, hazırdır. Bu yaxınlarda bu binanın da açılışını edəcəklər. Burada Mədəniyyət evi, «Azərişıq»ın idarəsi yerləşir, aşağıdakı isə Fövqəladə Hallar Nazirliyinin binasıdır.

**İ l h a m Ə l i y e v:** İndi baxın, digər ictimai yerlər də olsun ki, insanlar yığışıb otura bilsinlər, asudə vaxtlarını keçirsinlər. Mən çoxdandır burada olmamışam.

**A ğ a s ə i d O r u c o v:** Prezident olmadığınız vaxt gəlmişdiniz.

**İ l h a m Ə l i y e v:** Bəli, o vaxt gəlmişdim. O vaxt məndən xahiş etmişdilər. Pirə də gəlmişdim, görüşmüşdük o vaxt. Amma indi yaxşı fürsət oldu, həm Ramazan ayında, həm də bu yolların açılışı münasibətilə gəldim.

**A ğ a s ə i d O r u c o v**: Çox təşəkkür edirik. Hər şey çox yaxşıdır. İnşallah, daha da yaxşı olacaq.

**İ l h a m Ə l i y e v:** Qaz, işıq, hər şey qaydasındadır?

**A d i l V ə l i y e v:** Hər şey qaydasındadır. Sərfiyyat 70 faiz aşağı düşüb. Tam ödəniş var. Çünki insanlara güzəşt olunur.

**İ l h a m Ə l i y e v:** Əvvəllər bir az ödəmirdilər. «Bir az» deyəndə, yumşaq deyirəm.

**A ğ a s ə i d O r u c o v:** 42 milyon manat borc yığılmışdı.

**A d i l V ə l i y e v:** Möhtərəm Prezident hamısını sildi.

**İ l h a m Ə l i y e v:** Onu sildik. Dedik ki, bunu silək, amma bundan sonra ödəyin.

**A ğ a s ə i d O r u c o v:** Daha olmayacaq. Çox sağ olun, təşəkkür edirik.

**A d i l  V ə l i y e v:** Sərfiyyat da 70 faiz aşağı düşüb. Qaz, su, işıq tam qaydasındadır.

**A ğ a s ə i d  O r u c o v:** Çox yaxşıdır. Heç bir problem olmayacaq. Cənab Prezident, çıxışımda da qeyd etdim, həqiqətən, bir problemimiz olmayıb. Daim işığımız, qazımız olub, çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** İndi qəsəbədaxili yollara da baxın. Siz də, «Azəravtoyol» da bu yolları düzəltmisiniz, amma digər yollar da var. Onları da belə səviyyəyə gətirmək lazımdır.

**S a l e h  M ə m m ə d o v:** Baş üstə, cənab Prezident.

**A d i l  V ə l i y e v:** 2013-cü ildə Sizin sərəncamınızla 2 milyon manat ayrılmışdı. O vaxt Zabrat və Nardaran qəsəbələrinin yollarına 120 min kvadratmetr asfalt vurulub. Burada küçələrin çoxu asfaltdır, çox yaxşıdır.

**İ l h a m  Ə l i y e v:** Yəqin ki, torpaq küçələr də var.

**A d i l  V ə l i y e v:** Var, amma o biri qəsəbələrlə müqayisədə azdır.

**İ l h a m  Ə l i y e v:** Yaxşı, gedim ziyarət edim.

**S a k i n l ə r:** Çox sağ olun. Təşəkkür edirik.

# NARDARANDAKI «RƏHİMƏ XANIM» MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİ İLƏ TANIŞLIQ

*21 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Sabunçu rayonunun Nardaran qəsəbəsindəki «Rəhimə xanım» məscid-ziyarətgah kompleksi ilə tanış olmuşdur.*

*Kompleksin rəisi Hacı Ədalət dövlətimizin başçısını salamladı.*

**H a c ı Ə d a l ə t:** Xoş gəlmisiniz, cənab Prezident!

**İ l h a m Ə l i y e v:** Salam. Xoş gördük. Necəsiniz?

**H a c ı Ə d a l ə t:** Sağ olun. Siz necəsiniz?

**İ l h a m Ə l i y e v:** Yaxşıyam. Sağ olun.

**H a c ı Ə d a l ə t:** Gələn qədəmləriniz mübarək olsun. Bu əziz bayramda bizi yad etmisiniz. Xoş gəlib, səfa gətirmisiniz.

**İ l h a m Ə l i y e v:** Bəli, mən xüsusi olaraq bu mübarək ayda gəlmişəm.

**H a c ı Ə d a l ə t:** Siz buraya əvvəl də gəlmisiniz, hədiyyəniz də var.

**İ l h a m Ə l i y e v:** Bəli, olub. Yadınızdadır?

**H a c ı Ə d a l ə t:** Bəli. Siz buraya 2 hədiyyə vermisiniz. Onlardan biri pansionatdır.

**İ l h a m Ə l i y e v:** Bəli, pansionatı vermişəm, düzdür.

**H a c ı Ə d a l ə t:** Buraya bir dənə də çilçıraq hədiyyə etmisiniz. Allah Sizə cansağlığı versin.

**İ l h a m Ə l i y e v:** O vaxt burada ağsaqqallarla görüşmüşdüm. O görüşdə Siz də iştirak edirdiniz?

**H a c ı Ə d a l ə t:** Bəli, Siz pansionatın sənədlərini şəxsən mənə verdiniz. Çox sağ olun, Allah Sizə cansağlığı versin.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

*«Rəhimə xanım» məscid-ziyarətgah kompleksi Azərbaycanın ən qədim dini məbədlərindən biridir. VIII əsrdə inşa olunan bu ziyarətgah əhali və dövlət tərəfindən bu günədək qorunub saxlanılıb.*

*Qeyd edək ki, 1994-cü ildə ulu öndər Heydər Əliyev bu müqəddəs məkanı ziyarət edib.*

*Azərbaycan Prezidentinin dini və tarixi abidələrə qayğıkeş münasibəti burada da hiss olunur. Prezident İlham Əliyev 1998-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində çalışarkən, bu ziyarətgahda olub. Dövlətimizin başçısının həmin vaxt bu müqəddəs məkan üçün 10 hektar torpaq sahəsinin ayrılması barədə qaldırdığı təşəbbüs nəticəsində ziyarətgahın ərazisi xeyli genişlənib. Prezident İlham Əliyev, həmçinin 2004-cü ildə bu dini kompleksə hədiyyələr təqdim edib.*

*«Rəhimə xanım» məscid-ziyarətgah kompleksi ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.*

## SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2016-cı il*

## XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə genişləndirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Xorvatiya xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2016-cı il*

## ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ BRİDCET BRİNK İLƏ GÖRÜŞ

*23 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də ABŞ Dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini Bridcet Brinki qəbul etmişdir.*

*Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı ABŞ-a son səfərini və Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirakını məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev səfəri çərçivəsində ABŞ-ın vitse-prezidenti Co Bayden, Dövlət katibi Con Kerri və Ticarət naziri Penni Pritzker ilə çox səmərəli və mühüm müzakirələrin aparıldığı görüşlər zamanı ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi işinə sadiqliyin bir daha təsdiqləndiyini vurğuladı. Dövlətimizin başçısı ABŞ Prezidenti Barak Obamaya Bakıda keçirilən XXIII Beynəlxalq «Xəzər Neft və Qaz–2016» sərgi və konfransının iştirakçılarına ünvanlanmış məktubuna və məktubda dostluq münasibətlərimizin və əməkdaşlığımızın həqiqi mahiyyətini əks etdirən müsbət fikirlərinə görə minnətdarlığını bildirdi. ABŞ Dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini Bridcet Brinkin Azərbaycana keçənilki səfərini xatırladan prezident İlham Əliyev həmin səfərin ölkələrimiz arasında əlaqələrin inkişafında müsbət dinamika baxımından önəmli məqam olduğunu qeyd etdi. Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın gündəliyinin çox geniş sahələri əhatə etdiyini deyən prezident İlham Əliyev ölkələrimizin təhlükəsizlik, enerji və regional inkişaf kimi, bir sıra məsələlərlə bağlı birgə əməkdaşlıq həyata keçirdiyini vurğuladı. Hazırda Azərbaycan ilə ABŞ arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı Birləşmiş Ştatların*

*Dövlət katibinin köməkçisinin müavini Bridcet Brinkin ölkəmizə səfərinin əlaqələrimizin uğurla inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əmin olduğunu bildirdi.*

*Regiona səfəri çərçivəsində yenidən Azərbaycanda olmasından məmnunluğunu ifadə edən Bridcet Brink bildirdi ki, səfərdə məqsəd ölkələrimiz arasında mövcud olan bütün sahələr üzrə tərəfdaşlıq əlaqələrini daha da möhkəmləndirməkdir. Prezident İlham Əliyevin Vaşinqtona uğurlu səfərinə və keçirdiyi görüşlərə toxunan ABŞ Dövlət katibinin köməkçisinin müavini özünün ölkəmizə keçənilki səfərini də xatırlatdı. Bridcet Brink ölkələrimiz arasında davamlı əməkdaşlığın daha yüksək mərhələyə qaldırılması istiqamətində səylərini əsirgəməyəcəyini qeyd etdi. Qonaq Bakıda keçirilmiş «Formula-1» Avropa Qran-pri yarışlarının uğurla başa çatması münasibətilə prezident İlham Əliyevi təbrik etdi.*

# XƏTAİ RAYONUNDA HƏRBÇİLƏR ÜÇÜN İNŞA EDİLMİŞ BİNADA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*25 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Bakının Xətai rayonunda hərbçilər üçün inşa edilmiş yaşayış binasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Müdafiə naziri Zakir Həsənov və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına bina haqqında məlumat verdilər.*

*Bildirildi ki, bina Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə prezident İlham Əliyevin 2010-cu ildə imzaladığı sərəncama uyğun olaraq tikilib. Sərəncama əsasən Müdafiə Nazirliyinin xidməti mənzilə və mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan həqiqi hərbi xidmət qulluqçuları üçün Bakı şəhərində yaşayış binalarının tikintisinin həyata keçirilməsi məqsədi ilə 2010-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə vəsait ayrılıb. Yeni bina bir girişli olmaqla, 14 mərtəbəlidir. Burada, ümumilikdə, 65 mənzil var. Onlardan 39-u ikiotaqlı, 26-sı isə üçotaqlıdır. İkiotaqlı mənzillərin sahəsi 91, üçotaqlı mənzillərin sahəsi isə 100 kvadratmetrdir. Binada sərnişin və yük liftləri quraşdırılıb. Domofon, yanğınsöndürmə, siqnalizasiya, havalandırma və kombi sistemləri ilə təmin olunan mənzillərə telefon, internet, televiziya xətləri çəkilib. Təbii qazla təchiz olunan binanın həyətində yanğın və içməli su anbarları inşa edilib, idman avadanlıqları qoyulub, yaşıllıq zolağı*

*salınıb, işıqlandırma sistemi quraşdırılıb. Binanı daimi su ilə təchiz edən nasos stansiyası və zirzəmidə müasir avtomobil dayanacağı yaradılıb.*

*Bu cür müasir yaşayış binalarının inşası sübut edir ki, hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək, onların məişət şəraitini yaxşılaşdırmaq məqsədi ilə mühüm layihələr icra olunur. Milli Ordumuzun şəxsi heyətinin həyat şəraitinin yaxşılaşdırılması məsələsinə xüsusi diqqətlə yanaşan prezident, Ali Baş Komandan İlham Əliyev bu istiqamətdə çox mühüm və ardıcıl tədbirlər həyata keçirir.*

*Sonra dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev hərbçilərlə görüşdü.*

## Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı

Əziz hərbçilər, hörmətli mərasim iştirakçıları!

İlk növbədə, sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirəm. Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə yeni uğurlar arzulayıram.

Bu gözəl bayram ərəfəsində biz hərbçilər üçün tikilmiş yeni yaşayış binasının açılışına toplaşmışıq. Bu bina qısa müddətdə tikilibdir, 65 mənzildən ibarətdir. Mən indi mənzillərlə tanış oldum, gördüm ki, doğrudan da şərait çox yaxşıdır, bütün mənzillər təmirlidir. Əminəm ki, burada hərbçilər, onların ailələri rahat yaşayacaqlar.

Bu binanın tikintisi bir daha onu göstərir ki, hərbi qulluqçuların mənzil-məişət problemləri Azərbaycanda uğurla həll edilir. Bildiyiniz kimi, 2011-ci ilin sonunda imzaladığım müvafiq sərəncam əsasında 20 il ərzində hərbi xidmətdə qüsursuz xidmət göstərmiş hərbçilərə dövlət tərəfindən dövlət vəsaiti hesabına tikilmiş mənzillər verilir. Bu proqram çərçivəsində artıq 900-ə yaxın hərbçi mənzillə təmin edilib, yüzlərlə hərbçinin mənzil-məişət problemləri yaxın zamanlarda öz həllini tapacaq. Bu proqramın icrası üçün bu günə qədər dövlət büdcəsindən 100

milyon manatdan çox vəsait ayrılıb. Yəni biz həm ordumuzu gücləndiririk, ordunun maddi-texniki bazasını möhkəmləndiririk, bununla bərabər, hərbçilərin məişət problemləri də öz həllini tapır.

Hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Bu gün Azərbaycanın müxtəlif ərazilərində yerləşən hərbi hissələrdə, hərbi şəhərciklərdə müvafiq göstərişlər əsasında təmir-bərpa işləri aparılır, yeni hərbi bazalar tikilir. Keçən il biz Silahlı Qüvvələr Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrinin Bakıda, Xəzər sahilində tikilmiş bazasının açılışını qeyd etmişdik. Bu baza Xəzərdə ən böyük hərbi obyektlərdən biridir və orada bütün şərait yaradılıbdır. Eyni zamanda, bütün digər hərbi hissələrdə təmir-bərpa işləri aparılır və qarşıya vəzifə qoymuşam ki, bir dənə də təmirsiz hərbi hissə olmasın. Hərbçilərin yaşayış və xidmət şəraiti yaxşı olmalıdır. Bu bir daha onu göstərir ki, Azərbaycanda ordu quruculuğu prosesinə çox böyük diqqət göstərilir, bu da təbiidir. Hər bir ölkə bunu etməlidir, xüsusilə müharibə şəraitində yaşayan bir ölkə.

Azərbaycanın iqtisadiyyatı artır, bizim maliyyə imkanlarımız genişlənir və bildiyiniz kimi, dövlət büdcəsinin əsas xərcləri hərbi məqsədlərə sərf olunur. Büdcə xərclərinin artması nəticəsində son illər ərzində Azərbaycanda görülən işlər göz qabağındadır. Bu gün ordumuz maddi-texniki təchizat baxımından güclü ordular sırasındadır. Son illər ərzində əldə etdiyimiz texnika, silah-sursat ən yüksək standartlara cavab verir. Bu gün ordumuz yüksək dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan hərbi silahlardan istifadə edir. Yəni ordumuzun bütün ehtiyacları təmin edilir. Bununla bərabər, bir neçə ildir ki, artıq əsgərlər hərbi hissələrdə mülki işlərə cəlb olunmurlar, onların yerinə mülki vətəndaşlar cəlb edilir və biz burada iki məqsədi güdürük – ilk növbədə, əsgərlər orduda xidmət etməli və öz peşəkarlıqlarını artırmalıdırlar, digər tərəfdən, bu, mülki vətəndaşlar üçün yeni iş yerlərinin açılması deməkdir. Bu proqram çərçivəsində artıq minlərlə mülki şəxs hərbi hissələrdə işləyir, yaxşı maaş alır. Mən hərbi hissələrdə olarkən, onlarla söhbət edirəm və görürəm ki, onlar da bu işlərdən çox razıdırlar.

Bir sözlə, Azərbaycanda ordu quruculuğu prosesi məqsədyönlü və planlı şəkildə aparılır, görülən işlər də göz qabağındadır. Bununla

paralel olaraq, Azərbaycanda hərbi-sənaye kompleksi yaradılıb və 100-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Bu həm ordumuzun ehtiyacını ödəyir, eyni zamanda, biz artıq xarici bazarlara da çıxmışıq. Bakıda keçirilmiş müdafiə sənayesi sərgisi bir daha onu göstərir ki, artıq Azərbaycan bu istiqamətdə də böyük uğurlara imza atıb. Çünki birinci sərgiyə çox böyük maraq var idi. Orada nümayiş etdirilən hərbi təyinatlı məhsullar dünyanın aparıcı şirkətləri tərəfindən istehsal edilmişdir və onlardan bir hissəsini artıq Azərbaycan əldə edib. Beləliklə, müxtəlif ölkələrdə keçirilən ənənəvi müdafiə sənayesi sərgiləri ilə yanaşı, bu gün Azərbaycan da bu məsələdə öz imzasını qoyub.

Qeyd etdiyim kimi, Azərbaycanda ordu quruculuğu prosesi planlı şəkildə aparılır. Əlbəttə ki, bu prosesdə maddi-texniki təchizat mühüm yer tutur. Çünki bu gün dünyada inkişaf edən texnologiyalar nəinki elmdə, sənayedə, iqtisadiyyatda, eyni zamanda, hərbi sahədə də özünü göstərir və növbəti onilliklərin müharibələri texnologiyalar müharibələri olacaq. Əlbəttə, adi silahlar da həmişə olduğu kimi, öz rolunu oynayacaq. Ancaq bu gün müxtəlif yerlərdə, müharibələrdə, toqquşmalarda gördüyümüz mənzərə bundan ibarətdir ki, hərbi üstünlüyü bütün digər amillərlə yanaşı, texnoloji tərəqqi də böyük dərəcədə müəyyən edir. Ona görə Azərbaycana gətirilən ən müasir silah-sursat, texnika yüksək texnoloji səviyyəyə cavab verir.

Mən maddi-texniki təminatı daha da genişləndirmək və yaxşılaşdırmaq üçün bu yaxınlarda müvafiq göstərişlər vermişəm. Artıq Azərbaycana yeni silahlar, texnikalar gətirilir. Bu, son 1-2 ay ərzində baş verir. Bu proses davam etdiriləcəkdir. Bizim kifayət qədər maddi imkanlarımız var və biz bir çox ölkələrdən hərbi təyinatlı məhsullar alırıq. Yəni demək istəyirəm ki, bir mənbədən asılı deyilik. Biz bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də şaxələndirmə yolu ilə gedirik. Əlbəttə, biz gələcəkdə də çalışmalıyıq və çalışacağıq ki, Azərbaycan Ordusuna daim ən müasir silahları və texnikanı gətirək. Əminəm, buna nail olacağıq. Bununla paralel olaraq, əlbəttə, bizim hərbçilərimiz də müvafiq təlim kursları keçərək, bu texnikadan istifadə etmək üçün artıq böyük peşəkarlığa

malikdirlər və son vaxtlar təmas xəttində baş vermiş hadisələr bunu bir daha təsdiqlədi.

Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir. Əlbəttə, bütün bu amillər bizim hərbi gücümüzü daha da artırır. Mən son illər ərzində dəfələrlə qeyd etmişəm ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha sübut etdi. Bütün dünyaya sübut etdi ki, bu gün Azərbaycanla hesablaşmaq lazımdır.

Azərbaycan nəinki iqtisadi və sənaye gücünə malikdir, biz hərbi sahədə də artıq böyük nailiyyətlərə çata bilmişik. Bu proses daim aparılacaqdır, döyüş qabiliyyəti daim təkmilləşməlidir və Azərbaycan qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla icra edəcəkdir.

Biz müharibə şəraitində yaşayırıq və təbii ki, hərbi məsələlərə ən böyük diqqət göstərilir. Bu bizim gündəlik işimizdə əsas prioritet məsələdir və qeyd etdiyim kimi, dövlət büdcəmizdə də bu siyasət öz əksini tapır.

Uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Əfsuslar olsun ki, beynəlxalq hüququn norma və prinsipləri Ermənistan tərəfindən kobudcasına pozulur, beynəlxalq təşkilatların qəbul etdikləri qərarlar, qətnamələr icra edilmir, kağız üzərində qalır və beynəlxalq hüquq əslində işləmir. Belə olan halda, əlbəttə ki, biz hərbi gücümüzü daha da artırmalıyıq. Bununla bərabər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün diplomatik və siyasi səylərimizi davam etdirəcəyik.

Bildiyiniz kimi, Ermənistan danışıqlar prosesini pozmaq və danışıqlar prosesinə zərbə vurmaq üçün aprel ayında bizə qarşı silahlı təxribata əl atdı. Bizim mövqelərimiz atəş altına düşdü. Mülki vətəndaşlara qarşı silahdan istifadə edildi və 6 mülki şəxs erməni təxribatı nəticəsində həlak oldu. Hərbçilərimiz həlak oldular,

yaralandılar. Təbii ki, Azərbaycan düşmənə layiqli cavab verməli idi və verdi. Aprel döyüşləri, mən bunu artıq demişəm – tarixdə bizim böyük hərbi qələbəmiz kimi qalacaqdır. Azərbaycan Ordusu böyük qəhrəmanlıq göstərib, işğal edilmiş torpaqların bir hissəsini, daha dəqiq desəm, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib və strateji yüksəklikləri öz nəzarəti altına qaytarıbdır.

Əminəm ki, bu hadisələr həm Ermənistana, həm də bu məsələ ilə məşğul olanlara ciddi siqnal oldu. Çünki Ermənistanın istəyi sirr deyil. Onlar bu prosesi sonsuz proses kimi görmək, status-kvonu saxlamaq istəyirlər. Görəndə ki, onlara qarşı beynəlxalq vasitəçilər tərəfindən təzyiq artır, müxtəlif təxribatlara əl atırlar. Məsələn, 2014-cü ilin noyabrında bizə qarşı silahlı təxribat törətdilər və biz layiqli cavab verəndən sonra bundan istifadə edərək, bunu bəhanə gətirərək, Ermənistan danışıqları, demək olar ki, dondurmuşdu. 2014-cü ilin noyabrından 2015-ci ilin dekabrına qədər, demək olar ki, heç bir danışıq aparılmırdı. 2015-ci ilin dekabrında Ermənistan və Azərbaycan prezidentlərinin görüşü formal xarakter daşıyırdı. Görəndə ki, bu il onlara vasitəçilər tərəfindən siyasi təzyiq artır, növbəti silahlı təxribata əl atdılar. Amma əminəm ki, indi bunun acısını çəkirlər.

Münaqişə tezliklə həll olunmalıdır, beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Bizim mövqemizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. BMT Təhlükəsizlik Şurası bu məsələ ilə bağlı 4 qətnamə qəbul edibdir. BMT Təhlükəsizlik Şurasından daha ali beynəlxalq orqan yoxdur və bu qətnamələrdə göstərilir ki, erməni silahlı birləşmələri dərhal və qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır və çıxarılacaqdır.

Budur məsələnin həlli yolları. Heç vaxt Azərbaycan dövləti öz tarixi torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək və bu, danışıqlar mövzusu deyil, heç vaxt da olmayıb. Məsələ mərhələli yolla öz həllini tapa bilər və əminəm ki, biz məsələni bu yolla həll edə bilərik. Ancaq əlbəttə ki, burada işğalçı

Ermənistana beynəlxalq vasitəçilər və geniş mənada beynəlxalq birlik tərəfindən daha da ciddi təzyiq göstərilməlidir.

Bildiyiniz kimi, aprel hadisələrindən sonra Ermənistan rəhbərliyi danışıqları davam etdirmək üçün bir neçə şərt irəli sürmüşdür. Onların heç biri, təbii ki, qəbul oluna bilməz. Çünki bizə heç kim şərt qoya bilməz. Danışıqları aparmaq bizə göstərilən minnət deyil. Ermənistan tərəfi yaxşı başa düşür ki, əgər danışıqlar dondurulsa, ya pozulsa onları nələr gözləyir. Ona görə təbii ki, Azərbaycan tərəfi danışıqlara heç bir şərt qəbul etmədən qoşulmuşdur. Vyana görüşü Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə keçirildi. Hesab edirəm ki, Vyana görüşünün müsbət nəticələri oldu. Yəni Ermənistan tərəfinin qoyduğu şərtlər qəbul edilmədi. Azərbaycan tərəfi Vyanada hər hansı bir sənədə imza atmadı. Sadəcə olaraq, həmsədr ölkələr öz bəyanatını verdilər, bu onların bəyanatıdır.

Müsbət hal ondan ibarətdir ki, Vyana görüşündən bir ay sonra artıq Rusiya tərəfinin təşəbbüsü ilə Sankt-Peterburq şəhərində növbəti görüş keçirildi. Bu görüşü biz müsbət qiymətləndiririk. Xarici İşlər Nazirliyi Azərbaycanın rəsmi mövqeyini bildirdi və bu mövqe, təbii ki, ictimaiyyət üçün də açıqdır.

Mən öz tərəfimdən qeyd etmək istəyirəm və hesab edirəm ki, Sankt-Peterburq görüşünün müsbət nəticələri var. Ümid edirəm ki, bu proses sürətlə davam etdiriləcəkdir. Yenə də heç bir şərt qəbul etmədən biz bu danışıqlara gedirik. Danışıqlar mənalı, predmetli olmalıdır, sadəcə olaraq, görüntü, imitasiya naminə aparılmamalıdır.

Sankt-Peterburq görüşünün nəticəsi olaraq, Birgə Bəyannamə qəbul edildi. O da ictimaiyyətə təqdim edildi. O Bəyannamədə hər şey, xüsusilə məsələnin həlli yolları göstərilir. Bununla bərabər, ATƏT sədrinin şəxsi nümayəndəsinin ofis işçilərinin say tərkibinin artırılması məsələsi də müzakirə edildi. Düzdür, orada say göstərilmir. Ancaq mən deyə bilərəm ki, əgər bu gün o ofisdə 6 nəfər işləyirsə, bu, maksimum 2 dəfə, 2,5 dəfə artırıla bilər. Yəni burada böyük missiyadan söhbət getmir. Nəzərə alsaq ki, təmas xətti 10 kilometrlərlə ölçülür, bu işlərin başqa mənasını axtarmaq lazım deyil. Ofisin mandatı da yerindədir, heç bir dəyişiklik yoxdur.

Sadəcə olaraq, 6 nəfərin əvəzinə 12, ya 13, ya da 14 nəfər olacaqdır, vəssalam.

O ki qaldı ermənilərin şərt kimi ortaya qoyduqları insidentlərin araşdırılması mexanizminin tətbiqinə, hesab edirəm ki, buna indiki mərhələdə ehtiyac yoxdur. Birincisi, bu mexanizmlər yoxdur. Bizə heç kim konkret demir ki, bu, nədən ibarət olacaqdır. Belə olan halda, bu məsələyə bu gün baxmaq düzgün olmazdı. İkincisi, bunun mənası nədən ibarətdir. Əgər bunun mənası ondan ibarətdir ki, münaqişə dondurulsun və təmas xəttində hansısa əlavə tədbirlər görülsün, əlbəttə, Azərbaycan buna getməyəcək. Bu o vaxt ola bilər ki, danışıqlar prosesində müsbət dinamika davam etdirilsin, biz konkret nəticələri görək, bilək ki, nə vaxt bizim torpaqlarımız işğaldan azad olunacaq, onda, əlbəttə, müxtəlif mexanizmlər işlənə və o vaxt bu məsələyə baxıla bilər.

Mən Sankt-Peterburqda qəbul etdiyimiz bəyanatda bir mühüm məsələyə də toxunmaq istəyirəm. Orada qeyd edildi ki, son vaxtlar təmas xəttində vəziyyət sabitdir, atəşkəs bərpa edilib və bu, müsbət hal kimi qiymətləndirilir. Belə olan halda, heç bir insidentlərin araşdırılması mexanizminin tətbiqinə ehtiyac qalmır. Yəni o şərt də qəbul edilmədi.

Bir daha demək istəyirəm ki, biz məsələnin mahiyyəti əsasında danışıqlar aparmalıyıq. Ermənistanın işğalçı siyasətinə son qoyulmalıdır. Biz bilməliyik ki, torpaqlarımızın azad edilməsi prosesi nə vaxt başlanacaq. Əlbəttə ki, bu proses olacaq. Azərbaycan tərəfi və mən şəxsən dəfələrlə qeyd etmişdim ki, biz bu münaqişəni ancaq mərhələli yolla həll edə bilərik. Çünki başqa cür mümkün deyil. Ermənistan həmişə çalışırdı ki, vəziyyəti daha da mürəkkəbləşdirsin, danışıqlar prosesini və mərhələli həll variantını pozsun. Ancaq bizdə olan fikirlərə görə, bu yol ən məqbul yoldur. Bu, tezliklə məsələnin həllinə gətirib çıxara bilər.

Yenə də qeyd etmək istəyirəm ki, Azərbaycan dövlətinin məsələnin həlli ilə bağlı prinsipial mövqeyi ortadadır. Bu mövqedə heç bir dəyişiklik olmamışdır və olmayacaqdır. Bir daha qeyd etmək istəyirəm ki, məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Heç vaxt Dağlıq Qarabağa müstəqillik

verilməyəcək, heç vaxt Azərbaycanın tarixi torpaqlarında ikinci erməni dövləti yaranmayacaqdır.

Bu, əsas məsələdir. O ki qaldı Dağlıq Qarabağın statusuna, bu, sonranın işidir. Əlbəttə ki, müəyyən status ola bilər. Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası mövcuddur. Bunun muxtariyyət statusu var. Avropada, digər ölkələrdə mütərəqqi təcrübə və müxtəlif statuslar var. Ancaq bu status ölkəmizin ərazi bütövlüyünü pozmamalıdır.

Bir məqamı da qeyd etmək istəyirəm ki, həm 2008-ci ildə Rusiya, Azərbaycan, Ermənistan prezidentlərinin imzaladıqları sənəddə – ona «Mayn Dorf» Bəyannaməsi deyirlər, həm də bu ay Sankt-Peterburqda qəbul edilmiş bəyanatda Helsinki Yekun Aktına istinad edilir. Ermənistan tərəfi getsin Helsinki Yekun Aktını diqqətlə oxusun. Orada prinsiplər açıq-aydın göstərilir və ərazi bütövlüyü prinsipi üstünlük təşkil edir. Düzdür, orada xalqların öz müqəddəratını müəyyənetmə prinsipi də var. Amma birincisi, erməni xalqı öz müqəddəratını müəyyən edib, onların Ermənistan dövləti var. Baxmayaraq ki, o dövlət də tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İkincisi, xalqların müqəddəratını təyinetmə, müəyyənetmə prinsipi ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Bu, beynəlxalq prinsiplərdir və hər bir ölkə buna riayət etməlidir.

Biz ordu quruculuğuna bundan sonra da ciddi diqqət yetirəcəyik. Bu məsələ – ordu quruculuğu prosesi həmişə prioritet olaraq qalacaq. Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Ordu quruculuğunun ölkəmizin müstəqillik illərində belə sürətlə inkişafı, əlbəttə ki, hər bir Azərbaycan vətəndaşını sevindirir. Biz fəxr edirik ki, bizim güclü ordumuz var. Mən dəfələrlə demişəm ki, Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var.

Əziz hərbçilər, sizi qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin açarlarını və müqavilələrini təqdim etdi.*

**Ə h m ə d Q a f a r o v** *(mənzil alan hərbçi):* Möhtərəm Prezident, cənab Ali Baş Komandan! Biz hərbçilər Sizdən həmişə diqqət və qayğı görürük. Bu gün Sizin yeni mənzillərin açarlarını bizə təqdim etməyiniz hər birimizin ailəsi üçün böyük fəxrdir.

Cənab Prezident, Sizi əmin edirik ki, göstərilən etimadı Vətənə, xalqa, dövlətə və ulu öndərimiz Heydər Əliyevin ideyalarına sədaqətli xidmətimizlə doğruldacağıq. Çox sağ olun, cənab Prezident.

## SİLAHLI QÜVVƏLƏRİN BAŞ QƏRARGAHININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 iyun 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev iyunun 25-də Silahlı Qüvvələrin Baş Qərargahının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Sonra prezident İlham Əliyev binada yaradılan şəraitlə tanış oldu.*

*Binada ulu öndər Heydər Əliyevin büstü qoyulub, ümummilli liderin həyat və fəaliyyətinin əks olunduğu muzey yaradılıb. Muzeydə ulu öndərin ordu quruculuğu fəaliyyətinə geniş yer verilib. Muzeydə ümummilli liderin respublikaya rəhbərliyinin həm birinci, həm də ikinci dövründə ölkədə ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirləri əks etdirən fotolar sərgilənir. Bundan əlavə, prezident İlham Əliyevin güclü maddi-texniki bazaya malik, vətənpərvər ordunun formalaşdırılması istiqamətində gördüyü işlər də muzeydə geniş əks olunub.*

*Baş Qərargahın binasında müxtəlif tədbirlərin keçirilməsinə imkan verən, səsyazma və proyektor sistemləri ilə təchiz olunan akt zalı da yaradılıb.*

*Bildirildi ki, ümumi sahəsi 12600 kvadratmetr olan altımərtəbəli binada bütün otaqlar müasir avadanlıq və inventarla təchiz edilib.*

*Daha sonra prezident İlham Əliyev Mərkəzi Komanda Məntəqəsinin fəaliyyəti ilə tanış oldu.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin*

*Sadıqov prezident, Ali Baş Komandan İlham Əliyevə məlumat verdilər ki, Silahlı Qüvvələrin gündəlik və döyüş fəaliyyətinin planlaşdırılması və idarə olunması üçün yaradılan Məntəqədə 140 nəfərin işləməsi üçün hər cür şərait var. Məntəqəyə hərbi idarəetmə sisteminin müxtəlif elementləri daxildir. Bildirildi ki, Mərkəzi Komanda Məntəqəsi əməliyyat şəraiti barədə məlumatların toplanmasına və təhlilinə, qoşunların döyüşə hazırlıq prosesinə, döyüş xidmətinin aparılmasına nəzarət edilməsinə, döyüş fəaliyyətinə hazırlıq dövründə və onun gedişində qoşunların idarə olunmasına, digər idarəetmə məntəqələri ilə müxtəlif növ məlumat mübadiləsinin aparılmasına və videokonfransların təşkilinə, videoməlumatların ötürülməsinə imkan verir.*

*Sonra düşmən müdafiəsinin dərinliyində hava kəşfiyyatı aparan pilotsuz uçuş aparatından və aerostatdan alınan görüntülər nümayiş etdirildi.*

*Daha sonra əsas komanda məntəqələri ilə birbaşa videobağlantılar quruldu. Müxtəlif ordu korpuslarının və birliklərinin komandirləri videobağlantı vasitəsilə prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.*

*Sonda prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müxtəlif təyinatlı zirehli döyüş maşınlarına baxdı.*

*Bu maşınların funksiyaları və imkanları barədə dövlətimizin başçısına ətraflı məlumat verildi.*

**KANADANIN GENERAL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DEVİD CONSTONA**

Hörmətli cənab General-qubernator!

Ölkənizin milli bayramı – Kanada Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Kanada xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyun 2016-cı il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!
Əziz qardaşım!

İstanbulun Atatürk Hava Limanında törədilmiş amansız terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi olduqca sarsıtdı.

Biz bu qanlı hadisədən son dərəcə hiddətlənir, bütün dünya üçün dəhşətli bir bəlaya çevrilmiş terrorizmə qarşı mübarizə sahəsində qüvvələrin səfərbər olunmasını, birgə və qətiyyətli səylər göstərilməsini vacib və zəruri hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyun 2016-cı il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RODRİQO DUTERTEYƏ**

Hörmətli cənab Prezident!

Filippin Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Filippin arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Filippin xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 iyun 2016-cı il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və Sizin şəxsinizdə dost Belarus xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan və Belarusu tarixən təşəkkül tapan dostluq və əməkdaşlıq münasibətləri bağlayır. Sevindirici haldır ki, bizim hərtərəfli əməkdaşlığımız bu gün də dinamik inkişaf edir, Azərbaycan ilə Belarusun çoxplanlı qarşılıqlı fəaliyyətinə hər cəhətdən kömək edir.

Əminəm ki, xalqlarımızın maraqları, ölkələrimizin inkişafı naminə birgə səylərimiz Azərbaycan ilə Belarus arasında strateji tərəfdaşlığın bundan sonra da möhkəmlənməsinə və genişlənməsinə yönələcək.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyət, dost Belarus xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 iyun 2016-cı il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlər bu gün hərtərəfli inkişaf yolundadır. Bir sıra sahələrdə ölkələrimizin sıx və qarşılıqlı faydalı əməkdaşlığı ikitərəfli münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir.

Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, terrorizmə qarşı mübarizədə, NATO-nun Əfqanıstanda sülhyaratma missiyasında ölkələrimizin sıx əməkdaşlığı və qarşılıqlı dəstəyi tərəfdaşlığımızın səciyyəvi cəhətlərindəndir.

Biz həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinə son qoyulması, işğal olunmuş torpaqlarımızın azad edilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox soydaşımızın öz doğma yurd-yuvasına qayıtması üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizin tezliklə nəticə verəcəyinə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2016-cı il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı mənəviyyatı möhkəmləndirən, müsəlmanlar arasında dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir. Bu bayram insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır.

İslam dünyasının mədəni mərkəzlərindən biri kimi tanınmış Azərbaycanda dini və milli-mənəvi dəyərlərə hörmət həmişə xüsusi həssaslıqla qorunub saxlanılmışdır. Bu gün əsl tolerantlıq örnəyinə çevrilən ölkəmizdə ayrı-ayrı dinlər və təriqətlər arasında qarşılıqlı hörmətin inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Azərbaycanda müxtəlif milli və dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Eyni zamanda, məmnunluqla deyə bilərik ki, ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələri bəşəri hadisə olan Ramazan bayramına böyük sevgi ilə yanaşır, ölkəmizin multikultural ənənələrini ehtiramla qoruyurlar.

Əziz bacı və qardaşlarım!

İnsanlarda vəhdət və humanizm duyğularını, Allah və Vətən sevgisini daha da gücləndirən Ramazan bayramı hər il olduğu kimi, bu il də bütün xalqımız tərəfindən böyük ruh yüksəkliyi və könül xoşluğu ilə qeyd edilir. Bu əziz bayram günlərində sizi və ölkəmizdən kənarda yaşayan soydaşlarımızı bir daha təbrik edir, hər birinizə firavanlıq, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyul 2016-cı il*

## POLŞA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*Varşava*

*7 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də NATO Sammitində iştirak etmək üçün Polşanın paytaxtı Varşavaya işgüzar səfərə gəlmişdir.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ FRANK-VALTER ŞTAYNMAYER İLƏ GÖRÜŞ**

*Varşava*

*8 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Varşavada Almaniya Federativ Respublikasının Xarici İşlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Frank-Valter Ştaynmayer ilə görüşmüşdür.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ GÖRÜŞ

*Varşava*

*8 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Varşavada Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin səviyyəsindən məmnunluq ifadə edildi. Azərbaycan ilə Polşa arasında ötən dövrdə əməkdaşlığın inkişafında qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu. Müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadiyyat, enerji, təhlükəsizlik, nəqliyyat və digər sahələrdə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı Azərbaycanın NATO və Avropa İttifaqı ilə əməkdaşlığı, Əfqanıstana müxtəlif sahələrdə Azərbaycanın dəstəyi və bir sıra digər məsələlər müzakirə olundu.*

## NATO SAMMİTİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Varşava*

*8 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Varşavada NATO Sammitinin açılışında iştirak etmişdir.*

*NATO-nun Varşava Sammitində Alyansa üzv olan və İSAF proqramına qoşulan tərəfdaş ölkələrdən, BMT, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlardan nümayəndələr iştirak edirlər.*

*NATO-nun baş katibi Yens Stoltenberq və Polşa prezidenti Andjey Duda Azərbaycan prezidenti İlham Əliyevi, həmçinin digər dövlət və hökumət başçılarını salamladılar.*

*Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Sonra NATO-nun Sammiti işə başladı.*

*Alyansın baş katibi Yens Stoltenberq iştirakçı ölkələrin dövlət və hökumət nümayəndələrini, həmçinin beynəlxalq təşkilatların rəsmilərini salamlayaraq, zirvə görüşünün uğurla keçəcəyinə əminliyini ifadə etdi.*

*Daha sonra NATO-ya üzv ölkələrin Dövlət bayraqları Sammitin keçirildiyi salona gətirildi.*

*Dövlət və hökumət başçıları NATO əməliyyatlarında həlak olan hərbçilərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.*

*NATO-nun baş katibi Yens Stoltenberq ötən zirvə görüşündən sonra görülən işlər barədə məlumat verdi. Bildirdi ki, Estoniya, Latviya və Litvada NATO-nun fəaliyyətinin gücləndirilməsi istiqamətində müəyyən işlər görülüb. «Bütün bunlar bizdən xüsusi səy tələb edəcək. Biz düzgün istiqamətdə irəliləyirik və irəliləyəcəyik» – deyən Yens Stoltenberq Sammitə yüksək səviyyədə ev sahibliyi etdiyinə görə Polşa Respublikasına minnətdarlığını çatdırdı.*

*Polşa prezidenti Andjey Duda NATO Sammitinin ölkəsində keçirilməsindən məmnunluğunu bildirdi. Qeyd etdi ki, hazırda demokratik dəyərlər təhlükə altındadır və münaqişələr dünyada qeyri-sabitliyin yaranmasına, terrorizm kimi çağırışların üzə çıxmasına xidmət edir. Andjey Duda vurğuladı ki, bu gün xalqlarımız bizdən üzərimizə götürdüyümüz öhdəliklərin yerinə yetirilməsini gözləyir.*

*Qeyd edək ki, Varşava Sammiti ilə NATO adaptasiya prosesinin yeni mərhələsinə qədəm qoyur. NATO Estoniya, Latviya, Litva və Polşada 4 batalyonunu yerləşdirməklə, Alyansın şərq hissəsində NATO qüvvələrinin mövcudluğunu daha da gücləndirəcək. Sammitdə Cənubdan qaynaqlanan çağırışlara NATO-nun daha da uyğunlaşdırılması üçün çərçivə sənədi qəbul ediləcək.*

## ABŞ-ın DÖVLƏT KATİBİ CON KERRİ İLƏ GÖRÜŞ

*Varşava*

*8 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Varşavada ABŞ-ın Dövlət katibi Con Kerri ilə görüşmüşdür.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*Varşava*

*8 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Varşavada Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan ilə Əfqanıstan arasında iqtisadiyyat, təhlükəsizlik, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Varşava*

*8 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Varşavada ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorlik, İqor Popov, Pyer Andre və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşik ilə görüşmüşdür.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı.*

## DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*Varşava*

*8 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, digər dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların və NATO-nun rəsmiləri iyulun 8-də Varşavada Polşa Respublikasının Baş naziri xanım Beata Şidlo tərəfindən NATO Sammiti iştirakçılarının şərəfinə verilən naharda iştirak etmişlər.*

*Baş nazir xanım Beata Şidlo naharda iştirak edən qonaqları qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

## NATO SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ ƏFQANISTANLA BAĞLI SESSİYADA İŞTİRAK

*Varşava*

*9 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Varşavada «Dövlət və hökumət başçıları səviyyəsində «Qətiyyətli dəstək» missiyası çərçivəsində aparılan əməliyyatlarda iştirak edən tərəfdaş dövlətlərlə Əfqanıstan üzrə görüş» mövzusunda sessiyada iştirak etmişdir.*

*Əfqanıstanda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində dünya birliyinin irəli sürdüyü təşəbbüslərə Azərbaycan da öz dəstəyini verir. Ölkəmiz Əfqanıstana sülhməramlı qüvvələrimizin orada təmsil olunması, müəyyən təlimlərin keçirilməsilə və digər müxtəlif proseslərdə dəstək göstərir.*

*NATO-nun Varşava Sammitində «Dövlət və hökumət başçıları səviyyəsində «Qətiyyətli dəstək» missiyası çərçivəsində aparılan əməliyyatlarda iştirak edən tərəfdaş dövlətlərlə Əfqanıstan üzrə görüş» mövzusunda sessiyada bu məsələlərə toxunan prezident İlham Əliyev dedi:*

– Cənab baş katib, həmkarlar!

Əfqanıstanın təhlükəsizliyi və davamlı inkişafı regional və qlobal sabitlik üçün olduqca əhəmiyyətlidir.

NATO-nun etibarlı tərəfdaşı və Əfqanıstanın dostu kimi, Azərbaycan «Qətiyyətli dəstək» missiyasına əsgərləri vasitəsilə verdiyi nəzərəçarpan töhfəsini davam etdirəcək və müxtəlif növ tranzit daşımalarını təmin edəcəkdir.

Azərbaycan Əfqanıstanın milli ordusunun Qəyyumluq Fonduna artıq bir neçə dəfə əhəmiyyətli yardımlar göstərib. Biz götürdüyümüz öhdəliklərə uyğun olaraq, həmin fondu maliyyə baxımından dəstəkləməkdə davam edəcəyik.

Biz Əfqanıstan ilə uzunmüddətli siyasi tərəfdaşlığa və praktiki əməkdaşlığa sadiq qalırıq və «Qətiyyətli dəstək» missiyası başa çatdıqdan sonra, geniş Davamlı Tərəfdaşlıq Proqramı çərçivəsində töhfəmizi verməyi nəzərdə tuturuq.

Azərbaycanın Əfqanıstanda sabitliyə və inkişafa verdiyi töhfə NATO əməliyyatlarındakı iştirakımızdan əlavə olaraq həyata keçirilir.

Biz hərbi tədris, təhsil, infrastruktur, daşıma, sərmayələr və qadınların cəmiyyətdə rolunun artırılması kimi sahələrdə praktiki yardım göstərməklə, Əfqanıstanı etibarlı gələcəyə doğru islahatlar yolunda ikitərəfli qaydada dəstəkləyirik.

Azərbaycan yaxın gələcəkdə başa çatdırılacaq Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin həyata keçirilməsinə əhəmiyyətli dərəcədə maliyyə və texniki dəstəyini göstərib. Bu layihə Avropa və Asiyanın dəmir yolu xətlərini Azərbaycan vasitəsilə birləşdirəcək. Əfqanıstan, həmçinin bu mühüm daşımalar şəbəkəsinə qoşula bilər.

Xəzər regionunda ölkəmizin ən iri Beynəlxalq Ticarət Limanının tikintisi Avrasiyada əməkdaşlıq üçün yeni imkanlar yaradır. Əminəm ki, Əfqanıstan, həmçinin bu layihədən faydalanacaq.

Azərbaycan–NATO tərəfdaşlığı beynəlxalq hüququn və təhlükəsizliyin bölünməzliyi prinsiplərinə əsaslanır. Əfsuslar olsun ki, həmin prinsiplər hələ də pozulur. Azərbaycanın ərazisinin təxminən 20 faizini silahlı qüvvələri ilə işğal etmiş və 1 milyondan çox azərbaycanlıya qarşı etnik təmizləmə aparmış, hərbi cinayətlər törətmiş Ermənistanın Azərbaycana qarşı davamlı şəkildə gücdən istifadəsi nəinki ölkəmizin ərazi bütövlüyünü pozur, o cümlədən regional təhlükəsizliyə ciddi təhdid yaradır.

20 ildən artıqdır ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamələrini yerinə yetirməkdən imtina edir. Biz status-kvonun qəbuledilməzliyini bəyan edən ATƏT-in Minsk qru-

punun həmsədrlərinin, eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatlarını dəstəkləyirik. Status-kvonun dəyişdirilməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsi deməkdir. Biz Varşava Sammitinin Bəyannaməsində bir daha qeyd edildiyi kimi, Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə NATO-nun yenidən verdiyi dəstəyi yüksək dəyərləndiririk.

Sağ olun.

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ GÖRÜŞ

*Varşava*

*9 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Varşavada Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşmüşdür.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparıldı. Münaqişənin danışıqlar yolu ilə həllinin məqsədəuyğunluğu bildirildi. Fransa Prezidenti bu məsələnin həllinə fəal dəstək verəcəyini vurğuladı.*

*Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin mövcud vəziyyəti və perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## NAZİRLƏR KABİNETİNİN 2016-cı İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*10 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə iyulun 10-da Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

İlin 6 ayı arxada qalıb. Bu gün biz 6 ayın yekunlarını müzakirə edəcəyik. Görüləcək işlər haqqında danışacağıq. Deyə bilərəm ki, 2016-cı ildə dünyanın müxtəlif bölgələrində hərbi toqquşmalar, müharibələr davam edir, yeni münaqişə ocaqları yaranır, dünyada təhlükələr artır. Eyni zamanda, ilin əvvəlindən və ondan əvvəlki dövrdən başlayaraq dünyada iqtisadi böhran daha da

---

* Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunмуш iclasında Müdafiə Sənayesi naziri Yavər Camalov, Kənd Təsərrüfatı naziri Heydər Əsədov və «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə çıxış etdilər.

dərinləşir və demək olar ki, bütün ölkələr bu və ya digər formada bu böhrandan əziyyət çəkir.

Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur, ictimai-siyasi sabitlik möhkəmlənir. Ölkə qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir. 2016-cı ildə də – baxmayaraq ki, neftin qiyməti hələ də çox aşağı səviyyədədir – Azərbaycan inamla inkişaf edir. Bunun təməlində düşünülmüş siyasət, apardığımız islahatlar və ölkəmizin gələcəyi ilə bağlı olan proqramlarımız dayanır. Azərbaycan uğurla inkişaf edir. Əminəm ki, biz bu ili də müvəffəqiyyətlə başa vuracağıq.

2016-cı ildə Ermənistanın növbəti təxribatı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində çox ciddi fəsadlara gətirib çıxarmışdır. Ermənistanın niyyəti bəllidir. Onlar danışıqları müxtəlif yollarla pozmaq istəyirlər və görəndə ki, beynəlxalq vasitəçilər tərəfindən onlara təzyiq artır, növbəti təxribatlara əl atırlar. Onlardan biri də aprelin əvvəlində baş vermiş silahlı təxribat idi. Bizim mövqelərimizə silahlı hücum təşkil edilmişdir. Ancaq Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi, əks-hücum əməliyyatı keçirərək, işğal altındakı torpaqların bir hissəsini, daha dəqiq desəm, 2000 hektar torpağı azad etdi. Biz indi ondan bir neçə dəfə böyük əraziyə tam nəzarət edirik.

Bu münaqişə tezliklə öz həllini tapmalıdır. Əgər belə olmasa, heç kim təminat verə bilməz ki, bu təxribatlar təkrarlanmayacaq. Çünki Ermənistanın niyyəti münaqişəni dondurulmuş vəziyyətdə saxlamaqdır. Onlar fikirləşirdilər ki, bizə qarşı edilən təxribat onların qələbəsi ilə nəticələnəcək. Ancaq onlar acı məğlubiyyətə uğradılar. Azərbaycan dövləti böyük hərbi qələbə qazandı.

Aprel döyüşləri bir daha onu göstərir ki, status-kvo tezliklə dəyişdirilməlidir. Bunu artıq bu məsələ ilə məşğul olan vasitəçilər də dəfələrlə bəyan ediblər. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqların azad edilməsi deməkdir. Əminəm ki, aprel döyüşlərinin nəticələri Ermənistan üçün dərs olacaq, onlar lazımi nəticələr çıxaracaq və danışıqlar prosesində konstruktiv mövqe ilə

çıxış edəcəklər. Belə ümidlər var. Çünki bir daha demək istəyirəm ki, son 1-2 ay ərzində danışıqlar prosesində çox böyük fəallıq var.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün prioritet məsələdir. Bu məsələnin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim üçün əsas vəzifədir. Bu münaqişənin həllinin başqa yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, status-kvo dəyişdirilməlidir, işğala son qoyulmalıdır. Nəinki BMT, bütün digər təşkilatlar da bizim mövqemizi dəstəkləyir. Dünən NATO-nun Zirvə görüşündə qəbul edilmiş yekun sənəddə də Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı çox ciddi məqamlar öz əksini tapıbdır. Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü tanınır və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır.

2016-cı ildə bizim xarici siyasətimiz çox fəal olub. İlin birinci yarısında Azərbaycana 10-dan çox dövlət və hökumət başçısı səfər edib. Mənim çoxsaylı xarici səfərlərim beynəlxalq əlaqələrimizi daha da möhkəmləndirib. Mən ilin əvvəlindən bəri bir neçə beynəlxalq tədbirdə iştirak etmişəm. Davos Dünya İqtisadi Forumu – bu, dünya miqyasında birinci beynəlxalq tədbirdir. Orada həm iqtisadi, həm siyasi məsələlər gündəlikdədir. Ondan sonra, Münhen Təhlükəsizlik Konfransı – bu da dünya miqyasında Davos Forumu ilə eyni səviyyədə olan beynəlxalq tədbirdir. Orada da Azərbaycanın, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi səsləndi. Londonda Suriyaya yardım məqsədilə keçirilmiş konfransda mənim iştirakım Azərbaycanın mövqeyini və imkanlarını bir daha ortaya qoydu. Vaşinqtonda Nüvə Sammitində Azərbaycan fəal iştirak etdi. Bizim o Sammitə dəvət olunmağımız ölkəmizin nüfuzunu göstərir. Çünki Azərbaycan nüvə dövləti deyil və Azərbaycanda nüvə tədqiqatları, demək olar ki, aparılmır. Ancaq buna baxmayaraq, Azərbaycan oraya dəvət edilmiş ölkələrin sırasında idi. Eyni zamanda, Sammit çərçivəsində Amerikanın yüksək səviyyəli rəhbərləri ilə – prezident, Dövlət katibi ilə mənim çox səmərəli görüşlərim oldu.

Mən Türkiyədə 2 beynəlxalq tədbirdə iştirak etmişəm. İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü keçirilmişdir və orada aprel döyüşləri ilə bağlı Azərbaycanın mövqeyi tam dəstəkləndi. Yekun Bəyannamədə Azərbaycanın ərazi bütövlüyü məsələləri əks olundu və münaqişənin bu prinsiplər əsasında həlli qeyd edildi. Bununla bərabər, münaqişə ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində kontakt qrupu yaradıldı. Bu da bizim böyük diplomatik uğurumuzdur.

Türkiyədə digər mötəbər beynəlxalq tədbirdə – Dünya Humanitar Sammitinin işində Azərbaycan çox fəal iştirak etdi. Bu səfərlərlə yanaşı, ikitərəfli formatda bir neçə səfər təşkil edilmişdir – Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə və Almaniyaya. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 2 görüş keçirildi. May ayında Vyanada, iyun ayında isə Sankt-Peterburqda.

Yəni bütün bu beynəlxalq tədbirlər və Azərbaycanın o tədbirlərdə fəal iştirakı ölkəmizin önəmini göstərir, eyni zamanda, bizim üçün yeni imkanlar açır. Hər bir beynəlxalq tədbirdə Azərbaycanın mövqeyi səslənir, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı. Dünən Varşavada NATO Zirvə görüşündə də çıxışımın, demək olar ki, yarısını mən bu mövzuya həsr etmişəm və orada iştirak edən dövlət və hökumət başçıları bir daha həqiqətləri eşitdilər. Ermənistanın yalanları artıq heç kimə təsir göstərmir. Onlar diaspor imkanlarından və bizim beynəlxalq səviyyədə o qədər də çıxışımızın olmamasından istifadə edərək, münaqişə ilə bağlı yalan məlumatlar yayırdılar. İndi artıq o dövr arxada qalıb. Həqiqət ondan ibarətdir ki, Azərbaycan haqlıdır və beynəlxalq hüququn normaları bu münaqişə ilə bağlı tam şəkildə tətbiq edilməlidir.

Münaqişənin həlli ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm ki, bu il, xüsusilə son 3-4 ay ərzində danışıqlar prosesində bəlkə də tarixdə görünməyən fəallıq müşahidə olunur. Aprel hadisələrindən sonra may ayında Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə Vyanada görüş keçirildi. Düzdür, Ermənistan tərəfi görüşün keçirilməsi üçün bir neçə şərt irəli sürmüşdü. Bu şərtləri irəli sürərək, özlərini bir daha gülünc vəziyyətə qoydular. Çünki

yaxşı bilirdilər ki, Azərbaycan heç bir şərtlə razılaşmayacaq. Danışıqlar prosesi bizə də, onlara da lazımdır. Aprel hadisələri bunu bir daha göstərdi. Əgər danışıqlar prosesi pozularsa və Ermənistan yenə də öz təxribatçı fəaliyyətini davam etdirərsə, vəziyyət dəyişə bilər.

Beləliklə, may ayında keçirilmiş görüşə Azərbaycan heç bir şərt qəbul etmədən qatılıb və öz mövqeyini ifadə edib. May görüşündə Azərbaycan tərəfindən hər hansı bir sənəd, yaxud da ki, bəyanat nə imzalanıb, nə də qəbul edilib. Həmsədr ölkələr bəyanat qəbul ediblər, amma o bəyanat onların daxili işidir. İyun ayında Rusiya tərəfinin təşəbbüsü, prezident Putinin dəvəti ilə Sankt-Peterburqda görüş keçirildi. O görüş də çox müsbət keçdi və müəyyən ümidlər yaratdı. Məhz buna görə görüşün nəticəsində birgə bəyanat qəbul edildi. Bu bəyanat mətbuatda dərc edilib. Hesab edirəm ki, Azərbaycan dövlətinin mövqeyi o bəyanatda kifayət qədər geniş yer alıbdır.

Dünən Fransa prezidenti cənab Ollandla görüşüm olubdur. Fransa da həmsədr ölkə kimi, münaqişənin həlli üçün çalışır. Biz əslində Minsk qrupunun fəallığını müşahidə edirik. Həm Amerika, həm Rusiya, indi də Fransa Prezidenti bu məsələ ilə çox ciddi məşğuldurlar. Danışıqlar indi fəal mərhələyə keçməlidir və Ermənistan konstruktiv mövqe nümayiş etdirməlidir. Yəni artıq məsələnin mərhələli yollarla həlli bütün həmsədr dövlətlər tərəfindən, ATƏT tərəfindən qəbul edilir. Biz həmişə demişik və deyirik, bunun başqa yolu yoxdur. Məsələ mərhələli yolla həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. İkinci erməni dövləti yaradıla bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilə bilməz. Bunu artıq beynəlxalq ictimaiyyət qəbul edir. Əvvəlki dövrlərdə biz başqa fikirlər eşidirdik. Əfsuslar olsun ki, əvvəlki dövrlərdə bəzi hallarda beynəlxalq hüquq, BMT-nin qətnamələri kənarda qalırdı və Dağlıq Qarabağın gələcəyi ilə bağlı həqiqətə, o cümlədən tarixi həqiqətə uyğun olmayan müxtəlif təkliflər irəli sürülürdü. Bütün bunlar artıq keçmişdə qaldı. Məsələnin mərhələli yollarla həlli yeganə mümkün variantdır. Əgər bu variant reallaşarsa, onda həm torpaqlarımız işğalçılardan azad ediləcək, eyni zamanda, Dağlıq Qarabağın erməni əhalisi və

mütləq oraya qayıdacaq azərbaycanlılar sülh, təhlükəsizlik şəraitində yaşayacaqlar. Bunun başqa həlli yolu yoxdur.

Qeyd etməliyəm ki, son 3-4 ay ərzində danışıqlarda çox böyük fəallıq müşahidə edilir. Təbiidir, Ermənistan indi hər vəchlə çalışacaq ki, danışıqlar prosesinə yenə də zərbə vursun. Yenə də çalışacaq ki, vaxtı uzatsın. İstisna edilmir ki, təmas xəttində növbəti təxribata əl atmaqla, danışıqları pozsun. Necə ki, 2014-cü ildə Parisdə prezident Ollandın təşəbbüsü ilə keçirilmiş çox müsbət danışıqlardan təxminən bir həftə sonra Ağdam rayonunda onlar genişmiqyaslı hərbi təlimlər keçirmişdilər. Bu, sırf təxribat idi və bunu indi hamı bilir, beynəlxalq ictimaiyyət də bilir. Bunu bəyan etməsələr də bilirlər. Həmin təxribat zamanı mövqelərimizə qəsdən hücum çəkmişdilər ki, biz o helikopteri vuraq və ondan sonra bizi təcavüzkarlıqda ittiham etsinlər, danışıqlar pozulsun və pozuldu da. 2015-ci il danışıqlar prosesi üçün itirilmiş il oldu. Sadəcə olaraq, Minsk qrupu dekabr ayında görüntü naminə İsveçrədə formal görüş keçirdi. O görüşdən sonra Ermənistan tərəfi düşündü ki, bu proses fəallaşa bilər və aprel ayında növbəti təxribat törətdi. Məsələ ilə məşğul olan böyük dövlətlər bütün bu reallıqları bilməlidir. Əslində bilirlər. Mən ikitərəfli formatda Azərbaycanın mövqeyini, real məsələnin bu tarixini və münaqişənin səbəblərini açıqlamışam. Ona görə hesab edirəm ki, indiki dövrdə yaxşı imkanlar yaranıb. Ümid edirəm ki, bu proses müsbət nəticələrə gətirib çıxaracaq.

Bununla bərabər, təbii ki, biz hərbi potensialımızı gücləndiririk və gücləndirəcəyik. Aprel döyüşləri bir daha onu göstərdi ki, biz düzgün siyasət aparırdıq və aparırıq. Bu gün hər kəs görür ki, Azərbaycan Ordusu həm texniki təchizat, həm döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasındadır. Bu gün Azərbaycan Ordusu istənilən hərbi vəzifəni icra edə bilər. Biz sadəcə olaraq, hələ də ümid edirik ki, bu münaqişə sülh yolu ilə həll oluna bilər və ümidlərimiz bir qədər artıb. İndi əsas məsələ bundan ibarətdir – həmsədr ölkələr və ATƏT Ermənistana ciddi təzyiq göstərməlidir ki, onlar təklif olunan məsələ ilə bağlı müsbət cavab versinlər.

Hərbi potensialımızın gücləndirilməsi prioritet olaraq qalacaq. Aprel hadisələrindən sonra çox ciddi əlavə tədbirlər görülüb. Bizim döyüş qabiliyyətimiz böyük dərəcədə artıb, daha da artacaq. Biz ən müasir texnika, silah-sursat alırıq. Əlbəttə ki, bu bizim gücümüzü artırır və danışıqlar prosesində mövqelərimizi gücləndirir. Ona görə artıq uzun illər ərzində apardığımız siyasət öz səmərəliliyini təsdiq etdi. Bundan sonra hərbi potensialımızın gücləndirilməsi, ordu quruculuğu prosesi daha da sürətlə getməlidir. Həm yerli istehsal daha da artmalıdır və artacaq – bu gün artıq Azərbaycanın çox güclü hərbi sənayesi vardır – həm də ən qabaqcıl texnologiyaya malik olan silahlar alınır və alınacaq.

Əlbəttə, bütün bu məsələləri həll etmək üçün bizim güclü iqtisadi potensialımız olmalıdır. Baxmayaraq ki, il ərzində neftin qiyməti 3-4 dəfə düşüb, Azərbaycan inkişaf edir. Düzdür, ümumi daxili məhsul bir qədər azalıb. Bunun müxtəlif səbəbləri var. Ancaq sevindirici hal ondan ibarətdir ki, iqtisadiyyatın əsas sahələri – sənaye və kənd təsərrüfatı artıb. Yəni real sektor artıb. Sənaye istehsalı 0,6 faiz artıb. Düzdür, o qədər də böyük artım deyil, ancaq hesab edirəm ki, bu, böhran ili üçün müsbət haldır. Ölkəmizin qeyri-neft sənayesi 2,4 faiz artıb. Bu çox ciddi artımdır və hesab edirəm ki, bu artım böyük ümidlər verir. Gələcəkdə bu daha da artacaq. Çünki bir qədər sonra mən gələcək planlar, o cümlədən sənaye potensialının inkişafı haqqında danışacağam. Əlbəttə ki, Azərbaycanda çox güclü sənaye kompleksi yaradılacaqdır.

Kənd təsərrüfatı 3 faizdən bir qədər çox artıb. Bu da müsbət haldır, ancaq potensial daha da böyükdür. Bu il görülən və görüləcək işlər, həmçinin gələn il görüləcək işlər nəticəsində kənd təsərrüfatında çox böyük irəliləyiş olacaqdır. Bu barədə indi burada məlumat veriləcəkdir.

Ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub. Bu da çox müsbət haldır. Azərbaycan sərmayə qoyuluşu üçün cəlbedici ölkədir. Bu il daha çox xarici sərmayə qoyulubdur. Mən bunu da müsbət qiymətləndirirəm. Çünki daxili sərmayələr azalır. Ona görə ki, indi bizim investisiya proqramımız ixtisar olunub. Bu da

təbiidir. Ancaq xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkə kimi qalır və əminəm ki, gələcəkdə bu proses davam etdiriləcəkdir.

İlin 6 ayında 78 min daimi iş yeri açılıbdır. Ümumiyyətlə, iş yerlərinin açılması 90 minə yaxındır. Amma onlardan 78 mini daimi iş yeridir. Bu da çox müsbət haldır. Çünki ilin əvvəlində müəyyən narahatlıq var idi ki, bəzi iş yerləri bağlanır. Düzdür, 26 min iş yeri bağlanıbdır. Ancaq 78 min iş yeri açılıbdır. Biz görülən tədbirlər nəticəsində, o cümlədən dövlət şirkətlərinin xətti ilə açılmış iş yerlərinin sayı hesabına – özəl sektorda da bu işlər gedir – burada da müsbət dinamikanı görürük. Özəl sektora dövlət qurumları tərəfindən çox ciddi tövsiyə edilmişdir ki, onlar ixtisarlara getməsinlər, bir qədər az pul qazansınlar, ancaq insanları küçələrə tökməsinlər. Qeyd etməliyəm ki, özəl sektor özünü çox məsuliyyətli aparır. Bu da təbiidir. Çünki özəl sektor uzun illərdir ki, dövlət tərəfindən çox böyük dəstək – həm siyasi, həm maddi dəstək alır. Güzəştli şərtlərlə verilən kreditlərin həcmi 1 milyard dolları ötüb. Ona görə, əlbəttə, özəl sektor da sosial məsuliyyət daşımalıdır. Bax, 78 min iş yeri açılmış, 26 min iş yeri bağlanmışdır. Deməli, 50 mindən çox yeni iş yerləri açılıbdır, bu da çox müsbət haldır.

Sosial məsələlərin həlli istiqamətində çox ciddi addımlar atılıb. Ümumiyyətlə, 2016-cı ilin ötən dövründə bəzi ölkələrdə maaşlar, pensiyalar ixtisar edilib. Ancaq Azərbaycanda maaşlar və pensiyalar 10 faiz qaldırılıbdır və bu da çox ciddi sosial təşəbbüsdür.

Bu il biz sosial mənzillərin inşasına başlamaq fikrindəyik. Mənzil İnşaatı Dövlət Agentliyi – MİDA yaradılıb. Onun əsas vəzifəsi aztəminatlı ailələrə çox əlverişli şərtlərlə mənzillərin verilməsidir. Eyni zamanda, bu proses kütləvi xarakter alandan sonra bunun inşaat və tikinti materialları istehsalı sektorlarına və beləliklə, sənaye potensialımıza çox müsbət təsiri olacaq. İndi hazırlıq işləri aparılır. Ümid edirəm ki, bu il artıq praktiki addımlar atılacaq və bu yeni sosial təşəbbüs çox geniş vüsət alacaqdır.

2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq. Düzdür, biz bu islahatları uzun illərdir ki, aparırıq. Ancaq əvvəlki dövrdə vəziyyət başqa idi. Neft hasilatı artırdı. Neftin qiyməti 100 dollardan çox idi. Beləliklə, bizim əsas vəzifəmiz infrastruktur layihələrinin – həm sosial infrastruktur, həm digər infrastruktur layihələrinin icrası idi. Çox böyük vəsait ayrılırdı. Biz elektrik enerjisi, qazlaşdırma, kənd yollarının tikintisi ilə bağlı əsas infrastruktur layihələrini qısa müddətdə icra etdik. Hələ ki, bu istiqamətdə işlər davam edir, amma infrastruktur layihələrinin böyük əksəriyyəti artıq reallaşıb.

İndi vəziyyət tam başqadır. Mən dəfələrlə demişəm, biz post-neft dövründə yaşayırıq. Düzdür, bir neçə ildən sonra Azərbaycan dünya bazarlarına çox böyük həcmdə təbii qazı da ixrac etməyə başlayacaq və yenə də valyuta axını artacaq. Ancaq biz elə yaşamalıyıq ki, artıq postneft dövründəyik və belə olan halda, əlbəttə, ciddi, daha da dərin iqtisadi islahatlar aparılmalıdır və aparılır. Həm maliyyə-bank sektorunda, həm də kənd təsərrüfatının, sənaye potensialımızın inkişafı ilə bağlı çox ciddi islahatlar aparılır. İxracın stimullaşdırılması, investisiya cəlb edilməsi üçün çox böyük güzəştlər tətbiq olunur. Eyni zamanda, vergi sahəsində, xüsusilə gömrük sektorunda ciddi islahatlar aparılır. Bu il gömrük orqanlarından daxilolmalar plandan 17 faiz artıq yığılıbdır. Bu çox müsbət nəticədir. Vergi orqanlarında yığım plandan 2 faiz artıq təmin edilib. Amma orada da böyük ehtiyatlar var. Hesab edirəm ki, vergi sistemində aparılan islahatlar ilin sonuna qədər bütün bu vəziyyəti şəffaflaşdıracaq. Necə ki, gömrük orqanlarında bütün məsələlər şəffaf şəkildə öz həllini tapır. Təbii ki, bunu həm insanlar, biznesmenlər, iş adamları görür, eyni zamanda, büdcəyə daha da böyük həcmdə vəsait daxil olur. Yəni bütün sahələrdə islahatlar dərinləşməlidir, şəffaflıq təmin edilməlidir, nəzarət, maliyyə nəzarəti daha da gücləndirilməlidir. Belə olan halda, biz neftdən asılılığı tamamilə aradan götürəcəyik. Məsələ məhz belə qoyulub. Bir neçə il ərzində dövlət büdcəmiz, onun mütləq əksəriyyəti qeyri-neft sektoru hesabına təmin edilməlidir. Ondan sonra neftin qiyməti qalxdı-düşdü, bunun heç bir əhəmiyyəti olmayacaq.

Qeyd etdiyim kimi, sosial sahədə maaşlar, pensiyalar qalxıb, eyni zamanda, digər islahatlar da aparılır. İnsanlara daha çox imkanlar yaradılmalıdır ki, onlar özləri öz məşğulluğunu təmin etsinlər. Bu məqsədlə Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Biz birinci təcrübənin nəticələrini yəqin ki, yaxın vaxtlarda görəcəyik. Hesab edirəm ki, öz məşğulluğunu təminetmə yanaşması üstünlük təşkil etməlidir.

Biz uzun illər insanlara ünvanlı sosial yardım veririk. Bu da çox ciddi sosial təşəbbüsdür. 100 mindən çox ailəyə dövlət tərəfindən ünvanlı sosial yardım verilir. Biz bunu ona görə edirik ki, bu insanların maddi təminatı lazımi səviyyədə deyil. Ancaq biz tədricən o aztəminatlı ailələr üçün şərait yaratmalıyıq ki, onlar özləri pul qazansınlar, özləri işlə məşğul olsunlar. Çünki bəzi hallarda dövlət sektorunda açılmış iş yerlərinə o qədər də böyük maraq göstərilmir. Bəziləri deyirlər ki, mən dövlətdən yardım alıram, niyə gedib işləməliyəm? Bu, yaxşı hal deyil. Bu, ələbaxımlıq yaradır. Ələbaxımlıq da gələcəkdə çox böyük problem ola bilər. Ona görə insanlar özləri daha da məsuliyyətli olmalıdırlar. Dövlət qurumları şərait yaratmalıdır ki, tədricən ünvanlı sosial yardım əvəzinə hər bir insan özü üçün iş qursun. Dövlət kömək edəcək. Prezidentin ehtiyat fondundan bu məqsədlər üçün ilkin olaraq 6 milyon manat ayrılıbdır. Lazım olarsa daha da çox vəsait ayrılacaq. Hər bir rayonda insanlar fərdi qaydada işlə təmin ediləcək. Onlar dövlətdən asılı olmayacaqlar. Onlar halal pul qazanacaqlar, ailələrini dolandıracaqlar.

Yəni 2016-cı ilin birinci yarısında doğrudan da böyük işlər görülüb. Biz bu işlərin nəticələrini gələcək illərdə görəcəyik. Bununla bərabər, ölkəmiz üçün strateji əhəmiyyət daşıyan 2 istiqamət üzrə də yaxşı nəticələr var. Həm «Cənub Qaz Dəhlizi»nin, həm də Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin icrası ölkəmizin önəmini xeyli artıracaq. Bu layihələr Azərbaycan və bizim tərəfdaşlarımız üçün çox böyük strateji əhəmiyyət daşıyır. Çünki bizim coğrafi vəziyyətimiz diktə edir ki, Azərbaycan nəinki regional, dünya miqyaslı nəqliyyat mərkəzlərinin birinə çevrilməlidir. Bu məqsədlə lazımi tədbirlər görülür. Həm liman,

həm Şimal–Cənub və Şərq–Qərb dəhlizləri inşa edilir. İndi bütün tərəfdaş ölkələrlə və potensial tərəfdaş ölkələrlə ciddi danışıqlar aparılır. Biz çalışmalıyıq ki, yükləri səfərbər edək və Azərbaycan ərazisindən keçən yükdaşımalarının sayı artsın. Bu da ölkəmizin həm siyasi maraqlarına cavab verəcək, həm də ki, böyük mənfəət gətirəcəkdir.

Əlbəttə ki, 2016-cı ilin ötən dövründə çox işlər görülüb. Görülmüş bütün işlər haqqında danışmaq mümkün deyil. Bunun üçün bir neçə saat vaxt lazımdır. Mən əsas məsələləri qeyd etdim. Müzakirələrdə məlumatlar veriləcək. Mən də yekun sözümdə tapşırıqlarla bağlı öz fikirlərimi bildirəcəyəm.

## YEKUN NİTQİ

Bir daha qeyd etmək istəyirəm, ötən 6 ayın nəticələri göstərir ki, Azərbaycan 2016-cı ili də uğurla başa vuracaq. İlin sonuna qədər biz fəal işləməliyik ki, qarşıda duran bütün vəzifələri icra edək. Əlbəttə ki, biz əsas prioritet istiqamətlər üzrə işimizi daha da təkmilləşdirməliyik. Bu gün çıxışlarda da həm görülmüş və görüləcək işlər, həm də əsas prioritet istiqamətlər haqqında məlumatlar verildi. Əslində bu gün çıxışlarda səslənən fikirlər bizim gələcək fəaliyyətimizin istiqamətlərini müəyyən edir, yəni bir daha göstərir ki, sənaye potensialı və kənd təsərrüfatı gələcək inkişaf üçün əsas rol oynayacaq. 2016-cı ilin birinci yarısının iqtisadi göstəriciləri də çox ümidvericidir. Bir daha qeyd etmək istəyirəm ki, qeyri-neft sənayemiz 2,4 faiz, kənd təsərrüfatı isə 3,1 faiz artıb. Ancaq əminəm ki, xüsusilə kənd təsərrüfatı istehsalı ilin sonuna qədər daha da artacaq.

Sənaye istehsalı ilə bağlı həm iri layihələr icra edilir və eyni zamanda, orta və kiçik sahibkarlığın inkişafı sənaye potensialımızı daha da gücləndirəcəkdir. Mən iri layihələr arasında, əlbəttə ki, Sumqayıt Kimya Sənaye Parkında həyata keçirilən layihələri qeyd etmək istəyirəm. Onların arasında SOCAR Polimer kompleksinin tikintisi xüsusi yer tutur. Buraya böyük investisiya – təqribən 700

milyon dollardan çox sərmayə qoyulur. 2 ildən sonra artıq bu müəssisə hazır məhsul istehsal edəcək. İdxaldan asılılıq tamamilə aradan götürüləcək və böyük ixrac potensialı yaranacaqdır. Gələcək fəaliyyətimiz üçün bu, əsas istiqamət, prioritet olmalıdır. İdxaldan maksimum dərəcədə asılılığımızı aradan götürmək, ixrac potensialımızı artırmaq və bununla paralel olaraq, ixrac bazarlarının araşdırılması və müəyyən edilməsi istiqamətində də ciddi işlər aparılmalıdır. Əlbəttə, birjada satılan məhsullar üçün bazar axtarmağa ehtiyac yoxdur. Ancaq digər məhsullar üçün biz indi gərək rəqabətə girək. Çünki indi dünyada ixrac bazarları uğrunda böyük rəqabət aparılır. Böyük dövlətlər, böyük firmalar artıq bazarları böyük dərəcədə bölüblər. Ona görə bu bazarlara öz məhsulumuzla girmək üçün gərək böyük səylər göstərək.

Eyni zamanda, 2018-ci ildə Azot gübrələri zavodunun istismara verilməsi planlaşdırılır. Bu da gübrələrə olan tələbatımızı tam təmin edəcək, idxala artıq ehtiyac olmayacaq və böyük həcmdə ixrac potensialı yaranacaqdır. Burada da üstünlük ondan ibarətdir ki, bu məhsulların satışı ilə bağlı heç bir problem olmayacaq. O ki qaldı Polimer zavodunun fəaliyyətinə, bu, birinci mərhələ olmalıdır. Ondan sonra və bəlkə də indidən özəl sektor da qoşulmalıdır ki, artıq onlar da hazır məhsul istehsalına başlasınlar. Çünki bu xammalın istehsalı böyük imkanlar yaradır. Bu zavoddan faydalanan özəl sektor çox çəld fəaliyyət göstərməlidir, çevik siyasət aparmalıdır. Əgər lazım olarsa, tezliklə dövlətin dəstəyi ilə bir çox kiçik və orta müəssisələr yaradılmalıdır ki, onlar Azərbaycanda hazır məhsul istehsal etsin.

Digər iri sənaye müəssisələri də yaradılır. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, orada iqtisadi potensialı müəyyən edən orta və kiçik sahibkarlardır. Biz də bu yolla getməliyik və sahibkarlığın inkişafı üçün əlavə tədbirlər görüləcəkdir.

Azərbaycanda bir sahə var ki, o, demək olar, heç inkişaf etməyib. Həm özəl sektor maraq göstərməyib, həm də dövlət bu sahəni bir qədər diqqətdən kənarda saxlayıb. Bu da dərman preparatlarının istehsalıdır. Biz, demək olar ki, 100 faiz idxaldan

asılıyıq. Düzdür, son vaxtlar bu sahədə görülmüş tədbirlər nəticəsində dövlət tənzimləyici rolunu oynayır. İqtisadiyyat Nazirliyi Səhiyyə Nazirliyi ilə birlikdə artıq 1 ildən çoxdur ki, bu məsələ ilə məşğuldur. Nəticədə dərman preparatlarının qiymətində çox ciddi azalma müşahidə olunur. Eyni zamanda, artıq keyfiyyətə də çox ciddi nəzarət edilir. Baxmayaraq ki, manatın məzənnəsi aşağı düşüb və biz idxaldan tam asılıyıq, görülmüş tədbirlər, dövlətin müsbət mənada müdaxiləsi nəticəsində burada qiymətlərdə sabitləşmə var. Bir çox dərman preparatlarının qiyməti aşağı düşüb. Ancaq indi vaxt gəlib çatıb ki, Azərbaycanda dərman preparatlarının istehsalına başlanılsın. Müvafiq göstərişlər verilibdir, bir neçə xarici şirkətlə danışıqlar aparılır, böyük maraq var. Çünki Azərbaycan bazarı kifayət qədər böyük bazardır. Azərbaycan əhalisinin sayı 10 milyona yaxınlaşır və dinamika da müsbətdir. Ona görə xarici firmalar böyük maraq göstərir. Biz bundan istifadə etməliyik. Dərman preparatlarının istehsalı üçün indi ciddi bir proqram hazırlanır və bir klastr yaradılmalıdır. Beləliklə, həm bu sahədə də sənaye potensialı inkişaf edəcək, idxaldan asılılıq azalacaq, həm də vətəndaşlarımızı daha keyfiyyətli dərmanlarla təmin edə biləcəyik. Hesab edirəm ki, ilin sonuna qədər bütün danışıqlar prosesi, bütün təşkilati məsələlər öz həllini tapmalıdır. Bu il artıq biz dərman fabriklərinin tikintisinə başlamalıyıq.

Mən dəfələrlə qeyd etmişəm ki, Azərbaycanda bir neçə sənaye mərkəzi yaradılmalıdır. Əlbəttə ki, Bakı Cənubi Qafqazın ən böyük sənaye şəhəridir. Gəncə, Sumqayıt və eyni zamanda, Mingəçevir şəhərində çox böyük sənaye potensialı, çox hazırlıqlı kadr potensialı var. Bu il Mingəçevir şəhərində Yüngül Sənaye Kompleksinin təməli qoyulmalıdır. Bu, Mingəçevirdə işsizlik problemlərinin həllinə çox müsbət təsir göstərəcək və biz çox böyük, yeni sənaye mərkəzini yaradacağıq. Mingəçevirdə bir neçə böyük sənaye müəssisəsinin tikintisi nəzərdə tutulur. Burada da yüngül sənaye inkişaf edəcək. Yaxın zamanlarda minlərlə iş yeri açılacaqdır. İlk növbədə, bu müəssisələrin inşası zamanı və ondan sonra həmin müəssisələrdə işləyəcək insanların sayı minlərlə

ölçüləcək. Beləliklə, biz yeni sənaye mərkəzi yaradacağıq və insanları işlə təmin edəcəyik. Bu ilin sonuna qədər artıq birinci müəssisənin təməl daşı qoyulmalıdır və əminəm ki, qoyulacaqdır.

Bildiyiniz kimi, artıq müəyyən müddət ərzində hər bir rayonda sənaye zonalarının yaradılması istiqamətində iş aparılır. Birinci pilot layihə Neftçala rayonunda icra edilir. Neftçalada artıq 8 layihə hazırdır və bu layihələrin icrasına 40 milyon manat investisiya qoyulacaq. İkinci sənaye zonası Masallı şəhərində yaradılacaqdır. Masallı sənaye zonasında fəaliyyət göstərmək üçün sahibkarlar tərəfindən 33 layihə təqdim olunub. Bu layihələrin investisiya həcmi 31 milyon manatdır. Bu çox müsbət inkişafdır. Bu onu göstərir ki, bizim qəbul etdiyimiz qərarlar icra edilir. Əminəm ki, digər şəhər və rayonlarımızda da buna oxşar proseslər sürətlənəcək. Çünki hər bir rayonda sənaye potensialının inkişafı üçün gözəl imkanlar var. Biz ilk növbədə, özümüzü bütün sənaye məhsulları ilə təmin etməliyik. Eyni zamanda, çox ciddi ixrac potensialı da yaratmalıyıq və xarici bazarlara çıxmalıyıq. Bununla bərabər, bu, məşğulluq problemlərinin həllinə də çox müsbət təsir göstərəcəkdir.

Bu yaxınlarda «Azərxalça» Səhmdar Cəmiyyəti yaradılıbdır. Xalçaçılıq sənəti bizim milli sərvətimizdir. Əsrlərboyu Azərbaycan xalçaçılığı inkişaf etdiribdir və Bakının mərkəzində – Bulvarda açılmış Xalça Muzeyi həm özlüyündə bir memarlıq əsəridir və eyni zamanda, bizim qədim sənətimizi bütün dünyada nümayiş etdirir. Ancaq əfsuslar olsun ki, xalçaçılıq sənaye kimi, Azərbaycanda az inkişaf edib. Ancaq fərdi qaydada bu sahə ilə məşğul olanlar xalça toxuyurlar və bunu həm ölkə daxilində, həm də xaricə sata bilirlər. Nəzərə alsaq ki, bu sahədə bizim böyük ənənələrimiz var, xalça sənəti Azərbaycan xalqının böyük sərvətidir və dünya miqyasında biz qabaqcıl yerlərdəyik, ona görə qərar qəbul edilib ki, bu məsələlər məqsədyönlü şəkildə öz həllini tapsın. Həm bu qədim sənət yaşasın, kadrlar axını təmin edilsin, eyni zamanda, biz xalçaçılıq sənayesini də yaradaq. Bu, ixracyönümlü məhsul kimi, ölkəmizə böyük həcmdə valyuta gətirəcək.

Artıq bütün struktur məsələləri öz həllini tapıb. Eyni zamanda, Prezident Administrasiyasına göstəriş verilib ki, müxtəlif bölgələrdə yerlər ayrılsın, dövlət tərəfindən bütün lazımi avadanlıqlarla, dəzgahlarla təmin edilsin və xalçaçılıqla məşğul olanlar orada işləsinlər. Göstəriş artıq icra edilir. Birinci mərhələdə 1000 və ondan sonrakı mərhələlərdə 5000 iş yeri açılacaq. Həm məşğulluq təmin olunacaq – xüsusilə nəzərə alsaq ki, daha çox qadınlar bu işlərlə – toxuculuqla, xalçaçılıqla məşğuldurlar – biz qadınları işlə təmin edəcəyik və həm də ixrac məhsulu yaranacaq. Beləliklə, biz burada bir neçə məqsədi təmin edəcəyik.

Bir sözlə, sənaye potensialımızın inkişafı əsas prioritet məsələlərdən biridir. Bu il və növbəti illərdə bu sahəyə diqqət göstəriləcək.

Bu gün kənd təsərrüfatının inkişafı ilə bağlı məruzələr səsləndi. Həm Kənd Təsərrüfatı naziri, həm «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri çıxış etdi. Çünki bu məsələlər bir-biri ilə sıx bağlıdır. Kənd təsərrüfatında çox böyük inkişaf gözlənilir. Birincisi, indi həm islahatlar aparılır, tədbirlər görülür, həm də çox ciddi elmi yanaşma var. Əminəm ki, biz yaxın zamanlarda daha da böyük nəticələr görəcəyik. Qeyd etdiyim kimi, bu il artıq 3,1 faiz artım var. Amma daha da böyük artım gözlənilir. Əlbəttə ki, biz torpaqlardan daha da səmərəli şəkildə istifadə etməliyik. Burada təkliflər səsləndi. Mən bu təklifləri, xüsusilə heyvandarlıqla bağlı olan təklifləri dəstəkləyirəm. İndi heyvandarlıq qapalı yerlərdə inkişaf edir. Ona görə o qədər də böyük örüş torpaqlarına ehtiyac yoxdur. Bu torpaqlardan səmərəli şəkildə istifadə olunmalıdır ki, ərzaq təhlükəsizliyi tam təmin edilsin və çox böyük ixrac potensialı da yaradılsın.

Biz əvvəlki dövrlərdə təbii olaraq, əsas səylərimizi ərzaq təhlükəsizliyi məsələlərinə yönəltmişdik. Çünki bir neçə il bundan əvvəl çox böyük problemlərlə üzləşmişdik. Yəqin ki, xatırlayırsınız, hətta imzalanmış kontraktlar da icra edilmirdi. Çünki biz taxılı, buğdanı idxal edirdik. Ancaq sonra bəzi ölkələrdə quraqlıq baş verdi, çətinliklər yaşandı və bizim kontraktlarımız ləğv edildi.

Bu bizim üçün çox ciddi bir siqnal idi. Ondan sonra biz qərar verdik ki, taxılçılığı sürətlə inkişaf etdirək. İri fermer təsərrüfatları

yaradıldı, məhsuldarlıq artdı, 23 sentnerdən 30 sentnerə qalxdı. İri fermer təsərrüfatlarında məhsuldarlıq 50–60 sentnerə bərabərdir. Yəni ərzaq təhlükəsizliyi məsələləri ön planda idi. Biz indi özümüzü ətlə təmin edirik. Quş əti ilə tam təmin edirik. Yəni bu, ərzaq təhlükəsizliyi məsələləri idi. Ancaq bununla bərabər, indi vaxt gəlib çatıb ki, texniki bitkilərə də ciddi fikir verilsin. Xüsusilə nəzərə alsaq ki, neftdən gələn gəlirlərin həcmi azalıb, biz bu gəlirləri müəyyən mənada kənd təsərrüfatı məhsullarının ixracı ilə kompensasiya etməliyik.

Ona görə torpaqlardan səmərəli şəkildə istifadə əsas vəzifədir. Bəzi hallarda torpaqlar zəbt edilib. Minlərlə torpaq sahələri hasarlanıb. Orada heç bir fəaliyyət göstərilmir. Mən göstəriş vermişəm, arayış hazırlayıb veriblər və orada dövlət məmurlarının da adları var. Zəbt edilmiş o torpaqların bir hissəsi onlara məxsusdur. Bu yolverilməzdir. Torpaqlardan səmərəli şəkildə istifadə edilməlidir. Əgər səmərəli şəkildə istifadə edilmirsə, həmin torpaqlar sahibkarlardan və yaxud da ki, digər şəxslərdən alınmalıdır və o insanlara verilməlidir ki, onlar əkib-becərsinlər. Ona görə Prezident Administrasiyasına göstəriş verildi ki, əkilməyən kənd təsərrüfatı təyinatlı torpaq olmamalıdır. Yerli icra orqanları da bu məsələ ilə məşğuldur. İmkanı olan insanlar kənd təsərrüfatına investisiya qoysunlar ki, ölkəyə də xeyir olsun, özləri də xeyir götürsünlər.

Taxılçılıqla bağlı. Qeyd etdiyim kimi, biz hələ ki, özümüzü taxılla tam təmin edə bilmirik. Ancaq mən hesab edirəm ki, gələcəkdə biz məhsuldarlığın artırılması hesabına taxılçılığı inkişaf etdirməliyik. Biz iri fermer təsərrüfatlarının timsalında görürük ki, məhsuldarlığı 2 dəfə artırmaq olar. Əgər Azərbaycanda taxılçılıqda orta məhsuldarlıq hektardan 50 sentner olarsa, onda bizə yeni torpaq sahələri də lazım deyil. Biz meliorativ tədbirləri digər məhsulların yetişdirilməsinə yönəldə bilərik və beləliklə, ixrac üçün yeni imkanlar yaranacaq.

Bu il texniki bitkilərin istehsalı ilə bağlı çox ciddi addımlar atılıb. Bu işdə Prezident Administrasiyasının fəaliyyətini xüsusi qeyd etməliyəm və yerli icra orqanlarının rəhbərləri çox səmərəli

işləyiblər. Təbii ki, Kənd Təsərrüfatı Nazirliyi və İqtisadiyyat Nazirliyi bu işlərdə çox fəal iştirak edirdi. Qısa müddət ərzində biz bu sahədə çox ciddi dönüş yarada bilmişik. Burada bəzi rəqəmlər səsləndi. Mən bu məsələlərə bir qədər geniş toxunmaq istəyirəm. Misal üçün, sovet dönəmində Azərbaycanda baramaçılıq çox geniş vüsət almışdı. Amma sonra biz gördük ki, bu sahə, demək olar, tamamilə dağılıb gedib. Burada qeyd edildiyi kimi, əgər keçən il ancaq bir rayonda – Şəkidə 200 kiloqramdan bir qədər çox barama istehsal edilibsə, bu il 25 rayonda qısa müddətdə 70 ton barama istehsal olunub. Yəni 45 gün ərzində insanlar dövlətin dəstəyi ilə halal pul qazanıblar. Minlərlə insan bu 45 gündə 560 manat pul alıb və ailəsinə aparıb.

İndi bizim daha da geniş planlarımız var. Biz artıq 1 kiloqram baramaya verilən məbləği də, demək olar ki, 3 dəfə artırmışıq. Əgər əvvəllər 1 kiloqrama 3 manat verilirdisə, indi 8 manat verilir. Tut tinglərinin əkilməsi prosesi sürətlə aparılmalıdır. Mən maraqlanmışam və verilən məlumata görə, Azərbaycanda 354 min tut ağacı var. Amma bizim planlarımıza görə payız mövsümündə 1 milyon 600 min tut tingi əkilməlidir. Bu, nəticə etibarilə barama istehsalını keçən ildəki 232 kiloqramdan 2019-cu ildə 1300 tona qaldıracaq. Əgər bu il 45 gündə insanlar 560 min manat pul alıblarsa, 2019-cu ildə 10 milyon manat pul alacaqlar. Dövlət, bax, bu işləri görür və görəcək. Ancaq mən kəndlərdə yaşayan vətəndaşlara müraciət edirəm ki, siz də bu işlərə qoşulun. Bu həm dövlət, həm də vətəndaşlar üçün çox yaxşı qazanc mənbəyi olacaq. Beləliklə, biz dünya bazarlarına öz ipəyimizlə daha geniş şəkildə çıxacağıq. Bu həm Azərbaycanın tanıdılması, həm İpək kombinatının tam gücü ilə işləməsi, məşğulluğun artırılması üçün lazımdır. Eyni zamanda, insanlar pul qazanacaqlar, dövlət valyuta qazanacaqdır. Xarici valyuta Azərbaycana gələcəkdir.

Tütünçülüyün inkişafına da çox böyük maraq var və burada da cəmi 1 il ərzində böyük işlər görülüb. 2015-ci ildə 1400 hektarda, bu il 2500 hektarda tütün əkilib və bu daha da geniş vüsət almalıdır. Tütünçülük çox gəlirli sahədir. Əfsuslar olsun ki, bu sahə uzun illər diqqətdən kənarda qalmışdır. İndi biz tütünçülüyü

də bərpa edəcəyik. Ənənəvi bölgələrdə tütünçülüklə məşğul olanlar da buna hazır olsunlar. Dövlət öz dəstəyini verir və verəcək. Eyni zamanda, tütünün alınması üçün dövlət öz dəstəyini göstərməlidir və göstərəcəkdir.

Pambıqçılıqla bağlı çox ciddi addımlar atılıb. Biz pambıqçılığı bərpa edirik, dirildirik və pambıqçılığın şöhrətini özünə qaytarırıq. Əfsuslar olsun ki, son illər ərzində bu sahə də tənəzzülə uğrayıb. Keçən il 18 min hektardan cəmi 30 min ton pambıq yığılıb. Cəmi bir neçə ay ərzində görülmüş tədbirlər nəticəsində biz 52 min hektarda pambıq əkinini təmin etmişik və bu il 100 min ton məhsul gözlənilir. Gələn il 120 min hektar əkilməlidir. Yeni texnologiyalar, yeni suvarma sistemləri tətbiq olunacaq. Ona görə hektardan məhsuldarlıq indiki 20 sentnerdən minimum 30 sentnerə qalxmalıdır. Belə olan halda, gələn il minimum 300 min ton pambıq yığılmalıdır. Bu, ölkəmizə həm valyuta gətirəcək, həm məşğulluğu təmin edəcək. Sovet dövründə çalışanlar yaxşı bilirlər ki, o vaxt hər hektarda minimum 2 nəfər işləyirdi. Əgər hər hektarda 2 nəfər işləsə, bax, bu il 100 min nəfər işlə təmin olunur, gələn il 250 min nəfər işlə təmin olunacaq. Ancaq hesab edirəm ki, biz pambıqçılığı tam bərpa etməliyik. Gələn il gözlənilən 300 min ton son hədd deyil, daha da artırmalıyıq. Buna çox böyük maraq var və hazırda 24 rayonda pambıqçılıq inkişaf edir, insanlar çox razıdırlar, çox böyük minnətdarlıq bildirirlər. Mən bir daha demək istəyirəm ki, bu sahə prioritet sahə kimi qalacaq və burada ən qabaqcıl texnologiyalar tətbiq edilməlidir. Xüsusilə suvarma ilə bağlı tədbirlərin və meliorativ tədbirlərin görülməsi burada çox ciddi rol oynayacaq. Bununla bərabər, Maliyyə Nazirliyinə göstəriş verilib ki, bu il texnikanın alınmasına böyük məbləğdə vəsait ayrılsın.

Ancaq texnikanın alınmasına 2 il ərzində 360 milyon dollar, bu il isə 170 milyon dollar vəsait xərclənəcək. Baxmayaraq ki, biz valyutaya qənaət etməliyik, ancaq bu sahəyə vəsait qoymalıyıq ki, həm məşğulluq artsın, həm də bu özünü doğrultsun. Çünki satılan məhsul valyuta gətirəcək və beləliklə, bütün borclar bağlanacaq. Əlbəttə ki, texnikanın alınmasına sərf edilən vəsait də dövlətə qayıdacaqdır.

Digər kənd təsərrüfatı məhsullarının istehsalında maraqlı bir mənzərə müşahidə olunur. Məlumdur ki, ən çox valyuta gətirən məhsullardan biri də fındıqdır. Ancaq qeyd etməliyəm ki, dövlət fındıqçılığın inkişafına o qədər də böyük dəstək verməyib. Keçən il fındığın ixracından Azərbaycana 90 milyon dollar vəsait gəlib. Fındıqdan sonra ən çox valyuta gətirən məhsul xurmadır. Yəni bütün bunları biz bilməliyik və bu sahələrə çox ciddi dövlət dəstəyi verilməlidir. Ona görə mən Prezident Administrasiyasına, Kənd Təsərrüfatı Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, digər aidiyyəti qurumlara göstəriş verirəm ki, bu sahələrə çox ciddi dövlət dəstəyi olmalıdır və beləliklə, biz yığılan məhsulun həcmini artırmalıyıq. Fındıq istehsalında Azərbaycan dünya miqyasında 3-cü–4-cü yerdədir. Bizim məhsulumuza çox böyük tələbat var. Təkcə şimal-qərb zonasında deyil, bir çox rayonlarda fındıq istehsalı mümkündür. Ona görə bütün rayonlar üzrə araşdırmalar aparılmalıdır, harada münbit iqlim şəraiti var, dövlət burada çox ciddi dəstəyini göstərməlidir ki, fındıqçılıq sürətlə inkişaf etsin və insanlar daha çox pul qazansınlar.

Hazırda Azərbaycanda istixanaların tikintisi çox geniş vüsət alıb. Bu da çox sevindirici haldır. İş adamları buna böyük vəsait qoyurlar. Dövlət də öz dəstəyini verir və bu bizim ixrac potensialımıza çox müsbət təsir göstərir. Burada Kənd Təsərrüfatı naziri qeyd etdi ki, qiymətlər aşağı düşür, eyni zamanda, kənd təsərrüfatı məhsullarının ixracı 27 faiz artıb. Bu çox böyük rəqəmdir. İdxal da azalıb.

İdxal məncə, ümumiyyətlə, bir anlayış kimi olmamalıdır. Ancaq indi biz yəqin ki, idxala çeşidlərin müxtəlifliyinə görə yol verməliyik. Çünki bəzi insanlar xarici mallara öyrəşib, onları daha üstün tutur. Ona görə biz idxalı dayandıra bilmərik. Ancaq gömrük rüsumları elə tətbiq edilməlidir ki, yerli məhsullara hər kəs üstünlük versin. Birincisi, yerli məhsullardan əldə edilən vəsait Azərbaycanda qalır. İkincisi, yerli məhsul keyfiyyətlidir. Orada heç bir kimyəvi, yaxud da ki, insan orqanizmi üçün təhlükəli maddələr yoxdur. Xarici məhsulların bəzilərində, əfsuslar olsun ki, belə maddələr var. Yerli istehsalı sürətləndirmək, artırmaq üçün,

əlbəttə, biz tənzimləyici tədbirlər də görməliyik. Ümumiyyətlə, Azərbaycan kimi ölkədə kənd təsərrüfatı məhsullarının idxalı mənə bir az qəribə görünür. Ona görə biz həm keyfiyyətli məhsul yetişdirməliyik, həm özümüzü tam təmin etməliyik və əlbəttə ki, daxili bazarımızı qorumalıyıq.

Burada Kənd Təsərrüfatı naziri qeyd etdi ki, heyvandarlığın inkişafı da yeni mərhələyə qədəm qoyur, yeni yanaşma tətbiq edilir. Biz əvvəlki illərdə cins mal-qaranı alırdıq, fermerlərə paylayırdıq. Bunun müsbət təsiri olmuşdur, çünki cins mal-qaranın məhsuldarlığı, əlbəttə ki, daha yüksəkdir. Həm südlük, həm ətlik mal-qaranın gətirilməsi də çox müsbət təsir göstərmişdir. İndi biz yeni dövrə keçirik, mövcud mal-qaranın cinsini süni mayalanma yolu ilə yaxşılaşdıracağıq. Buna bir neçə il vaxt lazım olacaq. Bütün lazımi tədbirlər görülüb və qeyd olunduğu kimi, Prezidentin ehtiyat fondundan həm bu sahəyə, həm toxumçuluğa kifayət qədər böyük vəsait ayrılıb. Əminəm ki, burada da çox ciddi irəliləyiş olacaqdır. Burada biz bir neçə məqsədi güdürük. İlk növbədə, bundan sonra da tam şəkildə özümüzü ətlə, süddə və süd məhsulları ilə təmin edəcəyik. İkinci vəzifə – bizdə ixrac potensialı yaranır. Üçüncüsü, biz artıq örüş torpaqlarından digər bitkiləri yetişdirmək üçün istifadə edəcəyik. Çünki hər qarış torpaq bizim üçün qiymətli olmalıdır. Yenə də qayıdıram əvvəlki fikrimə ki, torpaqlardan səmərəsiz istifadəyə yol verilməməlidir. Ona görə heyvandarlığın müasir yollarla inkişafı bitkiçiliyə də çox müsbət təsir göstərəcək. Bitkiçilik üçün nəzərdə tutulacaq o torpaqlarda, əlbəttə ki, meliorativ tədbirlər də paralel şəkildə aparılmalıdır. Bu il Prezidentin ehtiyat fondundan subartezian quyularının qazılmasına vəsait ayrılıb. Bu, kəndliləri həm içməli su ilə təmin edir, həm də ki, bunun əkin sahələrinə də faydası var. Bu il qazılacaq subartezian quyularının hesabına 3000 hektar torpağın suvarılması təmin ediləcək. Biz bu yolla getməliyik və Dövlət İnvestisiya Proqramında meliorativ tədbirlərin görülməsinə bundan sonra da vəsait ayrılmalıdır. Əgər lazım olarsa, biz bu il də bu məsələyə baxmalıyıq. Çünki bizim həm büdcəmizdə vəsait var, həm Dövlət Neft Fondunda manat vəsaiti var. Dövlət Neft Fondu bazarda dollar

satır. İndi manat ehtiyatı yaranıb. Qoy hökumət təklif versin, biz bu vəsaitdən necə istifadə edək ki, lazım olan tədbirləri həll edək və vaxt itirməyək.

Azərbaycanda aqroparkların yaradılması başlanıb – həm Yalamada, həm Şəmkirdə. Bu, yaxşı haldır, amma bu azdır. Bütün bölgələrdə bir neçə aqropark yaradılmalıdır. Bunun çox böyük mənası, faydası var. Hesab edirəm ki, İqtisadiyyat Nazirliyi kreditlərin verilməsində bu məsələni diqqətdə saxlamalıdır. Kənd Təsərrüfatı Nazirliyi və sahibkarlar da bu işlərə qoşulsunlar. Düzdür, aqroparkların yaradılması böyük vəsait tələb edir, ancaq burada sahibkarlar kooperasiya edə, konsorsium yarada bilərlər. Çünki bu, daha mütərəqqi yanaşmadır. Yalamada aqroparkın yaradılması artıq başa çatmaq üzrədir. Şəmkirdə də işlər qrafik üzrə gedir.

Sahibkarlığın inkişafına dövlət bundan sonra da öz dəstəyini verəcək. Bu il sahibkarlara güzəştli şərtlərlə 73 milyon manat kredit verilib. Bu vəsaitin 77 faizi əvvəlcə verilmiş kreditlərin qaytarılması hesabına verilib. Bu da çox müsbət haldır, dövlət büdcəsinə daha az yük düşür və kreditlərin 80 faizi aqrar sektora verilib. Bu da bizim siyasətimizi əks etdirir. Kreditlərin 74 faizi regionlara verilir. Regional inkişaf proqramının icrası sürətlə davam etdirilir.

Biz indi çox güclü qeyri-neft ixracı potensialı yaradırıq və eyni zamanda, institusional tədbirlər də görülür və görülməlidir ki, biz ixracı stimullaşdıraq, sahibkarlar xaricə daha çox məhsul satmaqda maraqlı olsunlar. Bu məqsədlə təşviq mexanizmi artıq tətbiq olunur. Mən əminəm ki, bunun çox müsbət təsiri olacaq və sahibkarlar da bundan istifadə edəcəklər. Yəni bir sözlə, dövlət həm əkin sahələrinə, həm yanacağa, həm gübrəyə subsidiyalar, sahibkarlara aşağı faizlə güzəştli şərtlərlə 1 milyard manatdan çox kreditlər verir. Dövlət sahibkarlara tövsiyələr verir, metodik sənədlər təqdim edir ki, onlar öz biznesini necə qursunlar. Dövlət kənd təsərrüfatı texnikasını alır, aqrolizinq yolu ilə fermerlərə verir, gübrə zavodunu tikir – indi pestisid zavodunun tikintisi də nəzərdə tutulur – suvarma işlərini təmin edir, 100 milyonlarla,

milyardlarla manat dəyərində olan böyük Şəmkirçay, Taxtakörpü su anbarlarını yaradır, dağ çaylarının kanallar vasitəsilə bu anbarlara qoşulmasını təmin edir. Eyni zamanda, dövlət fermerlərdən xaricə göndərmək üçün yardım formasında məhsulu almağa da hazırdır.

Yəni dövlət hər şey edir. Hansı başqa ölkədə fermerlərə bu qədər dəstək göstərilir?! Fermerlər vergilərdən ancaq torpaq vergisi verirlər, bütün başqa vergilərdən azaddırlar. Yəni ikinci belə ölkə tapmaq mümkün deyil ki, dövlət bu qədər dəstək göstərsin. Əlbəttə ki, biz nəticə gözləyirik. Nəticə də elə fermerlərin xeyridir. Qoy onlar daha da yaxşı yaşasınlar, daha da çox pul qazansınlar, iş görsünlər, investisiya qoysunlar və ixrac potensialımızı artırsınlar. Əminəm ki, biz bu yolla Azərbaycanı müasir kənd təsərrüfatı məhsullarının ixracını təşkil edən bir ölkə kimi, dünyada təqdim edəcəyik. Əlbəttə ki, biz yeni bazarlara çıxmalıyıq. Ənənəvi bazarlar var, çox yaxşıdır. Biz çalışmalıyıq ki, inkişaf etmiş ölkələrin bazarlarına çıxaq. Buna da nail olmaq üçün, əlbəttə ki, keyfiyyət və standartlaşma ən yüksək səviyyədə olmalıdır.

Valyuta gətirən sahələrdən biri də turizmdir. Biz burada da çox böyük nəticələr gözləyirik. Xüsusilə nəzərə alsaq ki, son illər ərzində Azərbaycanın dünyada tanıdılması istiqamətində çox böyük işlər görülüb. Azərbaycanda dünyanın diqqətini cəlb edən beynəlxalq tədbirlər keçirilir. Misal üçün, bu il BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilmişdir. Dünya miqyaslı tədbirdir. Bir neçə il bundan əvvəl «Eurovision», keçən il Avropa oyunları böyük marağa səbəb olmuşdur. Yəni Azərbaycanı artıq tanıyırlar. Əlbəttə ki, ölkəmizin tanıdılmasında «Formula-1» yarışının xüsusi yeri var. Çünki bu yarışın auditoriyası 500 milyon insandır. «Formula-1» yarışı futbol üzrə dünya çempionatı və Yay Olimpiya oyunlarının səviyyəsində olan tədbirdir, onlardan geri qalmır. Əgər dünya çempionatı və Olimpiya oyunları bir şəhərdə bir dəfə keçirilirsə, yaxud da ki, indi bəlkə də 50 ildə 2 dəfə keçirilirsə, «Formula-1» yarışı Azərbaycanda ən azı bundan sonra 4 il keçiriləcəkdir. Bizim üstünlüyümüz ondan ibarətdir ki, bu,

şəhər yarışıdır və Bakının gözəlliyi 500 milyon insan üçün artıq təqdim olunub.

Bu, turizmin inkişafına çox böyük təkan verəcək və verməlidir. Biz də buna hazır olmalıyıq. Bu tədbirləri biz keçiririk. Ölkəmizi dünyada tanıtdırmaq üçün tədbirlər görülür. Biz vizalarla bağlı problemləri də bu yaxınlarda aradan götürmüşük. «ASAN viza» xidməti yaradılır. 3 gün ərzində Bakıya turist kimi gəlmək istəyən maneəsiz, problemsiz və başqa bir iddiasız vizanı alıb gələcək.

Əsas məsələ turizm sənayesini yaratmaqdır – həm daxili turizm, həm də xarici qonaqları qəbul etmək üçün. Bizim gözəl iqlimimiz, yay aylarında Xəzər sahili, qış aylarında dağlar, xizək kurortları var. Bizim çoxlu tarixi abidələrimiz var. Nəinki Bakıda, bütün bölgələrdə müasir infrastruktur, hotellər, yollar var. Ona görə bu istiqamətdə görüləsi işlər hələ çoxdur.

Mən «ASAN viza»nı qeyd etdim. Qeyd etməliyəm ki, «ASAN xidmət» mərkəzlərinə bu illər ərzində 10 milyon müraciət olub. Bu 10 milyon müraciət artıq özlüyündə bir göstəricidir. Mən bunu şərh etmək istəmirəm. Hamımız yaxşı bilirik ki, «ASAN xidmət»lərdə ən yüksək səviyyədə xidmət göstərilir. Bürokratiya, süründürməçilik, rüşvət almaq yoxdur. Təmiz, şəffaf, mədəni xidmət göstərilir. Bu, ictimai xidmətlər sahəsində bir inqilab oldu. Artıq 9 mərkəz yaradılıb, 5-i Bakıda, 4-ü bölgələrdə – Sumqayıtda, Gəncədə, Sabirabadda və Bərdədə. Bu il 2 yeni mərkəz yaradılacaq – Masallıda və Qəbələdə. 10 səyyar avtobus fəaliyyət göstərir. Artıq yeni bir layihə – «ASAN qatar» sistemi də fəaliyyətə başlayacaq, yəni qatarlar vasitəsilə xidmət göstəriləcək.

Ümumiyyətlə, bu sahədə aparılan islahatlar öz səmərəsini verir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə öz nəticəsini verir. Həm inzibati tədbirlər, cəza tədbirləri, həm də struktur xarakterli tədbirlər də görüləcək.

Mən bir rəqəmi də ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, yoxlamalarla bağlı mənim çox ciddi tapşırıqlarım olmuşdur. Bu yoxlamalar insanları, demək olar ki, bezdirmişdi, imkan vermirdi ki, sahibkarlar rahat nəfəs alsınlar. Çox ciddi göstərişlər, tapşırıqlar verilmişdir. Bu ilin 6 ayında vergi yoxlamaları istisna

olmaqla, cəmi 56 yoxlama keçirilib. Müqayisə üçün deyim ki, keçən il 40 min yoxlama keçirilmişdi. Baxın, 40 min və 56. Burada heç bir şərhə ehtiyac yoxdur. Bax, belə olmalıdır. Amma bu 40 min yoxlamanın arxasında nələr dayanır?! Bunu bu yoxlamalara məruz qalmış insanlar yaxşı bilirlər. Biz onların canını bu işlərdən qurtardıq.

Hər bir sahədə belə olmalıdır. Şəffaflıq, dürüstlük, təmizlik – bu, norma olmalıdır. Mən indi bunu, sözün düzü, qürur hissi ilə qeyd edirəm. Amma bu, norma olmalıdır, 40 min yoxlama norma olmamalıdır.

Bu il daha bir ciddi sosial təşəbbüs irəli sürüldü. Aztəminatlı ailələr üçün ucuz mənzillərin inşası prosesi artıq başlanır. Mənzil İnşaatı Dövlət Agentliyi – MİDA yaradıldı. İndi təşkilati məsələlər öz həllini tapmaqdadır. Torpaq sahələri ayrılır və tezliklə MİDA öz işinə başlamalıdır, mənzillər tikilməlidir. Bu mənzillər uzunmüddətli güzəştli şərtlərlə aztəminatlı vətəndaşlara veriləcək. Bu çox ciddi sosial təşəbbüsdür. Bu, geniş vüsət almalıdır. Hər bir bölgədə, hər bir rayonda buna ehtiyac var. Eyni zamanda, bu təşəbbüs, bu layihə inşaat sektoruna da çox ciddi təsir göstərəcək. Çünki inşaat sektorunda çox böyük geriləmə var və iş yerlərinin itirilməsi də məhz inşaat sektorunda baş vermişdir.

Qarşıda geniş tikinti layihələri gözlənilir. Bunun çox müsbət təsiri olacaq, məşğulluq artacaq və inşaat materialları sektoru da canlanacaq. Sahibkarlar buna hazır olmalıdırlar. Bu, uzunmüddətli bir layihədir. Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti bu il başlanır və davam edəcək. Ona görə bütün inşaat materialları Azərbaycanda istehsal olunmalıdır. Onların böyük hissəsi istehsal olunur. Ancaq indi həcm, tələbat artacaq. Özəl sektor da hazır olsun və öz işlərini elə qursun ki, bizim bu inkişaf planlarımızı təmin edə bilsin. Belə olmasa, onda biz gərək inşaat materiallarını xaricdən alaq. Ona da, əlbəttə ki, biz getmək istəmirik.

Bu ilin əvvəlindən infrastruktur layihələri icra edilir. Qeyd etməliyəm ki, magistral yollarda işlər gedir. Gəncə–Gürcüstan sərhədi yolu 4 zolağa çevrilir. Genişlənmə işləri gedir. Bu il Rusiya sərhədinə qədər magistral yolda böyük işlər görülməlidir. Bizim qurumlar çalışmalıdırlar ki, bu yolu da başa çatdırsınlar. Bakı–Şamaxı yolunun 4

zolağa çevrilməsi prosesi gedir və Bakı–İran sərhədi magistral yolunda da tikinti işləri davam edir.

Bununla bərabər, kənd yollarının tikintisi çox sürətlə aparılır. Bu məqsədlər üçün dövlət büdcəsindən 200 milyon manat vəsait ayrılıb. Təxminən 60–70 kənd yolu layihəsi, o cümlədən Bakı qəsəbələrində icra edilir və ediləcək. Bunun da çox böyük təsiri olacaq. Həm infrastruktur yaradılır, həm də iş yerləri. Bu layihələrdə on minlərlə insan işlə təmin edilir. Bu proses gələn il də davam etdiriləcək. Artıq yəqin ki, bir neçə aydan sonra gələn ilin layihələri mənə təqdim edilməlidir.

İçməli su layihələrinin icrası bütün ölkəmizdə aparılır. Bir çox rayonlarda artıq bu, həll olunub. Hər bir rayon mərkəzində içməli su və kanalizasiya layihəsi tam icra edilməlidir.

Qarşımızda duran əsas vəzifələr bundan ibarətdir. Mən bir daha demək istəyirəm ki, 2016-cı ilin birinci yarısının yekunları məni qane edir. Biz böhran şəraitində inkişaf edirik. Əsas məsələ ondan ibarətdir ki, bizim hər bir sahədə çox aydın proqramlarımız var. Hələ bir çox sahələr var ki, sadəcə olaraq, vaxt yoxdur bu barədə danışım. Hər bir sahədə konkret proqramlar var. Amma gələcək fəaliyyətimiz üçün əsas sənaye istehsalı və kənd təsərrüfatıdır. Əminəm ki, verdiyim bütün tapşırıqlar yerinə yetiriləcək, biz bu ili də uğurla başa vuracağıq.

Sağ olun.

**MONTENEQRONUN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FİLİP VUYANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Monteneqronun milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Monteneqro arasında genişlənməkdə olan əlaqələr, qarşılıqlı maraq doğuran əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2016-cı il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Fransa ilə münasibətlərə böyük əhəmiyyət verir. Daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, qarşılıqlı faydalı əməkdaşlığımız ikitərəfli münasibətlərimizin dinamik və hərtərəfli inkişafının bariz nümunəsidir.

Biz həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinə son qoyulması, işğal edilmiş torpaqlarımızın azad edilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox soydaşımızın öz doğma yurd-yuvasına qayıtması üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransa Respublikasının və şəxsən Sizin, cənab Prezident, səylərinizin tezliklə nəticə verəcəyinə böyük ümidlər bəsləyirik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2016-cı il*

# QEYDLƏR

**1. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər

Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 11, 12, 14, 18, 30, 34, 88, 163, 220, 244, 246, 262, 263, 265.

**2. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 5, 14–17, 18.

**3. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 5,9,290, 300.

**4. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 7, 173, 183, 205, 224, 258.

**5. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 8, 172, 193, 198, 200, 203, 210, 211, 258, 296, 310, 316, 326.

**6. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 8, 20, 22, 122, 172, 253, 278.

**7. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 8, 37, 38, 39, 42, 43, 62, 70, 93, 113, 118, 122, 123, 124, 138, 164, 168, 182, 183, 193,198, 199, 202, 203, 205,206, 210, 224, 225,253, 254, 258, 259, 270, 272, 278, 294, 298, 306, 310, 316, 321, 324, 325, 326.

**8. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon $km^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 22–23.

**9. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 22, 23.

**10. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci

dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 30–33, 35.

**11. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 30, 309–321.

**12. Həzi Aslanov,** H ə z i  Ə h ə d  o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı. İkinci dünya müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən Həzi Aslanov Stalinqrad vuruşmasında feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Həzi Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. 1945-ci il yanvarın 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 32.

**13. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti

həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 31, 34–43, 45–46, 47–48, 57, 85, 102, 114, 117, 118, 132, 175, 176, 243, 244, 247, 248, 285, 299, 300.

**14. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 33, 46.

**15. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 33, 46.

**16. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 37.

**17. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 37, 38, 118.

**18. 1990-cı il 20 Yanvar hadisələri** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 37.

**19. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 38, 118.

**20. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 38, 118.

**21. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 41, 62, 102, 126, 135, 136, 147, 149, 150, 151, 193, 201, 207, 209, 214.

**22. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 46, 247.

**23. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 46, 57, 58, 59.

**24. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 47, 48.

**25. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər

Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 48.

**26. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 647 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 50–55, 68, 74,112, 199, 203, 204, 206, 211, 240–241, 316, 321,326, 349.

**27. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 50, 74, 321, 326, 327, 349.

**28. Nikola Sarkozi** (d.1955) –Fransanın dövlət xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 50.

**29. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 57–59, 68, 71–72, 122, 154, 176, 183, 185, 186, 199, 202, 203, 204, 206, 211, 214, 228, 230, 267, 268–272, 316, 326.

**30. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 3 milyon nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir.

Dağıstan ərazisi bizim eradan əvvəl I minilliyin axırlarına qədər Qafqaz Albaniyasının tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 57–59.

**31. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 58, 228, 267, 270–272.

**32. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 62, 67, 70, 110, 123, 148, 207, 214, 216, 311, 312.

**33. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 63–64, 122, 183, 214, 325.

**34. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 63, 64.

**35. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 66, 68, 148, 152–153, 182, 192, 203, 204, 206, 211,234, 288–289, 314, 316, 325, 326.

**36. Con Kerri** (d.1943) – ABŞ-ın siyasi xadimi. 2013–2014-cü illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 66, 68, 288, 314.

**37. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 68.

**38. Rene van der Linden** (d.1943) – holland siyasətçisi. 2005–2008-ci illərdə AŞPA-nın, 2009–2010-cu illərdə Niderland Senatının Sədri olmuşdur. – 70.

**39. Dmitri Roqozin** (d.1963) – Rusiyanın dövlət xadimi, diplomat, texniki elmlər doktoru. 2003–2004-cü illərdə Dövlət Dumasının Sədr müavini, 2011-ci ildə Rusiya Federasiyasının NATO-da nümayəndəsi, 2012-ci ildən Dnestryanıda xüsusi nümayəndəsi, 2011–2018-ci illərdə Rusiya hökumətinin Sədr müavini olmuşdur. 2018-ci ilin mayından isə «Roskosmos» dövlət şirkətinin baş direktorudur. – 71–72.

**40. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı, BMT-nin ixtisaslaşmış orqanı. BMT-nin Bretton-Vudsda keçirilən konfransının qərarına əsasən (1944) yaradılıb, 1947-ci ildən əməliyyatlara başlayıb. Mənzil-qərargahı Vaşinqtondadır. 189 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383

milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 83–84.

**41. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 85–87, 139–142, 154.

**42. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 87, 139, 142.

**43. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 88–95, 108–109, 122, 136, 154, 163–174, 195, 203, 205, 214, 303.

**44. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriy-

yətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 89–95, 166, 167, 170, 172, 195, 303.

**45. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat. 2007–2016-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. – 90, 91.

**46. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 91, 155, 169, 173, 188–194, 197–219, 246, 310, 325.

**47. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 91, 192–193, 197–207.

**48. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 94.

**49. Petro Poroşenko** (d.1965) – biznesmen və siyasətçi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali Radasının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014-cü ildən Ukrayna Respublikasının Prezidentidir. – 94.

**50. Makedoniya,** Makedoniya Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 25,3 min $km^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. Paytaxtı Skopye şəhəridir. – 94.

**51. George İvanov** (d.1960) – Makedoniyanın dövlət və siyasi xadimi. 2009-cu ildən Makedoniya Respublikasının Prezidentidir. – 94.

**52. Gürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 94, 98, 122, 148, 214.

**53. Giorgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013-cü ildən Gürcüstan Respublikasının Prezidentidir. – 94, 98.

**54. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 102, 131–134, 145, 153, 154, 285, 333.

**55. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas

yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil-qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 113.

**56. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 114–130.

**57. Ramiz Məmmədov,** R a m i z M a h m u d o ğ l u (d.1950) – okeanoloq-hidroloq. İctimai-siyasi xadim. Texnika elmləri doktoru, professor. AMEA-nın həqiqi üzvü. Onun elmi-tədqiqatları əsasən Xəzər dənizinin ən aktual problemlərinə həsr edilmişdir. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 127, 128.

**58. Fikrət Qoca,** Qocayev Fikrət Göyüş oğlu (d.1935) – Azərbaycanın Xalq şairi. «Qobustan» incəsənət toplusunun baş redaktoru və Azərbaycan Yazıçılar Birliyinin birinci katibidir. Azərbaycan Respublikasının «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 127, 128.

**59. Həsən Əliyev,** Həsən Əlirza oğlu (1907–1993) – görkəmli alim, ictimai-siyasi xadim. Elmlər doktoru, professor. Azərbaycan Milli EA-nın akademiki, Azərbaycan Dövlət mükafatı laureatı. Ayrı-ayrı illərdə Azərbaycan Milli EA Botanika İnstitutunun direktoru, Azərbaycan Kənd Təsərrüfatı nazirinin birinci müavini və Azərbaycan KP MK-nın katibi, Azərbaycan Milli EA-nın akademik katibi, Azərbaycan Milli EA Coğrafiya İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 128.

**60. Böyük Britaniya,** Böyük Britaniya və Şimal İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 137–138, 148, 153, 157–158, 220.

**61. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri, 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 153, 157, 158.

**62. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 153, 234, 288, 306.

**63. Danimarka,** D a n i m a r k a  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,7 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı Folketinqdir. Paytaxtı Kopenhagen şəhəridir. – 159.

**64. II Marqrete** (d.1940) – 1972-ci ildən Danimarka Krallığının Kraliçası. Kral IX Frederikin qızıdır. – 159.

**65. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. AP məcburi xarakter daşımayan qərar verir, beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir və qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. AP Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 160–161.

**66. İsveç,** İ s v e ç  K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholm şəhəridir. – 162.

**67. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç kralı. O həmçinin «Ümumdünya təbiət fondu»nun prezidentidir. – 162.

**68. Binəli Yıldırım** (d.1955) – Türkiyənin tanınmış siyasi xadimi, 2015–2016-cı illərdə Nəqliyyat naziri, 2016–2018-ci illərdə isə Baş nazir olmuşdur. 2018-ci ilin iyul ayından Türkiyə Böyük Millət Məclisinin Sədridir. – 163–174.

**69. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr administrasiyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdi. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikası (KKTC) – elan etdi. – 166.

**70. ABŞ Konqresi,** Amerika Birləşmiş Ştatları Konqresi – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr Palatasından ibarətdir.

Senatın 100 üzvü var, ölkənin hər ştatından Senata 2 senator seçilir. Nümayəndələr Palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ Prezidenti təsdiq edir. – 182.

**71. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti. Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət, 1797–1828-ci illərdə isə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdir. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, on minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 183.

**72. Zəngəzur mahalı,** Z ə n g ə z u r  q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 183.

**73. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan türklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1487–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdı. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14 354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 183.

**74. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6

min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 186.

**75. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 172, 198, 199, 203, 204, 211, 272, 306, 316, 326.

**76. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min $km^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 18 mahala və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 196.

**77. Marselo Rebelo de Susa** (d.1948) – Portuqaliya siyasətçisi. Sabiq nazir və parlamentin üzvü, 2016-cı ildən Portuqaliya Respublikasının Prezidentidir. – 196.

**78. Çeçenistan** (İçkeriya) – Rusiya Federasiyasında respublika. Sahəsi 15,6 min $km^2$, əhalisi 1,4 milyon nəfərdir. Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-

ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. Paytaxtı Qroznı şəhəridir. – 221–222.

**79. Ramazan ayı** – Qurani-Kərimin nazil olduğu ay. – 223–227, 243–260.

**80. II Elizabet** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 220.

**81. Filippin,** Filippin Respublikası – Cənub-Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 103 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Manila şəhəridir. – 229.

**82. III Beniqno Akino** (d.1960) – siyasətçi. 2010–2016-cı illərdə Filippin Respublikasının Prezidenti olmuşdur. – 229.

**83. Elçin Quliyev,** Elçin İsağa oğlu (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini və Bakı Dövlət Universitetini bitirmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisidir. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 231.

**84. Məhəmməd Yunus** (d.1940) – Banqladeş bankiri və iqtisadiyyat professoru. İqtisadiyyat və sosial sahənin ibtidaisindən inkişafına nail olmaq cəhdinə görə Nobel sülh mükafatına layiq görülmüşdür. Grameen Bankın təsisçisi və rəhbəridir. – 242.

**85. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöh-

rət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 243–247, 260.

**86. Musa,** M o i s e y – iudaizm hədislərinə görə öz etiqadını yəhudi qəbilələrinə öyrədən Yəhvanın birinci peyğəmbəri. Allah tərəfindən müqəddəs kitabın – Tovratın nazil olunduğu şəxs. Musa peyğəmbər ilk əvvəl Allah tərəfindən ona göndərilmiş əsa ilə öz xalqını Misir əsarətindən xilas edir. Üçüncü ayda Musaya (ə) Sinay dağlarında 10 möcüzə – Allah qarşısında bəndələrinin ədəb-ərkanının tənzimlənməsi nazil olur. 40 gün səhrada qeyb olandan sonra onun xalqı İordaniyanın şərqində («müqəddəs topraqlar») məskunlaşırlar. Musa (ə) 120 yaşında Nevo dağında vəfat etmişdir. Musa (ə) xristian və islam dinində də adı çəkilən peyğəmbərdir. – 249.

**87**. **Məhəmməd peyğəmbər** (əleyhissəlam) (570/571–632) – islamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhissəlam böyük peyğəmbər və «Allahın elçisi» sayılmış, bütün müsəlmanların müqəddəs kitabı Quranı xalqa çatdırmışdır. – 249.

**88. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər

dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 265.

**89. Lüksemburq,** B ö y ü k L ü k s e m b u r q H e r s o q -l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 602 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburq şəhəridir. – 268.

**90. Anri** (d.1955) **–** 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə Böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 268.

**91. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon km$^2$, əhalisi 36 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar Palatası) parlamentdir. Paytaxtı Ottava şəhəridir. – 302.

**92. Devid Conston** (d.1941) – 2010–2017-ci illərdə Kanadanın general-qubernatoru olmuşdur. – 302.

**93. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük

Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 306, 311, 312–313, 317, 318–320, 324.

**94. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. – 307–308.

**95. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 311, 312.

**96. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min $km^2$, əhalisi 34,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 306, 315, 318–320.

## Şəxsi adlar göstəricisi


**Abbasov Abbas** – 12
**Abdulatipov Ramazan** – 57–59
**II Abdullah** – 97
**Abdullayev Anar** – 18
**Abdullayev Rövnəq** – 131
**Abutalıbov Hacıbala** – 290
**Akino III Beniqno** – 229
**Aleksandr ata***(Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri)* – 247–249
**Anri** (*hersoq*) – 268
**Andre Pyer** – 316
**Arslan Zühtü** – 108–109
**Aslanov Həzi** – 32
**Atmar Məhəmməd** – 129–130
**Bayden Co** – 288
**Bhandari Bidhya** – 105
**Biya Pol** – 69
**Brink Bridcet** – 288–289
**Buşez Aurelia** – 53
**Can Qaoli** – 139–142
**Conston Devid** – 302
**Çakaloğlu Bətül** – 106–107
**Çakrabarti Suma** – 99–100
**De Susa Marselo** – 196
**Delimxanov Adam** – 221–222
**Desirin Harlem** – 68
**Desteks Alen** – 239
**Dezir Arlem** – 53
**Döbon Mari-Anj** – 53
**Duda Andjey** – 311, 312

**Dunniqan Robin** – 152–153
**Dunnz Kristina** – 205
**Duterte Rodriqo** – 304
**Ekklstoun Berni** – 236, 263
**II Elizabet** – 220
**Eminov Zakir** – 127
**Əhmədov İlham** – 207
**Əl-Qorçi Məhəmməd** – 83–84
**Əliyev Heydər** – 31, 34–43, 45–46, 47–48, 57, 85, 102, 114, 117, 118, 132, 175, 176, 243, 244, 247, 248, 285, 299, 300
**Əliyev Həsən** – 128
**Əliyev Əziz** – 46, 57, 58, 59
**Əliyev Tamerlan** – 46
**Əliyeva Leyla** – 47, 48
**Əliyeva Mehriban** – 5, 11, 12, 14, 18, 30, 34, 88, 163, 220, 244, 246, 262, 263, 265
**Əliyeva Zərifə xanım** – 46, 247
**Əlizadə Elbrus** – 127
**Ərdoğan Rəcəb Tayyib** – 89–95, 166, 167, 170, 172, 195, 303
**Əs-Sabah əl-Cabir** – 91
**Əs-Sisi Əbdülfəttah** – 73
**Əsədov Oqtay** – 33, 46
**Fanani Hüsnan bəy** – 22–23
**Fekete Vladimir** – 250–251
**Fikrət Qoca** – 127, 128
**Fransisk** *(Roma Papası)* – 251
**Hacı Ədalət** – 284
**Hami Həsən** – 226–227
**V Harald** – 60
**Həsənov Məhərrəm** – 127
**Həsənov Mübariz** – 10

**Həsənov Zakir** – 5, 9, 290, 300
**Höccəti Mahmud** – 63–64
**Xəlilov Azər** – 204
**İnker Andreas** – 202
**İsayev Vidadi** – 18
**İsturiz Antonio-Lopez** – 238
**İşinger Volfqanq** – 191
**İvanov George** – 94
**Kadırov Ramzan** – 221, 222
**Kamp Henk** – 49
**XVI Karl Qustav** – 162
**Kartes Horasio** – 56
**Kasprşik Anji** – 68, 316
**Kemeron Devid** – 153, 157, 158
**Kerri Con** – 66, 68, 288, 319
**Keyta İbrahim** – 92
**Kiti Vanino** – 110–111
**Konovalov Aleksandr** – 230
**Krofts Kerol** – 137–138
**Qabriel Ziqmar** – 194, 208, 219
**Qafarov Əhməd** – 299
**Qani Məhəmməd** – 129, 130, 315
**Qarayev Elgiz** – 18
**Qarayeva Sevil** – 17
**Qrabar-Kitaroviç Kolinda** – 287
**Qriqule İveta** – 160–161
**Quliyev Elçin** – 231
**Lavrov Sergey** – 68
**Lisnard Devid** – 112
**Lukaşenko Aleksandr** – 305
**Makri Maurisio** – 96
**Mansel Jan Fransua** – 240–241
**Marqvelaşvili Giorgi** – 94, 98
**II Marqrete** – 159
**Mehdiyev Ramiz** – 33,46

**Menq Jianzu** – 85–87
**Merkel Angela** – 91, 192–193, 197–207
**Məhəmməd** *(əleyhissalam)* – 249
**Məmmədov Allahverdi** – 14
**Məhərrəmov Sudeyif** – 16–17
**Məmmədov Müstəqim** – 11
**Məmmədov Ramiz** – 127, 128
**Məmmədov Saleh** – 273
**Mitov Daniel** – 61–62
**Moqerini Federika** – 110
**Musa** *(ədeyhissalam)* – 249
**Nikolai Norika** – 160–161
**Nikolson Emma** – 153, 157–158
**Obama Barak** – 153, 234, 288, 306
**Olland Fransua** – 50, 74, 321, 326, 327, 349
**Orucov Ağasəid** – 279, 280
**Pahor Borut** – 286
**Pan-Gi Mun** – 90, 91
**Paşazadə Hacı Allahşükür** – 243–247, 260
**Popov İqor** – 316
**Poroşenko Petro** – 94
**Plevneliev Rosen** – 61
**Preda Sezar** – 235
**Putin Vladimir** – 58, 228, 267, 270–272
**Rays Leland** – 106–107
**Rasizadə Artur** – 46
**Rəhimov Azad** – 266
**Rəhimov Zahid** – 18
**Rivlin Reuven** – 44
**Roqozin Dmitri** – 71–72
**Ruhani Həsən** – 63, 64
**Rusıy Mixail** – 75–76
**Rzayev Dadaş** – 33
**Sarkisyan Serj** – 68, 272

**Sarkozi Nikola** – 50
**Stoltenberq Yens** – 312
**Si Cinpin** – 87, 139, 142
**Süleymenev Oljas** – 65
**Svanberq Karl-Henrik** – 101–102
**Şennak Stefan** – 235
**Şidlo Beata** – 317
**Şlayer Hans-Eberhard** – 189
**Ştaynmayer Frank-Valter** – 310
**Tod Jan** – 261
**Talamoni Pyer** – 190
**Teşome Mulatu** – 104
**Tusk Donald** – 110
**Uorlik Ceyms** – 316
**Van der Bellen Aleksander** – 103
**Van der Linder Rene** – 70
**Vəliyev Adil** – 280, 281, 282
**Viqenin Kristian** – 113
**Vizer Marius** – 28–29
**Vidodo Coko** – 22, 23
**Vuyanoviç Filip** – 348
**Vud Endryu** – 143–144
**Yevdayev Milix** – 249–250
**Yıldırım Binəli** – 163–174
**Yıldırım Semiha** – 163
**Yunus Məhəmməd** – 242
**Yavuz Səlim** *(Türk sultanı)* – 174

## Coğrafi adlar göstəricisi

**Abşeron** (*yarımada)* – 278
**Ağdam** – 5, 14–17, 18
**Albaniya** – 148
**Almaniya** – 91, 155, 169, 173, 188–194, 197–219, 246, 310, 325
**Amerika Birləşmiş Ştatları** – 66, 68, 148, 152–153, 182, 192, 203, 204, 206, 211, 234, 288–289, 306, 314, 316, 325, 326
**Anadolu** – 144, 183
**Ankara** – 172
**Asiya** – 174, 201, 215
**Aralıq dənizi** – 147, 213
**Argentina** – 96
**Avrasiya** – 288
**Avropa** – 81, 120, 135, 136, 140, 174, 201, 207, 209, 212, 213, 214, 215, 244, 288
**Avstriya** – 103
**Balkan** *(yarımada)* – 148
**Belarus** – 75–76, 156, 305
**Belçika** – 239
**Berlin** – 30, 31, 189–194, 197–219
**Bərdə** – 5, 18–20
**Birləşmiş Ərəb Əmirlikləri** – 325
**Bolqarıstan** – 61–62, 148
**Böyük Britaniya** – 137–138, 148, 153, 157–158, 220
**Cəbrayıl** – 186

**Cənubi Qafqaz** – 200, 217, 335
**Çeçenistan** – 221–222
**Çexoslovakiya** – 30
**Çəmənli** – 18
**Çin** – 85–87, 139–142, 154
**Dağıstan** – 57–59
**Dağlıq Qarabağ** – 8, 37, 38, 39, 42, 43, 62, 70, 93, 113, 118, 122, 123, 124, 138, 164, 168, 182, 183, 193,198, 199, 202, 203, 205,206, 210, 224, 225,253, 254, 258, 259, 270, 272, 278, 294, 298, 306, 310, 316, 321, 324, 325, 326
**Danimarka** – 159
**Estoniya** – 312
**Efiopiya** – 104
**Əfqanıstan** – 306, 315, 318–320
**Filippin** – 229, 304
**Florida (***ABŞ-da ştat)* – 234
**Fransa** – 50–55, 68, 74, 112, 199, 203, 204, 206, 211, 240–241, 316, 321, 326, 349
**Füzuli** – 186
**Gəncə** – 20–21, 335
**Göyçə** – 183
**Gürcüstan** – 94, 98, 122, 148, 214
**Xankəndi** – 37
**Xəzər dənizi** – 147, 209, 215, 232, 292
**Xocalı** – 7, 173, 183, 205, 224, 258
**Xorvatiya** – 287
**İndoneziya** – 22–23
**İran** – 63–64, 122, 183, 214, 325
**İrəvan xanlığı** – 183
**İordaniya** – 97
**İsrail** – 44

**İstanbul** – 95–88, 106, 195, 303
**İsveç** – 162
**İtaliya** – 110–111, 148
**Kamerun** – 69
**Kann** – 112
**Kanada** – 302
**Kəlbəcər** – 38, 118
**Kiyev** – 30
**Küveyt** – 91
**Qafqaz** – 30
**Qahirə** – 74
**Qax** – 82
**Qapanlı** – 11
**Qara dəniz** – 213
**Qaradağlı** – 18
**Qazaxıstan** – 155
**Qəbələ** – 112
**Laçın** – 38,118
**Latviya** – 312
**Leninqrad** – 30
**Litva** – 312
**Lüksemburq** – 268
**Mahaçqala** – 57
**Mahrızlı** – 14
**Mərakeş** – 226
**Mali** – 92
**Makedoniya** – 94
**Masallı** – 335
**Melburn** – 265
**Mingəçevir** – 335
**Misir** – 73
**Monako** – 265
**Monte-Karlo** – 265
**Monteneqro** – 348
**Moskva** – 30, 36, 38, 186

**Naxçıvan** – 38, 226, 254
**Naxçıvan Muxtar Respublikası**– 298
**Nardaran** – 273, 274, 276–286
**Neftçala** – 335
**Nepal** – 105
**Niderland** – 49, 70
**Norveç** – 60
**Orta Asiya** – 174
**Paraqvay** – 56
**Paris** – 74
**Polşa** – 30, 309–321
**Portuqaliya** – 196
**Rusiya** – 57–59, 68, 71–72, 122, 154, 176, 183, 185, 186, 199, 202, 203, 204, 206, 211, 214, 228, 230, 267, 268–272, 316, 326
**Sabunçu** – 276
**Sankt-Peterburq** – 269–272, 296, 297
**Simferopol** – 30
**Sinqapur** – 265
**Sloveniya** – 286
**Sumqayıt** – 335
**Şəki** – 82
**Şəmkir** – 342
**Şimali Kipr** – 166
**Şuşa** – 37, 38, 118
**Tərtər** – 5–13
**Türkiyə** – 88–95, 108–109, 122, 136, 154, 163–174, 195, 203, 205, 214, 303
**Ukrayna** – 94
**Vyana** – 66–68, 124, 210, 296
**Varşava** – 309–321
**Yaxın Şərq** – 120, 174, 254
**Yalama** – 342

**Yuqoslaviya** – 30
**Yunanıstan** – 148
**Zabrat** – 283
**Zaqatala** – 82
**Zəngəzur** – 183

## MÜNDƏRİCAT

TƏMAS XƏTTİNDƏ YERLƏŞƏN TƏRTƏR, AĞDAM VƏ BƏRDƏ RAYONLARINA SƏFƏR

*1 may 2016-cı il*...........................................................................................*5*

AĞDAM RAYONUNUN TƏMAS XƏTTİNDƏ YERLƏŞƏN MAHRIZLI KƏNDİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*1 may 2016-cı il*...........................................................................................*14*

BƏRDƏ MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNDƏ MÜALİCƏ ALAN YARALILARLA GÖRÜŞ

*1 may 2016-cı il*...........................................................................................*18*

«GƏNCƏ–2016-cı İL AVROPA GƏNCLƏR PAYTAXTI» LAYİHƏSİNİN AÇILIŞI MƏRASİMİNİN İŞTİRAKÇILARINA

*3 may 2016-cı il*...........................................................................................*20*

İNDONEZİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HÜSNAN BƏY FANANİ İLƏ GÖRÜŞ

*3 may 2016-cı il*...........................................................................................*22*

BAKININ 8-ci KİLOMETR QƏSƏBƏSİNDƏ ÇOXMƏRTƏBƏLİ AVTOMOBİL DAYANACAĞININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*4 may 2016-cı il*...........................................................................................*24*

8-ci KİLOMETR QƏSƏBƏSİNDƏ HEYDƏR BAĞINDA
YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*4 may 2016-cı il*...........................................................................................*25*

NİZAMİ RAYONUNDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ
İLƏ TANIŞLIQ

*4 may 2016-cı il*...........................................................................................*26*

BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ
MARİUS VİZER İLƏ GÖRÜŞ

*7 may 2016-cı il*...........................................................................................*28*

9 MAY – QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ
MƏRASİMDƏ İŞTİRAK

*9 may 2016-cı il*...........................................................................................*30*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN
OLMASININ 93-cü İLDÖNÜMÜ VƏ FAŞİZM ÜZƏRİNDƏ
QƏLƏBƏNİN 71 İLLİYİ MÜNASİBƏTİLƏ
RƏSMİ QƏBULDA İŞTİRAK

*9 may 2016-cı il*...........................................................................................*34*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB REUVEN RİVLİNƏ

*10 may 2016-cı il*.........................................................................................*44*

FƏXRİ XİYABANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN
MƏZARINI ZİYARƏT

*10 may 2016-cı il*.........................................................................................*45*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ
HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ KAMPANİYASINDA İŞTİRAK

*10 may 2016-cı il*.........................................................................................*47*

NİDERLAND KRALLIĞININ İQTİSADİ İŞLƏR NAZİRİ
HENK KAMPIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*11 may 2016-cı il*..........................................................................................*49*

FRANSA SAHİBKARLAR TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 may 2016-cı il*.........................................................................................*50*

PARAQVAY RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORASİO KARTESƏ

*12 may 2016-cı il*.........................................................................................*56*

RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ BAŞÇISI RAMAZAN ABDULATİPOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 may 2016-cı il*.........................................................................................*57*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*13 may 2016-cı il*.........................................................................................*60*

BOLQARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DANİEL MİTOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 may 2016-cı il*.........................................................................................*61*

İRAN İSLAM RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRİ MAHMUD HÖCCƏTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 may 2016-cı il*.........................................................................................*63*

ŞAİR OLJAS SÜLEYMENOVA

*16 may 2016-cı il*.........................................................................................*65*

ABŞ-ın DÖVLƏT KATİBİ CON KERRİ İLƏ GÖRÜŞ

*16 may 2016-cı il* .......................................................................................*66*

AVROPA İTTİFAQININ ALİ NÜMAYƏNDƏSİ FEDERİKA MOQERİNİ İLƏ GÖRÜŞ

*16 may 2016-cı il*.........................................................................................*67*

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*16 may 2016-cı il* ........................................................................ *68*

KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYAYA

*17 may 2016-cı il*........................................................................ *69*

MAASTRİXT MENECMENT MƏKTƏBİNİN PREZİDENTİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*18 may 2016-cı il*........................................................................ *70*

RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 may 2016-cı il*........................................................................ *71*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*19 may 2016-cı il*........................................................................ *73*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*19 may 2016-cı il*........................................................................ *74*

BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ MİXAİL RUSIY İLƏ GÖRÜŞ

*19 may 2016-cı il*........................................................................ *75*

XXII BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ X BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*20 may 2016-cı il* ........................................................................ *77*

BEYNƏLXALQ VALYUTA FONDUNUN AZƏRBAYCAN ÜZRƏ MİSSİYASININ RƏHBƏRİ MƏHƏMMƏD ƏL-QORÇİ İLƏ GÖRÜŞ

*20 may 2016-cı il*..........................................................................................*83*
ÇİN XALQ RESPUBLİKASI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ MENQ JİANZUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2016-cı il*..........................................................................................*85*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*22 may 2016-cı il*..........................................................................................*88*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*23 may 2016-cı il*..........................................................................................*89*

DÜNYA HUMANİTAR SAMMİTİNDƏ İŞTİRAK

*23 may 2016-cı il*..........................................................................................*90*

ALİ QONAQLARIN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*23 may 2016-cı il*..........................................................................................*95*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAURİSİO MAKRİYƏ

*23 may 2016-cı il*..........................................................................................*96*

İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAH İBN ƏL-HÜSEYNƏ

*23 may 2016-cı il*..........................................................................................*97*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ

*23 may 2016-cı il*..........................................................................................*98*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2016-cı il*.......................................................................................*99*

*bp*-nin DİREKTORLAR ŞURASININ SƏDRİ KARL-HENRİK SVANBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2016-cı il*.....................................................................................*101*

AVSTRİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDER VAN DER BELLENƏ

*25 may 2016-cı il*.....................................................................................*103*

EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MULATU TEŞOMEYƏ

*25 may 2016-cı il*.....................................................................................*104*

NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ XANIM BİDHYA DEVİ BHANDARİYƏ

*25 may 2016-cı il*.....................................................................................*105*

«THE BUSİNESS YEAR» JURNALININ BAŞ REDAKTORU LELAND RAYS VƏ DİREKTORU BƏTÜL ÇAKALOĞLU İLƏ GÖRÜŞ

*25 may 2016-cı il*.....................................................................................*106*

TÜRKİYƏ RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ ZÜHTÜ ARSLANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2016-cı il*.....................................................................................*108*

İTALİYA RESPUBLİKASI SENATININ AVROPA İTTİFAQI SİYASƏTİ DAİMİ KOMİSSİYASININ SƏDRİ VANİNO KİTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2016-cı il*.....................................................................................*110*

FRANSANIN KANN ŞƏHƏRİNİN MERİ DEVİD LİSNARD
İLƏ GÖRÜŞ

*27 may 2016-cı il*..........................................................................*112*
ATƏT-in PARLAMENT ASSAMBLEYASININ
CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ
KRİSTİAN VİQENİN İLƏ GÖRÜŞ

*27 may 2016-cı il*..........................................................................*113*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ
UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2016-cı il* ........................................................................*114*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ
QƏBULDA İŞTİRAK

*27 may 2016-cı il*..........................................................................*116*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ TƏHLÜKƏ-
SİZLİK ŞURASININ KATİBİ MƏHƏMMƏD XANİF ATMAR
İLƏ GÖRÜŞ

*30 may 2016-cı il*..........................................................................*129*

DÖVLƏT NEFT ŞİRKƏTİNİN YENİ İNZİBATİ BİNASININ
AÇILIŞI MƏRASİMİ

*30 may 2016-cı il* ........................................................................*131*

XXIII BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2016»
SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*31 may 2016-cı il*..........................................................................*135*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ
KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ
SƏFİRİ KEROL MERİ KROFTS
İLƏ GÖRÜŞ

*31 may 2016-cı il*..........................................................................*137*

ÇİN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN
SİYASİ BÜROSUNUN DAİMİ ÜZVÜ, DÖVLƏT ŞURASI

SƏDRİNİN BİRİNCİ MÜAVİNİ CAN QAOLİNİN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*31 may 2016-cı il.....................................................................................139*

XXIII BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2016» SƏRGİ
VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*1 iyun 2016-cı il.....................................................................................143*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ÜZRƏ
ELÇİSİ BARONESSA EMMA NİKOLSON İLƏ GÖRÜŞ

*1 iyun 2016-cı il.....................................................................................157*

DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT
II MARQRETEYƏ

*2 iyun 2016-cı il.....................................................................................159*

AVROPA PARLAMENTİNİN NÜMAYƏNDƏLƏRİ NORİKA
NİKOLAİ VƏ İVETA QRİQULE İLƏ GÖRÜŞ

*2 iyun 2016-cı il.....................................................................................160*

İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*3 iyun 2016-cı il.....................................................................................162*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BİNƏLİ
YILDIRIMIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*3 iyun 2016-cı il.....................................................................................163*

TÜRKİYƏ RESPUBLİKASININ  BAŞ NAZİRİ BİNƏLİ
YILDIRIM İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*3 iyun 2016-cı il.....................................................................................164*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*3 iyun 2016-cı il.....................................................................................165*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*3 iyun 2016-cı il..............................................................................167*

DÜNYA AZƏRBAYCANLILARININ IV QURULTAYININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*3 iyun 2016-cı il..............................................................................175*

ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*6 iyun 2016-cı il..............................................................................188*

ALMANİYA–AZƏRBAYCAN FORUMUNUN İDARƏ HEYƏTİNİN SƏDRİ HANS-EBERHARD ŞLAYER İLƏ GÖRÜŞ

*6 iyun 2016-cı il..............................................................................189*

«AİRBUS GROUP» ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ PYER TALAMONİ İLƏ GÖRÜŞ

*6 iyun 2016-cı il..............................................................................190*

MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİ VOLFQANQ FREDRİK İŞİNGER İLƏ GÖRÜŞ

*6 iyun 2016-cı il..............................................................................191*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ANGELA MERKEL İLƏ GÖRÜŞ

*7 iyun 2016-cı il..............................................................................192*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ VİTSE-KANSLERİ, İQTİSADİYYAT VƏ ENERJİ NAZİRİ ZİQMAR QABRİEL İLƏ GÖRÜŞ

*7 iyun 2016-cı il..............................................................................194*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*7 iyun 2016-cı il...........................................................................................195*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MARSELO REBELO DE SUSAYA

*7 iyun 2016-cı il...........................................................................................196*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL
KANSLERİ ANGELA MERKEL
İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA
BƏYANATLARLA ÇIXIŞLAR

*8 iyun 2016-cı il...........................................................................................197*

AZƏRBAYCAN–ALMANİYA İQTİSADİ FORUMUNDA
İŞTİRAK

*8 iyun 2016-cı il...........................................................................................208*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI
ÜLYAHƏZRƏT II ELİZABETƏ

*8 iyun 2016-cı il...........................................................................................220*

ÇEÇENİSTAN RESPUBLİKASININ BAŞÇISI RAMZAN
KADIROVUN ŞƏXSİ NÜMAYƏNDƏSİ ADAM
DELİMXANOV İLƏ GÖRÜŞ

*8 iyun 2016-cı il...........................................................................................221*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN
ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI DİPLOMATİK
NÜMAYƏNDƏLİKLƏRİNİN VƏ BEYNƏLXALQ
TƏŞKİLATLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*8 iyun 2016-cı il...........................................................................................223*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*9 iyun 2016-cı il...........................................................................................228*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB III BENİQNO AKİNOYA

*9 iyun 2016-cı il*..........................................................................*229*

RUSİYA FEDERASİYASININ ƏDLİYYƏ NAZİRİ ALEKSANDR KONOVALOV İLƏ GÖRÜŞ

*9 iyun 2016-cı il*..........................................................................*230*

DÖVLƏT SƏRHƏD XİDMƏTİ SAHİL MÜHAFİZƏSİNİN İKİNCİ DƏRƏCƏLİ YENİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ İLƏ TANIŞLIQ

*13 iyun 2016-cı il*........................................................................*231*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*14 iyun 2016-cı il*........................................................................*234*

AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*15 iyun 2016-cı il*........................................................................*235*

«FORMULA ONE MANAGEMENT»İN PREZİDENTİ BERNİ EKKLSTOUN İLƏ GÖRÜŞ

*16 iyun 2016-cı il*........................................................................*236*

AVROPA XALQ PARTİYASININ BAŞ KATİBİ ANTONİO-LOPEZ İSTURİZ İLƏ GÖRÜŞ

*16 iyun 2016-cı il*........................................................................*238*

BELÇİKA KRALLIĞININ SENATORU, AŞPA KOMİTƏSİNİN SƏDRİ, AZƏRBAYCANDA İNSAN HAQLARI ÜZRƏ MƏRUZƏÇİ ALEN DESTEKSİ İLƏ GÖRÜŞ

*17 iyun 2016-cı il*........................................................................*239*

FRANSADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCANIN DOSTLARI ASSOSİASİYASININ PREZİDENTİ JAN

FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 iyun 2016-cı il*......................................................................................*240*

NOBEL SÜLH MÜKAFATI LAUREATI MƏHƏMMƏD YUNUS İLƏ GÖRÜŞ

*18 iyun 2016-cı il*......................................................................................*242*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*18 iyun 2016-cı il.........................................................................243*

BEYNƏLXALQ AVTOMOBİL FEDERASİYASININ PREZİDENTİ JAN TOD İLƏ GÖRÜŞ

*19 iyun 2016-cı il.........................................................................261*

«FORMULA-1» AVROPA QRAN-PRİSİNİN AÇILIŞI MƏRASİMİNƏ VƏ FİNAL YARIŞINA BAXIŞ

*19 iyun 2016-cı il.........................................................................262*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*20 iyun 2016-cı il.........................................................................267*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*20 iyun 2016-cı il.........................................................................268*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*20 iyun 2016-cı il.........................................................................269*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*20 iyun 2016-cı il.........................................................................270*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*20 iyun 2016-cı il.........................................................................272*

MAŞTAĞA–BİLGƏH YOLUNUN, NARDARANDAKI ABŞERON VƏ NƏSRULLA ƏSGƏROV KÜÇƏLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*21 iyun 2016-cı il*.....................................................................................*273*
NARDARAN QƏSƏBƏSİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*21 iyun 2016-cı il*.....................................................................................*276*

NARDARANDAKI «RƏHİMƏ XANIM» MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİ İLƏ TANIŞLIQ

*21 iyun 2016-cı il*.....................................................................................*284*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA

*22 iyun 2016-cı il*.....................................................................................*286*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ

*22 iyun 2016-cı il*.....................................................................................*287*

ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ BRİDCET BRİNKİ İLƏ GÖRÜŞ

*23 iyun 2016-cı il*.....................................................................................*288*

XƏTAİ RAYONUNDA HƏRBÇİLƏR ÜÇÜN İNŞA EDİLMİŞ BİNADA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*25 iyun 2016-cı il*.....................................................................................*290*

SİLAHLI QÜVVƏLƏRİN BAŞ QƏRARGAHININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 iyun 2016-cı il*.....................................................................................*300*
KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB DEVİD CONSTONA

*28 iyun 2016-cı il*.....................................................................................*302*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*29 iyun 2016-cı il*.....................................................................................*303*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RODRİQO DUTERTEYƏ

*30 iyun 2016-cı il*...........................................................................*304*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*30 iyun 2016-cı il*...........................................................................*305*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*1 iyul 2016-cı il*...............................................................................*306*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*4 iyul 2016-cı il*...............................................................................*307*

POLŞA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*7 iyul 2016-cı il*...............................................................................*309*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ
İŞLƏR NAZİRİ FRANK-VALTER ŞTAYNMAYER İLƏ GÖRÜŞ

*8 iyul 2016-cı il*...............................................................................*310*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA
İLƏ GÖRÜŞ

*8 iyul 2016-cı il*...............................................................................*311*

NATO SAMMİTİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*8 iyul 2016-cı il*...............................................................................*312*

ABŞ-ın DÖVLƏT KATİBİ CON KERRİ İLƏ GÖRÜŞ

*8 iyul 2016-cı il*...............................................................................*314*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*8 iyul 2016-cı il.........................................................................................315*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*8 iyul 2016-cı il.........................................................................................316*

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*8 iyul 2016-cı il.........................................................................................317*

NATO SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ ƏFQANISTANLA BAĞLI SESSİYADA İŞTİRAK

*9 iyul 2016-cı il.........................................................................................318*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ GÖRÜŞ

*9 iyul 2016-cı il.........................................................................................321*

NAZİRLƏR KABİNETİNİN 2016-cı İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*10 iyul 2016-cı il.......................................................................................322*

YEKUN NİTQİ

*10 iyul 2016-cı il.......................................................................................332*

MONTENEQRONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ

*11 iyul 2016-cı il.......................................................................................348*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*11 iyul 2016-cı il.......................................................................................349*

QEYDLƏR......................................................................................350

*Şəxsi adlar göstəricisi*......................................................................*376*

*Coğrafi adlar göstəricisi* ...................................................................*381*

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.